


SHAHLAR NIFTALIYEV OFFICIAL PAGE PDF / EPUB
AZ BOOK LIBRARY
FACEBOOK.COM/AZBOOKLIBRARY

Az Book Library

# Ziqmund Freyd

MUSA VƏ TƏKALLAHLILIQ

Tərcümə: Araz Gündüz

# Sigmund Freud

Moses and Monotheism

# MUSA VƏ TƏKALLAHLILIQ

“Musa və təkallahlılıq” kitabı məşhur avstriyalı psixoloq, psixiatr, psixoanalizin banisi Ziqmund Freydin sonuncu əsəridir. Freyd bu əsərində Bibliyada başlıca fiqur kimi tanınan, yəhudi xalqı üçün ilk qanunların və dinin yaradıcısı, onları Misir əsirliyindən qurtarmış böyük öndər sayılan Musanın əslən yəhudi deyil, misirli olmasını çoxsaylı tarixi qaynaqlara əsaslanmaqla və özünün yaratdığı psixoanalitik araşdırmalar metoduna əsasən sübuta yetirməyə çalışır. Freydə xas olan düşüncə genişliyi və dərinliyi, ardıcıl və güclü məntiq, habelə detektivsayağı qurulmuş süjet xətti, üstəlik, bütün bu hadisələrə psixoanalitik təhlillərlə yanaşılması, kitabı oxunaqlı edərək oxucunun yeni biliklər qazanmasına və düşüncəsinin yenilənməsinə xidmət edir.

# Sigmund Freud Moses and Monotheism

Ziqmund Freyd MUSA VƏ TƏKALLAHLILIQ
Bakı, Qanun Nəşriyyatı, 2016
Çapa imzalanmışdır: 16.04.2016
Tərcümə: Araz Gündüz
Redaktor: Könül Nəsibova

Korrektor: Reyhanə Nəcəfova
Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing
ISBN 9789952362039
© Qanun Nəşriyyatı, 2016
© Ziqmund Freyd, 1939
Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

# Moses and Monotheism

...1938-ci ilin payızında Freydin həyat enerjisi tükənmək üzrə idi. Enerjisinin son qalıqlarını məzmunu ilə bir partlayış effekti doğura biləcək sonuncu kitabına sərf etməyə çalışırdı. Bu, Freyddən öncə də dönə-dönə irəli sürülmüş, Musanın misirli olması ilə bağlı fərziyyədən bəhs edən üç esse və onlardan öncə yazılmış iki ön sözdən ibarət “Musa və təktanrılı din” adında bir kitab idi. Belə bir mübahisəli ideyanı araşdırmaq və doğrultmağa çalışmaq, bu işi görmək istəyənin kimliyindən asılı olmayaraq, ictimai mühitdə coşqun etirazlarla qarşılaşmaya bilməzdi; Freyd kimi özünün yəhudi olduğunu açıq-aydın vurğulayan birisinin belə bir əsər yazması isə intellektual dönüklük kimi də dəyərləndirilə bilərdi.

Freyd öz yəhudi kökünə ürəkdən bağlı olduğunu gizlətmirdi və onun bu duyğularına heç kim şübhə də etmirdi, elə buna görə də “Musa və təkallahlılıq” kitabı inanclı yəhudilər arasında da ona qarşı çox güclü narazılıq yaratmaya bilməzdi. Çox-çox illər əvvəl, yəhudi tanışı Maks Qrafın öz oğlunu xaç suyuna saldırıb xristian inancına gətirmək istədiyini eşidərkən Freyd ona çox kəskin bir məktub yazmışdı: “Siz öz oğlunuza yəhudi kimi böyümək imkanı verməsəniz, onu başqa heç bir qaynaqdan ala bilməyəcəyi bir gücdən məhrum etmiş olacaqsınız. Qoy o, həyatla bir yəhudi kimi döyüşsün, siz ona bunu bacara bilmək üçün ala biləcəyi gücün qaynağını tapmaqda kömək edin. Onun bu üstünlüyünü əlindən almayın”. 1909-cu ildə Freyd yəhudi mənşəli Karl Yunqa demişdi: “Karl Yunq özünün İoşua bin-Nun adı ilə psixoanalizin yaşayacağı münbit torpaqlarda yerini həmişəlik möhkəmləndirə biləcək, Freyd isə

əcdadı Musa kimi bu torpaqlara ayaq basa bilməyəcəkdir”. Freyd onu 70 illik yubileyinə görə təbrik edən Artur Şnitslerə yazırdı: “Mənim yəhudi olmağımla bağlı daşıdığım duyğular hələ də korşalmayıb”. Yenə də onu yubileyinə görə təbrik edən İsveçrə yəhudilərinin həftəlik “Yudişe pressen-sentrale” dərgisinə isə yazmışdı: “Mən həmişə mənsub olduğum xalqla qırılmaz tellərlə bağlı olduğumu yetərincə hiss etmişəm və öz uşaqlarımı da bu ruhda böyütmüşəm...” Ömrünün sonuna yaxın onu İngiltərəyə köçməsi münasibətilə təbrik edən “Yəhudi Elmi İnstitutunun” təbrikinə isə belə bir açıq cavab vermişdi: “Siz, sözsüz, yəhudi olmağımdan sevinc və qürur duyduğumu, habelə bunu diqqətə çatdırmaqdan çəkinmədiyimi bilməmiş deyilsiniz, ancaq buna baxmayaraq, mənim bütün dinlərə, o cümlədən yəhudi dininə də münasibətim olduqca pisdir”.

Hitlerin hakimiyyətə gəlməsi və onun yəhudilərin insanlığın ziyan verən və yamanlığa qulluq edən bir soyu olması ilə bağlı bəlli nəzəriyyəsinin ortaya çıxması Freydi yəhudiliklə əlaqədar baxışlarını yenidən dəyərləndirməyə, öz xalqının tarixi inkişaf yoluna dərindən yanaşmağa və yəhudilərin ardıcıl olaraq izlənib sıxışdırılmasının səbəblərini araşdırmağa yönəltmiş oldu. Bu sorğulara cavab olaraq Freyd Musanın fironların rəsmi dini ilə müxaliflik edən misirli olması və öz yan-yörəsinə ardıcıllar toplayaraq onları Misirdən uzaqlaşdırması ilə bağlı fərziyyəni yenidən gündəmə gətirdi. Bu kitab haqqında o bir dəfə Arnold Sveyqə demişdi: “Yeni əsərim “Musa” adlı “tarixi roman” olacaq”. Ancaq Freyd ona bu kitabın, görünür, heç vaxt çap oluna bilməyəcəyini də çatdırmışdı. Freyd kitabın çapının qeyri-mümkünlüyünü isə yaşadığı Avstriyanın katolisizm inancında olması və belə bir kitabı katoliklərin özlərinə təhqir hesab edəcəkləri ilə əsaslandırmışdı. İkincisi də, psixoanalizin banisinin belə bir kitab yazması bu nəzəriyyənin Avstriyada bütünlüklə yasaqlanmasına gətirib çıxara bilərdi.

Bu danışıqdan bir neçə həftə sonra Freyd Sveyq və Eytinqtona yazdığı məktublarında kitabı çap etdirmək istəməməyinin başqa bir ciddi səbəbini göstərmişdi. Burada o öz araşdırmalarını tarixi baxımdan yetərincə əsaslandıra bilmədiyini göstərirdi. Freyd yazırdı: Tarix üzrə mütəxəssislər çox asanlıqla məni bir cızma-qaraçı kimi sıxışdıra və yazdıqlarımı gözdən sala bilərlər”. Sveyqə məktubunda isə bu işi dayandıracağını bildirirdi: “Beləliklə də, elə ən yaxşısı bu riskli işi bir kənara qoymaqdır”.

Ancaq Freyd bu işi çox uzun müddət kənara qoya bilmədi və dediyinə görə, bu mövzu “məzarda rahatlıq tapa bilməyən gəzərgi bir ruh kimi” gecə-gündüz onu izləyib əzab verirdi. 1937-ci ildə Freyd bu mövzuya yenidən qayıdır və kitabın əsasını təşkil edən üç məqalədən ikisini yazıb özünün nəşr etdiyi “İmaqo” jurnalında çap etdirir. Birinci məqalədə o yenidən Musanın misirli olması ilə bağlı olduqca sadə bir tezis irəli sürürdü, ikinci məqalədə isə (“Əgər Musa misirli olmuşsa”) irəli sürdüyü birinci tezisə əsaslanaraq Bibliya mətnlərini özünəməxsus bir metodla araşdırırdı. İşıq üzü görən ilk iki esse səs-küy yaradacaq bir gücdə olardı, ancaq Freyd bu esselərdə başlıca məqsədindən yan keçərək özünün əsas ideyalarını və onlarla bağlı təhlillərini çox geniş olan üçüncü essedə vermişdi. Freyd bu üçüncü essesi ilə bağlı yazırdı: “Essedə yazdıqlarımı tənqid etmək üçün geniş meydan vardır və mənim monoteist (təktanrılı) dinlərin, ümumiyyətlə, dinlərin mənşəyilə bağlı gəldiyim nəticələri bütün

aydınlığı ilə üzə çıxardığı üçün bu esse olduqca qorxuludur". Məhz bunlara görə də, Freyd esseni gizlin saxlayaraq üzə çıxarmamış və görünür, onu nə vaxtsa çap etdirəcəyini düşünməmişdir.

Kitabın ilk iki başlığını "İmaqo" jurnalı üçün redaktə edərkən Freyd üçüncü essenin də üzərində işləmiş və 1938-ci ilin başlanğıcında onu tamamlamışdı. Bu əsərdə Freydin çoxdan vurğunu olduğu bir ideya gizlənmişdi, onun hələ çox öncələr "Totem və tabu" əsərində irəli sürdüyü: "Din kollektiv nevrozdur və onun insanlar üzərindəki ağlagəlməz hökmü də nevrozun ondan əziyyət çəkən insanlar üzərindəki hökmü kimidir" ideyasının daha da tutarlı və geniş ifadəsi bu essedə bütün dolğunluğu ilə göstərilmişdi. Freyd kitaba yazdığı ön sözdə bu üçüncü başlıqda hansısa yeniliyin olmadığını qeyd etsə də, əslində, burada onun dinlə bağlı baxışları "Totem və tabu" əsərindəki baxışlarından qat-qat kəskin olması ilə seçilirdi. "Totem və tabu" əsərində o, çox uzaq tarixi keçmişdə dinin necə yaranmasından danışırdı, burada isə bir zərbə ilə yəhudi dininin və xristian kilsəsinin özülünü sarsıdacaq bir iş görmüşdü. Freyd bu əsərinin hələ o zamanlar Avstriyanı zəbt etməmiş Hitlerin işinə yarayacağından da çəkinərək yazırdı: "Artıq az-çox razılığa gəlib barışıq içində yaşaya bildiyimiz köhnə düşmənə (katolisizmə) baxanda yeni düşmən (Hitler) qat-qat qorxuludur və mən bu əsərimlə ona yardımçı olmaq istəməzdim". Ona görə də, bu əsərin içindəki ən kəskin məqamın gizli saxlanılması yalnız köhnə düşməni – katolik kilsəsini qıcıqlandırmamaq üçün idi. Məhz bu səbəbdən də, Freyd "Musa və təkallahlılıq" əsərinin sonuncu hissəsinin heç bir təhlükəyə məruz qalmadan duymadan işıq üzü görə biləcəyi zamanlara kimi gizlin qalmasını, ya da gələcəkdə kiminsə eynilə bu ideyalara gəlib çıxmasından sonra "sən demə, o uzaq və qarmaqarışıq günlərdə də mənim etdiklərimi bacara bilmiş bir insan yaşamışdır" deməsi ilə üzə çıxmasını istəyirdi.

Ancaq Avstriyanın Almaniyaya birləşdirilməsi və Freydin İngiltərəyə köçməsindən sonra vəziyyət kökündən dəyişdi və Freyd bununla bağlı yazırdı: "İngiltərəyə köçdüyüm ilk günlərdən başlayaraq yeni əsərimdə gəldiyim nəticələrlə bütün dünyanı tanış edə bilmək düşüncəsi məni yenidən bürüdü və mən üçüncü esseni yenidən işləyib onu çap olunan o biri iki esse ilə uzlaşdırmaq üzərində düşünməyə başladım". Freydin kitaba yazılmış ikinci ön sözdə bildirdiyi kimi, üçüncü essenin üzərində işləsə də, bu hissəyə özündən əvvəlki iki esse kimi bədiilik donu geyindirə bilməmişdi. Buna baxmayaraq, essenin yəhudiliyin mahiyyətini aydınlaşdırmaqda çox böyük dəyəri olduğu danılmaz idi və Freydin belə bir əsəri ortaya çıxarmaqla bağlı planı bəlli olan kimi çoxlu yəhudi alimləri ( o cümlədən, həmin çağlarda Bibliyanın ən güclü bilicisi sayılan professor Yəhuda da bunların arasında olmuşdu) Freydin görüşünə gəlmiş, onu bu əsəri çap etmək fikrindən daşındırmağa çalışmışdılar.

Freyd bu əsəri çap etməklə üzərinə necə ağır bir məsuliyyət götürdüyünü anlayaraq Çarlz Zingerə məktubunda yazırdı: "Bu əsərimlə öz xalqımı azacıq da olsa belə, alçaltmağa çalışmamışam. Ancaq nə edə bilərəm? Mən bütün ömrümü elmi gerçəkliklərin araşdırılmasına və üzə çıxarılmasına həsr etmişəm, hətta bu iş mənim özümə və ardıcıllarıma təhlükə törədəndə belə, bundan çəkinməmişəm. Ömrümü indiyədək gördüyüm işləri inkar etməklə bitirə bilmərəm".

O bərk tələsirdi. Artıq Amsterdamda kitabın almanca nəşri üçün razılaşsa da, arvadı bu kitabı ingiliscəyə tərcümə edən Ernst Consa arası kəsilmədən məktublar yazır və tərcümə işini tez qurtarmaqda təkid edirdi. Onu kitabı çap etdirməkdən çəkindirən amilin Avstriyada psixoanalizin taleyi ilə bağlı qorxunun olması, bu işdə yəhudiləri özünə qarşı qaldıracağından azacıq da olsa, qorxmadığını xatırlamaqla yanaşı, Freydin "Yəhudi Elmi İnstitutunun" prezidenti Yakob Meytlislə görüşdə dediyi sözlər onun bu baxımdan gəldiyi qənaətlərini bütün aydınlığı ilə nəzərə çarpdırmaqdadır. Bütün yəhudi icmasının Freydin düşüncələrini öyrənmək yanğısını dilə gətirmiş qonağını çox da gözlətmədən Freyd özünün təktanrılı dinlə bağlı nəzəriyyəsini açıq şəkildə ona danışmışdı. Bununla bağlı Yakob Meytlis yazırdı: "O, dinlərin heç birinə hörmətlə yanaşmır. Onun düşüncəsinə görə, bütün dinlər insanlar tərəfindən yaradılmışdır və bu inanclarda heç bir müqəddəslik yoxdur. Freyd elmin vəzifəsinin bu gerçəkliyi insanlara çatdırması və mənəvi təkamülü keçmişdən qalma bütün bu yad elementlərdən təmizləyib doğru yola yönəltməkdə görür. O bu işə görə çoxluğun nifrətini qazanacağını yaxşı anlayır. Ancaq buna baxmayaraq, kitabının tezliklə işıq üzü görəcəyindən çox məmnundur. Özü də "bu kitabının yəhudiləri incidəcəyini bildiyini" deyir".

"Musa və təkallahlılıq" 1939-cu ilin martında Amsterdamda alman dilində çapdan çıxdı və Freyd bu kitabın ona göndərilmiş nüsxələri ilə bağlı Hans Zaxsuya yazırdı: "Bu gün buraya iki nüsxə "Musa" gəlib çıxdı. Düşünürəm, artıq bundan sonra ləyaqətlə dünyadan köçəcəyimi deyə bilərəm". Ancaq Sveyqə (o cümlədən, daha bir neçə ürək qızdırdığı adamlara) yazdığı məktublarda bu kitabı yəhudilərin çox ağır çətinliklərlə üzləşdiyi bir çağda çap etdirdiyinə görə dərindən təəssüfləndiyini də yazıb: "Onların hər şeydən məhrum olunduğu bir vaxtda mən də onların əlindən ən böyük hesab etdikləri bir adamı aldım".

"Musa və təkallahlılıq" kitabı işıq üzü görən kimi inanclı yəhudilərdən başqa, çox geniş bir çevrədə də Freydin bu əsərini onun ən uğursuz elmi işlərindən biri kimi qiymətləndirməyə başladılar. Bunun başlıca səbəbi Freydin kitabının, bəlli səbəblərdən, çox qarmaqarışıq bir quruluşda tərtib etməsi olmuşdu: kitabın bölmələrinin ayrı-ayrı vaxtlarda yazılması, dönə-dönə redaktə edilməsi, sonradan aparılan artırmalar əsəri xaotik bir quruluşa gətirib çıxarmışdı. Freydin çox yaşlı olmasının da bütün bunlara təsiri vardı... Qəribədir ki, kitabın başlıca hissələri bioloqların tənqidinə yetərincə dözümlü olmasa da, Bibliya tərəfdarlarının qınaq və tənqidləri qarşısında çox möhkəm duruş gətirməyi bacarmışdı. Bioloqların tənqid hədəfi isə Freydin burada irsiyyətlə bağlı Lamarkın nəzəriyyəsindən yararlanması və yəhudilərin yüzilliklər boyunca nəsildən-nəslə ötürülən özünü günahkar sayma duyğusunun səbəbini bu nəzəriyyə ilə əlaqələndirməyə çalışması olmuşdu.

Kitab çap olunarkən Freydin ölümünə vur-tut 6 ay qalmışdı... 1939-cu ilin sentyabr ayı boyunca onun vəziyyəti dayanmadan ağırlaşırdı. Artıq demək olar, nə yemək yeyə, nə su içə, nə də yata bilirdi[1]. 21 sentyabrda 11 il ərzində onun şəxsi həkimi olan Maks Şur Freydin çarpayısının yanında oturarkən Freyd ona dedi: "Əzizim Şur, yəqin, mənim sizinlə olan ən birinci söhbətimi unutmamsınız. Siz o vaxt ömrümün sonu gəlib çatanda məni yalqız və köməksiz qoymayacağınıza söz

vermişdiniz. İndi mənim həyatımda əzab çəkməkdən başqa bir şey qalmamışdır və mən artıq yaşamağımda bir anlam görmürəm”.

Şur Freydin yanında həkimliyə başlayarkən etdiyi həmin söhbəti unutmamışdı... Sonradan o yazırdı: “O yenidən huşunu itirəndə mən ona iki amplua morfi vurdum. Bundan sonra yüngülləşdi və dərin yuxuya getdi. On iki saat sonra o hələ yuxuda ikən mən ona bir də eyni dozada morfi vurdum. Freydin həyat enerjisi tükəndiyindən bu dozadan sonra o komaya düşdü və bir daha ayılmadı. O, 1939-cu ilin 23 sentyabrında səhər saat üçdə keçindi...”

Ronald Klark
“Freyd bir insan və yaradıcı
şəxsiyyət kimi” kitabından bir parça

1 1923-cü ildə Freydin ağız boşluğunda xərçəng xəstəliyi tapılmışdı və bununla bağlı o, 33 çox ağır cərrahi əməliyyat keçirmişdi. Sonuncu belə, əməliyyat Freyd 83 yaşında ikən Londonda, 1939-cu ilin avqust ayında baş tutmuşdu.

# I

## MUSA MİSİRLİDİR

Özünün də mənsub olduğun bir millətin ən adlı-sanlı və böyük sayılan bir oğlunun milli kimliyini şübhə altına almağa dəyərmi? Ancaq hansısa vəziyyətin gerçək dəyərini aydınlaşdırmağa bizim biliklərimizin gücü yetmirsə, onda heç bir duyğu məni, həqiqəti yalançı milli maraqlara qurban verməyə sürükləyə bilməz.

Yəhudi xalqının xilaskarı, ilk qanun yaradıcısı və birinci inanc müəllimi sayılan Musa adlı adam çox-çox uzaq bir keçmişdə yaşadığından, istər-istəməz, belə bir sual verməkdən özünü çəkindirə bilmirsən: görəsən, doğrudanmı, belə bir tarixi şəxsiyyət olub, yoxsa bu əfsanəvi bir qəhrəmandır? Belə bir adam, doğrudan da olubsa, onda o bizim eradan əvvəl XIII, ya da, ola bilsin, XIV yüzillikdə yaşamalı idi; ancaq bu məlumatları dəqiqləşdirə bilmək üçün bizim əlimizdə yəhudilərin müqəddəs kitabından və xalqın öz yaranma tarixi ilə bağlı bu günə gəlib çatan yazılardan başqa bir qaynaq yoxdur. Bütün bunlara görə də, baş verdiyi iddia edilən tarixi olaylar və Musanın özü ilə bağlı məlumatları sonadək dəqiqləşdirmək olmasa da, tarixçilərin böyük əksəriyyətinin mülahizələrinə görə, doğrudan da, tarixdə Musa adlı bir adam olmuşdur və onun yəhudiləri Misir əsirliyindən qurtarması da gerçəkliyə uyğundur. Yenə də tarixçilərin sözlərinə görə, bu hadisələrin baş verdiyini inkar etmək İsrail xalqının sonrakı tarixini bütünlüklə anlaşılmaz bir kökə salır. Bundan başqa da, çağdaş elm artıq çox ehtiyatlı olmağa başlamışdır və keçmişdən bu günümüzə gəlib çatan məlumatlara münasibətdə yeni araşdırmaların nəticələrindən çox, artıq oturuşmuş biliklərə daha inamla yanaşır.

Musanın şəxsiyyəti ilə bağlı bizi ən çox maraqlandıran onun əski yəhudi dilində Moşe kimi səslənən adıdır. Elə bilirəm, soruşmağa dəyər: bu ad necə yaranıb? Onun anlamı nədir? Bəlli olduğu kimi, bu sorğumuzun cavabı “Çıxış” kitabının ikinci başlığında verilib. Orada yazıldığına görə, səbətə qoyularaq Nil çayına buraxılmış körpə Musanı tapan Misir fironunun qızı onu “sudan çıxarılmış” mənasını verən “Moşe” adlandırmışdır. Ancaq bu yozum yetərincə inandırıcı görünmür. Bununla bağlı olaraq “Yəhudi Sözlüyünün” müəllifi yazır: “Musanın adının Bibliyada “sudan çıxarılmış” kimi yozulması xalq arasında gəzən əfsanələrə uyğun olaraq yaranmışdır və bunu əski yəhudi dilinin deyiliş qaydalarına uyğunlaşdırmaq mümkün deyildir, “Moşe” sözü bu dildə, uzağı, “çıxaran” kimi bir anlam daşıya bilərdi”. Müəllifin etirazı indi dediyimiz bu dəlillərin əsaslandırılmasına kömək edir: birincisi, Misir fironunun qızının Musa üçün əski yəhudi dilində ad düşünüb tapması gülünc görünür, ikincisi isə, körpənin çıxarıldığı iddia edilən çay Nil deyildir.

Əksinə, müxtəlif mütəxəssislər çoxdandır, “Musa” adının Misir dilindən götürülmə bir söz olduğunu ehtimal edirlər. Bütün bu müəlliflərin adlarını və dediklərini uzun-uzadı sadalamaqdan qaçmaq üçün “Misirin Tarixi” adlı fundamental kitabı ilə elmi çevrələrdə çox yaxşı tanınmış C.N.Brestidin (Breasted) bununla bağlı dediklərinə baxaq: “Burada qarşılaşdığımız “Musa (Mozes)” adı ilə çağırılan öndərin adının Misir dilindən götürülməsi diqqəti çəkir. Bu ad Misir dilində “körpə” anlamı verən “moze” sözündən yaranmışdır və burada o, qısaldılmış şəkildə işlədilir, onun bütöv forması isə misirlilərin arasında “Amon-moze”, “Pta-moze” kimi işlənmiş, “Amonun oğlu”, “Ptanın oğlu” kimi anlaşılmış və “Amonun bağışladığı körpə” və ya “Ptanın bağışladığı körpə” deyiminin qısaldılmasından yaranmışdır. Görünür, buradakı uzun ifadənin yerinə “oğul” sözünü işlətmək daha asan olduğundan belə etmişlər və qədim Misir abidələrinin çoxunda “moze” kimi işlənmiş adlarla çox tez-tez qarşılaşmaq mümkündür. Çox güman ki, Musanın atası oğluna tanrılardan Amon və ya Ptanın şərəfinə bir ad qoymuş, gündəlikdə isə tanrı adlarını işlətmədən onun oğlunu “Moze” deyə çağırmışlar, “Mozes” adı isə Bibliyanın yunan dilinə tərcüməsi zamanı onun qanunlarına uyğun olaraq yaranmışdır”. Mən müəllifin yazdıqlarını olduğu kimi diqqətinizə çatdırıram və onun bu dediklərinin məsuliyyətini boynuma götürmədiyimi də vurğulamaq istəyirəm. Ancaq bir şeyə görə təəccüblənməyə bilmirəm, nə üçün Brestid tanrılarla bağlı verdiyi örnəklərdə başqa tanrıların adını işlətməklə yaranan Ax-moze, Tut-moze (Tutmos) və Ra-moze (Ramses) kimi Misir fironlarının adını çəkməmişdir?

Musanın adının Misir dilindən götürüldüyünü deyən çoxsaylı müəlliflərdən, heç olmasa, bir neçəsinin bu misirli adını daşıyan adamın elə özünün də misirli olacağını deməsini gözləmək olardı. Çağdaş günümüzdə insanların artıq iki ad daşımasına baxmayaraq, (soyadları da adlarına qoşulur, habelə ad və soyadların assimilyasiya olunması faktları da yetərincədir) biz yenə də çox vaxt insanların ad və soyadlarına görə milli kimlikləri ilə bağlı mühakimə yürütməyə üstünlük veririk. Ona görə də yazıçı Şamissonun fransız, Napoleon Bonapartın italyan mənşəli olması bizi təəccübləndirmir, yaxud da Bencamin Dizraelinin adına baxıb onun italyan yəhudisi olduğu qənaətinə gəlirik. Ona görə də o uzaq keçmişdə yaşamış kiminsə adına baxıb onun milli kimliyini təyin etmək daha çox ağlabatandır və belə bir uyğunluq o çağlar

üçün qaçılmaz olmuşdur. Ancaq çox qəribədir, həmin vaxtları araşdıran tarixçilərdən heç biri, hətta Brestid sayağı "Musa misirlilərin qazandıqları müdrikliyi çox dərindən bilirdi" söyləyən tarixçilər də Musanın adı ilə onun milli kimliyi arasında bu cür asılılığın ola biləcəyini deməmişlər.

Belə bir araşdırma aparılmasına nəyin mane olduğunu dəqiqliklə demək mümkün deyil. Ola bilsin, bunun səbəbi Bibliyanın bizə çatdırdığı məlumatlara bəslənən dərin və sarsılmaz inam, ya da müqəddəs kəlamlara qarşı çıxmaq qorxusu olmuşdur. Görünür, bu mütəxəssislər Bibliyadakı Musa adlı və kimliyi müqəddəs sayılan adamın yəhudi deyil, başqa bir millətdən olmasının çox qorxunc görünə biləcəyindən çəkinərək buna ürək etməmişlər. Hər halda, indiyədək olan araşdırmalarda Musanın adının Misir dilindən götürülməsini qəbul etmək onun milli kimliyinin müəyyənləşməsində həlledici amil sayılmamış və əhəmiyyətli hesab edilmədiyi üçün buna əsaslanaraq hansısa köklü bir nəticə əldə edilməmişdir. Biz isə bu böyük insanın milli kimliyinin müəyyənləşməsinin çox vacib olduğunu düşünürüksə, deməli yeni qaynaq və məlumatlara üz tutmalıyıq.

Mən diqqətinizə çatdırdığım bu kiçik əsərimdə məhz buna çalışıram. Bu yazının əvvəlcə mənim nəşr etdiyim "İmaqo" jurnalında işıq üzü görməsi isə onun tətbiqi psixoanalizlə bağlı araşdırmalar sırasında olması ilə əlaqədardır. Bu yolla aparılan araşdırma və tapılan sübut isə, sözsüz, yalnız psixoanalitik düşüncə tərzinə malik və psixoanalizin nəticələrini dəyərləndirməyi bacaran azsaylı oxucular üçün tamamilə aydın olacaqdır. Ümid edirəm, belə oxucular tapılacaq və bu əsər onlar üçün maraqlı olacaq.

O.Rank hələ mənim təsirim altında olarkən 1909-cu ildə elə mənim təşəbbüsümlə "Qəhrəmanların doğulması haqqında mif" adlı bir kitab çap etdirmişdi. Burada həmin kitabdan bir parçanı diqqətinizə çatdırmağı məqsədəuyğun hesab edirəm: "Böyük mədəniyyət qura bilmiş xalqların, demək olar, hamısı... öz keçmişində yaratdıqları epik əsər və əfsanələrdə öz igidlərini, əfsanəvi kral və əyanlarını, din, sülalə və imperiya yaradıcılarını bilərəkdən olduqlarından qat-qat möhtəşəm göstərməyə çalışmışlar. Əsasən də, bu insanların doğulmasını və uşaqlıq çağlarını fantastik bəzək-düzək vurmaqla şişirtmişlər. Bu cəhət bir-birindən çox uzaqda və fərqli mühitlərdə yaşayan xalqlar arasında təəccüb doğuracaq dərəcədə oxşar və az qala, eyni motivlərlə üzə çıxmışdır, əslində, bu, insanlara çoxdan bəllidir və indiyədək əksər araşdırma mütəxəssislərinin diqqətini cəlb etmişdir". Rankın dediyi bu sözlərə Haltonun "əfsanələrin ortaq xüsusiyyətləri" barədə yaratdığı metodla yanaşsaq, onda belə bir qənaətə gəlib çıxırıq: "Xalqın əfsanəyə çevirdiyi igid çox adlı-sanlı ailədə, çox vaxt da kral ailəsində doğulur. Onun doğulması uzun müddət hansısa maneə ucbatından gecikir: ya sonsuzluq, ya da valideynlərinin cinsi münasibətini əngəlləyən hansısa gizli və ya açıq məhdudiyyətlər səbəbindən igidin doğulması çox sonradan baş verir. Anası hamilə olarkən, bəzən də, bundan əvvəl onun doğulmasından xəbər tuturlar (yuxu, ya da gələcəkdən xəbər verən hansısa baxıcının dili ilə) və bununla bağlı hansısa qorxulu bir vəziyyətin (əksər hallarda da onun atasına qarşı) yaranacağı da bəlli olur.

Buna görə də yeni doğulmuş körpə onun atası, ya da atasını əvəz edən şəxs tərəfindən ya öldürülməyə, ya da yiyəsiz bir yerə atılmağa məhkum olunur; bu zaman, adətən, çağanı başdan eləmək üçün onu qutuya qoyub axar suya buraxırlar.

Sonra körpəni ya hansısa heyvan, ya da sadə bir adam (ən çox da çoban) tapır və birinci halda onu dişi heyvan, ikinci halda isə sadə və yoxsul bir qadın əmizdirir.

Yaşa dolduqdan sonra o, kəşməkəşli yollar keçərək özünün adlı-sanlı valideynlərini tapır, onu öldürmək istədiyi üçün çox vaxt atasından qisas alır və mənsub olduğu ocağın övladı kimi qəbul olunaraq böyük ad-san qazanır".

Doğulması belə bir miflə bağlı tarixi şəxsiyyət – e.ə. 2800-cü ildə yaşamış Babil dövlətinin qurucusu Akkadlı Sarqonun öz dilindən verilmiş və bu günümüzə gəlib çatmış bu məlumatı xatırlatmaq, məncə, çox yerinə düşür: "Mən Sarqonam, Akkadın kralı olan yenilməz bir hökmdaram. Anam məbəddə kahinlik edərdi, atamın kim olduğunu bilmirəm, ancaq onun qardaşının dağlarda yaşadığını eşitmişəm. Fərat çayının sahilində yerləşən Açupirani şəhərində yaşayan anam orada mənə hamilə qalmışdı. O məni gizlində doğmuşdu. Sonra qamışdan bir səbət hörmüş onu qatranla suvayıb məni onun içinə qoyaraq böyük çayın axınına buraxmışdı, mən isə çayda batmayıb sağ qalmışdım. Suyun axarı məni Akki adında bir adamın yanına gətirib çıxarmışdı, Akki çaydan su daşıyıb satmaqla dolanırdı və xeyirxah bir insan olan Akki məni sudan çıxarıb öz doğma oğlu kimi tərbiyə edib böyütdü. Sonra sudaşıyan Akkinin həyətində bağban oldum. Onun yanında bağban işləyəndə ilahə İştar mənə vuruldu, ilahənin istəyilə kral oldum və indi artıq 45 ildir ki, hakimiyyətdəyəm".

İlk nümunəsini Akkadlı Sarqonla bağlı gördüyümüz belə miflər sonradan bir çox adlı-sanlı insanların doğulması və qəhrəmanlığa yüksəlişi ilə haqqında da yaradılmışdı, onlardan daha çox tanınanları Musa, Kir və Romuldur. Rank adını çəkdiyimiz kitabında bu tanınmışların sırasına daha bir neçə epik və ya əfsanəvi qəhrəmanlar da artırmışdı, onların sırasında Edip, Karna, Paris, Telef, Persey, Herakl, Gilqamış, Amfion, hətta Zevs də vardı.

Belə miflərin qaynaqları və inkişaf yönləri bizə Rankın apardığı araşdırma və onlarla bağlı çıxardığı nəticələrdən yaxşı bəllidir. İndi mən onun topladığı bu materialların bəzilərini götürüb gözə çarpan bəzi özəllikləri ayırd etmək istəyirəm. Bu miflərdə igid kimi tanıdılan adam çox vaxt öz atasına qarşı üsyana qalxır və savaşının sonunda ona qalib gələrək ad-sanını ucaldır, gələcəkdə qəhrəmana çevriləcək adamın doğulduğu andan başlayaraq başına gələnlər izlənilir, onun necə doğulması, atasının istəyi ilə suya atılması, sonra kiminsə onu sudan tapıb çıxarması ilə bağlı ətraflı danışılır. Burada ən çox diqqət cəlb edən cəhət onun həmişə öz atasının şərə qulluq edən iradəsinin əksinə olaraq sağ qalması və sonra qarşılaşdığı bütün şər qüvvələrə qalib gəlməsidir. Sözsüz, qutunun suya atılması doğulmanın simvollaşdırılmasıdır, qutu ana bətnini, su isə doğuş zamanı ana bətnindən axan suyu ifadə edir. Elə əksər yuxu yozmalarında da uşaqla onun valideynləri arasındakı münasibətlər sudan çıxarılma və ya xilas edilmə kimi göstərilir və bu da elə doğumun simvollaşdırılmasından başqa bir şey deyil. Burada xalq fantaziyası bəlli simvolla bağlı hadisələri daha da dramatikləşdirməklə qəhrəmanın gələcək igidlikləri üçün zəmin hazırlayır. Belə eposlarda üzə çıxan miflərin əsasında "ailə dramı" dayanır və hadisələrin gedişatını yönəldən də uşağın böyüdükcə dəyişən emosiyaları olur, bu

emosiyalar isə oğlan uşaqlarında, əsasən, atalarına qarşı qıcıqlandırıcı duyğulardan yaranır. Uşaqlığın ilk illərində ata-ananın həddindən artıq dəyərləndirilməsi onları uşağın gözündə çox ucaltdığından, görünür, yuxu və nağıllardakı bu kral və kraliça uşağın öz ata-anasından başqa birisi deyil. Ancaq yaşa dolduqca oğlan uşaqlarında öz atalarına qarşı yaranan intiqam hissi onlar arasındakı münasibətləri olduqca gərginləşdirir və ailədən ayrılma duyğusunun güclənməsinə gətirib çıxarır. Ona görə də miflərdə biri adlı-sanlı və varlı, o biri sadə və yoxsul iki ailə olmaqla, fərqli emosiyalar mühiti yaranır və bu ikiləşmə uşağın körpəlik və yeniyetməlik çağlarına uyğun olaraq törəyir.

Belə bir təhlilə əsaslansaq, gələcək qəhrəmanın doğulması ilə bağlı mifin necə yaranması, yayılması və bu miflərin nə üçün bir-birinə bənzəməsi də aydın olur. Bizim baxdığımız durumda Musanın doğulması və öldürülmək üçün atılması həmin miflərdən bir cəhətinə görə çox fərqlənir və onun başına gələnlərin digər bu kimi miflərlə ziddiyyət yaratması bizi maraqlandırmaya bilməz.

Biz qəhrəmanın doğulduğu və böyüdüyü iki ailənin özünəməxsus bir ailə olduğu və onları yalnız zaman kəsiyinin bir-birindən ayırdığını psixoanalitik araşdırmalarımızdan bilirik. Qəhrəmanların doğulması və böyüməsilə bağlı tipik əfsanələrdə onun, adətən, varlı və adlı-sanlı ailədə, ən azı, hansısa kralın yaxın adamlarından birinin ailəsində doğulduğu bildirilir; sonra isə qəhrəman atıldığı üçün yoxsul və sadə bir ailəyə düşüb burada boya-başa çatır, bütün bunlar isə psixoanalitik təhlillə açıqlanır. Yalnız Ediplə bağlı əfsanədə bu mifin gerçəkləşməsində fərq yaranır. Burada bir kral ailəsinin atdığı körpə özünə başqa bir kral ailəsində sığınacaq tapır. Bax elə bu əfsanədə də körpənin doğulduğu və qovulduğu ailə ilə onun sonradan sığınacaq tapdığı ailənin eyni olduğu üstüörtülü şəkildə olsa da, aydınlaşır. İki ailənin sosial baxımdan bir-birilə qarşılıqlı əksliyi qəhrəmanın öz adiliyindən qeyri-adiliyə ucala bilməsini göstərmək üçündür və bu da tarixi şəxsiyyət üçün ən vacib xüsusiyyətlərdən biri sayıldığına görə ortaya çıxmışdır. Bu qarşılıqlı əkslik, habelə qəhrəmanın sıravi bir insan olmaqdan çıxıb aristokratik status qazanmasını bildirmək üçün də ola bilər. Məsələn, midiyalılar üçün yadelli və işğalçı sayılan Kirə belə bir status qazandırmaq üçün əfsanədə o, Midiya kralının nəvəsinə çevrilir. Elə Romulla da buna oxşar hadisə baş verir; belə bir adam, doğrudan da olsa idi, onda o, əslində, avantürist və özünü xalqa sırıyan yadelli kimi görünərdi, ancaq əfsanə onu "yaraşığa mindirmək" üçün bu adamın soykökünü xalqın tanıdığı və boyun əydiyi Alba Lonq kral ailəsinə bağlayır.

Musanın misalında isə məsələ tamam fərqlidir. Burada birinci ailə də yetərincə tanınmış və imkanlıdır. O, yəhudi ruhanisinin ailəsində doğulmuşdur. Ancaq adətən, miflərdə qəhrəmanın böyüməli olduğu ikinci yoxsul ailə burada Misir fironunun ailəsi ilə əvəzlənmişdir; Misir fironunun qızı çayda üzən səbətdəki Musanı tapıb sudan çıxarır və onu oğulluğa götürür. Miflərin, az qala, hamısı üçün xarakterik mövzudan kənaraçıxma çoxlarını təəccübləndirir. Əvvəlcə Edvard Meyer, onun ardınca başqa tarixçilər bu əfsanənin ilkin variantının fərqli olduğu fikrini irəli sürdülər, onların sözlərinə görə, ilkin variant belə idi: əslində, firon yuxusunda qızından doğulacaq oğlan nəvəsinin özü və imperiyası üçün böyük təhlükə olacağını öyrənir və doğulmuş körpəni səbətə qoyub Nil çayına atdırmışdı. Ancaq yəhudi millətindən olan birisi

uşağı taparaq sudan çıxarmış və onu öz oğlu kimi böyütmüşdü. Yuxarıda adını çəkdiyimiz tarixçi Rankın sözlərinə görə, "milli maraqlara" görə sonradan bu əfsanəni dəyişib indi bizə çatan formaya salmışdılar.

Ancaq bununla bağlı ardıcıl düşünən zaman Musa ilə bağlı indi əlimizdə olan əfsanənin başqa ilkin variantlarının olmadığı qənaətinə gəlirsən. Bu əfsanəni isə ya misirlilər, ya da yəhudilər yaratmışlar. Birinci variant inandırıcı deyil, misirlilər Musanı qəhrəman saymırdılar və buna görə də onun ad-sanını ucaltmaq üçün əfsanə uydurmağa da ehtiyacları yox idi. Onda belə çıxır, əfsanəni yəhudi xalqı yaratmış və əfsanənin bəlli forması da onların özlərinə başçı saydıqları bu adamla bağlı olaraq yaranmışdır. Burada Musanın misirli olması onu bu əfsanənin qəhrəmanına çevirə bilməzdi, axı heç bir xalq hansısa yadellini öz başçısına çevirən əfsanə yaratmaz.

Psixoanalitik metodla yanaşdıqda, Musa haqqında bu günümüzə gəlib çatan əfsanənin özünün gizli niyyətini doğrulda bilmədiyi diqqəti cəlb diqqəti cəlb edir. Musa firon soyundandırsa, onda əfsanə onu qəhrəman kimi tanıda bilməzdi, yox o, milliyyətcə yəhudidirsə, bu zaman əfsanə onun ad-sanını ucaltmaq üçün heç nə edə bilmir. Əfsanənin yalnız bir hissəsi qəhrəmanlar üçün yaradılmış bu sayaq miflərlə uyğun gəlir, bu da bütün şər qüvvələrin cəhdlərinə baxmayaraq, körpənin sağ qala bilməsidir, bu cəhətdən əfsanə İsa Məsihin doğulma hadisəsi ilə çox oxşardır. Bəlli olduğu kimi, həmin mifdə firon rolunu kral İrod öz üzərinə götürmüş olur. Bu uyğunsuzluğu gördükdən sonra belə bir çox inandırıcı qənaətə gəlmək olar: böyük ehtimalla, əfsanənin ilkin variantını qələmə almış çox bacarıqsız bir yazar qəhrəmanın adını ucaldan motivlərin olmadığını sezmiş və qəhrəmanlar haqda başqa miflərdə çox işlənən variantı buraya tətbiq edərək Musanı da öldürülmək üçün taleyin ümidinə buraxılmış körpə kimi tanıtmağa çalışmışdır. Onun bu işi uğursuz alındığı üçün Musa haqqında əfsanə ilə yetərincə uzlaşa bilmir.

Bizim araşdırmamız buradakı uyğunsuzluğu görərək şübhə doğuran nəticələrə gəlib çıxsa da, "Musa misirlidirmi?" kimi qoyduğumuz suala cavab axtarmaqda yeni heç nə öyrədə bilmir. Ancaq atılmış körpə ilə bağlı əfsanəni araşdırmaq üçün daha bir ümidverici yanaşma da vardır.

Gəlin belə miflərdə olan iki ailənin üzərinə qayıdaq. Psixoanalitik səviyyədə bu iki ailənin bir-birilə eyni olduğunu bilirik, mifik səviyyədə isə bu ailələr adlı-sanlı və sadə olmaqla iki müxtəlif ailədir. Ancaq hansısa gerçək tarixi şəxsiyyətdən söz gedirsə, burada üçüncü, real səviyyə də meydana çıxır. Qəhrəman statusuna yüksəlmiş böyük insanın doğulduğu bir ailə vardır və o realdır; ikinci ailə isə mifin öz məqsədinə çatması üçün uydurduğu yalançı ailədir. Belə hallarda, adətən, real ailə sadə ailə ilə üst-üstə düşür, uydurulmuş ailə isə adlı-sanlı olur. Musa ilə bağlı vəziyyət fərqlidir. Bütün bunlara aydınlıq gətirə bilmək üçün, görünür, yeni bir yanaşma tələb olunur, bu yanaşmaya görə, körpəni atan ailə uydurulmuş, onu xilas edib böyüdən kimi qələmə verilmiş ailə isə realdır. Biz risk edib bu tezisi ümumi bir qayda kimi tanısaq və onu Musa ilə bağlı əfsanəyə tətbiq etsək, onda Musanın misirli, həm də ola bilsin, adlı-sanlı bir ailədən olduğu aydınlaşacaq və onun əfsanə vasitəsilə yəhudiyə çevrildiyi də bəlli olacaq. Bu tezisə arxalanaraq apardığımız araşdırmada bizim gəldiyimiz nəticə belə olacaqdır! Onda körpənin çaya atılması məsələsi də öz gerçək yerini tutur; burada hadisənin axarını yeni bir yönə salmaq və bütün bunları

uzlaşdırmaq üçün, çətinliklə olsa da, onun məqsədini dəyişməyə ehtiyac yaranmışdı; beləliklə də, bu mifdə çay körpəni öldürmək üçün olan bir vasitədən onu xilas edən bir vasitəyə çevrilmiş olur.

Musa ilə bağlı əfsanənin başqa analoji əfsanələrdən ayrılması mümkündür, ancaq bu gərək baş vermiş gerçək tarixi hadisə ilə uzlaşsın. Qəhrəmanlarla bağlı bu cür əfsanələrdə, adətən qəhrəman özünün aşağı təbəqəyə məxsus mənşəyi üzərində ucalaraq adlı-sanlı, aristokratik təbəqəyə keçir, ancaq Musa adlı adamla bunun əksi baş verir, o adlı-sanlı Misir aristokratı səviyyəsindən misirlilərin yuxarıdan aşağı baxdıqları, İsrail övladları olan yəhudilərin arasına enməli olur.

Bu kiçik araşdırmaya başlayarkən biz onun köməyilə Musanın misirli olduğunu sübut edən ikinci, yeni bir arqument əldə edəcəyimizə ümid edirdik. Artıq dediyimiz kimi, onun adının Misir mənşəli olması ilə bağlı birinci arqumenti eşidənlərdə elə də güclü təəssürat yarada bilməmişdi. Körpənin atılması əfsanəsini araşdırmaqla bağlı əldə etdiyimiz yeni dəlilin də istədiyimiz uğuru qazanacağına hazır olmağa dəyər. Əks dəlillərlə çıxış edənlər, çox güman, əfsanənin formalaşması və şəkildəyişməsinin hədsiz qaranlıq qaldığını və ona görə də bu əfsanənin Musa ilə bağlı gəldiyimiz nəticələri yetərincə doğrulda bilmədiyini: yüzillər boyunca bu mövzunun qəsdən dolaşığa salınması və gerçəkliklərin uydurmaların qalın torpaq qatları ilə örtülməsinin əsl həqiqəti üzə çıxarmağı mümkünsüz etdiyini söyləmələri yerinə düşəcəkdir. Mənim özümə gəlincə, vəziyyəti çıxmazlığa gətirən düşüncələrlə razılaşmıram, ancaq onları inkar edə bilmək üçün yetərli sübutlarım da yoxdur.

Burada etibarlı məlumat almaq imkanları yoxdursa, onda mən niyə belə bir araşdırma aparıb nəticələrini toplumun diqqətinə çatdırmağa çalışıram? Nə qədər acınacaqlı olsa da, mənim arqumentlərim də ehtimal sərhədlərini adlaya bilmir. Ancaq birdən burada gətirilən dəlilləri bir kənara qoyub Musanın adlı-sanlı misirli ailəsində doğulduğunu bütün ciddiliyi ilə qəbul etsək, qarşımızda çox maraqlı və uzaqlara gedib çıxan perspektivlər açılır. Bir neçə, çox da mürəkkəb olmayan ehtimallar irəli sürməklə, Musanın gördüyü işlərdə hansı motivləri əsas götürdüyünü anlamaq mümkündür, onun nə üçün belə qeyri-adi davrandığını da, yəhudi xalqına aşılamaq istədiyi qanunvericilik və din yaradıcılığı ilə bağlı yeniliklərinin qaynaqlarını da, habelə hansı təkanların onu təktanrılı dinə yönəltdiyini də aydınlaşdırmaq mümkündür. Lakin bütün bu mühüm açıqlamaları yalnız psixoloji baxımdan ağlabatan olduğu üçün doğru saymaq da olmaz. Biz Musanın misirli olması ilə bağlı hansısa bir tarixi əsasın olduğunu deyiriksə, onda gərək elə bunun qədər əsaslandırılmış ikinci bir tarixi sübut da olsun, yoxsa bizim mülahizələrimiz buna qarşı çıxış edənlərin tənqidi fikirləri qarşısında sarsılacaq. İki bir-birini tamamlayan ardıcıl əsaslandırma olmadan bizim bütün dediklərimiz də fantaziya məhsulu olaraq qalacaq və reallıqdan çox uzaq görünəcək. Musanın yaşadığı çağı dəqiqliklə müəyyənləşdirə bilsə idik, yaxud da onun yəhudiləri Misirdən çıxardığı dövrlə bağlı əsaslandırılmış məlumatımız olsa idi, onda bu, gerçəkliyi üzə çıxarmaq üçün yetərli olardı. Ancaq əlimizdə belə konkret faktlar olmadığından, görünür, hələlik Musanı misirli saymaqla gələ biləcəyimiz sonrakı nəticələrdən də çəkinməliyik.

# II

## ƏGƏR MUSA MİSİRLİ OLMUŞSA

Bundan əvvəlki başlıqda yəhudi xalqının xilaskarı və qanunvericisi olmuş Musa adlı şəxsin yəhudi deyil, misirli olması ilə bağlı fərziyyəni daha yeni arqumentlərlə doğrultmağa çalışmışdım. Musa adının Misir dilindən götürüldüyünü çox-çox əvvəllər da deyiblər, ancaq bu fakta yetərincə dəyər verilməmişdir; mən doğulan körpələrin atılması ilə bağlı geniş yayılmış mifləri Musanın misalında araşdırmaqla onun misirli olduğu qənaətinə gəlmiş, yalnız xalqın zəruri ehtiyacını ödəmək üçün yəhudiyə "çevrildiyini" bildirmişdim. Sonda Musanın misirli olmasını bir fərziyyə kimi qəbul etməkdən çoxsaylı vacib və dəyərli nəticələrin çıxdığını da demişdim; lakin bu fərziyyəmlə aldığım nəticələr yalnız psixoloji araşdırmalarla doğrulduğundan, onların mütləq həqiqət olması üzərində təkid edə bilmirəm, bunu etmək üçün gərək onlar obyektiv şəkildə əsaslandırılsın. Bu yolla əldə olunan nəticələrin əhəmiyyəti artdıqca, onları köklü şəkildə əsaslandırmağa da bir o qədər böyük ehtiyac yarandığını duyursan, yoxsa itələyəndə duruş gətirə bilməyən gildən düzəlmə altlığı olan büt kimi, bu nəticələr də tənqidlərə qarşı çox dayana bilməyəcək. Doğruya çox oxşayan heç bir cəlbedici ideya sizi yanılmaqdan qoruya bilməz; hətta bu ideyaya görə qurduğumuz mühakimələrin hamısı ardıcıl olaraq doğrulsa belə, unutmaq olmaz ki, doğruya oxşayanlar həmişə həqiqət olmur və həqiqət də həmişə doğruya oxşamır. Bundan başqa, mən sxolast və talmudçularla bir sırada dayanmağı da istəməzdim, bəlli olduğu kimi, belələri iti ağıllarına arxalanaraq öz sözlərini insanlara qəbul etdirməyi yaxşı bacarırlar, ancaq bu dediklərinin doğru olub-olmaması onlar üçün heç bir əhəmiyyət daşımır.

Bu gün də mənə rahatlıq verməyən şübhələrə baxmayaraq, dediklərimi tənqid edənləri də cavabsız qoymaq istəməzdim, eyni zamanda indiyədək gəldiyim nəticələri bir yerə toplayıb yekun söz deməyi də gərəkli sayıram. Dediklərim axtardığım həqiqəti bütövlüyü ilə əks etdirə bilməsə də, düşünürəm ki, bu işi görməyə dəyər.

I

Beləliklə, əgər Musa misirli olmuşsa, onda belə bir ehtimaldan çıxan ilkin nəticələr qarşımıza çox çətin həll olacaq müəmmalar qoymuş olur. Nə vaxtsa hansısa bir xalq və ya oymaq (biz Musa ilə Misirdən çıxıb getmiş insanların dəqiq sayını bilmirik) çox böyük bir iş görmək istəyirsə, ilk olaraq bu xalqın içindən kimsə çıxıb özünü onun öndəri elan edir, yaxud da xalq özü onu bu öndərliyə seçir. Ancaq çox adlı-sanlı soydan olan bir misirlinin – Musa firon oğlu, kahin, ya da ən azı, yüksək rütbəli bir məmur olmalı idi – gəlmə, mədəniyyətcə öz xalqından çox geridə qalan yadellilərə başçılıq edərək onlara qoşulub öz ölkəsindən çıxmasını anlamaq çox çətindir. Tarixdən misirlilərin yadellilərə yuxarıdan aşağı baxdıqları yaxşı bəlli olduğundan, belə bir hadisə heç cür inandırıcı görünmür. Bundan başqa, mənim düşüncəmə görə, elə bu səbəbdən də, tarixçilərin çoxu Musanın adının Misir mənşəli

olduğunu bilsələr də, onun Misirin bütün adət-ənənə və müdrikliklərini dərindən bildiyini söyləsələr də, yəhudilərə qoşulduğu üçün, təbii olaraq, misirli hesab etməli olduqları Musanın misirli ola biləcəyini deməkdən çəkinmişlər.

Dediyimiz bu birinci çətinliyə ikincisi də qoşulur. Biz gərək Musanın Misirdə məskunlaşmış yəhudilərin yalnız siyasi rəhbəri olmadığını, həm də onların qanunvericisi, yolgöstərəni və bu gün də onun adı ilə "musaçılıq" deyə çağırılan dinlərinin yaradıcısı olduğunu da unutmayaq. Bir adamın yerindən durub təkbaşına din yaratması asan işdirmi? Kimsə bir başqasını hansısa dinlə bağlamaq istəyirsə, elə bu onun özünün inandığı din olmayacaqmı? Sözsüz, Misirdə məskunlaşmış yəhudilərin hansısa dini inanclarının olması şübhə doğurmur, əgər Musa onlara yeni bir din təklif edirsə, onda bu dinin Musanın mənsub olduğu xalqın, misirlilərin dini olması ehtimalı çox böyükdür.

Ancaq bu mülahizənin doğruluğunu əngəlləyən bir maneəni də gözdən qaçırmaq olmaz: Musanın yəhudilərə təbliğ etdiyi dinlə misirlilərin dini arasında çox kəskin bir ziddiyyət vardır. Musanın təbliğ etdiyi din böyük və əlçatmaz olan tanrıya itaət etməklə bağlı olan təkallahlı dindir; burada yalnız bir tanrı var və o təkdir, qüdrətlidir, əlçatmazdır, gözəgörünməzdir və ağılla dərk oluna bilməz, onun görünüşünü təsvir etmək mümkün deyil və adını çəkmək də yasaqdır. Misirlilərin dinində isə müxtəlif statuslu və mənşəli çoxlu gözlə görünən tanrılar vardı, onların əksəriyyəti göy, yer, günəş, ay və bir sıra təbiət gücləri ilə bağlı idi, hətta doğruluq və ədalət tanrısı sayılan Maat kimi mücərrəd mahiyyət daşıyanları da vardı, yaxud da bu tanrıların içində cırtdan görkəmli tanrının olduğu da bəllidir; bu çoxsaylı tanrılar Misirin bir ölkədə birləşdirilməsindən öncə müxtəlif bölgələrdə yaranmışdılar və onların çoxu hələ də yarandıqları totemlərdən sonadək ayrıla bilməyib müxtəlif heyvanların görkəmində təsvir olunurdu. Eyni zamanda hər birinin daşımalı olduğu ilahi vəzifələr də bir-birindən yetərincə ayrılmamışdı. Bu tanrıların şərəfinə yazılmış himnlərdə onların hamısına, demək olar, eyni epitetlər deyilmiş, bir-birilə eyniləşdirilmiş və eynigüclü sayılmışlar. Məsələn, Misirdə yeni krallığın çiçəkləndiyi çağlarda paytaxt olmuş Fivanın baş tanrısını Amon-Ra çağırırdılar, buradakı Amon şəhərin qoyun başı şəklində təsvir olunan tanrısı, Ra isə qırğı baş şəklində təsvir olunan, əslində isə, Qora adlanan Günəş tanrısı idi. Tanrıları bu sayaq qovuşdurduqdan sonra Misirin bütün dini ayin və ovsunçuluqla bağlı mərasimlərində, habelə bütün dini simvollarında bu tanrı başlıca yeri tutmağa başlamışdı.

Musanın yəhudilərə gətirdiyi dinlə misirlilərin dini arasındakı bir çox fərqləri birincidə tanrının tək olması, ikincidə məhdudiyyət tanımayan çoxsaylı tanrıların varlığı arasındakı birbaşa ziddiyyətlə də aydınlaşdırmaq olar. Başqa bir fərq misirlilərin ənənəvi dinlərinin öz ibtidai mahiyyətinə çox yaxınlığı, Musanın gətirdiyi dinin isə yüksək dərəcədə mücərrədliyə varması idi. Bu iki məqama əsaslanıb bu dinlərin bir-birindən köklü surətdə fərqləndiyini görmək mümkündür, eyni zamanda göstərilən fərqlərin, elə bil, qəsdən daha çox qabardıldığı da duyulur. Məsələn, bu dinlərdən biri tanrının tək olduğunu deyərək müxtəlif ovsun və cadugərlik ayinlərini yasaqlayırdısa, o biri din bunun büsbütün əksinə olaraq tanrıların çoxluğunu daha da artıq gözə çarpdırır, müxtəlif ovsun və cadu ayinlərini daha da təntənəli, hay-küylü keçirməyə can atırdı. Ya da bu gün bizim muzeylərin öz zənginliyinə görə borclu

olduqları çoxlu Qədim Misir eksponatlarına baxdıqda misirlilərin tanrılarının saysız-hesabsız rəsmlərini, daşdan yonulmuş, bürüncdən tökülmüş heykəllərini yaratdıqlarını görürük və bunun tam əksinə olaraq, Musanın gətirdiyi təkallahlı dində tanrının da, bütün başqa canlıların da təsvir edilməsinin qəti şəkildə yasaqlandığını da bilirik. Ancaq bu iki din arasında indiyədək çox az tarixçinin diqqətini çəkən daha bir çox kəskin ziddiyyət vardır. Məncə, dünyada heç bir xalq qədim dövrün misirliləri qədər ölümü inkar etmək üçün çalışmamışdır, misirlilərin dinində o dünyanı və oraya düşən ölmüş insanları idarə edən tanrı Osirisin xalq arasında başqa bütün tanrılardan daha populyar olması da dediklərimizi sübut edir. Əski yəhudi dinində isə bunun tam əksinə olaraq, insanın ölümsüzlüyü tamamilə inkar olunur, bu dinin o dövrlə bağlı kitablarının heç birində ölümdən sonra həyatın olması barədə bir söz belə yazılmamışdır. Burada diqqəti çəkən amillərdən biri də təktanrılı dinlərin sonrakı inkişafının bu dinlər üçün də o dünya ideyasının böyük uğur qazandığını göstərməsinə baxmayaraq, yəhudilərin təktanrılı dininin ilkin mərhələsində bu faktın özünü təsdiqləməməyidir.

Biz Musanın misirli olması ilə bağlı ehtimalın müəyyən cəhətlərdən işimizə yarayacağını düşünürdük. Ancaq onun yəhudilərə gətirdiyi dinin misirlilərin dini olması ilə bağlı ilk mülahizəmiz uğursuzluqla nəticələndi və Musanın yəhudilərə təbliğ etdiyi dinin misirlilərin ənənəvi dinindən köklü surətdə fərqinin aydınlaşması yəhudilərin dininin misirlilərə mənsub olması ideyasını alt-üst etmiş oldu.

II

Ancaq misirlilərin dini inancları ilə bağlı olaraq bu yaxınlarda üzə çıxmış və dəyərləndirilməyə başlamış bir fakt bizim işimizə yaraya bilər və belə bir faktın varlığı yürütdüyümüz mülahizələrin doğrulması işində ümidverici perspektivlər yaradır. Bu fakt Musanın yəhudilərə bağışladığı yeni dinin, ola bilsin, Misirdə yaranmasa da, ancaq bir zamanlar misirlilərin inandığı bir din olduğunu göstərir.

Misirin tarixində çox böyük ad-san qazanmış XVIII sülalənin vaxtında ölkə öz sərhədlərinin hüdudlarını genişləndirib dünya dövlətinə çevrilərkən təqribən e.ə. 1375-ci ildə öz atası kimi Amenhotep adlanan bir gənc fironluq taxtına çıxmışdı. Sonradan bu firon öz adını, həmçinin çox şeyləri də dəyişdirməsi ilə tanınmışdı. Yeni firon öz təbəəsi olan misirlilərə onların minillik ənənələrlə bağlı olduqları inancı və məişəti ilə bütünlüklə ziddiyyət yaradan yeni bir dini aşılamağa cəhd göstərmişdi. Bu, təktanrılı din idi və bizə bəlli olduğuna görə, tarixdə ilk dəfə belə bir addım atılmışdı, ancaq bu yeni, təktanrılı din özü ilə yanaşı başqa dinlərə qarşı dözümsüzlük duyğusunu da gətirmişdi, bu da insanlığın və dinlərin keçmişində ilk hadisə sayıla bilərdi. Bundan əvvəl də, çox sonralar da insanlar arasında yad inanca qarşı belə bir dözümsüzlük olmamışdı. Amenhotepin fironluğu çox az – 17 il çəkmişdi. Onun təxminən e.ə. 1358-ci ildə ölümündən sonra yeni din qadağan olunub aradan götürüldü, həmçinin bu “kafir” fironun xatirəsinin yaddaşlardan silinməsi üçün də çalışdılar. Yenilikçi fironun saldırdığı yeni paytaxtın dağıntıları arasından tapılmış abidə və onun qəbri üstündəki qayalara yazılmış mətnlərdən, az da olsa, bu fironun və onun apardığı din islahatının məzmununu öyrənmək mümkündür. Qədim Misir tarixinin bu qeyri-adi şəxsiyyəti ilə bağlı əlimizə gəlib çatan azacıq məlumatlar da onun gördüyü bu işlərə böyük maraq doğurur.

Bəlli olduğu kimi, bütün üzə çıxan yeniliklər keçmişə aiddir və öz çağının yetişməyə başlayan mühakimələrinin gerçəkləşməsi kimi yaranmağa başlayır. Misirdə yaranmış bu təktanrılı dinin də köklərini araşdırıb keçmişlə bağlı olduğunu inandırıcı şəkildə sübut etmək mümkündür. Heliopolda Günəş tanrısı Qoranın adına ucaldılmış məbəddəki kahinlərin təlimində çoxdan idi, bu tanrının timsalında universal bir tanrı kultu yaratmağa çalışırdılar və bu tanrının tək allah kimi tanınmasının əxlaqi-mənəvi tərəflərini də qabarda bilmişdilər. Elə buna görə də həqiqət, qayda-qanun və ədalət tanrısı Maatın da Günəş tanrısı Ranın qızı olduğunu iddia edirlər. Artıq gənc fironun atası və onun apardığı islahatların ilkin özülünü qoymağa başlamış III Amenhotepin dövründə Fivada hədsiz güclənməyə başlamış Amon tanrısına qarşı Günəş tanrısını qoyub onun daha artıq güclənməsinə çalışırdılar. Elə bu vaxtlarda Günəş tanrısının Aton və ya Atum kimi səslənən köhnə adını da dirçəldib gündəmə gətirdilər və Aton tanrısının dinindən təsirlənən gənc firon öz hakimiyyətini qorxu altına alsa da, yeni dini təlimin güclənməsinə çalışmağa başladı.

Bu hadisələrin baş verməsinə az qalmış misirlilərin dininə uzun müddətlik təsir edəcək siyasi situasiya da yaranmışdı. Qonşu ölkələrə uğurlu basqınları ilə ad-san qazanmış firon III Tutmosun qoşun başçısı kimi qazandığı qələbələrin sayəsində Misir dünya dövlətinə çevrilmişdi, cənubda Nubiya, şimalda Fələstin, Suriya və Mesopotamiyanın bir hissəsi işğal edilərək Misir dövlətinə qatılmışdı. Belə bir imperiya quruculuğu üzrə çalışmalar misirlilərin dininə bir universallıq və təktanrılılıq təmayülləri də gətirmişdi. Artıq Misirdən başqa Nubiya və Suriya da fironun himayəsi altına keçdiyi üçün, yaranmış bu vəziyyət misirlilərin təsəvvüründə fironun bütün dünyaya yiyələnməsi anlamına gəlirdi və onların yeni tanrısı da milli çərçivəni adlayaraq fironun ağalıq etdiyi bütün torpaqlarda tanınan universal bir tanrıya çevrilməli idi. Əlavə olaraq, imperiya qurmaqla öz sərhədlərini genişləndirən Misir xarici ölkələrdən gələn təsirlər üçün də açıq olmağa başlamışdı, artıq fironların əksəriyyəti Asiya hökmdarlarının qızları ilə evlənirdilər (deyilənə görə Amenhotepin sevimli arvadı Nefertiti də asiyalı olmuşdur) və çox güman ki, təktanrılı dinin birbaşa təsirləri Misirə Suriyadan gəlib çıxmışdı.

Amenhotep özünün Günəş kultu olan Qoraya, başqa sözlə desək, Atona olan sevgisini həmişə çox böyük coşqunluqla bildirmişdi. Onun qəbrinin yerləşdiyi qayalıqda, böyük ehtimalla, özünün Atona yazdığı iki himn bu günümüzə gəlib çatmışdır. Burada o Günəşi bütün canlıların yaradıcısı və qoruyucusu kimi çox böyük bir coşqunluqla vəsf edir və Misirdən kənarda tanrıya belə bir coşqunluqla üz tutmanın nümunəsinə biz yalnız yüzilliklər sonra yəhudilərin tanrı Yahvenin şərəfinə yazdıqları məzmurlarda rast gəlirik. Ancaq firon Amenhotep Günəş tanrısını öyən yazısında yalnız günəş şüalarının bütün canlılara həyat enerjisi verməsi ilə bağlı elmi dünyagörüşündən söz açmaqla kifayətlənməmişdi. O bir az da uzağa gedib, günəşi maddi bir obyekt kimi deyil, enerjisi onun şüalarında üzə çıxan ilahi mahiyyətin simvolu kimi dəyərləndirmişdi. Ancaq biz burada fironu yalnız onun dövrünədək mövcud olmuş Aton dininin ardıcılı və himayəçisi kimi qəbul etsək, bu, yanlış və ona qarşı ədalətsiz bir rəy olardı. O bu işdə çox böyük çalışqanlıq göstərmiş və gördüyü böyük işlərlə universal tanrı ideyasına yenilik gətirmiş, bununla da təktanrılı din yaradılmasına zəmin yaratmışdı. Bu müstəsna məqamı dəyərləndirmədən keçmək

doğru olmazdı. Onun yazdığı ehtimal olunan himnlərdən birində Atona deyilən belə bir söz vardır: “Ah, ey tək olan tanrı, səndən başqa heç bir tanrı yoxdur”. Biz gərək bu yeni dini düzgün dəyərləndirə bilmək üçün onun məzmununda özünə yer edən müsbət və mənfi ideyaları yetərincə bilmədiyimizi də unutmayaq. Yeni dinin birdən-birə, yunan mifologiyasında Afinanın Zevsin başından doğulduğu kimi, bütünlüklə hazır şəkildə yarandığını düşünmək də böyük yanlışlıq olardı. Əksinə, əldə olan məlumatlara əsasən, bu din Amenhotepin hakimiyyəti illərində getdikcə daha da aydınlaşmış, ardıcıllıq qazanmış, habelə amansız və qəddar olmağa başlamışdı. Böyük ehtimalla, bunun səbəbi həmin vaxtadək hakim olan Amon tanrısının kahinlərinin bu dinə qarşı kəskin düşmənçilik göstərmələri olmuşdu. Yeni və köhnə dinlər arasındakı düşmənçilik getdikcə daha çox gücləndiyindən, hakimiyyətinin altıncı ilində gənc firon öz adını dəyişib artıq adının çəkilməsi yasaqlanmış Amon tanrısının adını özününkündən silmişdi. Bundan sonra o Aton tanrısının şərəfinə özünə Ehnaton adını götürmüşdü. İslahatçı firon Amon tanrısının adını özününkündən götürməklə kifayətlənmədi, onun adını bütün yazılardan, hətta atası III Amenhotepin üzərindən də silib atdı. Bütün bu dəyişikliklərdən az sonra Ehnaton Amon tanrısının baş tanrı sayıldığı paytaxt Fivanı da tərk edərək Nil çayının aşağısında özü üçün Ahematon (Atonun üfüqü) adlı yeni paytaxt şəhəri saldırdı. Şəhərin bu günə gəlib çatan dağıntıları indi Tell-el-Amarna adlanır.

Firon Amon tanrısının adını yazılı abidələrdən silməklə kifayətlənmədi. Onun əmri ilə imperiyada başqa tanrıların şərəfinə tikilən bütün məbədlər bağlandı, onlarda mərasim və ayinlər keçirmək yasaqlandı, məbədlərin bütün əmlakı müsadirə olundu. Onun bu yöndəki səyləri həddini aşmışdı. Fironun göstərişi ilə ölkədə olan bütün abidələr araşdırılmalı, harada tanrı sözü cəm şəklində işlənmişsə, bütün bu yazılar silinməli idi. Ehnatonun bu kəskin tədbirləri izlənib sıxışdırılan kahinlər arasında fanatizmin və bununla bağlı qisasçılıq duyğularının güclənməsinə, xalqın içində böyük narazılıqların yaranmasına gətirib çıxarmaya bilməzdi və bütün bunlar onun ölümündən sonra özünü aydın büruzə verdi. Bu, geniş yayılmış və tanınmış bir din deyildi və ola bilsin, onun ardıcılları da çox məhdud sayda idi. Ehnatonun necə öldüyü ilə bağlı əlimizdə heç bir fakt yoxdur. Ölümündən sonra onun soyadını daşıyan bir neçə fironun qısamüddətli hakimiyyətdə olması müxtəlif qaynaqlardan gəlib bizə çatmışdır. Firon taxtına çıxanlardan biri Ehnatonun kürəkəni Tutanhaton artıq yeni dinə qarşı yaranan kəskin təzyiqlərə dözə bilməyib paytaxtı yenidən Fivaya köçürməli olmuşdu və adındakı “aton” sonluğunu atıb onu tanrı Amonun şərəfinə “amonla” əvəzləmişdi. Daha sonra Misirdə bir neçə il çəkən anarxiya hökm sürmüş, bütün bunların sonunda isə sərkərdə Horemhabu ölkədə qayda-qanun yaradıb, e.ə. 1350-ci ildə firon taxtına oturmuşdu. Bunun ardınca XVIII sülalənin qazandığı böyük ad-san unudulmağa başladı və onun Nubiya və Asiyada ələ keçirdiyi torpaqlar da itirildi. Bütün bu xaosun hökm sürdüyü dövrdə Misirin köhnə dini bərpa olundu, Aton dini isə tamamilə ləğv edildi. Ehnatonun tikdirdiyi yeni paytaxt talanaraq darmadağın edildi və onun gördüyü bütün işlər böyük cinayət sayılmağa başladı.

Gördüyümüz işin məqsədinə aydınlıq gətirmək üçün Aton dininin xalqla qovuşa bilməsini əngəlləyən qüsurları da göstərməyə dəyər. Bunlardan ən birincisi, bu dində misirlilərin alışdığı mif, ovsun və cadugərliklə bağlı heç bir ayinin olmaması idi. Daha

sonra Günəş tanrısının simvolu əvvəlki kimi kiçik piramida, yaxud da qırğı şəklində deyil, üzərindən şüalar çıxıb insan əlinə çatan dairəvi disk şəklində göstərilirdi və bu olduqca rasional bir simvol idi. İndi Əl-Amarna adlanan yerdə Ehnatonun tikdirdiyi paytaxtın xarabalıqları arasında çox zəngin rəsm və heykəltəraşlıq abidələri tapılsa da, burada Günəş tanrısı Atonun bir dənə də olsun təsviri və heykəli tapılmamışdı. Ancaq yeni təktanrılı dinin meyarlarına bələd olduğumuz üçün belə bir tanrı təsvirinin tapılmayacağını öncədən də deyə bilərdik. Ən sonuncu isə, buradakı abidələrdə və qəbirüstü yazılarda o dünyanın və ora düşən ölülərin tanrısı sayılan Osirisin adı çəkilmir və insan ölümsüzlüyünə ürəkdən inanan misirlilərin ürəyinə yatan heç bir simvola və yazılara rast gəlinmir. Xalqın inanclarına belə açıq-aydın əks mövqe göstərmək isə zaman baxımından doğru sayıla bilməzdi.

III

İndi isə risk edib belə bir mülahizə irəli sürək: əgər Musa misirli olmuşsa və yəhudilərə Misirdə yaranmış bir dini gətirmişsə, onda bu din Ehnatonun, Atonun dini olmuşdur.

Bir az əvvəl biz yəhudilərin dinini misirlilərin ənənəvi dini ilə tutuşdurub onlar arasındakı ziddiyyəti göstərdik. İndi biz gərək yəhudi dini ilə Atonun dinini tutuşduraq və onların eyni kökdən olduqlarını göstərəcəyimizə ümid edək. Bizə elə gəlir ki, görəcəyimiz iş çoxlu çətinliklər törədəcək. Aton dininin izlərini qatı qisasçılıq duyğusu ilə silib atmağa çalışmış Amon tanrısı kahinlərinin günahı ucbatından biz bu dinlə bağlı çox az şey bilirik. İndi musaçılıq adlanan yəhudi dini ilə biz onun sonradan formalaşmış variantı ilə tanışıq və bizə gəlib çatan yəhudi dininin bu variantı onların Misirdən çıxıb getdikləri vaxtdan 800 il sonra yəhudi ruhaniləri tərəfindən formalaşdırılmışdır. Fakt qıtlığına baxmayaraq, öz mülahizələrimizi doğrulda bilən ayrıca əlamətlər tapa bilsək, onları çox yüksək dəyərləndirməkdə haqlı olacağıq.

Mənə elə gəlir, bizim irəli sürdüyümüz tezisi sübut etməyin qısa yolu musaçılıq ilə Aton dininin inancla bağlı olan başlıca prinsiplərinin uyğunluğuna əsaslanmaq ola bilərdi. Ancaq qorxuram, bizim tənqidçilərimiz bu yolun doğru olmadığını irəli sürsünlər. Bəlli olduğu kimi, yəhudi inancının simvolu belə ifadə olunur: “Şema Cizroel Adonai Elehonu Adonai Ehod”. Əgər Misir dilindəki Atona (və ya Atuma), yəhudi dilindəki Adonay və suriyalıların tanrısı olan Adonisin adlarının belə bir uyğunluğu təsadüf deyilsə, bu dillərin bir-birilə ünsiyyətindən yaranmış ortaq anlamlı bir söz sayıla bilərsə, onda yəhudi inancında şəhadət gətirmək anlamındakı yuxarıda göstərdiyimiz inanc simvolunu belə tərcümə etmək olar: “Eşit, İzrael, bizim tanrımız Aton (Adonay) – tək olan tanrıdır”. Ancaq təəssüf ki, mən bu məsələni inandırıcı şəkildə həll etməyə hazır deyiləm və axtardığım qaynaqlarda bununla bağlı olduqca az fakt tapdığım üçün məsələnin həlli belə çətinliklərlə üzləşir. Məhz bu səbəbdən də, biz məcburi şəkildə, yenidən tanrıların adı ilə bağlı problemin üzərinə qayıtmalı olacağıq.

Bu iki dinin uzlaşdığı və fərqləndiyi yerlər, artıq təfərrüata varmadan da, göz qabağındadır. Hər iki din ardıcıl təktanrılılıq yolunu tutub gedir və bu cəhətləri öz-özlüyündə onlar arasında ümumi olan çoxlu cəhətlər doğurur. Bəzi hallarda yəhudi təktanrılığı özünü daha kəskin aparır, buna misal olaraq, onun yalnız tanrının yox, bütün canlıların rəsm və heykəlinin yaradılmasını yasaqlamasını göstərmək olar. Bu

dinlər arasındakı ən böyük fərq – tanrılarının adını bir kənara qoyuram – yəhudi dininin Günəş kultunu inanc sistemindən tamamilə çıxarmasıdır, ancaq dərindən baxanda, Aton dinində də Günəş kultundan uzaqlaşmaq meyillərini görmək mümkündür. Aton dinini Misir xalqının ənənəvi dini ilə tutuşdurarkən biz onlar arasındakı olan prinsipial ziddiyyətlərdən başqa da bu dinlərin məqsədyönlü şəkildə bir-birilə qarşıdurma yaratmaları amilinin də gözə çarpdığını demişdik. Baxdığımız misalda yəhudi dinini Aton dini ilə əvəzləsək, bu təəssüratımız bir az da güclənəcək, bəlli olduğu kimi, firon Ehnaton qəsdən Aton dini ilə ənənəvi Misir dini arasında qarşıdurma yaradıb və bu məsələni Aton dininin xeyrinə həll etməkdə maraqlı idi. Bizi təəccübləndirən məsələlərdən biri də ölümdən sonrakı həyatın və o dünyanın təktanrılı dinlərin işinə çox yaradığını bilsək də, bu ideyanın yəhudi dinində olmadığını öyrənməyimiz olmuşdu. Bu təəccübü aradan qaldırmağın yolu çox asandır, bunun üçün biz yəhudi dinindən onun qaynağı saydığımız Aton dininə qayıdırıq və firon Ehnatonun misirlilərin ən çox bağlı olduğu ideyanı – onların bütün yerüstü tanrılardan qat-qat artıq bağlandıqları yeraltı dünyanın tanrısı Osirisi sarsıtmaq üçün o dünya və ölümdən sonrakı həyat anlayışını yanlış bir inanc kimi aradan qaldırmağa çalışmasıdır. Yəhudi dini ilə Aton dininin belə bir vacib məsələdə üst-üstə düşməsi bizim irəli sürdüyümüz tezisi doğrultmaq üçün birinci ciddi arqument sayıla bilər. Ancaq bunun sonuncu belə arqument olmadığına bir azdan əmin olacaqsınız.

Musa yəhudilərə yalnız yeni din verməklə kifayətlənməmişdi, onlar arasında sünnət ayininin yaranmasının da Musanın xidməti olduğunu eyni inamla demək mümkündür. Bu fakt qarşımızda dayanan problemin həlli üçün çox mühüm rol oynayır və bu fakt, nədənsə, indiyədək heç kim tərəfindən lazımınca dəyərləndirilməmişdir. Doğrudur, Bibliyada bu fakt bir neçə dəfə inkar edilir, ancaq baxın: Bibliyada bir yandan sünnət ayininin Musadan çox-çox öncələr yaşamış Avraamla tanrı arasında yaranan ittifaqla bağlı olduğu deyilir, başqa bir yerdə isə tanrının sünnət olunmadığı üçün Musaya qəzəblənib onu öldürmək istəməsindən danışılır və bundan çıxış yolu da tapılır: Musanın madianlı arvadı təcili olaraq Musanı öz əlləri ilə sünnət edərək onu tanrının qəzəbindən qoruya bilir. Bibliyadakı bu yanlışlıq gərək bizi çaşdırmasın, bu yanlışın hansı motivdən yarandığını sonradan aydınlaşdıra biləcəyik. Ancaq yəhudilərin sünnət ayinini haradan götürdükləri sualının yalnız bir cavabı var: onlar bunu misirlilərdən öyrənmişlər. "Tarixin atası" Herodot da sünnət ayininin çox qədim dövrlərdən yerinə yetirildiyini deyir, bu faktın doğruluğunu isə bizə gəlib çatan mumiyaların araşdırılması, həm də qəbirüstü çılpaq şəkillərdəki təsvirlərin öyrənilməsi də təsdiq edir. Bildiyimizə görə, Qərbi Aralıq dənizi sahillərində yaşayan başqa heç bir xalqda belə bir adət olmamışdır; semitlər, babillilər və şumerlər haqqında onların sünnət olunmadıqlarını inamla demək olar. Bibliyadan bəlli olduğu kimi, Kənaan ölkəsinə bu adəti yəhudilər gətirmişdilər və bunun təsdiqi kimi İakovun qızı ilə kral oğlu Sixemin evlənməsi ilə bağlı hadisə şahidlik eləyə bilər. Misirə köçüb gəlmiş yəhudilərin sünnət ayinini Musanın dini ilə bağlı olmayaraq, özlərinin bəyənib götürdüklərini düşünmək ağlabatan deyildir və belə bir hal inandırıcı görünmür. Biz indi sünnət ayininin misirlilərin hamılıqla yerinə yetirdikləri bir ayin olduğunu müəyyən etdik. Onda bir anlığına bəlli mülahizəni qəbul

edib Musanın yəhudi olduğunu və öz yurddaşlarını Misir köləliyindən qurtarmaq istədiyini, bu məqsədlə də onları Misirdən çıxardığını, müstəqil və özünü tanıyan bir milli varlığa çevirmək istədiyini – Musanın gördüyü işlər, doğrudan da buna gətirib çıxarmışdı – düşünsək, onda Musa nə üçün yəhudiləri misirlilərə oxşadacaq bu ayini onlara təkrarlatdırmalı, bu millətin yaddaşından silmək istədiyi "Misir köləliyini" onlara daima xatırladacaq bu ayinlə yaşatmalı? Axı Musanın məqsədi tamamən başqa idi: o öz xalqını Misir köləliyindən birdəfəlik qurtarmağa, "Misir torpağında asan tapılan ətlə dolu qazanları" unudub, çətinliklərə sinə gərib, müstəqil yaşamağa alışdırmaq istəyirdisə, onda Musanın belə bir addım atması heç cür ağlabatan görünmür. Ancaq bizim baxdığımız fakt və ona əlavə elədiyimiz mühakimələr bir-birilə tam uzlaşdığından, inamla belə bir nəticə çıxara bilərik: əgər Musa yəhudilərə yalnız yeni bir din verməklə kifayətlənməyib onlara sünnət ayinini icra etməyi də buyurmuşsa, onda o, yəhudi deyil, misirli olmuşdur, bu isə musaçılıq dininin Misir dini olması deməkdir və bu Aton dini adlana biləcək inanc misirlilərin ənənəvi dinləri ilə ziddiyyət və qarşıdurmada olan bir dindir, habelə bu dinin başlıca ehkamlarının yəhudilərin sonradan tamamilə formalaşmış dini inanclarındakı ehkamlarla uyğunluğu nəzərəçarpacaq dərəcədə aydındır.

Bir az əvvəl Musanın yəhudi deyil misirli olması ilə bağlı irəli sürdüyümüz fərziyyənin yeni müəmmalar doğurduğunu demişdik. Onun etdiklərinin çoxu bir yəhudi olaraq anlaşılandır, ancaq bir misirlinin bu addımları atma səbəbləri anlaşılmaz görünür. Ancaq biz Musanın firon Ehnatonun dövründə yaşadığını ehtimal etsək və onu bu fironla bağlı bir şəxsiyyət kimi götürsək, onda bu yaranan müəmmalar yox olur və Musanın öz davranışlarında əsaslandığı motivlərlə bağlı yaranmış bütün suallarımıza da cavab tapmış oluruq. Gəlin indi də Musanın adlı-sanlı bir soydan və varlı bir misirli, onun doğulması haqqında əfsanədə deyildiyi kimi, fironun ailəsində böyümüş olduğunu fərz edək. Çox iddialı və enerjili bir insan kimi o, sözsüz, özünün böyük qabiliyyəti olduğunu anlayırdı. Ola bilsin, nə vaxtsa dövlətin başında dayanmaq, xalqı idarə etmək də ürəyindən keçirdi. Fironun yaxın ətrafından olduğu üçün o yeni dinin qızğın və inamlı tərəfdarlarından biri idi və bu dinin başlıca ideyalarının yaranmasında onun da düşüncələri və gördüyü işlər mühüm rol oynamışdı. Fironun ölümündən sonra köhnə din tərəfdarlarının yeni dinə qarşı kəskin təzyiqlərinin başlamasını və onun aradan qaldırıldığını görəndə Musa öz ideyalarının və onlarla bağlı ümidlərinin puç olmağa başladığını anlamışdı. O özünün ürəkdən bağlandığı inancından ayrılmaq istəmirdi, doğma ölkəsi Misir isə bu yolda ona ümidverici heç bir şey vəd etmirdi, elə buna görə də Musa öz yurdunu tərk etməyi qərara almışdı. Belə ağır vəziyyətdən çıxmaq üçün Musa qeyri-adi bir yol düşünüb tapmışdı. Xəyalpərəst Ehnaton öz xalqından ayrı düşmüş və Misirin yaratdığı imperiyanı dağıtmaq həddinə gəlmişdi. Enerjisi aşıb-daşan Musa isə yeni bir ideya düşünərək yeni krallıq yaratmaq və bu krallığın xalqına misirlilərin hörmət göstərmək istəmədiyi yeni dini vermək yolunu tutmuşdu. Bu isə öz taleyi ilə barışmamaq, Ehnatonun yıxılması ilə yaranan itkilərinin yerini ikiqat doldurmağa çalışmaq idi. Onun artıq çoxdan semit oymaqlarının məskunlaşmağa başladığı, Misirin Qəzza ilə sərhədində fironun valisi ola biləcəyini də güman etmək olar. Elə orada da Musa özünün yeni xalqını seçmişdi. Bununla da, ümumdünya tarixində çevriliş yaradan bir

qərar vermişdi! Yeni xalqı ilə razılaşan Musa onlara öndərlik etməyə başladı, özünün "güclü əli ilə" xalqını Misirdən köçürməyi bacardı. Bibliyada yazılanların tam əksinə olaraq, yəhudilərin Misirdən çıxıb getməsinin tamamilə dinc yolla baş verdiyi və onların buna görə izlənilmədiyini mülahizə etmək olar. Bu köçün baş tutmasının başlıca təminatı Musanın böyük nüfuza sahib olması idi və o dövrdə Misirdə anarxiya hökm sürdüyündən mərkəzi hakimiyyətin ona mane olmaq imkanı da yox idi.

Bizim ağlabatan görünən bu mülahizəmizə görə, yəhudilərin Misirdən çıxması firon Ehnatonun ölümündən sonra, bizim e.ə. 1358 və 1350-ci illər arasında sərkərdə Haremhabın mərkəzi hakimiyyəti möhkəmlədə bilməsindən öncə baş vermişdi. Bu köçün başlıca məqsədi yalnız Kənaan ölkəsini ələ keçirmək ola bilərdi. Misir imperiyasının dağılmasından sonra bu torpaqlara arameylərin qəsbkar yürüşləri başlamışdı, habelə çoxlu quldur və talançı dəstələr bu torpaqları qarət etmək üçün hərəkətə keçmişdilər. Belə bir vəziyyətdə özünə yeni torpaqlar qazanmaq istəyən işgüzar bir xalq üçün bu ölkə çox əlverişli yerə çevrilmişdi. Buraya basqın edən döyüşkən oymaqların kimliyi ilə bağlı 1887-ci ildə Amarnada aparılan qazıntılar zamanı tapılmış bir məktubda məlumat verilir. Məktubda onları habirlər (habiru) adlandırırlar, sonradan bu söz, necəsə, yəhudi basqınçılarına verilən hebrey (hebrəer) adı ilə dəyişdirilmişdir, ancaq belə olan halda bu söz yəhudilərin Kənaan torpağına gəlişindən öncə dağıdılmış Amarna şəhərində yazıya alına bilməzdi. Fələstinin cənubunda yerləşən Kənaan bölgəsində Misiri tərk edən yəhudilərlə çox yaxın qohumluğu olan oymaqlar yaşayırdı və ola bilsin, bu anlaşılmazlığın yaranması onlarla bağlı olmuşdur.

Yəhudilərin Misiri tərketmə motivinin dəqiqliklə aydınlaşması onların arasında sünnət ayininin icra səbəblərini də izah edə bilir. İndi anlamı çox da aydın olmayan bu ayinə insanların, xalqların və ayrı-ayrı şəxslərin necə yanaşdığı bəllidir. Bu ayini bir ənənə olaraq qəbul edənlər sünnət olunmayan adamların qəribə olduqlarını düşünmüş, onlar kimi ola bilməkdən çəkinmiş və sünnət olunmaqları ilə öyünmüşlər. Nəticə etibarilə, sünnət olunmuşlar özlərinin başqalarından yüksəkdə dayandığını sanmağa başlamış, bu ayini yerinə yetirməyənlərə yuxarıdan aşağı baxmış, onları natəmiz saymışlar. Elə bu gün də, hansısa türk bir xristianı alçaltmaq istəyəndə onu "sünnət olunmamış köpək" adlandırır. Çox böyük ehtimalla, Musa özü də misirli olduğu və sünnət edildiyi üçün, bu ayinə çox yüksək dəyər vermişdir. O, yurdunu atıb getməklə qoşulduğu yəhudilərə, öz həmvətənləri olmuş misirliləri əvəz edəcək yaxşı insanlar kimi yanaşmağa başlamışdır. Musanın düşüncəsinə görə, onun bu yeni xalqı keçmiş xalqından heç nə ilə geridə qalmırdı. Bibliyada yazıldığı kimi, o bu yeni xalqını özünü tək olan tanrıya həsr edən, onun yolu ilə gedən bir xalqa çevirmək istəyirdi. Beləliklə də, yəhudilərin təktanrılı dinə gəlməsinin başlıca əlaməti olaraq onları sünnət etməklə misirlilərin səviyyəsinə qaldırmağa çalışırdı. Belə bir ayindən keçən insanlar öz aralarında daha da sıx birləşsələr, başqa yadellilərlə qaynayıb qarışmaqdan, onların içində əriyib itməkdən çəkinsələr, misirlilər kimi yad ölkələrə gedəndə belə, onlarla qaynayıb qarışmasalar, onda bu ayini yalnız alqışlamaq olardı.

Ancaq yəhudilərin sünnət olunmaq ənənəsini sonradan öz adlarına çıxmaq cəhdlərində, bizim yuxarıda dediyimiz şübhəli vəziyyəti aradan qaldırmaq məqsədi gizlənir. Əgər sünnətin misirlilərin adəti olduğu və onun yəhudilərin arasına Musa

tərəfindən gətirildiyini qəbul etsək, bu elə Musanın yəhudilərə gətirdiyi dinin də misirlilərin dini olması deməkdir. Bu faktı inkar etmək üçün ciddi əsaslar varsa, onda sünnətlə bağlı mülahizələri təkzib edən faktların da olması vacibdir.

Yuxarıda deyilənlərlə bağlı bir zəruri qeyd: E.ə. 450-ci ildə Misirə gəlmiş Herodotun yol qeydlərinə baxanda onun burada qarşılaşdığı bir çox adətləri təsvir etdiyi bəlli olur və bu adətlər sonradan yəhudilər arasında formalaşmış adətlərlə təəccüblü dərəcədə oxşardır: “Buranın adamları başqa xalqlarla müqayisədə tanrıdan daha çox çəkinirlər və başqa xalqlardan özünəməxsus adətləri ilə seçilirlər. Onlar yerinə yetirdikləri sünnət ayini ilə özlərinin başqa xalqlara nisbətən təmiz olduqlarını düşünürlər; daha sonra donuz əti yeməkdən çəkinir, bunu şər qüvvə təmsilçisi Cemin qara donuz cildinə girib Günəş tanrısı Qoranı yaralaması ilə əsaslandırırlar; onlar inəklərə bəslədikləri müqəddəslik duyğusuna görə onun ətini yemir, həm də onu qurban olaraq kəsmirlər. Onlar başqa xalqlardan üstün və təmiz olduqlarını düşündükləri üçün heç bir misirli qadın yunanı öpməyi özünə rəva bilmir, yunanların bıçaq, kabab şişi və qazanlarından istifadə etmirlər, bu insanların yediyi öküz əti yunan bıçağı ilə kəsilmişsə, yaxud yunanın qazanında bişmişsə, onlar bu əti yemirlər... Bir sözlə, onlar başqa xalqlara yuxarıdan aşağı baxır, bu xalqları natəmiz sayır, özlərinin tanrıya hamıdan çox yaxın olduqlarını düşünürlər”.

Belə bir vasvasılığın hinduların içində olduğunu da yada salmaq olar. Çox qəribədir, yəhudi mənşəli şair Henrix Heyne görün XIX yüzillikdə nə yazmışdı: “Nil çayının sahillərindən, misirlilərin xəstəliyə yoluxmuş inanclarından yaranmış bir fəlakət mənim xalqımın dini inancına çevrilmişdir”. Z.Freyd

IV

Misirli Musanı firon Ehnatonun dövrü ilə əlaqələndirməyim, onun yəhudi xalqının qayğısına qalması ilə bağlı dediklərim, habelə bütün bunların Misirdə yaranmış siyasi durumdan asılı olduğunu göstərməklə Musanın yəhudilərə verdiyi və ya qəbul etdirdiyi dinin artıq Misirdə süquta uğramış Aton dini olmasını dilə gətirməyim mənə qarşı etirazlar yaradacaq və bunu öncədən duyuram. Bütün bu mülahizələrimi faktiki materiallarla yetərincə əsaslandırmadan irəli sürməklə həddimi aşdığımı da istisna etmirəm. Mən bununla bağlı giriş sözümdə də öz şübhələrimi bildirmişdim və bunu artıq bir dəfə dilə gətirməyim məni mövzu ilə əlaqədar yenidən nəsə deməkdən çəkindirmək üçün yetərli sayıla bilərdi.

Mövzu ilə bağlı ortaya atdığım bir sıra tənqidi qeydlərim bu araşdırmanın davamının mümkünlüyünü göstərir. Başlıca arqumentlərimdən birini, yəhudi təktanrılı dininin Misir tarixində olmuş təktanrılı din epizodundan asılılığını mənə qədər də bir çox müəlliflər sezmiş və bununla bağlı düşüncələrini yazmışlar. Onların heç biri bu təsirin necə yarana biləcəyini yetərincə göstərə bilmədiklərindən, mən bu müəlliflərin mövzu ilə bağlı dediklərini burada təkrarlamağa gərək duymuram. Bizim bu yöndəki araşdırmalarımız hələ də birbaşa Musanın şəxsiyyəti ilə bağlıdırsa, onda burada mümkün ola biləcək başqa variantlara da baxıb onları yoxlamağa borcluyuq. Aton dininin süquta uğraması heç də Misirdə təktanrılı dinin bütünlüklə aradan qalxması kimi anlaşıla bilməz. Günəş tanrısının şərəfinə tikilmiş On məbədində yaranmış bu inanc dövlət dini olaraq süqut etsə də, bu məbəddəki məktəb Ehnatonun ölümündən sonra da bir müddət duruş gətirməyi bacarmışdı və hələ

misirli insanların arasından bir çoxunu özünün ehkamları ilə tərbiyələndirə bilmişdi. Beləliklə də, əgər Musa Ehnatonun çağında yaşamasa və onun şəxsi təsiri altında olmasa idi belə, onun yalnız elə On məbədinin ardıcıllarından və ya bu məbədin üzvlərindən biri olması da Musanın gördüyünü iddia etdiyimiz işləri bacara bilməsi üçün yetərli olacaqdı. Belə bir varianta arxalanmaqla biz yəhudilərin Misirdən çıxıb getmələrinin tarixçilər tərəfindən qəbul olunmuş e.ə. XIII yüzillikdə baş verməsi tarixini doğrulda da bilərik. Ancaq bu tarixin özü də heç bir əsaslı tarixi sənəd və faktlara əsaslanmır. Belə qəbul etsək, onda Musanın nə üçün Misirdən qaçmasının motivi izah olunmayacaq, habelə yəhudilərin Ehnatonun ölümündən sonra yaranmış anarxiyaya görə ölkədən asanlıqla çıxıb gedə bilmələri faktı da aradan qalxacaqdır. Bəlli olduğu kimi, Ehnatonun ölümündən bir neçə il sonra onun mənsub olduğu sülalə süquta uğradı və sonradan hakimiyyətə gələn XIX sülalə ölkədə çox güclü bir hakimiyyət yarada bildi. Ona görə də onların güclü hakimiyyəti dövründə yəhudilərin Misirdən çıxıb getmələri mümkünsüz idi, bunun üçün ən əlverişli vaxt firon Ehnatonun ölümündən sonra bir neçə il sürmüş anarxiya dövrü ola bilərdi.

Yəhudilərin dini kitablarından başqa, onların qədim dövrdə yaşamış başçı, ruhani və qəhrəmanları ilə bağlı əfsanə və miflərin toplandığı çoxsaylı, bədii sayıla biləcək kitabları da vardır və bu əsərlərdə xalq özünün böyük şəxsiyyətlərinin adını yüksəltməklə yanaşı, onların gerçək kimliyini dumana da bürümüş olur. Görünür, yəhudi inancının təsbit olunduğu müqəddəs kitabların beşliyinə düşə bilməyən çox gərəkli məlumatların qalıqları da bu əfsanə və miflərə qarışaraq yaşamaqdadır. Belə əfsanələrdən birində Musanın hələ körpə ikən necə iddialı olduğu açıqlanır. Burada deyildiyinə görə, Musa firon ailəsində tərbiyə aldığı vaxtlarda bir gün firon onu qucağına alıb oynatmağa başlamış və Musanı əlləri üstündə başı üzərinə qaldırarkən bu üçyaşlı körpə gözlənilmədən fironun başındakı tacı qapıb öz başına keçirmişdi. Baş verən hadisənin pis yerə yozula bilməsi fironu bərk qorxutmuşdu və o gecikmədən sarayında yaşayan müdriklərdən bu əlamətin necə yozula biləcəyini soruşmuşdu. Başqa bir əfsanədə Musanın qoşun başçısı olaraq Efiopiyada göstərdiyi igidliklərdən danışılır və onun Misirdən uzaqlaşmasının səbəbi sarayda bir sıra əyanların, ola bilsin, fironun özünün ona qarşı hansısa fitnə törədəcəyindən çəkinməsi ilə izah olunur. Bibliya və bir sıra digər mənbələrdə Musa ilə bağlı yazılanlar onun xarakterinə çox uyğun gəlir. Bibliyada Musa qisasçı və çox çılğın bir insan kimi xarakterizə olunur, məsələn, burada yazıldığına görə, o, yəhudi qulla kobud davranan nəzarətçiyə bərk acıqlanır və onu vurub öldürür, başqa bir yerdə Sina dağından qayıdarkən xalqın dindən uzaqlaşdığını görüb çox hirslənir və tanrı tərəfindən ona verilmiş qanunların yazıldığı daş lövhələri yerə çırpıb sındırır. Başqa bir mənbədə isə səbəbi sonadək aydın olmayan bir durumda tanrı onu səbirsizliyinə görə cəzalandırır. Belə xasiyyətlər insanlara başucalığı gətirmədiyindən, Musa haqqında deyilən bu məlumatların doğru olması mümkündür. Görünür, yəhudilərin tanrının xarakteri ilə bağlı formalaşmış ilkin baxışlarında onu qısqanc, amansız və rəhmsiz saymalarının da Musa ilə bağlı xatirələrindən doğduğunu zənn etmək olar, axı onları Misirdən çıxaran gözəgörünməz tanrı yox, Musa adlı konkret bir insan olmuşdu.

Musanın xarakterik cəhətləri ilə bağlı verilən bir məlumat bizim diqqətimizi daha çox cəlb edir. Deyilənə görə, Musa "çətinliklə danışırmış", yəni danışanda kəkələyir,

sözlərini çatdırmaqda çətinlik çəkirmiş, elə buna görə də fironla danışığa gedəndə onun sözlərini firona çatdırmaq üçün Musanın qardaşı kimi tanıdılan Araon da onunla birlikdə gedər, Musanın nə demək istədiyini izah edərmiş. Bu fakt, görünür, tarixi bir gerçəklikdən soraq verir və böyük tarixi şəxsiyyətin kimliyini öyrənmək baxımından dəyərli bir məlumat sayılmalıdır. Ancaq bu fakt daha mühüm olan başqa bir dəyərli məqamla da bağlı ola bilər. Məlumat bir az korlanmış təhrif olunsa da, Musanın yadelli olmasını nəzərə çarpdırmaq üçün də deyilə və onun başçılıq etdiyi semit mənşəli yəhudilərlə onların anladığı bir dildə danışa bilməyib dilmancın yardımından yararlandığını göstərmək üçün də ola bilərdi, hər halda yəhudilərə başçılıq etdiyi ilk illərdə Musanın onların dilində danışmağı bacarmadığı ağlabatandır. Bununla da, irəli sürdüyümüz tezisi təsdiq edən daha bir sübut tapılır: Musa misirli idi.

Beləliklə də, indiyədək gördüyümüz işlərin aralıq yekununu çıxara bilərik. Musanın misirli olması ilə bağlı irəli sürdüyümüz ehtimalın sübut olunub-olunmamasından asılı olmayaraq, biz burada dəyərli sayıla biləcək heç bir ümumi nəticəyə gəlib çıxa bilmədik. Bibliyada Musa və onun köməyi ilə yəhudilərin Misirdən çıxması hadisələrini oxuyan istənilən tarixçi onların xeyirxah niyyətlə quraşdırılmış bir əfsanə olduğunu və uzun illərin ənənəsi ilə işlənib cilalandığını deyə bilər. Biz Bibliyadakı bu məlumatların öncə necə səsləndiyini bilmirik; bununla bağlı nəsə öyrənə bilsə idik, bütün bunları etməkdə hansı məqsədin güdüldüyünü anlaya, aşındırılmış mətnlərdə nəyə can atıldığını öyrənə də bilərdik, ancaq əlimizdə heç bir əsaslı tarixi fakt olmadığı üçün bu məsələ qaranlıq qalır. Öz araşdırmalarımızın köməyilə qurduğumuz, hadisələrin gedişatında Bibliyanın bir sıra incilərinə yer qalmadığı da bizi narahat eləmir, məsələn, bizim qurduğumuz sxemdə tanrının misirlilərə göndərdiyi on cəza, dənizin yarılıb Musa ilə yəhudilərə yol verməsi, tanrının Sina dağında Musaya qanunlar yazılmış daş lövhələr verməsi kimi hadisələrə yer yoxdur. Ancaq çağdaş günümüzdə aparılan tarixi araşdırmaların bizim apardığımız araşdırmalarla ziddiyyət yaratdığı məqamlara laqeyd qala da bilmərik.

Ən görkəmli nümayəndəsini Edvard Meyerin şəxsində tanıdığımız bu yeni tarixçilər Bibliyada verilən məlumatların ən vacib yerlərinin təhlilində eyni bir mövqedən çıxış etməyə başlamışlar. Onlar da sonradan İsrail xalqını yaratmış yəhudi qəbiləsinin bəlli bir məqamda yeni bir dini qəbul etdiyini düşünürlər. Ancaq onların düşüncələrinə görə, yəhudilərin bu yeni dini qəbul etməsi nə Misirdə, nə də Sinay yarımadasındakı dağların ətəyində baş vermişdir, bu mühüm hadisə, onların fikrincə, bol sulu və su quyuları ilə zəngin vahələrin olduğu Fələstinin cənubunda, Ərəbistanın şərq sərhədləri ilə Sinay yarımadasının əhatə etdiyi zolaqda, Merebat-Kadeş deyilən məntəqədə baş vermişdir. Onlar burada Yahve adlanan tanrı ilə bağlı inancı qəbul etmişdilər və çox güman ki, bu tanrı buradakı madianların qonşuluğunda yaşayan ərəblərin itaət etdiyi tanrı olmuşdur. Böyük ehtimalla, qonşuluqda yaşayan bütün başqa oymaqlar da bu tanrıya itaət edirdilər.

Heç şübhəsiz, Yahve vulkan tanrısı idi. Bəlli olduğu kimi, istər Misirdə, istərsə də Sinay yarımadasında vulkanlar yoxdur; bunun əksinə olaraq, Ərəbistanın şərq sərhədləri boyunca tarixən fəaliyyətdə olan çoxlu vulkanlar olmuşdur. Çox güman ki, belə vulkanların olduğu yerlərdən biri də Yahvenin məskəninin yerləşdiyi deyilən Sina-Xereb dağı olmuşdur. Bibliyada bu tanrı haqda ilkin məlumatların sonradan çox

güclü dəyişikliklərə uğramasına baxmayaraq, Edvard Meyer bu tanrının qədim dövrlərdə necə təsəvvür olunması ilə bağlı bilikləri müəyyənləşdirə bilmişdir: Yahve amansız və qaniçən bir iblis şəklində, yalnız gecələr gəzib dolaşan, gündüz işığından qaçan mifik varlıq olaraq təsəvvür olunurdu.

Bu qaniçən tanrı ilə xalqın arasında vasitəçilik edən insanın adı isə Musadır. O, madianlı kahin İofarın kürəkənidir və onun qoyun sürüsünü otararkən ilahi bir çağırış eşitmişdi. Kadeşdə o özünün ruhani atası saydığı İofardan da bir sıra təlimatlar alırdı.

Bununla bağlı olaraq, Edvard Meyer yazır: "Şübhəsiz, Misirdən köç etməkdə və misirlilərin tanrı tərəfindən cəzalandırılmasında nə isə tarixi bir gerçəkliyin izləri olmamış deyil". Ancaq onun öz araşdırmalarında fakt kimi qəbul etdiyi bu hadisələri tarixi hadisələr zəncirinin harasında yerləşdirməyi və necə dəyərləndirməyi müəyyənləşdirə bilməməsi də bir fakt olaraq göz önündədir. O, sünnət ayininin Misirdən götürüldüyünü qəbul etməyə hazırdır və Meyer burada bizim arqumentlərimizi iki mühüm faktla zənginləşdirə də bilir. Birincisi, xalqa sünnət ayinini öyrədən adamın İisus Navin olduğunu aydınlaşdırır və onun bu ayini "öz xalqını misirlilərin istehzasından qurtarmaq üçün etdiyini" deməsi faktının olduğunu da bildirir, sonra isə Herodota əsaslanaraq "Fələstində yaşayan finikiyalıların (çox güman ki, yəhudilər nəzərdə tutulur) və suriyalıların sünnət ayinini misirlilərdən götürdüklərini etiraf etdikləri" faktını açıqlayır. Ancaq Musanın misirli ola bilməsi faktı onu qətiyyən maraqlandırmır. Onun Musa ilə bağlı qənaəti belədir: "Musa bizə Kadeş kahinlərinin başçısı kimi bəllidir, daha doğrusu, onun obrazı kultla bağlı əfsanədən doğmuşdur və o gerçək tarixi şəxsiyyət deyildir. Bibliyada yazılanları tarixi həqiqət kimi qəbul edənləri çıxsaq, indiyədək onu gerçək tarixi şəxsiyyət sayan insanlardan heç kim onun varlığını doğruldan hansısa bir tarixi faktı ortaya çıxarmamışdır və onun konkret olaraq yaratdığı nəyisə və ya gördüyü hansısa bir tarixi işi göstərə bilməmişdir".

Bunun əksinə olaraq, Meyer yorulmadan Musanın Kadeş və Madianla əlaqələrindən danışır: "Musa obrazı Madian və səhrada yaşayan xalqların kultu ilə çox sıx şəkildə bağlıdır"; "Musanın obrazı Kadeş deyilən məntəqə ilə (Massa və Meriva) qırılmaz surətdə bağlıdır. Musanın yəhudiləri Misirdən köçürməsi, onun doğulması və gəncliyi haqqında deyilənlər isə ikinci dərəcəli məsələlərdir və Musanı sonradan bu əfsanələrə qoşmaq istəyinə görə uydurulmuşdur". Burada o, Musanın gəncliyi ilə bağlı danışılanların sonradan bir daha xatırlanmadığına əsaslanaraq, bu mülahizələrini doğrultmağa çalışır: "Madiana gəlib çıxmış Musa artıq nə misirli, nə də fironun nəvəsi kimi tanınmır, o tanrı Yahvenin özü ilə xalq arasında vasitəçi seçdiyi sadə bir çobandır. Sonrakı Bibliya yazılarında tanrının Musanın vasitəçiliyi ilə Misirdə törətdiyi on fəlakətdən də söz açılmır, onun keçmiş əlaqələri xatırlanmır, Misir fironunun yəhudi uşaqlarını öldürmək üçün verdiyi iddia edilən əmr isə büsbütün yaddan çıxır. Yəhudilərin Misirdən köçü və bununla bağlı misirlilərin cəzalandırılmasında Musa heç bir rol oynamamışdı və elə buna görə də Bibliyanın sonrakı mətnlərində, bir dəfə də olsun, xatırlanmır. Eləcə də Musanın yeniyetmə və gəncliyində çox igid bir insan olması ilə bağlı deyilənlər artıq yaşa dolmuş Musanın xarakterində əsla görünmür; o yalnız tanrı Yahvenin vasitəçisi olan və onun fövqəltəbii güc bağışladığı adam kimi tanıdılır".

Bütün bu deyilənləri oxuyandan sonra qarşımızda indiyədək tanıdığımız Musadan çox fərqli başqa bir insanın dayandığını görürük. Bizim indiyədək tanımaq istədiyimiz Musa əslən çox qüdrətli bir misirlidir, o xalqa bütün ovsun və caduların ciddi yasaq olunduğu bir dini inanc bəxş edir, burada təsvir olunan ikinci Musa isə Madian torpaqlarında yerləşən Kadeş məntəqəsindəndir və hətta sağlamlıq tanrısı kimi anlaşılan bürünc ilandan büt düzəltməyi də özünə rəva görür. Görünür, bizim misirli Musanın madianlı Musadan fərqi, universal tanrı olan Atonun ilahilik qaynağı olan və dağda məskunlaşan iblis Yahvedən fərqi qədərdir. Beləliklə də, dediyimiz bu yeni tarixçilərin araşdırmalarında gəldikləri nəticələrə azacıq da olsa inanırıqsa, onda "Musa misirlidir" deyə öz mühakimələrimizdən toxuduğumuz nazik sap ikinci dəfə qırılacaq. Özü də adama elə gəlir ki, bu dəfə qırılan sapı yenidən bərpa etməyə heç bir ümid yeri yoxdur.

V

Ancaq gözlənilmədən burada da bir çıxış yolu tapıldı. E. Meyer və onun kimi düşünən tarixçilərin təsirilə Musanın Kadeş şəhəri kahinlərinin arasından çıxması ilə bağlı düşüncə getdikcə insanlar arasında öz yerini möhkəmləndirməkdə idi və Musanın böyüklüyü və ad-sanı da Bibliyada yazılanlarla bağlı dəyərləndirilirdi. Ancaq sonradan, daha doğrusu, 1922-ci ildə E. Zellinin etdiyi bir kəşf bizim qarşıya qoyduğumuz problemin həll olunmasına çox böyük köməklik göstərdi. O öz araşdırmalarında e.ə. VIII yüzillikdə yaşamış peyğəmbər Yeşayanın kitabında din təlimçisi Musanın mənsub olduğu yaramaz və tərs yəhudi xalqı tərəfindən amansızcasına öldürülməsi faktını tapıb ortaya qoydu. Bu kitabda yazıldığına görə, Musanı öldürən yəhudilər bundan sonra onun yaydığı dindən də üz döndərmişdilər. Ancaq bu məlumatı yalnız Yeşaya vermir, ondan sonra gələn bir çox başqa peyğəmbərlərin kitablarında da eyni şey yazılmışdır və Zellinin gəldiyi nəticəyə görə, sonradan Bibliyada yer almış göydən gələcək hansısa xilaskar (mesiya) ilə bağlı ideyaların yaranmasında bu hadisənin çox güclü təsiri olmuşdur. Yəhudilər Babil əsirliyində ikən onların arasında belə bir ideya sürətlə yayılmağa başlamışdı: bizim utanmazcasına öldürdüyümüz Musa ölülərin arasından dirilib bu dünyaya qayıdacaq və tövbə edən xalqını yenidən köləlikdən xilas edəcək, hətta ola bilsin ki, əbədi firavanlığın hökm sürdüyü bir hakimiyyət də yaradacaq. Bu ideyanın sonrakı din yaradıcılarının taleyi ilə necə uzlaşdığını da biz artıq bilirik.

Sözsüz, Zellinin Yeşaya peyğəmbərin sözlərini nə dərəcədə doğru yozduğu ilə bağlı nəsə demək mənim bacaracağım iş deyil. Ancaq onun gəldiyi nəticə doğrudursa, onda bizə gəlib çatan bu məlumatın həqiqiliyinə inanmağa dəyər, axı belə bir məlumatı uydurmaq heç də asan bir iş deyil. Bu məlumatın sonradan nə üçün Bibliyadan çıxarılmasının səbəbi aydın deyil; əgər bunu etmişlərsə, deməli, bu faktın unudulmasını istəmişlər. Sözsüz, bu məlumatın bütün detallarını da doğru hesab etməməliyik. Zellinin bildirdiyinə görə, böyük ehtimalla, yəhudilər Musanı Şərqi İordan torpağında yerləşən Sixem məntəqəsində öldürmüşlər. Ancaq çox keçmədən onun Musanın öldürüldüyü yeri dəqiqləşdirməsinin bizim mülahizələrimizlə uzlaşmadığını anlayacağıq.

Zellinin dediklərinə əsasən, misirli Musanın onun dininə gəlib sonradan üz çevirən yəhudilər tərəfindən öldürüldüyü ilə bağlı müddəanı qəbul etsək, bizim tutub

getdiyimiz sapın qırılmadan davam etməsini, başqa sözlə desək, apardığımız araşdırmanın tarixi gerçəkliklərə uyğun gəldiyini sübut edə bilərik. Ancaq bununla yanaşı, biz “öz yolumuzla davam etməyi”, yəni bu müəllifin dediyindən fərqli olan, öz müstəqil yolumuzla getməyi daha məntiqə uyğun hesab edirik. Beləliklə də, Misirdən köçüb getmək bizim araşdırmamızda başlanğıc nöqtə kimi qalır. Musa ilə Misirdən çıxıb gedənlərin sayının yetərincə çox olduğunu da düşünməyə dəyər; çox iddialı və böyük bir məqsədə doğru yönəlmiş insan azsaylı tərəfdarlarla yola çıxmağı özünə sığışdırmazdı. Böyük ehtimalla, köçmək istəyənlər uzun müddət Misirdə qalıb özlərinə qoşulacaq adamların sayca artmasını da gözləməli olmuşdular. Ancaq başqa bir çox müəlliflər kimi, Misirdə yaşamış yəhudilərin çox az qisminin burada düşdükləri təsirlərə bütünlüklə qapıldıqlarını düşünsək, məncə yanılmarıq. Başqa sözlə desək, Misirdən qayıdan yəhudi oymağı Misirlə Kənaan torpağı arasında yerləşən, burada çoxdan yaşayan başqa yəhudi oymaqları ilə birləşmişdilər. Misirdən köçən yəhudilərlə yerli yəhudilərin birləşmiş və hamılıqla yeni bir dini qəbul edərək izrael (İsrail) xalqını yaratmışdılar. Bu din Yahve adlı tanrıya inam üzərində qurulmuşdu və E.Meyerin dediyi kimi, bu tanrıya itaəti yəhudilər madianlıların təsiri ilə Kadeş deyilən yerdə qəbul etmişdilər. Beləliklə də, ancaq vahid din ətrafında birləşdikdən sonra qohum oymaqlardan təşkil olunmuş bu xalq özündə Kənaan torpaqlarını tuta biləcək bir güc tapmışdı. Ancaq hadisələrin belə inkişafı Musanın Şərqi İordanda öldürülməsi hadisəsi ilə uzlaşmır, deyilənlərin ağlabatan olması üçün o, yəhudilərin dediyimiz bu birliyinin yaranmasından çox-çox əvvəllər öldürülməli idi.

Şübhəsiz, yəhudi xalqının formalaşmasında çox müxtəlif elementlər iştirak etmişdir, ancaq bu xalqın yaranmasının ilk mərhələsində Misirdən gələn yəhudilərlə yerli oymaqlardan olan yəhudilər arasında böyük fərq olmuş və onların birgə yaşamağa başladıqları gündən bu fərq özünü çox qabarıq şəkildə göstərmişdir. Bu məqamı nəzərə alsaq, yəhudi millətinin iki ayrı icmanın birləşməsindən yarandığını da demək olar və bu faktın doğruluğunu onların qısa müddət ərzində birləşməsindən sonra İzrael və İudeya kimi iki dövlətə ayrılması da konkret olaraq təsdiqləyir. Tarix belə təkrarları sevir, burada yaranmış hansısa birliyin parçalanaraq onu yaradan fərqli hissələrə ayrılması tez-tez baş verən hadisələrdəndir. Bunun ən parlaq nümunələrindən biri Avropada baş vermiş Reformasiyanın Almaniyanı min il ərzində Romanın tərkibində olan və həmin dövrlərdə öz müstəqilliyini qoruyub saxlaya bilmiş keçmiş hissələrinə ayırması olmuşdu. Yəhudi xalqının arasında baş verən bu ikiyə bölünmə ilə bağlı yeni və köhnə durumun necə olduğunu dəqiqliyi ilə deyə bilmirik; bu dövrlə bağlı məlumatlarımız çox da etibarlı olmadığı üçün dilə gətirə biləcəyimiz belə bir hökmün üstündə inamla və israrla dayana bilmirik: ikiyə bölünmüş ölkənin şimalında lap əvvəllərdən yaşayan oturaq oymaqlar, cənubunda isə Misirdən gəlmiş yəhudi oymaqları toplanmışdılar. Ancaq belə bir ayrılma varsa, deməli, bu, öncədən olmuş hansısa birləşmə ilə bağlı olaraq baş verməlidir. Misirdən köçüb gəlmiş yəhudilər sayca o biri yəhudilərdən az olmalı idilər, ancaq onlar yerli oymaqlarla müqayisədə çox mədəni olduqları üçün, bütün xalqın gələcək inkişafına çox böyük təsir göstərmişdilər, axı onların özləri ilə gətirdiyi bu yenilikçi ənənələr yerli yəhudi oymaqlarında yox idi. Ola bilsin, bu təsirlərin yaranmasında ənənədən başqa da, hansısa vasitələr olmuşdu. Qədim yəhudi tarixində ən qəribə müəmmalardan biri də

burada ortaya çıxmış levitlərin mənşəyi ilə bağlı idi. Levitləri İzraelin on iki oymağından biri olan Levilərlə əlaqələndirirlər, ancaq ən qəribəsi, bu oymağın keçmişdə hansı bölgədə yaşadığı və Kənaan torpaqlarının hansı hissəsinin onlara verildiyi ilə bağlı heç bir məlumat yoxdur. Onlar yəhudi dinində çox yüksək ruhani vəzifələri tuturdular, lakin kahin kastasından fərqlənirdilər, yəni levitin ruhani vəzifəsi tutması məcburi deyildi. Buna görə də onların hansısa kasta olduğunu da demək olmaz. Musanın milli kimliyi ilə bağlı irəli sürdüyümüz mülahizə bu məsələyə də aydınlıq gətirə bilər. Çox yüksək rütbəli və adlı-sanlı soydan olan misirli Musa kimi bir adamın özünə yad bir xalqın içinə təkbaşına getdiyini düşünmək doğru olmazdı, lakin onun yəhudilərin arasına xidmətində olan bir bölük insanla gəldiyini deməyin yeri var. Sözsüz, o bu yola çıxarkən ətrafındakı yüksək rütbəli kimsələri, yaymaqda olduğu yeni dinin misirli ardıcıllarından ona yaxın olanları, katiblərini və qulluqçularını da özü ilə aparmalı idi. Bax, elə bu insanlar da sonradan levit adlanmağa başlamışdılar. Musanın özünün də levit olması ilə bağlı Bibliyada yer almış məlumat açıq-aydın yanlışdır: levitlər Musanın tərəfdarları idilər. Gəldiyimiz bu nəticənin doğruluğunu bundan öncə yazdığım hissədəki faktlar da sübut eləyir: məlum olduğu kimi, levitlərin arasında çox uzun müddət üçün misirli adlarının qoyulması xarakterik olmuşdu. Musanın yaxın ətrafından olan bu insanların bir çoxunun Musanın öldürülməsindən və onun dininin aradan qaldırılmasından sonra da yaşadıqlarını ehtimal etmək olar. Onların sonrakı nəsilləri artaraq yavaş-yavaş arasında yaşadıqları xalqla qaynayıb qarışmışlar, ancaq onlar öz öndərinə dönük çıxmamış, onun xatirəsini əziz tutmuş, Musanın dini təliminin ənənələrini qoruyub saxlamış və yaşatmışlar. Xalq tanrı Yahvenin dini ətrafında birləşəndə də, levitlər xalqın içində mədəni səviyyə baxımından ən yüksək təbəqəni təşkil etmişlər.

Bu yerdə əvvəlcədən belə bir ehtimal irəli sürmək istəyirəm: Musanın amansızlıqla öldürülməsindən Kadeşdə Yahve dininin qəbul olunmasınadək iki nəsil dəyişilmişdi, çox güman ki, yüz il keçmişdi. Mən burada Musanın başçılığı ilə Misirdən köçmüş yəhudilərin yerli yəhudilərlə onların Yahve dinini qəbul etdikdən sonra, yoxsa əvvəldən görüşdüklərini müəyyənləşdirəcək bir üsul tapa bilmirəm. Çox böyük ehtimalla, onların görüşü yerli yəhudilərin bu dini qəbul etməsindən əvvəl baş vermişdi. Ancaq yekun nəticəyə gəlmək üçün bunun necə baş verməsi vacib deyil. Kadeşdə baş verənlər iki inancın qarşılaşıb kompromisə gəlməsi idi və burada, sözsüz, Musanın Misirdən çıxardığı yəhudilər də böyük rol oynamışdılar.

Bütün bunların sübutu kimi yəhudilərin arasında sünnət ayinin icra olunmasını göstərmək olar və bu ayinin qəbul olunması misirlilərin dini qalıqlarının yaşamasını göstərməklə yanaşı, onun vacib mövqelərini hələ də itmədiyinə işarə idi. Bu adət Yahve dininin məcburi ayinləri sırasına yazılmışdı və artıq Musanın adamlarına olan – ola bilsin, levitlərə – bir güzəşt demək idi, bununla da musaçılar üstünlük saydıqları ənənədən əl çəkmək istəmir, öz köhnə dinlərinə bağlılıqlarını saxlamağa çalışırdılar. Bunun qarşılığında isə yeni dini və onun tanrısını qəbul edir, madianlı kahinlərin bu tanrı ilə bağlı ehkamlarına itaət etməyə razılıq verirdilər. Ola bilsin, burada digər çoxlu qarşılıqlı güzəştlər də olmuşdu. Biz artıq yəhudi ayinlərində tanrının adının birbaşa çəkilməsini yasaqlayan ehkamı xatırlatmışdıq. Bu ehkama görə, ayinlərdə Yahve əvəzinə Adonay adı işlənməli idi. Ehkamın doğurduğu nəticədən öz

araşdırmalarımızda yararlanmaq çox cəlbedici görünür, lakin bunu etmək üçün yetərincə arqument də yoxdur. Bəlli olduğu kimi, tanrının adının çəkilməsini yasaqlamaq çox qədim dövrlərdə bütün dinlərdə olmuşdur. Ancaq bu tabunun nə üçün yəhudi dini ehkamları sırasında yenidən özünü göstərməsi anlaşılmaz görünür; çox güman ki, bunun meydana çıxması hansısa yeni bir motivin yaranması ilə bağlı olmuşdur. Bu qadağanın bütün hallarda yerinə yetirildiyini də demək olmaz; tanrı adı qoşularaq yaradılan adlarda Yahvenin adı açıq şəkildə işlənmişdir (Hehanon, İehovo, İeşua kimi adların Yahve adından törəndiyi açıq-aydındır). Lakin bu adla bağlı məsələ bir az fərqlidir. Məlumdur ki, Bibliya mətnlərinin tənqidi araşdırılması yəhudilərin müqəddəs altılıqda birləşmiş kitablarının iki fərqli qaynağının olduğunu göstərir. Bu qaynaqlar Y və E ilə işarələnirlər, səbəbi isə qaynaqların birində tanrının adının Yahve, o birində isə Elohim kimi göstərilməsidir. Deməli, ehkamlarda Yahveni əvəz edəcək söz olaraq Adonay yox, Elohim təsbit olunmuşdur, lakin elə buradaca bir müəllifin bu sözlərini xatırlamağa dəyər: "İki fərqli adın olması bu dinlərin yaranmasında iki fərqli tanrının olmasını açıq-aydın sübut edən bir əlamətdir".

Bizim mülahizəmizə görə, sünnətin Yahve dini ayinləri arasına daxil edilməsi Kadeşdəki din yaradıcılığında kompromislərin də yer aldığının göstəricisidir. Bu dövrlə bağlı Bibliya mətnlərinin Y və E işarəli iki qaynaqdan götürülməsini nəzərə alsaq, bu kompromisin izlərini axtarmaq olar. Burada başlıca istiqamət tanrı Yahvenin böyüklük və qüdrətini göstərməyə yönəlmişdir. Musanın adamları yəhudilərin Misirdən çıxarılmasını çox böyük igidlik hesab etdiklərinə görə, hadisənin unudulmaması məqsədilə onu tanrı Yahvenin adına bağladılar və bütün baş verənləri tanrı Yahvenin onları Misir köləliyindən qurtarması, onlara görə misirlilərə on bəla göndərməsi kimi rəngarəng detallarla bəzəməli oldular. Bütün bunların gedişatında Yahvenin gücünün yenilməzliyini gözə çarpdırmaq üçün onun vulkan tanrısı olarkən daşıdığı epitetlərdən də yetərincə yararlandılar: Bibliya bu dövrlə bağlı yer almış gecələr odlu sütunlara çevrilərək göyə ucalan tüstü burumları, güclü tufanlar, bir anın içində dənizin quruyaraq musaçılara yol verməsi, sonra amansız su burulğanlarının yaranıb onları izləyənləri boğub öldürməsi kimi məqamlarda bu, aydın görünür. Misirdən köçməklə dinin əsasının qoyulmasınadək olan zaman intervalı qısaldılır və ilahi qanunlar Kadeşdə deyil, dağın ətəyində, vulkan püskürməsi zamanı verilir. Ancaq hadisələrin bu şəkildə nəql edilməsi Musanın gördüyü işi ədalətsizcəsinə dəyərləndirməkdir, axı necə olsa da, yəhudiləri Misirdən çıxaran vulkan tanrısı Yahve yox, Musa olmuşdu. Musadan "üzrxahlıq" etmək üçün Bibliyanı yazanlar onu Kadeşə və ya Sinay-Xorebə "köçürürlər" və burada onu madianlı kahinə çevirirlər. Bir az sonra bu işi görənlərin eyni üsulla ikinci bir təcavüzkar niyyəti doğrultmağa çalışdıqlarını da aydınlaşdıracağıq. Beləliklə də, hadisələrin axarında pozulmuş tarazlıq bərpa edilmiş, Madian dağlarında yerləşən tanrı Yahve Misirə köçürülmüş, Musanın fəaliyyəti isə Şərqi İordanın Kadeş məntəqəsinə bağlanılmışdı. Bundan əlavə, Musanın şəxsiyyəti çox sonralar yaşamış madianlı İofarın kürəkəni ilə eyniləşdirilmiş və bu kürəkən Musanın adını ondan borc olaraq götürmüşdür. Ancaq misirli Musa bu "ikinci" Musanın üstünə kölgə saldığından, biz onun haqqında heç bir konkret söz deyə bilmirik. Görünür, elə Musanın şəxsiyyətinin ikinci birisi ilə birləşdirilməsi də onun Bibliyada nəzərə çarpan ziddiyyətli və bir adamda qərarlaşması mümkün olmayan

xarakterinin yaranmasına gətirib çıxarmışdır. Burada onu çox vaxt hökmlü, acıqlı, hətta çox amansız birisi kimi təsvir edirlər, lakin ardınca onun insanlar arasında ən nəzakətli və ürəyiyumşaq birisi olduğundan da danışırlar. Öz xalqı ilə çox ağır və keşməkeşli yol keçmiş Musanın belə bir yumşaq təbiətli adam olması inandırıcı deyil və görünür, bu xüsusiyyətlər ona yox, onunla eyniləşdirilən ikinci şəxsə, madianlı kahinə xas olmuşdur. Mənə elə gəlir, süni şəkildə birləşdirilərək bir adama çevrilmiş bu iki şəxsi bir-birindən ayırmaq daha yaxşı olardı və misirli Musanın heç vaxt Kadeşdə olmayıb tanrı Yahvenin adını eşitmədiyini, madianlı Musanın da heç vaxt Misirdə olmayıb tanrı Atonla bağlı heç nə bilmədiyini düşünmək daha düzgün olardı. Göründüyü kimi, bu iki ayrı-ayrı şəxsiyyəti birləşdirib bir nəfər kimi ortaya çıxarmaq üçün misirli Musanı Madiana gətirmək tələb olunmuşdur və bunun səbəbləri isə araşdırmalarımızın gedişatında aydınlaşır.

VI

Biz İzrael (İsrail) xalqının qədim dövr tarixi ilə bağlı apardığımız yenidənqurmada yersiz özünəarxayınlığa qapılmaqla günaha batdığımızı deyənlərin qınaqlarını ikinci dəfə də eşitməkdən çəkinmirik. Biz özümüz də araşdırmalarımızın gedişatında irəli sürdüyümüz bir sıra ehtimallarda ifrata vardığımızı bilirik, tənqidləri dözümlə qarşılamağa hazırıq. Bu yenidənqurmamızda zəif tərəflərin olduğunu anlayırıq, lakin eyni zamanda onun güclü tərəflərinin olduğunu da yaxşı bilirik. Ümumilikdə isə gəldiyimiz nəticə belədir: başladığımız işin seçdiyimiz yöndə davam etdirilməsinə əmək sərf etməyə dəyər. Bibliyada dəyərli, həm də çox dəyərli məlumatlar var, ancaq bu məlumatlar bir yandan məqsədyönlü təmayüllərin təsirindən, başqa bir yandan da bu mətnlərə poetik təfəkkürlə bəzək-düzək vurulması ucbatından çox korlanmışdır. İndiyədək apardığımız araşdırmalar bu mətnləri korlayan təmayüllərdən birini aydınlaşdıra bilmişdir. Bu tapıntı bundan sonra tutmalı olduğumuz istiqaməti də göstərir. Buradakı başqa təmayülləri də tapıb üzə çıxarmağa borcluyuq. Bu təmayüllərin korladığı məlumatları müəyyənləşdirməklə biz hadisələrin gerçək axarının necə olduğunu konkretləşdirə bilərik.

Gəlin Bibliyanın tənqidi araşdırma metodlarına arxalanaraq, yəhudi dininin başlıca ehkamlarının toplandığı Altı Müqəddəs Kitabın yaranması ilə bağlı bu mətnlərin bizə hansı məlumatları verə biləcəyini öyrənək (Burada Altı Müqəddəs Kitab dedikdə Musanın adı ilə bağlanan beş kitab və İisus Navvinin adı ilə bağlanan bir kitab anılır və bizi də ən çox bu sonuncu kitab maraqlandırır). Kitabların ən qədim ilkin qaynağı bizim Y kimi simvollaşdırdığımız Yahveist yazılar sayılır və indiki tarixçilər iddia edirlər ki, bu yazıların müəllifi Davudun çağdaşı olmuş Ebcator adlı kahindir. Bir az sonra isə bu yazıların yəhudilərin Şimal krallığında Elohist adlandırdığımız ikinci qaynağı da üzə çıxır. E.ə. 722-ci ildə Şimal krallığı dağılandan sonra adı bəlli olmayan hansısa kahin bu iki qaynağı bir kitabda birləşdirir və buraya özünün də əlavələrini daxil edir. Onun işləyib ortaya çıxardığı variant YE kimi simvollaşdırılır. E.ə. VII yüzillikdə guya məbədi təmir edərkən tapıldığı deyilən beşinci kitabın tam mətni də İkinci qanun kitablarının sırasına artırılır. E.ə. 586-cı ildə məbədin dağıdılmasından sonra yəhudilər əsir alınır və onlar öz ölkələrinə qayıdandan sonra Müqəddəs kitabların “Kahinlik kodeksi” adı altında yenidən təkmilləşdirilməsi başlanır, daha

sonra e.ə. V yüzillikdə Müqəddəs kitablar sonuncu dəfə redaktə olunur. O gündən etibarən bu kitablarda mühüm bir dəyişikliyin baş vermədiyi məlumdur.

İzraelin kralı olmuş Davudun tarixi və onun yaşadığı dövrdə baş vermiş hadisələrlə bağlı məlumatlar, çox güman, o çağda yaşamış biri tərəfindən yazılmışdır. Bu məlumatlar "tarixin atası" Herodotdan 500 il öncə yazılmış tarixi gerçəklərə əsaslanır. Yəhudilərin inanclarına Misir təsirinin olması ilə bağlı irəli sürdüyümüz ehtimalı əsas götürərək araşdırsaq, əlimizə gəlib çatan bu gerçək tarixi məlumatlar da çox asan qavranıla bilir. Burada, hətta belə bir şübhə də yaranır: deyəsən, ilk yəhudi əlifbasının yaranmasında Musanın yanında olmuş katiblərin də rolu olmuşdur. Çox qədim dövrlərdə baş vermiş hadisələrdən hansılarının daha uzaq keçmişdə, hansılarının isə şifahi olaraq dildən-dilə keçərək sonradan yazıldığını da aydınlaşdırmaq olmur və baş vermiş hadisələrlə onların yazıya alındığı zamanlar arasındakı intervalları müəyyənləşdirmək üçün bizim biliklərimiz yetərli deyil. Ancaq öyrəndiyimiz mətn bu gün qarşımızda dayandığı şəkildə də öz taleyi ilə bağlı başına nələrin gəldiyini heç də pis anlatmır. Ziddiyyətli düşüncələrin birinin o birini istədiyi kimi yozması bu mətnlərin üzərində iz buraxmadan keçməmişdir. Burada hansısa gerçəkliyi yanlışa apararkən bir tərəfdən onu saxtalaşdırmış, korlamış və genişləndirmişlərsə, – bir sıra hallarda isə bu təsirlər mətni daşımalı olduğu anlamın əksi olan bir anlama da gətirib çıxarmışdır – bununla da, bir yandan gerçək mətni özlərinin gizli niyyətlərinə uyğunlaşdırmağa çalışmışlarsa, başqa bir tərəfdən onu öz niyyətləri üçün korlamaq istəyənlərin başının üstünü kəsdirən və gerçək mətnlərə hörmət bəsləməli olduqlarını unutmağa qoymayan, hər şeyi necə varsa, eləcə də saxlamağa yönəltmək istəyən, mətnin içindəki gerçəyin gizli şəkildə olsa belə, saxlanılmasına çalışan bir duyğu öz təsirini göstərmişdir. Bütün bunlar isə gerçəkliyin yerini heç cür doldura bilmədiklərindən, heyrətamiz boşluqların, yersiz təkrarçılığın, açıq-aydın gözə çarpan ziddiyyətlərin yaranmasına gətirib çıxarmışdır və nəticədə, gizlədib üzə çıxarmaq istəmədikləri məqamların bəlli əlamətləri bir şəkildə üzə çıxmağa imkan tapmışdır. Hər hansı mətni bu sayaq korlamağa çalışmaq adam öldürməklə bağlı cinayətə çox bənzəyir. Burada qətli törətməkdən çox onun izlərini ört-basdır eləmək daha çətin olur. Danışıqlarımızda istifadə etdiyimiz "korlamaq" ifadəsinə ikimənalı bir söz kimi də yanaşmaq olar, bu ikilik onun bu günündə gözə çarpmasa da, keçmişində iddialı olmuşdur. "Korlamaq" təkcə elə mətnin görkəmini dəyişmək demək deyil, həm də gerçək məlumatların təhrif edilməsi deməkdir. Ona görə də biz korlanmış mətni təhlil edərkən onun ortadan qaldırmaq və inkar etmək istədiyi məlumatları bu mətnin başqa bir yerində tapa biləcəyimizə ümid eləməkdə haqlıyıq, adətən, bu təhrif edilmiş məlumatlar öz anlamlarından ayrılır və mətnin başqa yerinə köçürülərək buradakı ümumi anlamla uzlaşmırlar. Onu da etiraf edək ki, bu dediyimiz cəhəti tapıb üzə çıxarmaq həmişə mümkün olmur.

Sözsüz, bizim müəyyən etmək istədiyimiz bu təhrifedici təmayül yazıya alınan mətnin hələ şifahi olaraq yayıldığı dövrlərdə da öz işini görməyə çalışmışdır. Belə təmayüllərdən birini, bəlkə də onlardan ən vacibini artıq aydınlaşdıra bilmişik. Biz Kadeşdə yeni tanrı Yahve ilə bağlı inancın möhkəmlənməsi üçün bu tanrının ad-sanının ucaldılması ehtiyacının yaranmasından danışmışdıq. Daha dəqiq desək: bu tanrıya vəzifə vermək, onun təsir çevrəsini genişləndirmək, bunun üçün də öncəki

inancların izlərini itirmək gərək idi. Yerli oymaqların inancları ilə bağlı olaraq bu iş uğurla yerinə yetirilmişdi, məlum olduğu kimi, Yahve ilə bağlı inancın oturuşmasından sonra biz onların izini ortalıqda tapa bilmirik. Misirdən qayıdıb gələnlərlə bu işi görmək asan deyildi, onlar özlərinin Misirdən köç etmələri ilə bağlı gördükləri işlərin unudulması, Musa adlı başçılarının itirilməsi və sünnət ayininin ləğvi ilə barışmaq istəmirdilər. Beləliklə də, onlar Misirdə yaşamış, sonra oradan çıxıb getmişdilər və yaranmış duruma görə özlərinin hansısa Misir inancının təsiri altına düşdüklərini inkar etməyə məcbur edilmişdilər. Musa ilə bağlı yaranmış problemi yoluna qoymaq üçün onu Madiana gətirib Kadeş şəhərində yerləşdirdilər, bu da onu Yahvenin kahin-lərindən birinə çevirməyə imkan vermişdi. Eləcə də Misirdən götürüldüyü açıq-aydın olan sünnət ayinini saxlamağa məcbur olsalar da, onun Misirdən götürüldüyünü inkar edən dəlillər irəli sürmüşdülər. Ancaq bu yaramaz işi görəndə təhrif etdikləri mətni yuxarıda dediyimiz şəkildə "sürüşdürmə və yerdəyişməyə" məruz qoyduqlarından, Misirdən çıxışla bağlı bölmədə belə bir anlaşılmaz məqamı da gözdən qaçırmışdılar: Misiri tərk etdikdən sonra günlərin birində tanrı Yahve Musanın sünnət olunmadığını öyrənib ona bərk qəzəblənir, buna görə onu öldürmək istəyir, bunu öyrənən Musanın arvadı təcili olaraq ərini sünnət edib onu tanrının qəzəbindən qurtarır. Tezliklə biz başqa bir uyğunsuzluğun da belə bir "ixtira" ilə aradan qaldırılmasına şahid olacağıq.

Bu dediyimiz ixtiranı yenilik saymaq olmaz, bu, sadəcə, artıq başlanmış təmayülün davam etdirilməsi və Yahvenin yəhudilərə yad olan yeni bir tanrı olması ilə bağlı yarana biləcək problemin kökündən həlli ilə bağlı idi. Bunu edə bilmək üçün belə bir yeni əfsanə uydurulub Bibliyaya daxil edilir: sən demə, yəhudi xalqının Avraam, İsaak və İakov adlı ulu babaları olmuş, onlar çox qədim dövrlərdən tanrı Yahveyə itaət və ibadət etmişlər. Bütün bunlar Yahvenin dilindən söylənir və o, yaranmış uyğunsuzluğu aradan qaldırmaq üçün yəhudilərin ulu babalarının ona başqa bir adla sitayiş etdiklərini də deyir.

Ancaq tanrı Yahve bu ulu babaların ona hansı adla sitayiş etdiklərini demək də istəmir. Bax elə bu uydurmanın içində sünnət ayininin Misirdən götürülməsi faktına həlledici zərbə vurub onu "yəhudiləşdirmək" niyyəti gizlənmişdir. Sən demə, Yahve bu ayinin icrasını Avraamdan tələb edibmiş və bunu özü ilə Avaraamın törəmələri arasında ittifaq bağlamaq üçün şərt kimi qoyubmuş. Ancaq bu ixtiranın çox uğursuz alındığı və yaranmış ziddiyyətləri aradan qaldıra bilmədiyi göz önündədir. Burada tanrının seçdiyi insanlar bu statusa yüksəlmək və başqa xalqlara nisbətən üstünlük qazana bilmək üçün gərək bəlli bir əlamətə yiyələnsinlər, ancaq onları başqa xalqlardan seçən bu əlamət tanrı tərəfindən verilmir, onu öz əlləri ilə yaratmalı olurlar. Burada deyilənlər doğru olsa idi, onda Misirə gedib çıxmış yəhudilər oradakı insanların hamılıqla sünnət olunduğunu görüb onların da tanrı Yahvenin dinindən olduğunu düşünməli və onları özlərinə din qardaşı saymalı idilər. Sünnət ayininin misirlilər arasında adi bir şey olduğu Bibliyanı yazan izraellilərə bəlli olmaya bilməzdi. Bundan başqa da, E.Meyerin İisus Navinin kitabından tapıb üzə çıxardığı faktlar da bunu birbaşa təsdiqləyir, deməli, sünnət ayininin yəhudilərə xas olan ənənə kimi tanıdılması üçün Bibliya tərtibçiləri bütün vasitələrə əl atmağa çalışırdılar.

Dini mifologiya üzrə qurulan mətnlərə tələbkarlıqla yanaşmaq, onlarda hansısa məntiqi əlaqələrin olduğuna diqqət yetirmək inanc baxımından doğru sayılmır. Belə

olmasa idi, onda ulu babalarla qarşılıqlı öhdəliklərlə bağlı müttəfiqlik sazişi bağlamış, sonra yüzillər boyunca öz tərəfdaşları olan bu insanları unutmuş, sonunda isə birdən, gözlənilmədən onların törəmələrinə özünün varlığını xatırlatmış tanrının davranışları xalqa qəribə gəlməyə bilməzdi və onlar belə bir unutqan tanrıya mənfi münasibət göstərməli idilər. Burada daha qəribəsi isə, tanrının birdən özü üçün həmişəlik olaraq "bir xalqı seçməsi və onu özünün xalqı, özünü isə yalnız onun tanrısı elan etməsidir". Mənə elə gəlir ki, insanlığın tarixində yaranmış dinlərdən yalnız birində belə bir təsadüf vardır. Adətən, tanrı ilə xalq lap başlanğıcdan bir-biri ilə qırılmaz tellərlə bağlı , arada bir xalqın özgə bir dinə keçib özünə başqa tanrı seçməsi halları olsa da, tanrının özünə başqa bir xalq seçməsi heç vaxt olmayıb. Ola bilər, biz Musa ilə yəhudi xalqının münasibətlərinin necə yaranmasına baxmaqla dinlərin tarixindəki bu müstəsna hadisənin nədən yarandığını da anlaya bilərik. Axı Musa özünün misirli "ucalığından" aşağı enib yəhudi xalqı ilə birləşmişdi, habelə yəhudiləri "özünün xalqı olaraq seçmişdi".

Burada ulu babalara istinad etməkdə daha bir məqsəd güdülürdü. Bibliyaya görə, yəhudilərin ulu babaları olmuş bu adamlar qədim dövrlərdən başlayaraq Kənaan torpaqlarında yaşamışdılar, buradakı yaşayış məntəqələrinin bir çoxu onların adları ilə bağlı xatirələri yaşadırdı. Böyük ehtimalla, onların əksəriyyəti Kənaan torpağı ilə bağlı mifik qəhrəmanlar, ya da dar bir çevrədə tanınmış yerli tanrılar olmuşdular və buraya sonradan gələn izraellilər onları öz keçmiş tarixinə bağlamışdılar. Ulu babaları bildikləri bu adamlara istinad etməklə izraellilər bu yerlərin qədim sahibləri olduğunu gözə çarpdırmağa və üzərlərindən qoyulan özgə torpaqlarını işğal edən yadelli adını silib atmağa çalışmışlar. Məsələnin belə qoyuluşu çox uğurlu alınmışdı: tanrı Yahve haqlı olaraq onlara vaxtilə ulu babalarının olmuş torpaqları qaytarmışdı.

Bibliyanın sonrakı bölmələrində məqsədli şəkildə Kadeşi xatırlamamağa çalışırlar. Artıq sonrakı mətnlərdə dinin əsasının qoyulduğu yer kimi müqəddəs Sinay-Xoreb dağının adı çəkilir. Bu hadisənin motivi sonadək aydın deyil: ola bilsin, bununla dinin yaranmasına madianlıların göstərdiyi təsiri unutdurmağa çalışmışlar. Ancaq Bibliyanın daha sonrakı təhrifləri, bununla da "Kahinlik kodeksi" adlanan varianta gəlib çıxılması başqa bir məqsədə qulluq edir. Burada uzaq keçmişdə qalmış, Musanın öldürülməsi və onun dinindən uzaqlaşmaqla bağlı dövrün unutdurulmasının yeni variantda işlənilməsi zərurəti özünü göstərmişdir. Baş verən hadisələr çox uzaq keçmişdə qaldığından, bunu mümkün saymışlar. Eyni zamanda tanrı ilə xalq arasında çox sonralar "yaranmış" andlaşma (əhdləşmə) faktlarını da çox qədim dövrlərə bağlamaq, onların da Musanın qanunvericiliyi ilə bağlı olduğunu göstərməklə bu andlaşmalara müqəddəslik və məcburilik donu geyindirmək istəmişlər. Bu üsul bəlli psixoloji məqama əsaslanır, belə bir yolla keçmişin obrazını saxtalaşdırmaq mümkündür. Bu saxtalaşdırmalar uzun bir müddət ərzində – doğrudan da, Misirdən köçməklə Bibliyanın Ezdre və Neemin tərəfindən sonuncu dəfə redaktə olunması arasında 800 illik zaman kəsiyi dayanır – belə bir faktın yarandığını təsdiqləyir: bu müddətdə tanrı Yahve ilə bağlı inanc çox güclü şəkildə Musanın dini təliminə uyğunlaşmışdır, hətta ola da bilsin, elə onunla tamamilə eyniləşmişdir.

Bu çox vacib nəticə yəhudi dininin tarixi taleyində həlledici rol oynamışdır.

VII

Uzaq keçmişdən qalma bu hadisələri çox sonralar şair, kahin və tarixçilər yenidən araşdırarkən onlardan birinin üstündən susqunluqla keçmişlər, səbəbi isə insana xas olan adi və xeyirxah duyğular olmuşdur. Mən burada böyük öndər və xilaskar Musanın amansızlıqla öldürülməsini nəzərdə tuturam. Bəlli olduğu kimi, bu hadisənin üstündəki qaranlıq pərdəni götürmüş tarixçi Zellin peyğəmbərlərin eyhamlarına arxalanır. Zellinin bu məsələ ilə bağlı dediklərini onun fantaziyasının məhsulu hesab etmək olmaz, onun dedikləri yetərincə ağlabatandır. Görünür, firon Ehnatonun məktəbində dərs almış Musa da fironun yararlandığı metodlarla işləmiş, öz inancını əmrlə, hökmlə, məcburiyyətlə xalqa çatdırmağa çalışmışdır. Ola bilsin, Musanın təlimində qoyulan tələblər Ehnatonun tələblərindən daha da kəskin olmuşdur, axı Ehnaton öz təlimində misirlilər arasında geniş yayılmış Günəş kultuna arxalana bilirdi, ancaq bu kult Musanın yeni xalqı olan yəhudilər üçün yad idi. Görünür, elə öz müəllimi Ehnaton kimi, bütün maarifçi despotların başına gələn faciəvi sonluq Musadan da yan keçməmişdi. Həmçinin elə yəhudi xalqı da Misirdəki XVIII sülalənin fironluğu dövründə yaşayan misirlilər kimi yüksək ilhamdan doğulmuş ruhani dəyərləri qavramaq və onları özünün gündəlik mənəvi tələbatını ödəmək üçün qəbul edəcək bir şüura çata bilməmişdi. Hər iki halda eyni hadisə baş vermişdi: himayə olunan və yeni əmrləri yerinə yetirmək istəməyən xalq qiyam eləyərək güclə yeridilən dinin yükündən azad olmuşdu. Burada yalnız bir fərq vardı, nisbətən mədəni misirlilər onların yoluna çıxmış müqəddəs şəxsi taleyin özünün aradan qaldıracağını gözləyə bilmişdilər, vəhşi semitlər isə taleyin ümidinə buraxmayıb tiran hesab etdikləri Musanı aradan götürmüşdülər.

Bibliya nə qədər təhrif olunsa da, onları oxuduqca Musanın faciəvi bir sonluqla üzləşəcəyi aydın sezilir. Yəhudilərin Misiri tərk etdikdən sonra “səhrada dolandıqları” dövrlə bağlı yazılarda, hələ çox güman ki, Musanın bu xalqa başçılıq etdiyi vaxtlarda bir-birinin ardınca baş verən qiyamlardan danışılır və bu qiyamların tanrı Yahvenin amansız cəzası ilə yatırıldığı göstərilir. Qiyamların birinin heç də Bibliyanın göstərdiyi kimi, Musanın qələbəsi ilə deyil, ölümü ilə bitdiyini təsəvvür etmək çox da çətin deyil. Habelə yəhudi xalqının yeni dinə qarşı dönüklüyü də buradakı bir epizodda yetərincə aydın verilmişdir. Bu, qızıl dana ilə bağlı epizoddur və burada Musanın Sinay dağından gətirdiyi üzərinə tanrı qanunları yazılmış daş lövhələrin sınması da simvolik mahiyyət daşımaqla xalqın onun dinindən üz döndərdiyini bildirir (“əlindəki daş lövhələri yerə çırpıb sındırdı”), ancaq baş verənləri az da olsa, yumşaltmaq üçün bu lövhələrin acıqlanıb özündən çıxmış Musa tərəfindən sındırıldığı deyilir.

Musanın öldürülməsindən xeyli sonra kütlə onun qarşısında tövbə etməyə başladı və ona qarşı törədilən amansızlığı unutmaq yolunu tutdu. Çox böyük ehtimalla, bu, Misirdən gəlmə və yerli oymaqların Kadeşdəki görüşünə yaxın dövrdə baş vermişdi. Misirdən çıxışın nəticəsi olaraq bu ərazidə yeni din yaradılmasına gəlib çatanda Musanı yenidən “dirildib” başqasının gördüyü bu işi onun adına yazdılar, bununla da Musanın cazibəsinə düşmüş insanların istəklərini təmin eləməklə yanaşı, onun amansızlıqla öldürülməsi faktını da ört-basdır etdilər. Özlüyündə isə, Musanı öldürməsə idilər belə, o, zaman baxımından Kadeşdə yeni dinin yayılmasınadək yaşaya bilməzdi.

Bu hadisələrin vaxt baxımından necə baş verdiyini aydınlaşdırmağa da borcluyuq. Biz yəhudilərin Musanın başçılığı ilə Misirdən köçmələrini XVIII sülalənin çökdüyü dövrə (e.ə. 1350-ci il) bağlamışdıq. Bu hadisə yalnız onda, ya da ona yaxın dövrdə baş verə bilərdi, misirli tarixçilərin yazıları da bu dönəmdə ölkədə anarxiyanın hökm sürdüyünü və mərkəzi hakimiyyətin ölkəyə nəzarəti itirdiyini yazır, habelə sonradan sərkərdə Haremhabın firon taxtına çıxıb e.ə 1315-ci ilədək sürən hakimiyyəti dövründə ölkədə çox güclü hökmranlıq yarada bildiyini də yazırlar. Bu deyilənlər irəli sürdüyümüz ehtimalı doğruldur. Sonrakı dövrdən bizə çatan yalnız bir tarixi qaynaq vardır, bu, firon Merneptahın (e.ə. 1225-1215-ci illər) daş üzərində oydurduğu yazıdır, burada o İziraail(izrael) üzərində çaldığı böyük qələbədən və onların əkin yerlərini dağıtmasından danışır. Bu yazıya əsaslanmaq bizi çox şübhəli nəticələrə gətirib çıxara bilər və onun yazıya alındığı çağda artıq izrael xalqının Kənaanda yerləşdiyini düşünmək də yanlışlıq olardı. Bu daş üzərində oyulmuş yazıya əsaslanan E.Meyer, doğru olaraq, Merneptahın indiyədək düşünüldüyü kimi, yəhudilərin Misirdən çıxıb getdikləri vaxtlarda firon ola bilməyəcəyini deyir. Bizcə də, yəhudilərin Misirdən köçünü daha erkən çağlara bağlamaq doğrudur. Həm də bu köçün baş verdiyi dövrdə kimin firon olduğunu araşdırmağı da biz gərəksiz bir iş sayırıq. Böyük ehtimalla, heç belə bir firon olmamışdı da, çünki yəhudilərin köçü bir sülalənin dağılıb o birinin qurulduğu bir vaxtda baş vermişdi. Ancaq Merneptahın tapılmış bu daş lövhəsi Misirdən gəlmiş yəhudilərin yerli oymaqlarla birləşməsi və onların Kadeşdə yeni dini qəbul eləmələrinin nə vaxt baş verdiyini aydınlaşdırmağa yaramır. Beləliklə də, dediyimiz bu hadisələr e.ə. 1350-1215-ci illər arasında baş vermişdir və bizim irəli sürdüyümüz mülahizələr çərçivəsində həmin hadisələr yalnız bu yüzilliklər arasında baş verə bilərdi. Misirdən çıxış birinci tarixə çox yaxın bir dövrdə, Kadeşdəki hadisə isə ikinci tarixdən çox da uzaq olmayan bir vaxtda baş vermişdir. Baxdığımız zaman intervalının böyük bir hissəsini bu iki mühüm hadisə arasında baş vermiş aralıq hadisələrin yaşandığı vaxtlar üçün ehtiyatda saxlayırıq. Misirdən çıxışla Kadeşdə yeni dinin qəbuluna kimi çox böyük bir vaxtın keçməsi bizə lazımdır, belə bir uzun müddət kəsiyi Musanın öldürülməsindən sonra Misirdən qayıdanların ehtiraslarının soyuması, Musanın yaxın adamları olan levitlərin isə xalq arasında daha çox nüfuz qazana bilməsi üçün çox vacibdir, levitlərin belə bir nüfuzu qazana bilmələri isə Kadeşdə musaçılığa göstərilən kompromislərdən görünür. Burada iki nəsil dəyişməsi, yəni altmış ilin keçməsinin yetərli olduğunu düşünə bilərik, ancaq məncə, bu çox dar intervaldır. Merneptahın daş lövhəsindən hansısa yekun nəticə çıxarmaq da hələ tezdir, bizim qurduğumuz mülahizələr sistemində hər bir mülahizə müstəsna şəkildə o birinə əsaslanmaqla qurulub və indi apardığımız diskussiya bizim yenidənqurmamızın zəif cəhətlərini aşkara çıxarır. Lakin təəssüf ki, yəhudi xalqının Kənaan torpaqlarına gəlişi ilə bağlı məlumatlar olduqca qaranlıq və dolaşıq şəkildə gəlib çatmışdır. Yaranmış bu məqamda bizə yalnız o qalır ki, bu daş lövhənin üzərində adı keçən izraelin bizim indiyədək taleyini izləməkdə olduğumuz oymaqlarla birləşməyən, onlardan kənarda qalan başqa bir izrael oymağı olduğunu düşünək. Axı habiru-yevrey (Habirru-Hebrəer) adı bu xalqa yalnız amarna dövründən (təktanrılı dinin yaradıcısı firon Ehnatonun paytaxtı olmuş indi Al-Amarna deyilən ərazi nəzərdə tutulur) sonra verilmişdi.

Ayrı-ayrı oymaqların dini özül üzərində millət şəklində birləşməsi çox asanlıqla ümumdünya tarixində əhəmiyyətsiz və gözə çarpmayan bir fakt kimi qala bilərdi. Yeni dinin yaranması da, bunun kimi, hadisələrin gedişatında görünməz ola bilərdi. Yahve çox da gözə çarpmadan, ədalətin yerini tapması üçün, səssizcə özündən əvvəlki tanrıların yerini tuta bilərdi və onun gəlişinə kimi yəhudilərin bölündüyü on iki oymağın izləri də itib gedərdi. Madianlı Musanın xalqa gətirdiyi dinin tanrısı olan Yahve heç də qeyri-adi bir varlıq deyildi. O, kobud, mənəviyyatsız, amansız, qaniçən bir tanrı idi. Ona itaət edən xalqa "süd ilə bal axan" torpaqlar verəcəyini vəd etmişdi və əvəzində onlardan bu torpaqlarda yaşayan xalqları iti qılıncları ilə kəsib-doğramağı tələb edirdi. Bibliyanın bu qədər redaktə olunmasına baxmayaraq, bu tanrının ilkin mahiyyətindəki yaramazlıqları dəyərləndirə bilmək üçün bu qədər faktın hələ də ortalıqda qalmasının özü də təəccüb doğurur. Onun tanrısı olduğu dinin gerçək bir təktanrılı din olduğu şübhəsizdir və o başqa xalqların tanrılarının ilahi təbiətinə meydan oxuyan, onları alçaldan bir tanrı kimi də tanıdılır. Görünür, öz tapındığı tanrının başqa yad xalqların tanrılarından güclü olması dinin xalq içində möhkəmlənməsi üçün yetərli olur. Yahvenin təsirilə yerli tanrıların hamısı aradan çıxıb getmişdilərsə, bütün bunların yalnız bir səbəbi vardı. Axı misirli Musa yəhudilərə tanrının ilahi təbiəti haqqında büsbütün yeni bir ideya vermişdi, bu ideyaya görə, dünyada yalnız bir tanrı vardı və o da bütün dünyanı əhatə edən, dünyadakılara sevinc gətirmək istəyən və çox qüdrətli olduğundan, heç bir ayinə və sehrbazlığa ehtiyac duymayan bir varlıq olmaqla insanların qarşısına doğruluq və ədalətlilik məqsədini qoymuşdu. Bizim Aton dininin aşıladığı əxlaqi dəyərlərlə bağlı məlumatlarımız olduqca az olsa da, firon Ehnatonun öz yazılarında onun daimi olaraq "Maatda yaşamasını" (doğruluq və ədalət içində) vurğulamasından bu dinin etik dəyərlərini aydınlaşdırmaq mümkündür. Burada problem böyük zaman intervalında həll olunmamışdı, görünür, çox qısa bir müddətdən sonra xalq Musanın təlimini danmağa başlamış və onun özünü də cismən aradan götürmüşdü. Musanın irsindən isə yalnız ənənə qalmışdı və bu ənənə Musanın özünün də dediyi kimi, yüzilliklərdən sonra tədricən genişlənib yayıla bilmişdi. Musanın yəhudiləri Misir köləliyindən qurtarmaqla bağlı xidmətləri Kadeşdə tanrı Yahvenin adına yazıldı və ona layiq olmadığı bir hörmət göstərildi, lakin o sonradan haqsız olaraq mənimsədiyi hörmətin əvəzini çox ağır bir şəkildə ödəməli olmuşdu. Yerini tutduğu tanrının kölgəsi Yahvenin özündən güclü çıxdı və bu prosesin sonunda o, yalnız adını saxlaya bilərək mahiyyətcə büsbütün Musanın unudulmuş tanrısına çevrildi. Mənə elə gəlir, bu sözlərimə şübhə edən çox az adam tapılar: bütün bunlar yəhudi xalqının taleyin bütün amansız zərbələrinə dözərək bu günə gəlib çıxmasına imkan vermişdir.

Musanın tanrısının Yahve üzərində tam qələbəsində levitlərin hansı rolu oynadığını müəyyən etmək artıq mümkün deyil. Onlar xidmət göstərdikləri Musanın sağlığında da, ölümündən sonra da tərəfini saxlamış, onların yetişdirdiyi sonrakı levitlər nəsli isə Musanın xatirəsini yaşadaraq gələcəyə çatdırmış və göründüyü kimi, Kadeşdə xalq vahid dini qəbul edərkən Musanın tanrısı üçün həlledici güzəştlər də qazana bilmişdilər. O çağlardan başlayaraq levitlər xalq və ya kahinlərlə qaynayıb-qarışmışdılar, onların qoşulduğu kahinlərin başlıca işi isə müxtəlif dini ayinləri yerinə yetirmək və onların yaşamasını təmin etmək, həmçinin müqəddəs yazıları qoruyub

saxlamaq, zaman-zaman öz şəxsi məqsədləri üçün redaktə etmək olmuşdur. Ancaq burada sual yaranır: doğrudanmı, heç bir qurbanvermə mərasimləri, ovsun və cadugərliklər olmadan, yalnız elə danışıqlar yolu ilə Musanın təlimi yaşaya bilmişdi? Sualın cavabını bizə gəlib çatan bu məlumatlar verir: bir azdan xalqın arasından çıxmış, mənşəcə Musa ilə heç bir doğmalığı olmayan, ancaq onun yaratdığı təlimin ənənələrinə ürəkdən bağlanmış peyğəmbərlər adlanan insanlar meydana çıxmış və Musanın köhnədənqalma təlimini canlandıraraq ona yeni həyat vermişlər. Onlar xalqı ilahiliyin heç bir qurban və ovsun tələb etmədiyinə, yalnız doğruluğa və ədalətə əsaslanan bir inanca yiyələnməyə çağırdığına inandıra bilmişdilər. Peyğəmbərlərin çalışmaları uzaqlara gedib çıxan nəticələr vermişdi; onlar öz təlimlərində köhnədənqalma dini ənənələri dirçəltməklə yanaşı, bütün bu yaradıcılıqları ilə iudaist dininin məzmununu da formalaşdıra bilmişdilər. Belə bir dini inancın yaranması təşəbbüsü böyük bir yadellidən gəlsə də, yəhudi xalqının böyük əksəriyyəti bu ənənələrə bağlanaraq onları qoruyub saxlaya bildi və öz içində bu inancı yetərincə genişləndirib formalaşdıran insanlar yetirməyi bacardı.

Onu da deyim ki, mən öz araşdırmalarımda Musanı misirli sanmayıb, ancaq onun yəhudi xalqı üçün gördüyü işləri doğru-düzgün dəyərləndirməyi bacaran və bu məqamda dedikləri bizim mülahizələrimizlə səsləşən tarixçilərin dediklərinə arxalanmasa idim, baş verən hadisələri bu cür təsvir etməkdə öz dediklərimə yetərincə güvənə də bilməzdim. Məsələn, belə tarixçilərdən biri olan Zellin yazır: “Beləliklə də, bizim qarşımızda təkcə mənəvi dəyərlərə söykənmiş tanrıya itaət etməyə çağıran Musanın yaratdığı bir din dayanır, bu dini o yaratmış və bu din müəyyən müddət üçün kiçik bir çevrənin arxasınca getdiyi inanc sistemi olmuşdur. Sözsüz, biz bu cür məlumatların rəsmi dini kultda, kahinlərin formalaşdırdığı dini inancda və xalqın inancında yer alacağını gözləməməliyik. Görünür, burada bizim güvənə biləcəyimiz yalnız bir məsələ ola bilər: Musanın qaladığı ocaq sönməmiş, bir sıra məqamlarda yenidən alovlanaraq mənəvi işıq saçmaqla özünün varlığını göstərə bilmişdir, başqa sözlə desək, onun ideyaları itməmiş, uzun sürən bir səssizlik içində artaraq böyümüş və istər dinə, istərsə də ənənələrə öz təsirini göstərmişdir. Lakin bu ideyaların güclənməsi və geniş xalq kütlələrinə güclü təsir göstərdiyi məqamlar da olmuşdur, bu isə peyğəmbər adlanan xüsusi şəxsiyyətlərin bu ideyalardan ruhlanaraq bu konteksdə qavradığı gerçəkləri yayması ilə bağlı olmuşdur. Görünür, yəhudi dininin qədim tarixinə yalnız bu nöqteyi-nəzərdən baxmaq düzgün sayılmalıdır. Kimsə bu dinin yəhudilərin Kənaan torpağında yerləşməyə başladıqları ilk beş yüz ildə formalaşması ilə bağlı mühakimələr yürütməyə çalışırsa, kobud metodoloji səhv buraxır”. Deyilən bu yanlış yanaşma P.Foltsun araşdırmalarında daha kəskin şəkildə görünür. Onun düşüncəsinə görə, Musa öz dini təlimini əvvəlcədən çox yüksək ideyalar üzərində qurmuşdur və bu ideyalar çox aydın və konkret olsa da, ancaq çox qısa və zəif şəkildə xalqa çatdırılmışdır, sonra isə yüzilliklər boyunca o, getdikcə xalq üçün daha aydın olmuş, daha sonra isə peyğəmbərlərin ayrı-ayrılıqda gördükləri böyük işlər sayəsində bu ideyalar bütün incəlikləri və dərinliyi ilə xalqa çatdırılmışdır.

Beləliklə də, mən görmək istədiyim bu işi sona çatdırmaq üzrəyəm, bu işi görməkdə isə yalnız bir məqsədim var: misirli Musanın obrazını yəhudi tarixinə daxil edə bilmək. Gəlin indi də apardığımız araşdırmaların nəticələrini qısaca sadalamağa

çalışaq. Baxdığımız bu tarixi hadisələrdə bir ikilik olduğu aydındır – iki ayrı-ayrı xalq kütləsinin birləşərək millətə çevrilməsi, sonra onların elə birləşdikləri oymaqlar üzrə ayrılaraq iki krallıq yaratması, Bibliyanın ilkin qaynaqlarında tanrının iki adla anılması bu sıradandır – biz bu ikiliyə daha ikisini də artırırıq: birincisi, burada qarşıdurmada olan iki inancın olduğunu, onlardan birincisinin digəri tərəfindən sıxışdırılıb ortadan çıxarıldığını, ən sonda isə birinci inancın digəri üzərində bütünlüklə qələbə çaldığını üzə çıxarırıq, ikincisi isə Musa adlı iki eyni dini təlimçinin olduğunu deyib, onların eyniləşdirilməsi səhvinin aradan qaldırırıq. Habelə bu ikilik buradakı birinciliyin olmasından doğan zəruri nəticələrdir, burada sonradan birləşən iki xalqdan biri, ikinci xalq üçün yad olan keçmiş hadisəyə görə sarsıntılar yaşayır. Bunlardan başqa, araşdırılmalı, aydınlaşdırılmalı və əsaslandırılmalı çoxlu başqa problemlər də vardır. Belə bir işi görmədən, yalnız gerçək tarixi əks etdirmək məqsədi güdən bu esselərimizə inam yarana bilməz. Gəlib çıxdığımız bu məqamda yeni-yeni suallar da ortaya çıxır: xalqların adət və ənənələrinin başlıca xüsusiyyəti nədir və onun insanlar üzərindəki hökmranlığı nəyə əsaslanır? Nə üçün ayrı-ayrı böyük şəxsiyyətlərin ümumdünya tarixinin gedişatına göstərdikləri şəxsi təsirlərinin inkarı mümkün deyil? İnsanın davranışlarının səbəblərini yalnız onun maddi tələbatlarını ödəmək istəyi ilə bağlayanda insanın həyatındakı müxtəlifliklərin fonunda hansı yamanlıqlar törəyə bilər? İdeyalar, ən çoxu da dini təlimlərin əsasında dayanan adamları və bütöv xalqları öz itaətinə sala bilən ideyalar, öz güclərini hansı qaynaqlardan götürür? Bütün bu suallara yəhudi tarixinin misalında cavab axtarmaq çox maraqlı olardı. Başladığım bu araşdırmanı belə bir yöndə aparmağa çalışsa idim, onda 25 il əvvəl “Totem və Tabu” əsərimdə apardığım araşdırmalarımın üzərinə qayıtmalı və onları davam etdirməli olardım. Ancaq mən indi çox yaşlı olduğumdan, belə bir işi görməyi bacarmaram.

# III

## MUSA, ONUN XALQI VƏ TƏKALLAHLI DİN
## BİRİNCİ BÖLMƏ

Birinci ön söz

(1938-ci ilin mart ayından əvvəl yazılmışdır)

İtirməyə heç nəyi olmayan bir insan qətiyyətilə mən ikinci dəfə yaxşı əsaslandırılmış bir fikirdən daşınmaq istəyirəm və indiyədək nəşr etdirdiyim “İmago” dərgisində Musa ilə bağlı çap etdiyim iki esseyə üçüncü, sonuncu birini də əlavə etmək istəyirəm. Bundan əvvəl isə belə düşünürdüm: buna gücüm çatmaz, yəni yaşlandığıma görə yaradıcılıq qabiliyyətimin zəifləməsini nəzərdə tuturdum[2]; lakin digər maneələr də vardı.

Biz bu gün olduqca qorxunc bir dövrdə yaşayırıq. Başımızı qaldırıb baxanda mədəniyyətin barbarlıq ilə ittifaqa girdiyini görüb təəccüblənirik. Sovet Rusiyasında yüz milyona yaxın insanı ən yaxşı həyata çatdırmaq məqsədilə dözülməz sıxıntılar içində saxlayırlar. Onları belə bir səadətə çatdırmaq üçün yetərincə riskli addımlar atdılar: insanları hamılıqla din tiryəkindən məhrum edib, bunun qarşılığında bəlli ölçülər daxilində seksual azadlıqlar verdilər və eyni zamanda onları amansız bir təzyiqə məruz qoydular, habelə azad düşüncə imkanlarından tamamilə məhrum etdilər. Buna oxşar bir amansızlıqla italyan xalqına da qayda-qanun və borc duyğuları aşılanmaqdadır. Bugünkü alman xalqının misalında mütərəqqi ideyalara əsaslanmayan insanların ən uzaq tarixi keçmişindəki barbarlığa gəlib çıxdığını görürük, ancaq bu işə başçılıq edənlər bütün bunları onların əlavə qayğılardan azad olunması adlandırırlar. İş gəlib o yerə çatıb ki, bu gün mühafizəkar demokratizm mədəni tərəqqinin qoruyucusuna çevrilmişdir və necə qəribə olsa da, yalnız katolik kilsəsinin qurumları mədəniyyətin dağıdılması meyillərinin qarşısını alan bir qüvvə olaraq qalmışdır. Bəli, necə acınacaqlı olsa da, indiyədək azad düşüncə, tərəqqi və həqiqəti dərk etməyin barışmaz düşməni olan kilsə bu gün mədəniyyətin son sığınacaq yeri olmuşdur!

İndi biz katolik ölkəsində onun kilsəsinin himayəsi altında yaşayırıq və bu dincliyimizin uzun müddət davam edəcəyinə çox da güvənə bilmirik. Ancaq hələlik bu dincliyimiz davam etdikcə biz də öz tərəfimizdən kilsədə özümüzə qarşı düşmənçilik yaratmaqdan çəkinirik. Bu, qorxaqlıq deyil, sadəcə, ehtiyatdır. Xidmət etmək istəmədiyimiz yeni düşmən, artıq münasibətlərimizi yoluna qoya bildiyimiz köhnə düşməndən qat-qat qorxuludur. Apardığımız psixoanalitik araşdırmalar onsuz da katolisizmin ehtiyatlandığı bir sahədir. Onun bu davranışının ədalətsiz olduğu ilə bağlı hökm vermirik. Doğrudan da, bizim araşdırmalarımız dinin öz təbiətinə görə müalicə etdiyimiz psixi xəstələrdə özünü göstərən nevrozlara uyğun olduğunu deyirsə və onun da insanlar üzərindəki hökmranlığının elə bu nevrozların insan psixologiyasını öz əsarəti altına almasına bənzədirsə, onda cəmiyyətdə hökm sürən qüvvəni özümüzdən narazı salmağımız da təbii sayılmalıdır. Burada iş heç də iyirmi beş il əvvəl yetərincə açıqlanmadan deyilən və indi artıq unudulmaqda olan hansısa mülahizələrlə bağlı yeni bir söz demək və onlara aydınlıq gətirməkdə deyil, biz indi o vaxt etdiklərimizi konkret bir inancın üzərində tətbiq etməklə təkrarlasaq, bu, xoşagəlməz nəticələr vermədən ötüşməyəcək. Böyük ehtimalla, həmçinin bizim psixoanaliz üzrə fəaliyyətimizin qadağasına da gətirib çıxara bilər. Axı belə kəskin sıxışdırma metodları kilsənin alışdığı işlərdən biridir, üstəlik, bu gün kimlərinsə onun bu silahından yararlanmasına da kilsənin qısqanclıqla yanaşmasının şahidi oluruq. Ancaq mənim uzun sürən ömrümdə özümlə yanaşı böyüyən və yayılan psixoanalizin doğulub boya-başa çatdığı indiki şəhərindən başqa, üz tuta biləcəyi heç bir ayrı sığınacağı da yoxdur. Mən bunu bir ehtimal saymıram, doğrudan-doğruya məni Musa ilə bağlı araşdırmalarımın sonuncu bölməsini çap etdirməkdən çəkindirən müdaxilənin xaricdən gələn təhlükə ilə bağlı olduğuna ürəkdən inanıram. Bu maneəni adlaya bilmək üçün öz-özümə deməli oldum: buradakı qorxu mənim öz şəxsi rolumu şişirtməkdən törəyir. Çox böyük ehtimalla, belə işlərlə bağlı qərar qəbul edən qurumlar üçün mənim Musa və təkallahlı dinlərlə bağlı nə yazdığımın heç bir önəmi

yoxdur. Lakin mən bu sözümün doğruluğuna sonadək inana da bilmirəm. Çox-çox əvvəllər mənə elə gəlirdi ki, gördüyüm işlərə görə mənə qarşı yönələn yamanlıqlar və boş-boş sensasiyaçılıqdan çəkdiyim ağrı-acıların əvəzində, nə vaxtsa çağdaşlarımın indi görmədiyim diqqətini özümə sarı çəkə bilməkdən bir xoşbəxtlik duyacağam. Mən bu əsəri çap etdirməyəcəyəm, ancaq bu onu yazmağımın qarşısını almamalıdır. Həm də artıq iki il əvvəl mən onu yazmışam, indi yalnız onun üstündə işləyib bu yazını tamamlamaq və özündən əvvəl yazılmış bölmələrə artırmaq qalır. Bundan sonra isə, görünür, bu əsər gizlin bir yerdə bəlli bir vaxta yetişənədək qorunub saxlanmalı olacaq. Həmin vaxt yetişəndə isə bu yazı sakitliklə üzə çıxacaq, ya da elə bir vaxt gələcək ki, eynilə mənim dediklərimlə eyni qənaətə gəlib çıxan biri tapılacaq və o, vaxtilə mənim də belə bir iş gördüyümü öyrənib deyəcəkdir: nə vaxtsa, qarışıq-dolaşıq zamanlarda elə mənim kimi düşünən bir başqası da olubmuş.

İkinci ön söz

(1938-ci ilin iyununda, Londonda yazılmışdır)

Musanın kimliyi ilə bağlı yazdığım bu essedə çoxlu özünəməxsus çətinliklərlə qarşılaşmalı oldum – bunlar daxili şübhələrimlə də, xaricdən mənə qarşı ola biləcək müdaxilələrlə də bağlı idi – bütün bunların nəticəsində isə bu esseni əvvəl yazılmış, bir-birindən fərqli, deyərdim, lap bir-birini inkar edən o biri iki esse ilə birləşdirməli oldum. Bu esselərin yazılması ilə bağlı keçən zaman kəsiyində müəllifin xarici amillərdən asılılığında köklü bir dəyişiklik baş verdi. Mən onda hələ katolik kilsəsinin himayəsi altında yaşayırdım və bu əsərin çap edilməsi ilə həmin himayəni itirəcəyimdən və psixoanalizlə bağlı özümün və ardıcıllarımın Avstriyada gördüyümüz işlərə qadağa qoyulacağından çəkinirdim. Bu zaman, gözlənilmədən, almanlar Avstriyanı işğal etdilər; Bibliyanın sözləri ilə desək, katolisizmin "çör-çöp kimi kövrək olduğu" bəlli oldu. Artıq təqiblərin yalnız mənim düşüncə tərzimə qarşı deyil, həm də millətimə qarşı yönəldiyini görəndə mən dostlarımla birgə, ilk uşaqlıq çağlarımdan başlayaraq yetmiş səkkiz il ərzində yaşadığım, vətənim olan bu şəhərdən ayrılmalı oldum.

Ölkəmdən köçüb gəldiyim gözəl, azad, açıqürəkli İngiltərədə məni çox mehribanlıqla qarşıladılar. Burada mən istəkli qonaq sayılıram, heç bir sıxıntı və təzyiq duymadan yaşayıram, habelə danışmaq və yazmaq haqqı qazanmışam, daha doğrusunu isə belə demək olardı: istədiyim kimi, yaxud da ürəyimdən keçdiyi kimi düşünə bilirəm. Beləliklə də, artıq öz əsərimin üçüncü hissəsini də çap etmək üçün ürəklənmişəm.

Daha özümə qarşı yönələn xarici bir müdaxilə də yoxdur, ya da belə bir müdaxilə olsa belə, məni qorxuda biləcək səviyyədə deyil. Burada olduğum bir neçə həftə ərzində dostlarımdan, tanımadığım çoxlu insanlardan saysız alqışdolu ismarıclar aldım, onların hamısı mənim burada azadlığa və təhlükəsizliyə qovuşmağıma görə sevindiklərini bildirirdilər. Bu alqış ismarıcları ilə yanaşı, mən bir əcnəbi üçün çox təəccüblü görünən çox say başqa mövzuda məktublar da almışam. Bu məktub sahibləri mənəvi sağlamlığımın qayğısına qalır və məni İsa Məsihin yolunda görmək istədiklərini deyir, mənim bu yolu seçib gələcəkdə İzraeli də maarifləndirməyimi arzu edirlər.

Görünür, bu məktubları yazan xeyirxah insanlar məni yetərincə tanımadıqlarından belə çağırışlar edirlər, ancaq çox keçmədən həmin yeni həmvətənlərim Musa ilə bağlı yazdığım bu əsəri oxuyandan sonra, onların mənə olan bu rəğbətlərini necə itirəcəklərini sözlə ifadə etməkdə çətinlik çəkirəm.

Lakin yaşadığım cəmiyyətdə baş verən siyasi çevriliş və yaşayış yerimi dəyişməyim daxilimdə olan çətinliklərlə bağlı heç nəyi dəyişə bilmədi. İndi də, keçmişdə olduğu kimi, gördüyüm işə tam inamla yanaşa bilmirəm, mən indiki vəziyyətimdə müəlliflə onun gördüyü iş arasındakı mühüm vəhdəti tapa bilmirəm. Gəldiyim nəticələrin doğruluğuna həmişə belə inamsız yanaşdığımı da deyə bilmərəm. Bu nəticələrin doğruluğuna mən iyirmi beş il bundan əvvəl, 1912-ci ildə "Totem və tabu" əsərini yazanda inanmışam və keçən bu illərdə inamım daha da möhkəmlənmişdir. O çağlardan başlayaraq mən dini fenomenləri də fərdlərin bizə bəlli olan nevrotik simptomları kimi anlamalı olduğumuza şübhə etmirəm və dini fenomenin də nevroz kimi, çoxdan unudulmuş əhəmiyyətli proseslərə qayıdış kimi yarandığını düşünürəm, bu qayıdış isə insan soyunun sivilizasiyadan qabaqkı proseslərdən ayrıla bilməməsilə bağlıdır və elə buna görə də bu duyğu belə davamlı xarakter daşıyır, başqa sözlə desək, bu fenomenin yaranmasında insanlığın nə vaxtsa yaşadığı gerçək duyğular rol oynadığından, o insanlara belə dərindən təsir etmək gücündədir. Mənim şübhələrim isə burada nümunə olaraq seçdiyim təktanrılı dinin iudaizm variantına yanaşmada dediyim vəziyyəti inandırıcı bir şəkildə açıqlayıb-açıqlamamağımla əlaqədar yaranır. Mənim Musaya yönələn tənqidi yanaşmam havadan asılmış kəndirin üzərində rəqs edən rəqqasın işinə çox bənzəyir. Əgər mən qəhrəmanlar haqda miflərdəki onların körpə vaxtı atılması ilə bağlı analitik təhlilimə əsaslanmasa idim, daha sonra isə Zellinin Musanın öldürülməsi ilə bağlı fikirlərinə arxalanmasa idim, onda bu kitab da elə iki hissədən ibarət olaraq qalacaq və üçüncü hissənin əlavə olunması ilə tamamlanmayacaqdı. Hər halda, indi üçüncü hissəni yazmaq qərarındayam.

Mən burada ikinci, Musa ilə bağlı tarixi araşdırmalardan ibarət olan essemdə gəldiyim nəticələrin xülasəsini verməklə işə başlamaq istəyirəm. Bu nəticələr psixoloji araşdırmalar üçün ilkin şərtləri formalaşdırdığından, habelə psixoloji faktorlardan doğulub sonradan elə onlara qoşulduğundan biz onları burada yenidən tənqid etməkdən çəkinəcəyik.

A. Tarixi mülahizələr

Beləliklə də, bizim diqqətimizi çəkən tarixi fon belə idi: XVIII firon sülaləsinin işğalları nəticəsində Misir dünya səviyyəsinə çıxan bir dövlətə çevrilmişdi. Yenicə yaranmağa başlayan imperializm meyilləri dini dünyagörüşün inkişafına təkan verməyə başlamışdı, bu inkişaf xalq səviyyəsində olmasa da, ən azı, dünyəvi və ruhani hakimiyyətlə bağlı olan yüksək təbəqənin təsəvvürlərində köklü dəyişikliklər yaratmaqda idi. Günəş tanrısının On (Heliopol) şəhərində yerləşən məbədinin kahinlərinin təsiri ilə – onlar bu təsiri, böyük ehtimalla, Asiyadan almışdılar – Atonun universal tanrı olması ideyası irəli sürülür və onun bütün mövcud ölkələrin və xalqların tanrısı olduğu düşüncəsi ortaya atılır. IV Amenhotep adlanan bir gənc fironluq taxtına çıxır və onun ən böyük məqsədi həmin universal tanrı ideyasını inkişaf etdirmək olur. O, Atona olan inancı dövlət dini səviyyəsinə qaldırır və nəticə

olaraq Aton tək tanrı elan olunur; başqa tanrıların varlığı isə inkar və onlarla bağlı miflərin hamısı yalan və uydurma elan olunur. Gənc firon o çağın insanları üçün çox cəlbedici olan ovsunçuluq ayinlərini qadağan edir və ən başlıcası, sıravi misirlilərin qətiyyətlə inandığı ölümdən sonrakı həyatın varlığı ilə bağlı o dünya illüziyasının olmadığını təbliğ etməyə başlayır. Sonradan elmin gələcəyilə bağlı müəyyən nəticələri heyrətamiz intuisiyası ilə duyan gənc firon Günəş şüalarının enerjisinin dünyada olan hər şeyə həyat verdiyini sezir və Günəşi öz tapındığı tanrının simvolu sanmağa başlayır. O bu tanrının yaradıcılıq sevincləri içində Maatda (həqiqət və ədalət) yaşadığını deyərək, onun şəninə himnlər (alqış duaları) yazır.

Bu, insanlığın tarixində ilk, ola bilsin, əsl təkallahlı din olmuşdu; bu dini daha dərindən araşdırmaq onun yaranmasının psixoloji şərtlərini öyrənmək baxımından bizə olduqca dəyərli məlumatlar verə bilərdi. Ancaq Aton dini ilə bağlı bu günümüzə olduqca azacıq məlumatın gəlib çatması buna çox maneçilik törədir. Bu dinin yaradıcısı firon Ehnatonun ölümündən sonra hakimiyyətə gəlmiş və hakimiyyəti zəiflədən fironların çağında onun qurduqlarının hamısı dağıdıldı. Yeni dinin ortaya çıxması ilə bağlı olaraq, başqa tanrıların məbədlərindəki sıxışdırılmış kahinlər fürsətdən yararlanıb qisas almağa axışdılar, Aton dini ləğv olundu, üstəlik, bu dinin yaradıcısı olan fironun xatirəsindən də qisas almaq və birdəfəlik yaddaşlardan silmək üçün onun yeni paytaxtı lənətlənərək qarət edildi və dağıdıldı. E.ə. təxminən 1350-ci ildə XVIII sülalə süquta uğradı və bir neçə il çəkən anarxiyadan sonra fironluq taxtına çıxıb 1315-ci ilədək hakimiyyətdə olan sərkərdə Haremhab ölkədə ciddi qayda-qanun yarada bildi. Ehnatonun apardığı islahatlar isə unudulmağa məhkum olaraq tarixi bir epizoda çevrildi.

Bu hadisələrlə bağlı tarixin bizə çatdırdıqları yalnız bunlardan ibarətdir, sonrakı araşdırmalarımızı aparmaq üçün biz ancaq öz fərziyyələrimizə əsaslanmalı oluruq. Ehnatonun əhatəsindəki adamların arasında, ehtimal ki, Totmes adlı biri vardı. Həmin dövrdə bu ad geniş yayılmışdı və çoxlarını bu adla çağırırdılar, – sözün düzü, dediyimiz adamın adının nə olması o qədər də vacib deyil, ən başlıcası, onun adının ikinci hissəsində “moze” sözünün olmasıdır. O, Misirin ali təbəqəsindən idi və tanrı Atonun dininə çox möhkəm bir etiqadla bağlanmışdı, eyni zamanda təbiətcə xəyalpərəst olan firondan fərqli olaraq bu adam çox enerjili və çalışqan biri idi. Ehnatonun ölümü və onun dininin qadağan olunması onun bütün ümidlərinin puç olması demək idi. Misirdə qalıb yaşaya bilərdi, ancaq burada onu aşağı təbəqəyə düşmək, ya da kafir kimi yaşamaq taleyi gözləyirdi. Həmin dövrdə sərhədyanı bölgələrin birində vali işləyən bu adam burada çox illər öncə məskunlaşmış semit soylu oymaqlarla tanış olmuşdu. Keçirdiyi sarsıntı və hakimiyyətdən məhrum olmasından yaranan itkilərinin yerini doldura bilmək üçün o, bu yadellilərə üz tutmalı oldu. Həmin semit oymaqlarını öz xalqı olaraq seçdi və onların köməyilə öz idealını gerçəkləşdirmək yolunu tutdu. Ətrafındakı yaxın adamları ilə bu oymaqlara qoşularaq əvvəlcə özü üçün yeni xalq olaraq seçdiyi bu adamları sünnət ayini ilə “təmizlədi”, sonra isə onları da götürüb Misirin sərhədlərindən uzaqlara yola düşdü, yeni qanunlar verdi, həm də onları misirlilərin artıq üz döndərdiyi Aton dini ilə tanış elədi. Böyük ehtimalla, müəllimi və hökmdarı olmuş firon Ehnatondan fərqli olaraq bu Musa deyilən adamın öz təlimini yaymaq üsulları daha kəskin şəkildə idi və hələ də

məbədi On şəhərində yerləşən və fəaliyyət göstərən Günəş tanrısı kultuna əsaslanmaqdan da imtina etmişdi.

Musanın yəhudilərlə birgə Misirdən köç etməsini biz e.ə.1350-ci ildən sonrakı, bir sülalənin dağılıb o birinin qurulması dövrünə aid etməyə borcluyuq. Bundan sonrakı zaman kəsiyində Kənaan torpaqlarının tutulmasınadək olan hadisələr qatı qaranlığa bürünmüşdür. Bibliya mətnlərinin qəsdən və ya bilmədən qaranlığa gömdüyü bu zaman kəsiyi ilə bağlı tarix iki faktı tapıb üzə çıxara bilmişdir. Birinci faktı E.Zellin tapmışdır: yəhudilər – hətta Bibliyada da öz qanunvericisi və öndərinə qarşı tərslik və itaətsizlik göstərdiyi deyilən bu xalq günlərin birində Musaya qarşı qiyam qaldırmış, onu öldürmüş və onlardan əvvəl misirlilərin etdiyi kimi, Musanın onlara öyrətdiyi Aton dinindən üz döndərmişdilər. İkinci faktı isə E.Meyer göstərmişdir: Misirdən qayıtmış yəhudilər Fələstin, Sinay yarımadası və Ərəbistan torpaqları arasındakı yerlərdə özlərinə çox yaxın qohum olan yerli oymaqlarla birləşmiş, daha sonra burada bol sulu və məhsuldar torpağı olan Kadeş ərazisində, mənşəcə ərəb olan madianlıların təsirilə vulkan tanrısı Yahvenin dininə itaət etməyə başlamışlar. Bir din ətrafında birləşib vahid millətə çevriləndən sonra onlar Kənaan torpaqlarını tuta bilmişlər.

Bu hadisələrin bir-biri və Misirdən köçlə bağlı zaman etibarilə hansı münasibətdə olduqları çox qaranlıqdır. Əlimizə gəlib çatan sonrakı tarixi qaynaq isə e.ə. 1215-ciilədək hakimiyyətdə olmuş firon Merneptahın daş üzərində oydurduğu yazıdır. O bu yazısında Suriya və Fələstinə qarşı apardığı hərbi yürüşlərdən danışır, sözarası bu döyüşlərin gedişində İzraeli məğlub etdiyini də qeyd edir. Həmin daş lövhənin yazıldığı tarixi terminus ad quem (gerçək) qəbul etsək, onda Misir köçündən İzrael dövlətinin qurulmasına gətirib çıxaran vaxt yüz ilə yaxın bir müddətlə əhatə edir (e.ə. 1350-1215). Ancaq ola bilər, burada adı keçən "izrael" başqa semit tayfaları ilə bağlı olub, bizim taleyini izlədiyimiz yəhudi oymaqlarına aid olmasın və Misirdən köçdükdən sonrakı müddətin daha uzun olmasını düşünmək həqiqətə daha uyğundur. Yəhudi xalqının Kənaan torpaqlarına yayılması və oraları işğal edərək öz yerini möhkəmləndirməsi tez müddətdə baş tutmamış, mərhələlərlə və uzun çəkən proses olmuşdur. Merneptahın daş lövhəsini kənara qoyub Musanın yaşadığı çağda bir nəslin dəyişməsi müddətini 30 il götürsək (Musanın yəhudiləri səhrada dolandırdığı 40 illik müddətə oxşar olaraq), onda yəhudi oymaqlarının Misirdən çıxıb Kadeşdə başqa oymaqlarla birləşməsinə qədər, ən azı, iki, ola bilsin, daha çox nəsil dəyişməsi baş verməli idi; Kadeşdəki birləşmədən sonra Kənaan torpaqlarına hücumadək olan zaman intervalı isə daha qısa olmalı idi; Yəhudi qaynaqları Misirdən köç eləməklə Kadeşdə yeni dinin qəbulunadək olan müddətin qısaldılmasında əsaslı maraqları vardı, bizim mülahizələrimiz isə bunun əksini iddia edir.

Mənim bu oxunaqlı bədii üslubda yazılmış və tarixi biliklərimizdə olan boşluqları doldurmaq məqsədi güdən əsərim vaxtilə "Imago" dərgisində çap olunmuş ikinci essemin bəzi yerlərinin təkrarıdır. Diqqətimizi çəkən başlıca məsələ Musa və onun doktrinasının taleyini izləməklə bağlıdır və bəlli olduğu kimi, yəhudilərin ona qarşı qaldırdıqları qiyam bu doktrinanın göz önündə baş verən inkişafını dayandıra bilmişdi. Bibliyanın Yahveist təfsirçilərinin e.ə. 1000-ci ildə yazıya aldıqları və sözsüz, bundan çox əvvəl yazılanlara əsaslanan mətnlərdən aydın olduğuna görə, Kadeşdə

dini özül üzərində birləşmənin baş verməsi ilə yanaşı, hələ də sonadək qovuşa bilməmiş iki təmayülün ardıcılları arasında kompromisə nail olunmuşdu. Bu tərəflərdən biri üçün tanrı Yahvenin yadelli mənşədən olmasını və Misirdən gələnlərin gətirdiyi yeniliyin özgə xalqdan götürülməsini inkar etmək çox vacib idi; bütün bunlarda başlıca məqsəd tanrı Yahveni və onun adına bağlanan yeni dini xalqın ürəkdən tapındığı bir inanca çevirmək idi. Burada öz maraqlarını güdən ikinci tərəf isə Misirdən köçməklə bağlı dəyərli xatirələrinin unudulmasını istəmirdi, habelə böyük öndər Musanın obrazını yaşatmağa çalışırdı, elə buna görə də onlar Musanın dininin zahiri əlamətlərindən birini, sünnəti saxlamağa müvəffəq oldular və yeni tanrının adının işlədilməsinə bir sıra məhdudiyyətlər qoyulmasını bacardılar. Biz bu tələblərlə çıxış edən insanların Musanın yaxınları olmuş və onunla birgə ölkəsini tərk etmiş misirlilər – levitlər olduğunu da demişdik və onların Misirdən çıxdıqdan sonra öz ölkəsindən yalnız bir neçə nəsil dəyişməsi ilə ayrıldıqlarını, lakin Musanın yəhudilərə verdiyi dini təlimlə bağlı hələ də canlı xatirələrlə yaşadıqlarını da qeyd etmişdik. Bibliyanın Yahveist və bir az sonrakı Elohist təfsirçilərinin etdiklərini belə poetik təsvirlərlə canlandırandan sonra onların gördükləri bu işi qəbirüstü abidəyə də bənzədə bilərik: bu abidənin dayandığı qəbirin içində isə sonrakı nəsillərin heç vaxt dəqiqliyi ilə öyrənə bilmədiyi biliklər uyuyur və onların içində gerçəkliklə bağlı məlumatlar, Musanın dini təliminin təbiəti və bu böyük insanın amansızlıqla öldürülməsi ilə bağlı biliklər də var. Beləliklə də, əgər bu prosesi doğru-düzgün yoza biliriksə, onda bundan sonra baş verənlər də bizim üçün anlaşılmaz olmayacaq, lakin bütün bunlar hansısa məqamda yəhudi xalqının tarixində Musa ilə bağlı dövrün tamamilə sona çatdığını da göstərir.

Ancaq bu dövrün sona çatmasında diqqəti çəkən bir cəhət də vardır. Bitdiyini söylədiyimiz dövrdən çox sonralar bu ideyalar yüz illər boyunca sıxışdırılıb xalqın yaddaşından çıxarılsa da, zaman keçdikcə insanların şüuruna və duyğularına daha güclü təsir etməyə başlayır. Xalqın qəbul etdiyi inancın tanrısı olan Yahvenin ilk olması, qonşu xalqların və oymaqların tanrılarından köklü surətdə fərqlənməsi az inandırıcıdır. Düzdür, bu qonşu xalqlar bir-biri ilə savaşdığı kimi, Yahve də qonşu xalqların tanrıları ilə çarpışırdı, ancaq o çağlar Yahveyə ibadət edən insanlardan heç birinin Kənaan, Moava və Amalikdə yaşayan xalqların tanrılarının varlığını inkar etmək ağlına belə, gələ bilməzdi.

Ehnatonun fəaliyyəti ilə meydana çıxmış təkallahlı din ideyası baş vermiş bu hadisələrdən sonra yenidən qaranlığa gömüldü və çox uzun müddət beləcə qaldı. Nil çayının yaratdığı birinci şəlalənin yaxınlığındakı Elefantin adasında aşkar olunan tapıntı belə bir heyrətamiz məlumatı üzə çıxardı: sən demə, orada yüz illər boyunca yəhudi hərbi koloniyası yerləşmiş və onların məbədində baş tanrı Yahve ilə birlikdə eyni ad daşıyan iki qadın tanrı da olmuşdur, bu qadın tanrıların hər ikisi Anat-Yahve adlanmışdır. Düzdür, bu yəhudi oymağı çoxdan öz yurdundan ayrılmış insanlardan təşkil olunmuşdu və onlar öz xalqının inanmağa başladığı yeni dindən xəbərsiz olub yalnız tabeçiliyində olduqları qədim dövr İran imperiyasının hakimiyyət orqanları vasitəsilə Yerusəlimdə baş verən mədəni tərəqqidən soraq tutmuşdular. Daha uzaq keçmişə qayıdası olsaq, onda tanrı Yahvenin Musanın tanrısı olan Atonla heç bir bənzərliyinin olmadığını da inamla deyə bilərik. Aton sülhsevər bir tanrıdır, bu

baxımdan o, belə demək olarsa, ata-babalarının qurduqları imperiyanın dağılmasına soyuqqanlılıqla baxıb heç bir tədbir görmək istəməyən, özünün yer üzündəki prototipi Ehnatona bənzəyir. Sözsüz, yeni torpaqlar işğal etmək istəyən xalq üçün Yahve daha əlverişli bir tanrıdır. Musanın tanrısına ibadət etmək üçün göstərilən səbəblər isə sadə xalq kütləsinə anlaşılmaz görünürdü.

Artıq mənim kimi düşünən bir sıra müəlliflərin olduğunu böyük sevinclə vurğulayaraq demişəm: iudaizm dininin inkişafının başlıca faktoru tanrı Yahvenin zaman keçdikcə öz başlıca xüsusiyyətlərini itirməsi və getdikcə daha çox Musanın köhnə tanrısı Atona bənzəməsidir. Düzdür, onlar arasında ciddi və vacib fərqlər də var, ancaq bunun səbəbini aydınlaşdırmaq çox da çətin deyil. Tanrı Aton bəlli bir müddətdə Misirdə özünün xoşbəxtliyə çatdığı bir dövr yaşaya bilmişdi, hətta onun dayağı olan fironun hakimiyyəti zəiflədikdən sonra da fironun pərəstişkarları onların inancına qarşı yönələn təcavüzlərdən yayına bilmiş, tanrı Atonun adı ilə bağlı olan On məbədində ibadət etmiş və hələ bir müddət üçün bu inancı yaşada bilmişdilər.

Tale yəhudi xalqını çox ağır sınaqlar, əzablı hadisələrlə üzləşdirdi, onun tanrısı da amansız, ciddi və qaraqabaq idi. Bu tanrı universal tanrıya xas olan xüsusiyyətləri özündə saxlamış, dünyanın bütün xalqları və ölkələri üzərində də onun hökmünü qurmuş, ancaq bu tanrı kultunun yəhudilərə misirlilərdən keçməsi faktı, belə bir ayrı-seçkilik də yaratmışdı. Bu tanrı yəhudiləri özünün xalqı olaraq seçmişdi və onların tanrı qarşısında başqalarından seçilən məsuliyyətləri vardı, buna görə də onların yüksək mükafatlanacağını vəd edirdi. Görünür, çox acı bir tale yaşayan xalqın öz dözülməz vəziyyəti ilə onu himayə edəcək qüdrətli və yenilməz tanrıya olan inamla birləşdirməsi çox da asan başa gəlmirdi. Burada yaranmış çaşqınlıqdan çıxış yolu da tapılırdı: tanrıya qarşı yaranan şübhələri boğmaq üçün insanlarda günahkarlıq duyğusu güclənməyə başlayırdı və görünür, heç bir səbəb tapmayanda bugünkü inanclı kimsələrin də etdiyi kimi, onlar “tanrının dərkolunmaz iradəsini” səbəb olaraq götürməli olurdular. Qəfildən tanrının onların üstünə assuriyalılar, babillilər, farslar kimi işğalçıları göndərib onları köləyə çevirdiyini görüb təəccüblənsələr də, sonradan tanrının bu zalımları da məğlubiyyətə uğradıb onların imperiyalarını dağıtdığını düşünərək təskinlik tapırdılar.

Son olaraq, yəhudilərin tanrısı Yahve ilə çox sonradan üç mühüm parametr üzrə Musanın köhnə tanrısı ilə eyniləşə bildi. Birinci və həlledici faktor onun gerçəkdən tək bir tanrı olmasının qəbul olunması, habelə onun yanında başqa heç bir tanrıya yer olmaması idi. Ehnatonun ideyası bütöv bir xalq tərəfindən bütünlüklə və tam dərinliyi ilə qəbul edildi və bu xalq təkallahlılıq ideyasına var gücü ilə bağlandığından, bu ideya onun mənəvi həyatının nüvəsinə çevrilib burada heç bir başqa maraqlar üçün yer qoymadı. Xalq və onun içində yaranan kahinlər bu məsələdə yekdil idilər, ancaq kahinlər yeni inancın ayin və mərasimlərini formalaşdırmaqla öz işlərini məhdudlaşdırarkən xalqın içində Musanın təlimindəki tanrı ilə bağlı daha iki atributun öz inanclarına gətirilməsi yönündə güclü təmayüllər yaranmağa başlamışdı. Yeni inancdan ilhamlanan peyğəmbərlər səslərini qaldırıb tanrının bütün ayin və qurbanvermə mərasimlərini günah saydığını, insanlardan yalnız ona etiqad bəsləməyi, və öz həyatlarını düzlük və ədalət içində keçirməyi tələb etdiyini car

çəkməyə başladılar. Bu peyğəmbərlər səhralara çəkilib orada sadə və müqəddəs bir həyatla yaşayarkən, sözsüz, Musanın ideallarının təsiri altında idilər.

İndi belə bir suala cavab verməyin vaxtı çatmışdır: tanrı ilə bağlı iudaist baxışların tamamilə formalaşmasında Musanın təsirinin olduğunu demək nə dərəcədə doğrudur? Bütün bunların yəhudilərin yüz illər boyunca çəkən mədəni yüksəlişinin özündən təbii şəkildə doğulduğunu düşünmək daha doğru deyilmi? Bizim aydınlaşdırmaq istədiyimiz bütün müəmmalara son qoyan belə bir yozumu ikimənalı şəkildə dəyərləndirmək olar. Axı yüz illər boyunca mədəni inkişaf yolu keçmək çox istedadlı yunan xalqını təkallahlılığa deyil, çoxallahlılığa gətirib çıxarmışdı və onlar buradan da fəlsəfi düşüncələrə gəlib çatmışdılar. Bizim anladığımıza görə, Misirdə təkallahlı din bu dövlətin imperiya yaratmasının nəticəsi kimi yaranmışdı, tək tanrı yer üzündəki böyük bir dövlətin qeyri-məhdud və vahid sahibi sayılan fironun təcəssümü kimi ortaya çıxmışdı. Yəhudilərin siyasi vəziyyəti bütün dünyaya sahiblik edən və bununla yanaşı bir xalqın himayəçisi olan belə bir universal tanrıya tapınmaq üçün əlverişsiz sayılmalı deyil? Hansı səbəbdən bu kiçik və gücsüz xalq dünyanın hakimi olan universal tanrının sevimli və seçilən xalqı olmaq iddiasına düşə bilərdi? Beləliklə də, yəhudilərin arasında təktanrılı dinin necə yaranması sualı cavabsız qalır və burada can qurtaran bir cavaba üz tutulur, sən demə, yəhudilər təktanrılı dini məxsusi dini dühalarının köməyilə yarada bilmişlər. Bəlli olduğu kimi, dühanın nə demək olduğu mübahisəli olduğu qədər də dərkolunmazdır və bununla bağlı suallar da cavabsızdır, ona görə də çox vaxt hansısa sualın ağlabatan cavabı olmayanda belə iddialar ortaya atılır.

Daha sonra yəhudi yazılı mətnlərinin və tarixi qaynaqlarının özündə qarşılaşdığımız bir sıra faktlar bu dəfə heç bir ziddiyyətə uymadan, qətiyyətlə təktanrılı din ideyasının onlara Musa tərəfindən gətirildiyini təsdiq edirlər. Bu fikrin inandırıcı olduğunu inkar edənlər də öz mühakimələrini sübut etmək üçün kahinlərin Bibliya mətnlərini işləyərkən ən çox Musaya əsaslandıqlarını göstərirlər, yəni Musaya əsaslanaraq yazılmış mətnlərdə onun hansısa gerçək düşüncələrinin qəsdən buraxıla bilməyəcəyini bir dəlil sayırlar. Buna misal olaraq, çox sonralar yaranmış ayin və mərasimlərin Musa tərəfindən yaradıldığını deməklə onların mötəbərliyinin artırılmasını göstərə bilərik. Bütün bunlar bizə şübhələnmək üçün əsas versə də, ancaq deyilənləri inkarı üçün yetərli deyil. Belə şişirtmələrin daha dərin motivlərinin nə olduğu bəllidir. Kahinlər yazdıqları mətnlərdə öz yaşadıqları dövrlə Musanın ideyalarının çiçəkləndiyi dövr arasında məqsədli şəkildə varislik əlaqəsi yaratmağa çalışırdılar; onlar bizim tapıb üzə çıxardığımız çox təəccüblü bir durumu: Musanın qanunları ilə sonrakı yəhudi dini arasında bir uçurumun yarandığını inkar etmək məqsədi güdürdülər. Bu uçurumu aradan qaldırmaq üçün yəhudilər əvvəlcə vulkan tanrısı olan Yahveyə itaət eləməyə başladılar və yalnız sonralar bu ziddiyyət tədricən aradan qaldırıldı. Onlar bütün mümkün vasitələrlə bunu inkar etməyə çalışsalar da, Bibliya mətnlərinin açıqlanması üçün tətbiq olunan xüsusi metodlar Yahveyə tapınmanın bu dövrü ilə bağlı çoxlu məlumatların olduğunu göstərməklə bu faktın tarixi baxımdan həqiqət olduğunu sübuta yetirə bilmişdir. Burada kahinlərin redaktəsi ilə yeni tanrı Yahve gerçəkliyi yanlışa uğratmaq niyyətinin təsiri ilə Ata-tanrıya çevrilmişdi. Bibliyanın Kahinlik kodeksi adlanan redaktəsində qarşılaşdığımız

bu motivi nəzərə alsaq, onda bu dinin başlıca ehkamının inkarı mümkünsüz görünür və yəhudilərə təkallahlı din ideyasını Musanın verdiyi bəlli olur. Bu ata-oğul münasibətlərinə əsaslanan sistemi anlamaq çətin deyil, axı iudaist kahinləri bunu bilməsələr də, biz Musanın bu ideyanı haradan götürdüyünü bilirik.

Burada belə bir sual verə bilərlər: iudaist təktanrılı dininin Misirdən qaynaqlandığını hesab etməklə biz nə qazanırıq? Axı bu nəticəni qəbul etməklə problem cüzi şəkildə yerindən tərpəndi və biz təktanrılı dinin necə yaranması ilə bağlı yeni heç nə öyrənə bilmədik. Bu sualın cavabı belədir: biz burada uduş axtarmırıq, araşdırma aparırıq. Böyük ehtimalla, biz hadisələrin, əslində, necə baş verdiyini aydınlaşdıra bilsək, onda hansısa yenilikləri də öyrənmək imkanı qazanacağıq.

B. Gizli inkişaf (latentlik)
dövrü və ənənələr

Beləliklə də, biz tək allah ideyasının ortaya çıxması, eləcə də ovsun və cadulara əsaslanan ayinlərin rədd edilməsi, habelə, tək allah adından insanlar qarşısında mənəvi tələblər qoyulmasının faktiki olaraq Musanın təlimi əsasında şişirdilməsinə əmin olduq. Həmçinin bütün bu ideya və ehkamların əvvəlcə yaxşı qarşılanmadığını, lakin zaman keçdikcə tədricən uğurlar qazana bildiyini və nəhayət, uzun bir müddət üçün qalib gəldiyini də öyrəndik. İdeyanın öz təsir gücünü göstərə bilməsi üçün bu gecikməni necə izah etmək olar və buna bənzər fenomenlə daha harada qarşılaşmaq mümkündür?

Ağlımıza birinci gələn düşüncə belə ola bilər: onlara müxtəlif sahələrdə tez-tez rast gəlmək olar, burada asan və çətin anlaşılan üsullar ola bilər. Misal olaraq, yeni elmi nəzəriyyənin taleyinə baxaq – Darvinin təkamül nəzəriyyəsini götürək. Bu təlim əvvəlcə kəskin nifrətlə qarşılandı, 10-20 il ərzində qızğın şəkildə inkar olundu, ancaq bir nəslin dəyişilməsinə gərək olan vaxtdan da az bir müddətdə nəzəriyyə gerçəkliyin dərk olunmasına doğru atılan nəhəng bir addım kimi qəbul olundu. Hətta Darvinin cənazəsi böyük hörmətlə dövlət səviyyəsində dəfn olunmağa layiq görüldü. Danışdığımız bu hadisə bizim düşdüyümüz qeyri-müəyyənlikdən çıxmağımıza az da olsa, yol göstərə bilir. Yeni həqiqət emosional bir etirazla qarşılanır – bu etiraz narazılıq doğuran nəzəriyyənin sübutlarını inkar edən arqumentlər şəklində özünü göstərə bilər; rəylərin mübarizəsinin konkretləşməsi isə vaxt tələb edir. Lap əvvəldən yeni nəzəriyyə və ya təlimin tərəfdar və əleyhdarları olur və hər iki tərəfdə onların sayı artır. Lakin təlimin tərəfdarları həqiqəti təmsil elədikləri üçün, onların səyləri artdıqca sayları da artır və nəticədə, əleyhdarları üstələyir. Qarşılaşdığımız problemə oxşar hallarda bu prosesi həmişə xatırlamağa dəyər. Prosesin başa çatması üçün bu qədər uzun müddətin keçməsi təəccüb doğura bilməz, ancaq ola bilsin ki, kütləvi psixologiya ilə bağlı proseslərə keçmək üçün bu dediklərimizin doğruluğu yetərli görünməsin.

Dediyimiz prosesin fərdin psixi həyatı ilə tam analogiyasını tapmaq çətin deyil. Buna oxşar vəziyyət kiminsə inkaredilməz güclü arqumentlərə əsaslandığı üçün inanmalı olduğu hansısa yeniliklə qarşılaşdığı zaman, bu yeniliyin onun istəkləri və dəyərli saydığı qənaətləri ilə uzlaşmadıqda baş verir. Onda bu adam inanmalı olduğu doğrunu qəbul etməyi gecikdirməyə çalışır, onu şübhə altına ala biləcək əsaslar axtarışına çıxır, bir neçə müddət beləcə öz-özü ilə döyüşür və nəhayət, belə bir

nəticəyə gəlib çıxır: bunu qəbul etmək mənim üçün asan olmasa da, xoşagəlməz olsa da, hər halda, istər-istəməz, onu qəbul etməyə məcburam. Buradan bir şeyi öyrənmiş oluruq: insanın öz ağlının köməyi ilə "MƏN"-inin, emosiyaların coşmasından yaranan etirazı adlaması üçün müəyyən vaxt tələb olunur.

İndi göstərəcəyimiz misalın bizim problemlə daha az bağlı olduğu düşünülə bilər. Bir də görürsən, kimsə qorxunc bir bədbəxtliklə, tutalım, qatarların toqquşması kimi bir faciə ilə üzləşib sağ qalır və baş verənlərin onu sarsıda bilmədiyi aydın olur. Ancaq bu faciədən bir neçə həftə sonra həmin adamın psixikasında və hərəkətlərində çox ağır simptomlar özünü göstərməyə başlayır, belə simptomlar isə, adətən, hansısa faciədən bərk sarsılmış adamlarda olur. Beləliklə də, ilk baxışda üzləşdiyi faciəyə soyuqqanlı yanaşdığı düşünülən bu adamda "travmatik nevroz" deyilən bir xəstəlik başlayır. Bu yeni bir fakt olsa da, çox anlaşılmaz bir fenomen olaraq qalır. Baxdığımız misalda, görünür, infeksiya ilə bağlı xəstəliklərdə işlənən terminlərdən yararlanaraq bədbəxt hadisənin baş verməsi ilə nevrozun ilkin simptomlarının üzə çıxması arasında keçən müddəti "inkubasiya dövrü" adlandırırlar. Burada nəzərə çarpan bir məqam da var: bu iki hadisə ayrı-ayrı sferalardan olsalar da, travmatik nevroz problemi ilə iudaizmdəki təktanrılı din problemi arasında uyğunluğu görməmək mümkün deyil. Bu bənzərlik özünü problemin yaranmasındakı "gizli inkişaf dövrü" ilə də göstərir. Axı bizim əsaslandırılmış mülahizələrimizə görə, iudaist dininin tarixində Musanın dinindən imtina etdikdən sonra çox uzun müddət keçmiş və həmin mərhələdə təktanrılı din ideyasının izi silinmiş, ovsun və cadu ilə bağlı ayinləri inkar edən, inancı yalnız mənəvi amillərlə bağlamağa çalışan düşüncə də aradan qalxmışdı. Belə çıxır, biz qarşılaşdığımız problemi həll etmək üçün onun yaranmasında rolu olan xüsusi psixoloji situasiyanı müəyyən eləməliyik.

Artıq Kadeşdə baş vermiş hadisə ilə bağlı iki dəfə söz açmışıq və gələcəkdə yəhudi xalqını formalaşdıracaq iki ayrı kütlənin yeni din qəbul etmək üçün görüşdüyündən danışmışıq. Misirdən köçmək və Musanın obrazı ilə bağlı xatirələr insanların qəlbində hələ də çox güclü və dərin olduğundan bu dinin kitablarında onların bu xatirələrinə də yer verməli olmuşdular. Ola bilsin, onlar Musanı yaxından tanıyan adamların nəvələri idilər və əksəriyyəti özünü hələ də misirli sayır, misirli adları daşıyırdı. Ancaq bu insanların onların öndəri və qanunvericisi olan Musanın faciəvi taleyinin unutdurulması ilə barışmalarının köklü səbəbləri də vardı. İkinci tərəfdə dayananlar isə yeni tanrının ad-sanını ucaltmağa və onun yadelli mənşəyinin inkarına çalışırdılar. Həm də bu bölünmüş tərəflərin hər ikisi onların etiqad etdikləri dindən öncə hansısa dinin olmasına və onun gerçək məzmununun ortaya çıxmasına qarşı idi. Beləliklə də, ilk komporis baş tutdu və böyük ehtimalla, onun nəticələri yazılı olaraq da qeydə alınmışdı; Misirdən gələn adamlar özləri ilə əlifba da gətirmişdilər və onlarda tarixi hadisələri yazıya almaq vərdişləri də vardı, lakin həmin dövrdə yazılan tarixlərdə proseslərin gerçək məzmununun yazılacağını gözləmək sadəlövhlük olardı. Tarixin yalnız gerçəkliyi işıqlandırması düşüncəsinin bərqərar olması üçün hələ çox vaxt keçməli idi. Belə tarixçilər yazdıqları hadisələri öz arzu və istəkləri üzrə qələmə almaqdan utanmırdılar, onlar, elə bil, "tarixin saxtalaşdırılması" adlı bir anlayışın olmasından xəbərsiz idilər. Nəticə etibarilə, hansısa gerçək hadisənin yazılı variantı ilə onun ağızlarda dolanan şifahi variantı arasında çox güclü ziddiyyətlər yaranmağa

başlayırdı. Çox güman ki, hansısa hadisələrin üstündən keçmək, yaxud da onu dəyişərək yazıya alınan mətnlər dəyişməz qalır, sonradan bu yanlışları gələcəyə çatdırırdılar. Beləliklə də, bu cür mətnlər artsa da, onların çoxu tarixi həqiqətləri əks etdirən şifahi məlumatlarla ziddiyyət yaradırdı. Bəlli olduğu kimi, şifahi danışıqda qorunan tarixi məlumatlar məqsədyönlü təmayüllərin tarixi gerçəklikləri korlaması ilə bağlı təsirlərinə çox az məruz qalır, bəzi hallarda isə, demək olar ki, təhrif olunmadan gələcəyə ötürülürdü. Bu səbəbdən də, onların əsasında sonradan yazıya alınmış mətnlər həqiqətə daha çox uyğundur. Ancaq bu mənbələrin etibarlılığını azaldan onların dəyişməz qalan yazılı mətnlərlə müqayisədə nəsildən-nəslə şifahi şəkildə keçdikcə məruz qaldıqları çoxsaylı təhriflər idi. Belə məlumatların taleyi tam fərqli ola bilər. İlk növbədə belə düşünə bilərik: yazılı mətnlər vaxt keçdikcə şifahi versiyaları aradan qaldırıb özünü daha mötəbər qaynaq kimi tanıtmağa başlayır, bu məlumatların dəyişkənliyi yazılı mətnlərin dəyişməzliyi qarşısında tab gətirə bilmir və getdikcə gerçəklikdən daha çox təxəyyülün məhsullarına bənzəməyə başlayır, tədricən unudulur. Lakin onların taleyi başqa cür də ola bilir: ağızdan-ağıza keçən bu məlumat yazıya alınır və ortadan qalxır, bununla bağlı bir az sonra yenə də danışacağıq.

İndi isə araşdırmamızda tətbiq etdiyimiz latentliklə (gizli inkişaf dövrü) bağlı olaraq iudaizmdə belə bir dövrün necə keçdiyi ilə bağlı problemə aydınlıq gətirmək lazımdır: doğrudan da, rəsmi qaydada məqsədyönlü şəkildə inkar olunan istənilən situasiya və hadisə – indiki halda bu inkar tarixi mətnlərdə əks olunur – izsiz-soraqsız yox olmur. Onlarla bağlı məlumatlar xalqın yaddaşında yaşamağa davam edir. Bildiyimiz kimi, Zellinin mülahizəsinə görə, hətta Musanın aqibəti ilə bağlı rəsmi versiya ilə ziddiyyətdə olan və gerçəkliyə çox yaxın məlumatlar var. Biz də burada öz mülahizələrimizi irəli sürə və Musanın ölümü ilə yanaşı, onun dininin bir sıra tələblərinin nə üçün Musanın çağdaşları üçün qəbuledilməz olduğunu da aydınlaşdıra bilərik. Ancaq baxdığımız faktın bir maraqlı cəhətinə də diqqət yetirməyə dəyər: yazıya alınmayan bu məlumatlar zaman keçdikcə zəifləməmiş, yüzilliklər keçdikcə daha da güclənmiş və dini mətnlərin sonrakı redaktələrində yazılı mətnlərə qoşula bilmiş, habelə burada hakim olan rəsmi mövqeyi yetərincə sıxışdıra bilmişlər, bütün bunlar isə onların xalqın düşüncə və davranışlarına daha çox təsir etməsinə gətirib çıxarmışdır. Belə bir yekun nəticəyə gətirib çıxaran şərtlərin nədən ibarət olduğu bu gün bizə aydın deyil.

Bu fakt çox diqqətəlayiq olduğundan onu bir daha qeyd etməkdən məmnunluq duyuruq. Çünki daxilində bizim qoyduğumuz problemin həllini saxlamaqdadır. Yəhudi xalqı Musanın ona təklif etdiyi Atonun dinindən üz döndərdi və qonşu xalqların tanrısı Vaaldan çox az fərqlənən bir tanrıya ibadət etmək yolunu tutdu. Bundan sonra görülən işlərin heç biri bu biabırçılığı ört-basdır edə bilmədi. Ancaq Musanın dini də izsiz-soraqsız yoxa çıxmadı, o unudulmayan bir inanc forması kimi yaddaşlara hopdu, onun ənənələrdə də bir az qaranlıq, bir az təhrif olunmuş şəkildə yaşadığını da düşünmək mümkündür. Ənənələr isə müəyyən mənada təsir göstərməyi bacardı, bu təsirlər getdikcə insanın ruhu üzərində daha çox hakim olmağa başladı, nəticədə insanlar tanrı Yahvenin adını saxlayaraq mahiyyətini Musanın tanrısına çevirə bildi. Bununla da, yüz illər əvvəl üz döndərdikləri musaçılıq dinini dirçəltməyə başladılar.

Çoxdan unudulmuş dini ehkamların çox sonralar bəlli bir xalqın psixikasına belə güclü təsir edə bilməsi bizə tanış olmayan hadisədir. Burada biz özümüzü münasib hiss etmədiyimiz kütləvi psixologiya sahəsinə düşürük. Situasiyadan baş açmaq üçün biz analogiyalara, uyğun faktlara baxırıq, ən azı, təbiətdə bu vəziyyətlə uzlaşan situasiyalar tapmağa çalışırıq. Mənə elə gəlir, bu vəziyyəti anlamaq üçün lazımi uyğunluğu tapa biləcəyik.

Yəhudilərdə Musanın dininə qayıdışın gözə çarpmağa başladığı vaxtlarda yunan xalqı öz əfsanə və miflərindən ibarət zəngin bir xəzinə yaratmağa başlamışdı. Ehtimal olunduğuna görə, e.ə. IX və VIII yüzilliklərdə Homer bu əfsanələr silsiləsindən qaynaqlandığı hər iki eposu artıq yazmışdı. Qədim yunan torpaqlarındakı böyük mədəniyyət abidələrini tapıb üzə çıxarmış arxeoloqlar Şliman və Evansın gördükləri böyük işlər olmasaydı belə, bizim apardığımız bu psixoloji araşdırmalar zamanı belə bir sualın yaranması gözlənilən idi: Homerin öz eposlarını və yunan dramaturqlarının öz şah əsərlərini yazması üçün yararlandıqları bu qədər əfsanə və mif yunanlarda haradan idi? Cavab isə belə ola bilərdi: görünür, bu xalq uzaq keçmişində parlaq həyat, çiçəklənən bir mədəniyyət yarada bilmiş, hansısa faciədən sonra bunların hamısını itirmiş və o böyük günlər haqqında yalnız şifahi formada yaşayan əfsanələrdə dumanlı məlumatlar qala bilmişdi. Belə mülahizələri irəli sürmək indiyədək çox riskli sayılırdı, lakin müasir dövrdə aparılan arxeoloji qazıntılar onların doğruluğunu təsdiqlədi. Arxeoloqların bu axtarışları, böyük ehtimalla, e.ə. 1250-ci ildən əvvəl dağılmış çox böyük Krit-Miken mədəniyyətinin qalıqlarını tapıb üzə çıxara bildi. Bu çağdan sonra yaşamış yunan tarixçilərinin heç birinin əsərlərində bu mədəniyyətlərlə bağlı məlumat yoxdur. Onların əsərlərində yalnız epizodik şəkildə vaxtilə kritlilərin dənizdəki hökmranlığından, onların Minos adında kralından, böyük və gözəl sarayından, burada qurulan labirintdən söz açılır; tarixçilərin əsərlərində o dövrlə bağlı başqa heç bir dəyərli məlumat yoxdur, ancaq həmin dövrün mahiyyətini açan digər məlumatlar xalq arasında dolaşan əfsanələrdən yararlanmağı bacaran şairlərin əsərlərində yaşaya bilmişdir.

Başqa xalqların da belə eposları var: misal olaraq, alman, hind və finlərin yaratdığı çoxsaylı eposları göstərmək olar. İndi ədəbiyyatşünas tarixçilər araşdırmalar aparıb belə bir sula cavab axtarırlar: bu xalqların bu günə gəlib çatan eposları, yunanlarda olduğu kimi, uzaq keçmişin böyük mədəniyyətlərindən soraq verir? Düşünürəm ki, onlar öz araşdırmalarından qoyduqları bu suala müsbət cavab alacaqlar. Bununla bağlı bizim gəldiyimiz qənaət belədir: bizə bəlli olan tarixdən əvvəl baş vermiş hadisələrin bir qismi, görünür, çox böyük, vacib və həlledici, habelə böyük qəhrəmanlıq nümunələri olaraq özündən sonrakı hadisələrdə izlərini qoruyub saxlaya bilmişdir, lakin bütün bunlar olduqca uzaq keçmişdə baş verdiyindən onlarla bağlı məlumatlar sonrakı nəsillərə çox dumanlı və yarımçıq formada çatmışdır. Tarixin sonrakı mərhələlərində belə eposların yerini müxtəlif incəsənət növlərinin tutması da məlumdur. Görünür, artıq bu dövrdən başlayaraq eposlara aid mülahizələrin yaranmasına şərait olmamışdır. Keçmişdən qalma bütün materiallar işlənərək üzə çıxmış, sonrakı hadisələr isə gerçək faktları yazıya alan tarix elminin predmetinə çevrilmişdir. Bizim günlərin böyük qəhrəmanlıqları epos yarada biləcək ilham vermək

gücündə deyil, yeri gəlmişkən, Makedoniyalı İsgəndərin öz dövründə Homer kimi bir tərənnümçüsünün olmadığından gileylənməyə haqqı da vardı.

Çox uzaq keçmişdə baş vermiş hadisələr çox böyük və müəmmalı bir güclə insanların fantaziyalarında özünə yer tapır. Yaşadığı dövrün gerçəklikləri ilə kifayətlənmək istəməyən, bundan artığını uman insanlar – çox vaxt elə belə də olur – keçmişə üz tutur və bununla da, təxəyyüllərin də heç vaxt sönməyən "qızıl kimi çağların" ola biləcəyi ilə bağlı diləklərini doğrultmağa çalışırlar. Belə insanlar, güman ki, uşaqlıqda yaşadıqları duyğulardan hələ də azad ola bilməmişlər, keçmiş qayğısız günləri onların yaddaşında bütün gücü ilə qalmaqda və onları təsirləndirməkdə davam edir. Əgər dediyimiz bu ənənəvi hekayətlərdə keçmişin yarımçıq və dumanlı xatirələri qalırsa, onda bu materiallar yaradıcı insanlar üçün əvəzolunmaz və gözəl bir xammala çevrilir, onlar buradakı boşluqları doldurmaq üçün öz fantaziyalarını bütünlüklə gerçəkləşdirir və öz düşüncələrinə arxalanaraq keçmişin dumanlı görkəmini öz istəklərinə uyğun olaraq bütünləşdirib üzə çıxarırlar. Keçmişdən qalma əhvalatlar nə qədər çox dumanlı olsa, şairlərin işinə də bir o qədər çox yarayır. Onların poeziya üçün necə vacib olduğu bizi təəccübləndirmədiyi kimi, eynilə eposların yaddaşlarda buraxdığı izlərin ardınca düşüb yəhudilərin Musa ilə bağlı məlumatları sonadək unutmadığını, habelə yeni tanrı Yahve ilə bağlı ayinlərində Musanın köhnə dini təlimindən yararlandıqları da təəccüblü deyil. Ancaq bu məlumatlardan yararlanmaq da, yerinə görə bir-birindən kəskin fərqlənir. Birincidə ondan poeziya, ikincidə dinin yaradılması üçün yararlanırlar, bizim mülahizəmizə görə, ikinci hal üçün keçmişdən qalma əhvalatın yaratdığı impuls onun dini baxışlar sistemində dəqiqliyi ilə ifadə olunmasına gətirib çıxarır və bu da onu əfsanələrdəki qeyri-dəqiqlikdən xilas edir. Beləliklə də, bizim araşdırmamızı doğrultmaq üçün daha uyğun olan analogiyalar tapmaq ehtiyacı yaranır.

C. Analogiya

Biz iudaizmin tarixində aşkara çıxardığımız çox təəccüblü bir prosesə uyğun gələn yalnız bir analogiya tapa bildik və o, tamamilə fərqli bir sahədəndir; lakin buradakı uyğunluq mükəmməldir və az qala, eyniləşmə səviyyəsinə gəlib çatır. Bu analogiyanın aid olduğu prosesdə biz yenidən latentlik (gizli inkişaf dövrü) fenomeni ilə qarşılaşırıq, bu isə özünü izah tələb edən gözlənilməz və anlaşılmaz hadisələrin yaranmasında, habelə baş verib sonradan unudulmuş sarsıntılı situasiyaların mövcudluğu mülahizəsində də göstərir. Burada həm də eposun yaranmasında nəzərə alınmayan, psixikanı məntiqi düşüncəyə tabe edən məcburiyyət də başlıca xüsusiyyətlərdən birinə çevrilir.

Dediyimiz bu analogiyaya biz psixopatologiyada nevrozluğun formalaşması prosesində rast gəlirik, bu isə sözsüz, fərdi psixologiya ilə bağlı fenomendir, lakin dini fenomen kütləvi psixologiya ilə bağlıdır. Sonra bu analogiyanın ilk baxışda göründüyü qədər heyrət doğuracaq şəkildə olmadığını da aydınlaşdırırıq və onun bizim işimizə yalnız ilkin bir mülahizə kimi kömək edə biləcəyi də məlum olur.

Nevrozluğun yaranma və inkişafında keçmişdə yaşanmış, sonradan unudulmuş sarsıntılar mühüm yer tutur və onlar travma adlanır. İndiki zamanda nevrozluğun yaranma və inkişafının travmalardan birbaşa asılı olduğu sübuta yetirilməmişdir. Bu fikrə etiraz edənlər öz mühakimələrini belə əsaslandırırlar: heç də bütün

vəziyyətlərdə nevrozların məhz bu travmalara görə xəstələndiyini demək olmur və çox vaxt onların uşaqlıqda yaşadıqları belə sarsıntıları tapıb üzə çıxarmaq mümkün deyil. Belə xəstələri müayinə etdikdən sonra, adətən, onların xəstəliyinin səbəbi yaşadıqları duyğulara hədsiz və anormal reaksiya vermələri və yüksək tələbkarlıqla yanaşmaları ilə yozulur, eynilə nevrotik olmayanların bu kimi duyğulara normal yanaşdığını və asanlıqla yoluna qoyduğunu da bir nümunə kimi göstərirlər. Nevrozun müayinəsi zamanı xəstəliyin yaranma səbəbinin irsi, yaxud təsadüfi olduğunu aydınlaşdıra bilməyəndə xəstəliyin sonradan qazanılma deyil, anadangəlmə olduğunu deyir, onun daha yüksək inkişaf fazasına keçdiyi üçün dözülməz olmağa başladığını düşünürlər.

Bununla bağlı olaraq iki məqam qeyd olunur. Onlardan birincisi, nevrozun həmişə və hər yerdə ilkin uşaqlıq çağında yaşanmış hansısa bir sarsıntıdan qaynaqlanmasıdır. İkincisi isə, doğrudan da, “travmatik” adlana bilən hadisələrin mümkünlüyüdür. Bu hadisələrin uşaq ikən buraxdığı təsir vaxtında öz normal həllini tapmayanda yaşlı vaxtlarda özünü göstərir, hətta bir sıra hallarda bu travmalar olmasa idi, nevrozun baş verməyəcəyini də düşünmək olar. İndi öz məqsədimiz üçün tapdığımız bu analogiyanın travmatik hadisələrlə məhdudlaşdırılması yetərli olacaqdır. Üstəlik, bu iki qrup hadisə arasında keçilməz bir uçurum da yoxdur. İki mülahizəni bir şərhdə birləşdirmək də olar, bunun üçün onların ikisinin də travmatik bir başlanğıc olaraq götürülməsi yetərli olacaq. Əgər hansısa sıxıntının travmatik xarakterinin yalnız onu doğuran faktorun şiddətindən asılı olduğunu ehtimal etsək, onda bütün bu hallarda bədbəxtçiliyin səbəbi nevrozun ifrat təəssürata qapılması olacaq, belə bir sıxıntı qeyri-adi patoloji reaksiya doğurursa, onda çox asanlıqla bu cür nəticəyə gələ bilərik: bir insanın psixi vəziyyətinə travmatik şəkildə təsir edən hadisə başqa birinin psixikasına təsir etmədən ötüb keçmir. Bu zaman əlavə faktorlar ortaya çıxır və iki faktor eyni bir nəticədə birləşir. Onlardan birinin zəifliyi digərinin güclü olması ilə kompensasiya olunur və beləliklə, iki faktor birlikdə təsir edir, ona görə də burada yalnız bir sırada dayanan sadə motivlərdən yaranmış iki çıxış nöqtəsindən danışmağa dəyər. Bu mühakimələrlə gəldiyimiz qənaətdən sonra travmatik və qeyri-travmatik xəstəlik prosesini bir kənara qoyub onlar arasındakı fərqin bizim tapdığımız analogiyaya mühüm bir təsirinin olmadığını deyə bilərik.

Təkrarçılıqda həmişə bir təhlükə olsa da, məncə, burada baxdığımız analogiyanın varlığını təsdiq edən faktları yenidən gözdən keçirib bir yerə toplamaq məqsədəuyğun olardı. Onlar aşağıdakılardır: bizim araşdırmamıza aydınlıq gətirmək üçün çox vacib olan nəsə var və biz onu nevrozun simptomları adlandırırıq, bu simptomlar isə bəlli bir sıxıntı və bununla bağlı olan təəssüratdan doğmuşdur və travma adlanır. Qarşımızda iki məsələ dayanır: birincisi, bu sıxıntılı duyğuların ümumi cəhətlərini axtarmaq, ikincisi də, onlara uyğun şəkildə yaranan nevrotik simptomların ümumi cəhətlərini araşdırmaq. Bu işi görmək üçün sxem qurmadan keçinə bilməyəcəyimiz də aydındır.

I əlavə: a) bütün bu travmalar ilk uşaqlıq çağlarına düşür, təxminən beş yaşına kimi baş verir. Körpənin danışmağı öyrənməyə başladığı dövrdəki təəssüratları çox maraq doğurur; iki-dörd yaş arasındakı mərhələ isə çox vacib sayılır; doğulandan sonra hansı yaş dövründən başlayaraq bu həssaslığın yarandığını müəyyən etmək

mümkün olmamışdır; b)yaşanmış bu duyğular sonradan bütünlüklə unudulur və yaddaş üçün əlçatmaz olur və körpəlik çağının yaddaşsızlığı dövründə qalır, ancaq aradabir psevdoxatirə adlana biləcək qırıq-qırıq hadisələr bir anlığa yaddaşımızda canlanıb tez də yox olur; c) bu qırıq-qırıq xatirələr daha çox seksual və aqressiv təbiətli olurlar, bunu, haradasa, "MƏN"-in ilkin zədələnməsinə (narsisizm) çox bənzətmək olar. Qeyd etmək lazımdır ki, belə azyaşlı uşaqlar seksual və aqressiv davranışları bir-birindən dəqiqliyi ilə ayıra biləcək şüura malik olmurlar (cinsi aktın sadistcəsinə yalançı qavranılması). Ancaq burada seksual məqamın olması gözə çarpır və onun nəzəri baxımdan dəyərləndirilməsi tələbi yaranır.

Buradakı üç məqam: doğulandan sonra ilk körpəlik çağında birinci beş ildə baş vermə, unudulma və seksual-aqressiv məzmun bir-biri ilə sıx əlaqəlidir. Alınan travmanın səbəbi ya öz bədəninin üzləşdiyi hansısa hadisə, ya da eşitmək və ya görməklə bağlı yaşanan hansısa duyğu, daha doğrusu, hansısa hadisədən alınan təəssürat olur. Bu üç məqamın belə birləşməsi psixoanalizin gəldiyi nəticələrə arxalanan nəzəriyyə ilə izah oluna bilər. Bu zaman unudulmuş keçmiş təəssüratlar xatırlanır, aydın, lakin dağınıq bir məzmunda üzə çıxır və unudulan xatirələri yaddaşa qaytarmağı bacarır. Nəzəriyyənin bildirdiyinə görə, geniş yayılmış düşüncələrin əksinə olaraq, insanın cinsi həyatı – yaxud sonradan belə adlanan akt – çox erkən yaşlarından baş qaldırır və təxminən beş yaşında ikən dayanır. Daha sonra cinsi yetkinlik yaşına çatanadək latentlik (gizli, üstüörtülü inkişaf) dövrü gəlir və bu yaşlarda seksuallığın inkişafı gözə çarpmır, hələ üstəlik, onun zəifləməsi müşahidə olunur. Bu nəzəriyyə daxili cinsi orqanların anatomik araşdırılması vasitəsi ilə sübut olunur və onun irəli sürdüyü mühakimələrə görə, insanın törədiyi, onun əcdadı olmuş heyvan – adətən, təbiətdəki başqa canlılarda olduğu kimi – çox erkən, beş yaşında cinsi yetkinlik səviyyəsinə çatan bir canlı olmuşdur və seksual oyanmanın körpəliyin ilkin mərhələsində baş qaldırıb zəifləməsi, sonra yenidən aktivləşməsi kimi ikilik insan orqanizminin tarixi təşəkkülü ilə bağlıdır. Görünür, insan təbiətdə belə latentlik dövrü keçirən və seksual gecikmə xüsusiyyəti olan yeganə canlıdır. Bu nəzəriyyənin doğruluğunu primatların anatomiyasını öyrənməklə dəqiqləşdirmək olardı, ancaq bu sahə üzrə təcrübəsiz olduğumdan, yeni heç nə deyə bilmirəm. Görünür, erkən yaşlardakı təəssüratlarla bağlı xatirələrin unudulması ilə bu yaşlarda özünü göstərən erkən seksual oyanmanın eyni bir dövrə düşməsi psixoloji baxımdan maraq doğurmalıdır. Böyük ehtimalla, bu iki hadisənin eyni vaxta düşməsi də gələcək nevrozların qaynağıdır və bu da, müəyyən mənada, insanın bir üstünlüyü sayılmalıdır, yəni bizim bədənimizdə uzaq keçmişdən qalma yarasız qalıqlar olduğu kimi, erkən seksual oyanma kimi vaxtsız hadisənin qarşısının alınması da yaddaşın itirilməsi ilə aradan qaldırılır.

II əlavə: nevrotik fenomenlərin ümumi keyfiyyət və ya xüsusiyyətlərini araşdıranda iki məqamı vurğulamaq lazımdır: a) söz açdığımız travmaların iki cür: mənfi və müsbət təsirləri olur. Mənfi təsir travmanı yenidən dövriyyəyə qaytarmaq istəyir, daha doğrusu, unudulmuş sıxıntılı duyğunun xatırlanmasına çalışır, hələ bundan o yana da keçib onun yenidən dirçəlməsini, yaşanmasını istəyir, hətta onun baş verdiyi keçmişdə qalmış situasiyanı bərpa etməyin mümkün olmaması da onu bundan çəkindirə bilmir. Bu təsir indi keçmişdəki hadisəni başqa bir insanla əlaqəli

olaraq yaratmağa da əl atır. Belə cəhdlər travmada ilişib qalmaq və ya təkrar müdaxilə adlandırılır. Bu deyilənlər normal "MƏN"-lərdə də özünə yer edə və təkrar müdaxilənin daimi təsiri ilə onun xarakterik cəhətlərini formalaşdıra bilər. Burada travma unudulmuş kimi görünsə də – ola bilsin, elə travma olduğuna görə – öz təsirini dolayı şəkildə göstərməkdə davam eləyir. Məsələn, indi artıq yaşa dolmuş bir kişi ilk körpəlik çağını hədsiz dərəcədə anasına yaxın keçiribsə və ona möhkəm bağlı olubsa, sonradan bunları unutsa belə, çox vaxt öz həyatında asılı olmaq istədiyi, onu dolandıracaq və qoruyacaq bir qadını axtarıb tapmağa çalışır. Yaxud yaşa dolmuş bir qızı azyaşlı vaxtlarında onun üçün cəlbedici olan cinsi təcavüzə məruz qoymuşlarsa, onda o həyatının sonrakı dövründə daima, dönə-dönə belə cinsi təcavüzə məruz qalacağı vəziyyətlərə düşə bilmək üçün təhrikedici davranışlar nümayiş etdirəcək. İndi yürütdüyümüz mülahizələrin bizi nevroz problemi ilə bağlı olan çərçivədən kənara çıxardığını görmək çətin deyil, ancaq bu deyilənlərin bizə insan xarakterinin necə formalaşması ilə bağlı dəyərli biliklər verdiyi də danılmazdır.

Qeyd etdiyimiz müsbət təsir isə mənfi təsirlə bağlı baş verənlərin büsbütün əksini doğurmağa çalışır, unudulmuş travmaların xatırlanmasının qarşısını hər vəchlə almağa və bunu yada sala biləcək bütün davranışları əngəlləməyə can atır. Bu təsirləri müdafiə reaksiyaları da adlandıra bilərik. Onlar özünü yayınma, tormozlama və fobiya (yersiz qorxu duyğusu) yaratmaqla gerçəkləşdirir. Bu mənfi reaksiyalar da xarakterin formalaşmasına güclü təsir göstərir; özünün əksi olan reaksiyalar kimi onlar da təsbit olunurlar, ancaq bu təsbit əks istiqamətə yönəlmiş olur. Sözün dar mənasında götürsək, nevroz simptomları bir-biri ilə kompromisə girir və beləliklə də, travmadan qaynaqlanan iki reaksiya olur, növbə ilə onlardan gah biri, gah da o birisi üstünlük qazanır. Reaksiyaların belə əksliyinə görə konfliktlər yaranır və onları yalnız bir üsul tətbiq etməklə aradan qaldırmaq mümkün olmur.

b) Bütün bu fenomenlər istər simptom, istər "MƏN"-in məhdudlaşdırılması, istərsə də xarakterin ardıcıl olaraq dəyişilməsi kimi təcavüzkar xüsusiyyətli olur, daha dəqiq desək, psixi intensivliyin əhəmiyyətli dərəcədə gücləndiyi hallarda onlar gerçək xarici aləmə və məntiqi düşüncəyə tabe olan başqa psixi proseslərdən olan asılılıqlarından qurtulub, çox uzaqlara gedib çıxan müstəqillik qazanırlar. Beləliklə də, gerçək xarici aləm onlara ya heç təsir edə bilmir, ya da bu təsir yetərincə olmur, onları nə gerçək aləm, nə də onun psixikada əks olunan təsirləri maraqlandırmır. Onlar çox asanlıqla bu iki faktorla qarşıdurma yaradır, özlərini dövlət içində dövlət kimi aparırlar, (bu, siyasi partiyalarla birgə fəaliyyət göstərmək istəməyən əlçatmaz hakim təbəqə deməkdir), ancaq normal insanlar onları cilovlamağı bacarır və normal psixi tələblərə tabe olmağa məcbur edə bilirlər. Bu mümkün olmayanda isə daxili psixoloji gerçəkliyin xarici aləmin gerçəkliyi üzərində ağalığı başlayır, nəticədə, psixoza yol açmış olur. Ancaq bu reaksiyaların təsiri ilə işlər çox da uzaqlara gedib çıxmadan onların psixi baxımdan dəyərləndirilməsi də mümkün olmur. Nevrozlarda yaşamaq arzusunun azalması və həyat üçün mübarizənin zəifləməsi insan toplumunda çox vacib faktorlardan biridir və onların hamısını insanların uşaqlıq dövründə baş verənlərin indi birbaşa üzə çıxması kimi dəyərləndirmək doğru sayılmalıdır.

İndi isə belə bir sula cavab axtaraq: bütün bu dediklərimizin bizim analogiya kimi yararlanmaq istədiyimiz latentlik ilə hansı ümumi cəhətləri var? Uşaqlıq çağında yaşanmış travmanın simptomları formalaşarkən nevrotik kükrəmə də baş verə bilər, bu isə uşaq nevrozu deyilən hadisəni törədir və elə o andaca psixika özünü müdafiə tədbirlərinə əl atır. Bu, çox uzun müddət davam edə bilməz, nəzərəçarpan psixi pozuntular yarada bilər, ancaq bu vəziyyət çox vaxt üstüörtülü şəkildə gedir və diqqətdən yayınır. Bir qayda olaraq psixikanın özünümüdafiə tədbirləri uşaq nevrozunu üstələyir; ancaq istənilən halda "MƏN"-də dəyişikliklər baş verir və bunu yara sağaldıqdan sonra qalan çapıqlara bənzətmək olar. Çox təsadüfi hallarda uşaqlıq çağında qazanılan nevroz birbaşa və açıq formada inkişaf edib daşıyıcısı ilə birlikdə "yaşa dolur". Çox vaxt isə o sakit və sezilməyən bir inkişaf yolu tutur, bu isə fizioloji latentlik dövrünün köməyi ilə yaranır. Yalnız çox sonra ciddi dəyişiklik baş verir və artıq tam formalaşmış nevroz uşaqlıq çağında alınan travmanın gecikmiş nəticəsi kimi üzə çıxır. Bu, ya cinsi yetkinlik yaşına çatanda, ya da ondan bir az sonra baş verir. Birinci halda fiziki yetkinliklə bağlı olaraq yaranmış ehtiraslar bu vaxtadək sıxışdırıldığı müdafiə tədbirləri ilə savaşa qalxır; ikinci halda müdafiə tədbirlərinin gördüyü iş və "MƏN"-nin dəyişilməsi qarşıya çıxan yeni həyati məsələləri həll eləməyə maneçilik törətdiyindən, bu da öz növbəsində "xarici aləmin gerçək tələbləri" ilə, özünün qurduğu sistemi və daxili müdafiənin mübarizliyini qoruyub saxlamağa çalışan "MƏN" arasında kəskin konflikt yaradır. Nevrozlarda travmaya qarşı yaranan ilkin reaksiya ilə xəstəliyin çox sonradan meydana çıxması arasındakı müddətlə bağlı olan latentlik fenomeni onların hamısı üçün tipik olan bir xüsusiyyət kimi tanınmalıdır. Burada xəstəliyə sağalmağa göstərilən cəhd kimi də baxmaq olar, bu, travmanın təsirilə "MƏN"-dən qopub ayrılmış hissənin onun qalan hissəsi ilə birləşdirilməsi və onu bütövləşdirərək xarici aləmlə münasibətlərində qüdrətli etməyə çalışmaqdır. Ancaq belə bir cəhd çox təsadüfi hallarda uğur qazana bilir, hətta psixoanalitik köməyə gəldikdə belə, bir çox hallarda uğursuzluqdan qaçmaq olmur və əksər hallarda bu proses "MƏN"-nin bütünlüklə dağılması və parçalanması ilə, ya da onun indiyədək ondan ayrılıqda qalan travmaya uğramış hissəsi tərəfindən tamamilə zəbt olunması ilə nəticələnir.

Oxucunu danışdıqlarımıza bütünlüklə inandırmaq üçün burada çoxlu sayda nevrozların bioqrafiyalarını danışmaq yerinə düşərdi. Ancaq bu prosesin çox geniş və çətinliklərlə əlaqəli olmasına görə belə bir işi görmək bizim araşdırmamızın xarakterini dəyişmiş olardı. Bu halda bizim araşdırmamız nevrozluq nəzəriyyəsi üzrə hekayətə çevrilərdi, bu isə yalnız az qisim adamlar üçün: psixoanalizi öyrənməyi və ondan yararlanmağı özlərinə peşə seçən insanların anladığı bir söz olardı. Mən burada çox geniş oxucu çevrəsinə üz tutduğumdan, öz oxucularımdan belə bir istəyim var: qoy onlar mənim yuxarıda dediyim qısa izahatlara hələlik inamla yanaşmağa çalışsınlar, başqa sözlə desəm, mənim onların qarşısına çıxardığım nəticələri gözüyumulu deyil, irəli sürülən mülahizələr sübut olunarkən qəbul etsin.

Ancaq yenə də burada bir hadisəni danışmağa çalışacağam və bununla da yuxarıda xatırlatdığım xüsusiyyətləri daha yaxşı anlaya biləcəyinizi düşünürəm. Düzdür, yalnız bir hadisəni araşdırmaqla hər şeyin bütünlüklə aydınlaşacağını

düşünmək yersiz olardı və burada danışılan məzmunun bizim axtardığımız analogiyadan çox uzaq olduğu da sizi çaşdırmasın.

Kiçik burjua ailəsində doğulan oğlan uşağı, adətən, bu ailələrdə həmişə olduğu kimi, körpəliyinin ilk illərində valideynləri ilə bir yataq otağında yatırdı, o danışmaq və yan-yörəsindəkiləri az-çox qavraya bilmək yaşına çatanda, ola bilsin dönə-dönə, ola bilsin daima valideynlərinin seksual yaxınlıqlarını müşahidə etmiş, bununla bağlı nələrisə görmüş, ancaq ən çox eşitdikləri ilə bundan duyuq düşmüşdü. Sonralar yuxuda baş verən cinsi oyanma və bu zaman kişilik toxumlarının ilk dəfə tökülməsindən sonra başlayan nevrozun ilk simptomu yuxunun pozulması olmuşdu. Uşaq gecələr baş verən ən zəif səslərə qarşı çox tez qıcıqlanmağa başlamış, çox vaxt yuxudan ayılmış və bir daha yata bilməmişdi. Yuxunun bu şəkildə pozulması nevrozlarda özünü göstərən kompromis simptomunun yaranmasıdır. Bu yeni vəziyyət bir tərəfdən onu nə vaxtsa yaşadığı gecə təəssüratlarının təkrarlanmasından qorumaq üçündür, digər tərəfdən isə onu ayıq saxlayaraq keçmiş günlərdə yaşadığı təəssüratı bir də yaşamağa yönəltməsidir.

Belə müşahidələrlə qıcıqlanmış və kişilik aqresiyaları vaxtından əvvəl oyanmış uşaq əlləri ilə penisini (kişi cinsi orqanını) qurdalayıb onu oyandırmağa başlayır, sonra özünü atasının yerində hiss etməyə çalışaraq müxtəlif üsullarla anasına qarşı seksual istəklərini büruzə verməyə başlayır. Bütün bunlar anasının ona penisi ilə oynamağı atasına xəbər verəcəyini deməsinə və bu hərəkəti qadağan edənədək davam edir və ana burada öz uşağını: atası bunları bilərsə, onun penisini kəsəcəyini deməklə qorxutmuş və axtalanacağı ilə təhdid olunması uşaqda qeyri-adi dərəcədə güclü travma yaratmışdı. O, seksual əyləncələrindən əl çəkmiş və onların xarakterini dəyişmişdi. Özünü atasının yerinə qoymaqdan əl çəkib onunla münasibətdə özünü passiv seksual tərəf kimi aparmağa başlamış və atasının onu cəzalandıra bilməsi üçün təhrikedici davranışlara əl atmışdı. Bu cəzalar onun üçün seksual xarakter daşıyırdı və bu anlarda o özünü onu incidən anası ilə eyniləşdirir və bu üsulla ondan qisas alırdı. Bundan sonra o anasına şiddətli qorxu duyğusu ilə bağlanmış və onun sevgisini bir an da olsa belə, itirməkdən çox qorxmuşdu. Uşağı buna vadar edən isə anasının müdafiəsi olmazsa, atası tərəfindən axtalanacağından qorxması idi. Edip kompleksinin bu modifikasiyasına düşməklə o, bütün seksual qıcıqlardan canını qurtarmış və bu duyğularının latent dövrünü yaşamağa başlamış, nümunəvi uşağa çevrilmiş, dərslərində uğur qazanmışdı.

İndiyədək olan müşahidələrimizdə biz uşağın aldığı travmanın ona göstərdiyi təsirləri izlədik və onun seksual duyğularının latent dövrünə keçdiyini öyrənə bildik.

Haqqında danışdığımız uşaq cinsi yetkinlik yaşına çatanda nevroz bütün aydınlığı ilə üzə çıxdı və onun ikinci simptomu, seksual impotensiya (cinsi zəiflik) özünü göstərdi. Uşağın cinsi orqanı öz həssaslığını itirdi, o öz orqanına toxunmaqdan çəkindi, habelə qadınlarla seksual yaxınlığa ürək etmədi. Onun seksual fəaliyyəti sadistik-mazoxistik fantaziyalarından doğan psixi onanizmlə məhdudlaşdı və bütün bunların onun vaxtilə valideynləri arasındakı cinsi yaxınlığı görüb yamsılamasından ibarət olduğunu anlamaq çətin deyildi. Cinsi yetkinliyə çatması ilə bağlı olaraq güclənən kişilik xarakteri onda atasına qarşı bir qəzəb yaratmaqla atasının sözündən çıxmağa çalışmaq xüsusiyyətləri yaratmağa başladı. Onun atasına qarşı belə kobud və

özünü məhvə aparan davranışının səbəbi xarici aləmlə toqquşması və burada uğursuzluğa düçar olması idi. O öz peşəsi üzrə uğur qazana bilmədi, axı bu peşəni seçməyə onu atası məcbur etmişdi. Heç kimlə dostluq etmirdi və rəhbərliyi ilə də heç vaxt yaxşı münasibət qura bilmirdi.

Nevroz simptomları və acizliklə yüklənmiş gənc atasının ölümündən sonra özündə güc tapıb evlənə bilmişdi, ancaq onun dözülməz bir xarakteri vardı və yaxın adamları onunla ünsiyyət qurmaqda çox böyük çətinliklərlə üzləşirdilər. O özünü eqoist, despot və amansız bir şəxsiyyət kimi yetişdirmişdi və bütün bu cəhətləri ilə açıq-aydın başqalarını incitmək və əzmək məqsədi güdürdü. Çox keçmədən o atasının eyni olan bir adama çevrildi, onun öz yaddaşında qalan bütün xüsusiyyətlərini getdikcə öz şəxsiyyətinə köçürməyə başladı və bununla da erkən yaşlarında aldığı seksual motivli travmanı unutmaq üçün öz kimliyində atasının obrazını canlandırmaq yolunu tutdu. Bütün bu deyilənlərdən biz nə vaxtsa sıxışdırılmış duyğuların insan psixologiyasına qayıtması hadisəsini və bütün bunların onun keçmişdə aldığı travma ilə və onun latent dövrünə keçməsi ilə bağlılığını öyrənə bildik, o cümlədən bütün bunların nevrozun xarakterik əlamətləri olduğunu da təsbit etdik.

D. Tətbiq

Erkən travma, özünümüdafiə, latentlik, nevrotik xəstəliyin üzə çıxması – sıxışdırılan təəssüratın bir hissəsinin geri qayıda bilməsi. Bizim müəyyən elədiyimiz qaydaya görə nevrozun inkişaf sxemi belədir. İndi isə oxucudan belə bir mülahizəni qəbul etməsini xahiş eləyək: tutalım, bütün insanlığın həyatında bir fərdin qarşılaşdığı şəkildə sarsıdıcı bir hadisə baş vermişdir. Habelə buradakı proses də seksual-aqressiv məzmunlu olmuş, özündən sonra sarsıdıcı bir iz buraxmış, ancaq insanlar hamılıqla onu özlərindən uzaqlaşdırmağa çalışmış və unutmuşlar; sonradan, uzun çəkən latentlik dövrü keçəndən sonra, bu unudulmuş təəssürat geri qayıtmış, yaddaşda oyanaraq psixikaya təsir göstərmiş, öz quruluşuna və yönünə görə nevrozda qarşılaşdığımız simptomlara bənzəməyə başlamışdır.

Düşünürəm, biz bu proseslərin alt qatında nələrin baş verdiyini aydınlaşdırmağı bacararıq və onların simptoma bənzər nəticələrinin dinlə bağlı hadisələrdə də olduğunu da göstərə bilərik. Təkamül ideyasının ortaya çıxmasından sonra artıq insanın əlçatmaz uzaq tarixi inkişaf dövrünün olduğuna heç kim şübhə etmir və bu dövrlə bağlı bizə heç nə bəlli deyilsə, daha doğrusu, o dövrlər unudulubsa, onda belə bir nəticə özlüyündə bizim işimizə yarayacaq bir aksioma ortaya çıxarır. Biz buradakı güclü sarsıntı doğuran və unudulan travmanın hər iki fazasının ailə həyatı ilə bağlı olaraq yarandığına inana bilsək, onda bizim işimizə yarayacaq əlverişli, gözləmədiyimiz və öncədən irəli sürülən mülahizələrimizdən asılı olmayan nəticələr ala biləcəyik.

Bu aksiomatik mühakiməni mən ilk dəfə 25 il bundan əvvəl "Totem və tabu" (1912-ci il) kitabımda irəli sürmüşəm, burada isə işimizə yaradığını düşündüyüm üçün onu yenidən təkrarlamaq məcburiyyətindəyəm. Bu mühakimə Darvinin verdiyi məlumatlar və Atkinsonun irəli sürdüyü mülahizələr əsasında qurulmuşdur, bu iki alimin dediklərinə görə, uzaq keçmişdəki ibtidai icma quruluşu dövründə əcdadlarımız güclü bir erkəyin ağalıq etdiyi ayrı-ayrı icmalarla yaşamışlar. Deyilən dövrün tarixini müəyyən edə bilmirik, bu çağları bizə yaxşı bəlli olan geoloji eralar

kimi dəqiq tarixi dövrlərə ayırmaq mümkün deyil və böyük ehtimalla insanın bu çox qədim əcdadının o dövrdə hələ nitq qabiliyyəti olduqca az inkişaf etmişdi. Belə bir ideyanın ən mühüm cəhəti bütün ibtidai insanların, daha dəqiq desək, bizim əcdadlarımızın hamısının belə bir taleyi yaşaması mülahizəsinin irəli sürülməsidir.

Bu tarix adama çox qısa görünsə də, baş verənlər bizə sanki bir anda baş vermiş hadisə kimi gəlsə də, bütün bunlar min illər boyunca davam etmiş və bu uzun dövr saysız-hesabsız təkrarlanmışdı. Güclü erkək bütöv bir icmanın ağası və atası idi, özünün qeyri-məhdud hakimiyyətindən amansızcasına yararlanırdı. İcmadakı bütün qadınlar – onun arvadları və qızları – onun şəxsi mülkiyyətində idi, habelə görünür, başqa icmalardan oğurlanan qadınlar da onun mülkiyyətinə çevrilirdilər. Oğulların taleyi çox ağır idi; atalarına qarşı qısqanclıq göstərsə idilər, onları ya öldürür, ya axtalayır, ya da icmadan qovurdular. Onlara icmadan kənarda özlərinin kiçik icmalarını qurmağa və qonşu icmalardan oğurlaya bildikləri qadınlarla evlənməyə icazə verirdilər. Sonra bu kiçik icmalardan bəziləri ayrıldıqları icmanın misalında yeni despotik icmalara da çevrilə bilirdilər. Anadangəlmə qazandıqları imtiyazlara görə, kiçik oğullar müstəsna mövqe qazana bilirdilər, analarının sevgisi ilə müdafiə olunaraq atanın qocalıq çağından öz xeyirləri üçün yaralana və ata öldükdən sonra onun yerini tuta bilirdilər. Nağıl və əfsanələrdə böyük qardaşların evdən qovulması və ya çıxıb getməsi, habelə kiçik qardaşın atanın varisi olması ilə bağlı izlərin mövcudluğunu, həmin uzaq keçmişin qalıqlarının olduğunu deyən tarixçilər vardır.

Yaranmış bu “sosial quruluş” sisteminin dəyişilməsi yönündə sonrakı həlledici addım belə olmalı idi: icmadan kənarda özlərinin kiçik icmalarını yaradan qardaşlar bir gün birləşərək ataları ilə savaşa qalxdılar, onu devirdilər və dövrün adəti üzrə, birlikdə atalarının ətini yedilər. Bu adamyemə mərasimində instinktiv yırtıcılıq əlamətləri axtarmağa dəyməz, belə mərasimlər insanların arasında uzun müddət davam etmişdi. Bizim mülahizəmizə görə, bu ibtidai və hələ şüurca zəif insanların uzaq əcdadlarında indiki primitiv xalqlar və bizim uşaqlarımızda olan səviyyədə emosiyaların olduğunu qəbul edəcəyik. Yəni, onlar atalarına nifrət və qorxu hissi ilə yanaşı, həm də hörmət bəslənməyə layiq bir şəxs kimi də baxırdılar: bu oğullardan hər biri onun yerini tutmaq arzusunda idi. Burada özünü göstərən adamyeyənlik də elə bu baxımdan dəyərləndirilməlidir, o çağın inancına görə, kiminsə xüsusiyyətlərinə yiyələnmək üçün onun ətini yemək yetərli idi, oğullar da atalarının yerinə keçmək istəklərini bu yolla gerçəkləşdirməyə çalışırdılar.

Çox güman ki, atalarını öldürdükdən sonra qardaşlardan hər biri onun mirasına təkbaşına yiyələnmək üçün onlar bir-birilə çox uzun müddət savaşmışdılar. Savaşın qorxulu və perspektivsiz olduğunu anlamaları, atalarına qarşı birgə apardıqları savaşla bağlı xatirələr, icmadan qovulduqdan sonra birgə yaşadıqları vaxtlarda yaranmış emosional əlaqələr sonda onları barışmağa və ictimai anlaşma bağlamağa gətirib çıxardı. Beləliklə də, insanlığın tarixində ilk sosial quruluş yarandı və bunun özülündə öz ehtiraslarından imtina, qarşılıqlı öhdəliklər və yaranmış yeni quruluşun hamının qəbul etdiyi müqəddəs andlaşma ilə qorunması dayanırdı. Başqa sözlə, bu, əxlaq və hüququn ilk dəfə olaraq ortaya çıxması demək idi. Anlaşmaya görə qardaşlardan hər biri atanın səlahiyyətlərinə bütünlüklə yiyələnmək iddiasından əl çəkir, onun arvadlarına və öz bacıları sayılan qızlarına sahiblənməyə can atmırdı.

Bununla da, insest (bir qandan olan qadınla cinsi yaxınlıq) yasaqlandı və ekzoqamiya (öz icmasından olan qadınla evlənməyin yasaqlanması) təsbit olundu. Oğullar hakimiyyətdən salınmış atanın səlahiyyətlərindən əl çəkdikləri üçün, bu səlahiyyətlərin çoxu qadınlara verildi, bununla da matriarxat dövrü başlandı. Atalıq xatirəsi bu zaman yaradılan "qardaşlıq birlikləri" deyilən qurumlarda yaşamağa başladı. Ataya bəslənən böyük hörmət və onun nümunə olma xüsusiyyətləri çox güclü və qorxu doğuran heyvanların üzərinə köçürüldü və onlar icmanın qoruyucusu və başçısı sayılmağa başladılar. Belə bir seçim çox qəribə görünsə də, insanların özləri ilə heyvanlar arasında belə bir uçurum yaratmaları və onları bir qorxulu obyektə çevirmələri, nəinki ibtidai insanlarda olmuşdur, bu əlamətlər bu gün bizim uşaqlarımızda da qalmaqdadır, elə onların da heyvanlardan qorxusu öz atalarından qorxması kimi anlaşılmalıdır. Özləri üçün seçdikləri bu heyvan-totemlərə insanların bəslədikləri duyğular da, eyni ilə atalarına bəslədikləri duyğuları kimi, ikili mahiyyət daşıyırdı. Bir tərəfdən totem tayfanın fiziki baxımdan əcdadı, qoruyucusu sayılır, ona hörmət ilə yanaşılır, qorunur, digər tərəfdən isə, hər hansı bayramda bu totemlə də öz əcdad-ataları kimi davranırdılar. Bu bayramın iştirakçıları hamılıqla yığışıb totem olan heyvanı öldürür, sonra isə onun ətini birlikdə yeyirdilər (Robertson Smit bunu totem qonaqlığı adlandırır). Bu böyük bayram oğulların birləşərək ataları üzərində çaldığı qələbəni təntənə ilə qeyd etmələrinin simvolu idi.

Belə bir birliyin yaranmasında dinin yeri görünürmü? Mən tam düşünülmüş bir şəkildə deyə bilərəm: totemizmdə totemin ata ilə eyniləşdirilməsi və bu əsasda ona hörmət göstərilməsi, ona bəslənən duyğulardakı ikili mahiyyət, elə bunun nəticəsi kimi, bəlli bir bayram günündə totemin birlikdə yeyilməsi, icmada ölüm cəzası kəsilən qadağaların qoyulması kimi hadisələrə baxanda çəkinmədən demək olar: totemizmi insanlığın tarixində dinin ilk forması saymaq doğrudur və dinin bu başlanğıcı onun sosial formalar və əxlaqi öhdəliklərlə birbaşa əlaqəsinin olduğunu göstərir. Dinin sonrakı inkişafına biz burada yalnız ötəri olaraq baxa bilərik. Sözsüz, dinin inkişafı bəşəriyyətin mədəni inkişafı ilə paralel olaraq gedir və cəmiyyətin quruluşunda baş verən dəyişikliklər onun da dəyişilməsinə təkan vermiş olur.

Totemizmdən sonrakı addım insanın səcdə etdiyi varlıqları insaniləşdirməsidir. Bu mərhələdə heyvanların yerini insanabənzər tanrılar tutur və onların mənşəyinin totemlər olduğu da açıq-aydın görünür. Bu tanrılar hələlik heyvan obrazında təsvir olunur, ya da başı heyvan, bədəni insan olmaqla göstərilir, yaxud da totem daim tanrının yanında olan bir heyvan kimi tanıdılır və ya tanrı özü bu heyvanın cildinə girir və totem tanrının ikinci şəkli kimi tanıdılır. Nə vaxt baş verdiyini indi müəyyənləşdirməyin mümkün olmadığı bir dövrdə, çox güman ki, kişi tanrılar ortaya çıxmamışdan öncə böyük qadın tanrılar ön plana çıxır və kişi tanrılar aparıcı mövqeyə yiyələndikdən sonra da hələ uzun müddət onlarla bərabər qalmaqda davam eləyirlər. Daha sonra böyük sosial çevriliş baş verir. Qadınların hüquqları məhdudlaşdırılır və patriarxat yenidən bərpa olundu. Doğrudur, bu yeni atalar daha heç vaxt öz əcdadları olan atalar kimi məhdudiyyət tanımayan hakimiyyət yiyəsi ola bilmədilər, onlar çox idilər və öz aralarında bağladıqları ittifaqla bir icmada birləşərək yanaşı yaşayırdılar. Bu ittifaq müqaviləsinə görə bir çox sosial məhdudiyyətlər qoyulduğundan onlar bir-biri ilə yola getməyə məcbur idilər. Böyük ehtimalla, qadın tanrılar matriarxat

quruluşunun məhdudlaşdırılmağa başladığı dövrdə qadınların əlindən alınan hüquqlarının yerinə verilən bir mükafat kimi yaranmışdı. Əvvəlcə kişi tanrılar qadın-ana tanrıların oğulları kimi yaranır və onların yanında yer tutur, çox sonralar isə ata obrazında görünməyə başlayırlar. Çoxallahlılıq dövrünün kişi tanrıları patriarxat quruluşun gerçəklərini əks etdirirlər. Onların sayı çoxdur, qarşılıqlı olaraq bir-birinin fəaliyyətini məhdudlaşdırır və ən güclü olan baş tanrıya tabe olurlar. Daha sonrakı addım isə artıq bizi maraqlandıran mövzuya gəlib çıxır, bu mərhələdə tək olan tanrı, qeyri-məhdud hakimiyyəti olan ata-tanrı yaranır.

Qeyd edim ki, danışdığım bu tarixi icmal yarımçıqdır və onun bəzi yerləri doğru olmaya da bilər. Ancaq kimsə bizim tarixə əsaslanaraq qurduğumuz sxemi yalnız fantaziya məhsulu sayırsa, o, çox yanılır və ortaya qoyduğumuz bu zəngin materialın böyük hissəsinin isbatı ilə bağlı çoxlu ağlabatan dəlilləri yetərincə dəyərləndirə də bilmir. Keçmişlə bağlı burada ümumiləşdirdiyimiz bir sıra faktlar, o cümlədən totemizmin, kişilərin ittifaqı kimi faktların doğruluğu artıq tarix elmi tərəfindən sübut olunmuşdur. Materialların qalan hissəsi üçün də tarixdə faktlar tapmaq mümkündür. Məsələn, bir tarixçi öz araşdırmalarında göstərir ki, xristianlıqdakı dadma mərasimində, yəni çaxıra batırılmış çörəyin dadılması ilə bağlı ayində xristianların tanrının qanını və ətini daddıqlarını düşünürlər və bütün bunlar məzmun və formaca "totem qonaqlığı" bayramı ilə eynidir. Uzaq keçmişdə baş verib unudulmuş çoxlu hadisələrin qalıqları xalqların nağıl və əfsanələrində yaşayır, ən qəribəsi isə, psixoanalitik araşdırmaların göstərdiyi kimi, uşaqların psixi həyatında ibtidai insanların yaşadığı duyğularla bağlı çox zəngin bir material qalmaqdadır və bu material bizim o çağlarla bağlı olan biliklərimizdəki boşluqların bir çoxunu doldura bilər. Körpəlik çağında uşaqların atası ilə yaranan münasibətlərinə aydınlıq gətirmək üçün mən heyvanlara qarşı olan fobiyaya (yersiz və güclü qorxu) əsaslanıram, bu hadisələrin özülündə atası tərəfindən yeyilmək və ya onun tərəfindən axtalanmaqla bağlı çox sarsıdıcı bir qorxu dayanır. Bizim qurduğumuz nəzəriyyədə yalnız öz fantaziyamıza arxalanaraq uydurduğumuz və yetərincə əsaslandırılmayacaq heç nə yoxdur.

Əgər bizim çox uzaq keçmişlə bağlı təsvirlərimiz müəyyən dərəcədə doğru sayılsa, onda bu baxışlara arxalanaraq dini mərasimlərin ikili mahiyyət daşıyan elementlərini ayırd etmək olur: burada bir tərəfdən çox qədim dövrlərdə mövcud olmuş ailə və onun yaşantılarının qalıqlarının təsbiti, başqa tərəfdən isə, keçmişin bərpa olunmasına, çox böyük bir zaman müddətində unudulanların yenidən canlandırılmasına cəhd vardır. Buradakı "keçmişin yenidən canlandırılmasına cəhd" ifadəsi inkar olunduğundan mərasimlərin bu hissələri anlaşılmaz qalır və bu anlaşılmazlığı aradan qaldırmaq üçün biz gərək, heç olmasa, bir təsirli nümunə göstərə bilək.

Bunu da xüsusi vurğulamaq yerinə düşərdi: hər bir belə, bu günə qayıda bilən unudulmuş hissənin çox güclü təsir qüvvəsi olur, o, insan kütləsinə olduqca güclü təsir edə bilir və onların şüurunda məntiqi təfəkkürün etiraz edə bilməyəcəyi bir həqiqətə çevrilir. Elə dindarların təkrarlamağı sevdikləri bəlli sözə də bu baxımdan yanaşmaq olar: credo quia absurdum (absurd olduğu üçün də inanıram). Belə bir diqqəti çəkən xüsusiyyətin analogiyası yalnız psixi pozğunluğu olan kimsənin

sayıqlaması ola bilər. Biz artıq beləlіrinin sayıqlamalarında hansısa unudulmuş həqiqətin zərrəciyinin gizləndiyini öz araşdırmalarımızdan bilirik, bu həqiqət zərrəsi geriyə qayıtmaq üçün gərək hansısa təhrifə məruz qalsın və düzgün anlaşılmasın, beləliklə də, buna uyğun situasiyalarda hansısa cəfəngiyatı çoxluğun inancına çevirən də elə bu cəfəngiyatın içində gizlənən həqiqət zərrəsi olur və o psixikalara güclü təsir edib onların sahiblərini yanlış istiqamətə yönəltməyi bacarır. Keçmişin belə tarixi gerçəklərinin üzə çıxmasında biz dini ehkamlara borcluyuq, bu ehkamların yaranması şüurun psixoza tutulması simptomu ilə bağlı olsa da, o, kütləvi psixoz yaratmaq gücündə olan bir hadisəyə də çevrilə bilir.

Dini tarixin başqa heç bir hissəsi iudaizmdə təkallahlı dinin yaranması və onun xristianlıqda davam etməsi qədər aydınlaşa bilməmişdir, buna baxmayaraq, uğurla başladığımız və vaxt darlığına görə yarımçıq qoyduğumuz araşdırmamızda da totemizmdən insan görkəmli tanrılara doğru inkişaf prosesində bu totemlərin uzun müddət insan görkəmli tanrıların yol yoldaşına çevrildiyi də bu baxımdan maraqlıdır (Dörd xristian İncilini yazıya alan hər bir müəllifin öz sevimli heyvanlarının olduğu da bu mətnlərdə nəzərə çarpır). Əgər biz təktanrılı dinin yaranmasının kökündə Misirin imperiyaya çevrilməsinin və bu əsasda fironun da bütün yer üzünün sahibinə çevrilməsi ideyasının dayandığını demişdiksə, sonradan bu özül üzərində yaranmış təktanrılı dinin dünya ağalığı iddiasında olmayan başqa bir xalqa keçdiyini də gördük. Bu inanc uzun bir latentlik dövrü keçəndən sonra bütünlüklə bu xalq tərəfindən qəbul edilmiş və xalq da onu özünün ən böyük uğuru kimi qoruyub saxlamağı bacarmış, habelə sonradan elə bu inanca yiyələnə bildiyi üçün də qarşılaşdığı bütün dağıdıcı sınaqlardan keçərək öz varlığını saxlaya bilmişdir. Bu din onlar üçün ulu əcdadlarından qalma müqəddəs dindir və onlar bu ənənəyə bağlanmaqla mükafatlanacaqlarına inanır, özlərinin xüsusi statuslarının olduğunu düşünür, bütün dünyaya sahib olacaqlarına ümid edirlər. Dünyaya ağalıq etməklə bağlı yəhudi xalqının çoxdan unutduğu bu fantastik arzudan onun düşmənləri bu xalqa qarşı yararlanmağa çalışırlar, "sion müdriklərinin müqaviləsi" adlanan yalançı bir sənəd uydurmaqla bütün xristian dünyasında bu xalqa qarşı nifrət aşılayırlar. Mən bütün bunlara aydınlıq gətirmək vəzifəsini sonrakı bölmələrdən birinə saxlayıram və orada Misirdən götürülmüş təkallahlı dinin yəhudi xalqının sonrakı inkişafına necə təsir etdiyini, çox uzun müddət ərzində ovsunçuluq və cadugərlikdən əl çəkməsinin bu xalqın xarakterini necə formalaşdırdığını, onda mənəvi yüksəliş meyilləri doğurduğunu, öz milli varlığını saxlamaqla hansı dəyişikliklər yaratdığını, xalqın özünü seçilmiş sanması ilə onun idrakının necə bir coşqunluq qazanmasını, bununla da onun intellektual, xüsusilə də etik xüsusiyyətlərə necə hörmətlə bağlanmasını, habelə fəlakətlə dolu bir tale yaşayan və daimi sarsıntılarla üzləşən bu xalqda belə təmayülləri necə gücləndirdiyini aydınlaşdırmağa çalışacağam. İndiki halda isə biz başqa istiqamətdə axtarışlar aparmaqla məşğuluq.

Atalığın öz tarixi hüquqları ilə birlikdə bərpa olunması, irəliyə doğru böyük bir addım olsa da, hələ son hədd deyildi. Bizə bəlli olan tarixdən öncə baş vermiş faciə özünün başqa tərəflərinin tanınmasını da tələb edirdi. Bu prosesi hərəkətə gətirən səbəbin nə olduğunu aydınlaşdırmaq asan deyil. Ola bilsin, yəhudi xalqını çulğamış günahkarlıq duyğusunun şiddətlənməsi, ola da bilsin, bütün dünyanın mədəni

inkişafının gətirib çıxardığı bir vəziyyətin keçmişdə sıxışdırılmış məzmunun bərpası tələbi buna səbəb olmuşdu. Belə bir məqam yetişəndə elə yəhudi xalqının içindən çıxan bir insan fürsət tapıb yeni, xristian dinini yaratmaqla iudaizmi onunla dəyişməyə cəhd etdi. Romalı yəhudi, Tarsdan olan Pavel xalqın qapıldığı bu günahkarlıq duyğusunun nədən qaynaqlandığını anlaya bildiyi üçün onu tarixdən əvvəlki dövrə aid etmişdi. O bunu "ilkin doğulan günah" adlandırmışdı, bu, tanrıya qarşı törədilən cinayət idi, onun cəzası da yalnız ölüm ola bilərdi. "İlkin doğulan günahla" birlikdə yer üzünə ölüm də gəlmiş oldu. Özlüyündə isə burada adı çəkilən ölüm tanrı səviyyəsində hörmət göstərilən atanın öldürülməsinə görə veriləcək cəza idi. Ancaq burada törədilən ölümün özündən söz açılmadan bu cinayətin bağışlanmasından danışılır və İncili də cinayətə görə bağışlanma fantaziyasından doğan bir kitab kimi dəyərləndirmək mümkündür. Bəlli olduğu kimi, bu kitablarda Tanrı oğlunun heç bir suçu omasa da, o özünün öldürülməsinə şərait yaradır və özünü bu cür qurban verməklə insanların bütün günahlarını öz üzərinə götürüb onların əvəzini ödəyir. Burada cinayətə görə özünü qurban verənin oğul olması təbiidir, axı atasını öldürən oğul olmuşdu. Böyük ehtimalla, bu günahbağışlama fantaziyası üzərində qurulmuş mətnləri yazarkən Pavel şərq və yunan misteriyasının (dramatik səciyyəli dini ayinlər) güclü təsiri altında olmuşdur. Ancaq sözsüz, bu yazıların mahiyyətini formalaşdıran Pavelin özünün şəxsi baxışları vardı. O, həqiqətən, dini duyğulara vurğunluqla bağlanmış bir insan idi; tarixdən öncəki keçmişdə baş vermiş qanlı hadisələrin izləri onun ruhuna təsir edən bilmişdi və bütün bunlar onun şüuruna yeriyirdi.

Burada, günahkar olmayanın özünü qurban verməsi barədə mətndəki fikirlərin açıq-aydın şəkildə məqsədyönlü təhrifə məruz qalması duyulur və bu məntiq düşüncənin qarşısına maneə çıxarır: necə ola bilər, başqasının törətdiyi ölümdə əli olmayan birisi onun bu cinayətinin günahını öz üzərinə götürsün və bununla da öz məhvinə yol açsın? Tarixi gerçəklikdə belə bir ziddiyyətli hadisə ola bilməzdi və olmamışdır. "Qurban verilməklə günahı yuyan" yalnız bu işin təqsirkarı ola bilərdi, bu ancaq ataya qarşı çıxıb özünü ondan üstün saymağa başlamış, onun ölümünün təşkilatçısı və cinayətə başçılıq etmiş bir qardaş ola bilərdi. Mənim düşüncəmə görə, belə bir qiyamçı və başçının olması ilə bağlı suala cavab axtarmağın mənası yoxdur. Belə bir ehtimalın olması böyükdür, ancaq biz gərək bu işə qoşulan qardaşlardan hər birinin bu cinayətə qoşulmasında yalnız öz şəxsi mənfəətini güddüyünü, özü üçün müstəsna hüquqlar əldə etməyə çalışdığını, zəifləmiş atanın yerini tutmaq arzusunda olduğunu da unutmayaq. Əgər atanın öldürülməsinə başçılıq edən qardaş olmamışsa, onda İsa Məsih reallaşmayan fantastik arzunun varisidir, hələ bundan da artığını demək olar: o, öldürülmüş atanın varisi və onun təcəssümüdür. Ancaq qarşımızda fantaziyanın, yoxsa unudulmuş gerçəkliyin bərpasının dayanmasından asılı olmayaraq, burada istənilən halda qəhrəmanın, bahadırın meydana çıxması ilə bağlı mifin izləri var: bu qəhrəmanların, demək olar, hamısı atalarına qarşı qiyam qaldırır və çox vaxt da onları öldürürlər. Baş verən bu dramda qəhrəmanın "faciəvi günahını" heç bir başqa yolla əsaslandırmaq mümkün deyil. Yunan dramlarının başlanğıcında səhnəyə çıxan qəhrəman və onu müşayiət edən xorun da elə bu qiyamçı qardaşların başçısı və onun qardaşlarından ibarət olduğuna şübhə yoxdur və görünür, orta

əsrlərdə teatr tamaşaları yenidən ortaya çıxarkən burada da İsa Məsihin əzabları ilə bağlı xor ifaları yunan dramlarından onlara bir irs olaraq keçmişdir.

Biz artıq xristianların anma mərasimlərində çörəyin çaxıra batırılıb dadılmasının tanrının qanı və ətini dadmaq kimi simvollaşdırıldığını, bunun isə öz növbəsində "totemizm qonaqlığı" olduğunu demişdik, düzdür, bütün bunlar aqressiv şəkildə yox, yumşaq, hörmət bəslənərək yerinə yetirilir. Ancaq son nəticədə, ataya bəslənən ikili duyğu bu dini mərasimin dadma ayinində bütün aydınlığı ilə üzə çıxır. Görünür, ata-tanrı ilə barışıq yaratmaq üçün belə bir üsulla onun aradan götürülməsini və devrilməsini unutdurmağa çalışırlar. İudaizm atanın dini idi, xristianlıq oğulun dini oldu. Köhnə ata-tanrı İsa Məsihin arxasında öz yerini tutdu, İsa Məsih isə öz atasının yerinə iddialı olan qədim dövrün oğulları kimi onun yerində dayandı. İudaizmin ardıcılı olan Pavel isə öz gördüyü işlərlə təktanrılı dinin dağıdıcısına çevrildi. Onun uğur qazanmasının başlıca səbəbi Pavelin günahdan təmizlənmə ideyasını insanlara aşılaya bilməsində oldu, bundan başqa, onun apardığı islahatlarla yəhudilərin tanrının sevimli və seçilmiş xalqı olması ideyası aradan qaldırıldı, ən sonuncusu isə, sünnət ayininin ləğv edilməsi və bununla da, insanlar arasında belə bir süni ayrı-seçkiliyin aradan qaldırılması ilə xristianlığı bütün insanlığın qəbul edə biləcəyi universal bir dinə çevirməsi oldu. Paveli bu addımı atmağa vadar səbəbin onun islahatlarını etirazla qarşılayan yəhudi çevrələrinə qarşı qisasçılıq duyğusundan yarandığını da demək olar, ancaq sünnət ayininin ləğvi ilə yeni daşıyıcıları olan yəhudilərə verilən köhnə Aton dininin timsalında düzəliş olundu və bu din bütün məhdudiyyətlərindən qurtula bildi.

Yeni dini özündən əvvəlki iudaist dini ilə müqayisə edərkən onun bir sıra məqamlarda mədəni baxımdan gerilədiyini demək mümkündür, bunu gözləmək olardı, çünki mədəni səviyyə baxımından aşağıda dayanan kütlə hansısa inkişaf etmiş mədəniyyətə müdaxilə və ya qəbul eləyəndə belə hallar həmişə olur. Xristian dini iudaizmin çox yüksəklərə qaldıra bildiyi ruhaniliyi qoruyub saxlaya bilmədi. Bu din artıq ciddi səviyyəli təktanrılı din də sayıla bilməzdi, xristianlıq ətrafındakı xalqlardan çoxlu simvolik mərasimlər götürməklə yenidən böyük analıq tanrısını bərpa elədi və çoxallahlılığa aid olan çoxlu tanrıları müxtəlif adlar altında öz inancında yerləşdirə bildi, düzdür, onlar yalnız xristian dininin ehkamlarına bütünlüklə uyğunlaşdırılandan sonra inanc sistemində bəlli yerlərini tuta bilmişdilər. Hər şeydən əvvəl, Aton dininin və onun davamı olan musaçılığın əksinə olaraq, bu yeni din, mövhumatın, magik və mistik elementlərin daxilinə nüfuzun qarşısını almağa çalışmırdı, bu isə sonrakı iki minillikdə ruhani tərəqqinin qarşısında çox böyük əngəllər yaratmışdı.

Xristianlığın təntənəsi Aton kahinlərinin Ehnatonun tanrısı üzərində qələbəsinin təkrarlanması idi, bu qələbə Musanın Misirdən çıxmasından min beş yüz il sonra daha geniş arenada baş vermişdi. Hər halda, din tarixi, daha doğrusu, sıxışdırılmış gerçəklərin qayıdıb öz yerini tutması baxımından yanaşanda, xristianlıq bir tərəqqi sayılmalıdır və elə bu nöqteyi-nəzərdən iudaizmin bundan sonra müəyyən qədər keçmişin qalığına çevrilməsi də baş vermişdir.

Təktanrılı din ideyasının nə üçün məhz yəhudi xalqına belə güclü təsir etməsi və onun bu xalq tərəfindən belə inadla qorunub saxlanılmasının səbəbini anlamaq da çox mühüm suallardan biridir. Düşünürəm ki, bu suala cavab tapmaq mümkündür.

Taleyin gərdişi uzaq keçmişdə baş vermiş şər qarışıq bir qəhrəmanlığı çox-çox sonralar yenidən yəhudi xalqının qarşısına çıxardı – bu xalq onlar üçün çox qüdrətli bir atalıq missiyasını yerinə yetirməyə çalışan Musanı öldürməklə insanlığın inkişaf yolunda həlledici rolu olan öz doğma atasını öldürmək hadisəsini ikinci dəfə yenidən yaşamalı oldular. Bunun nümunəsi ilə biz psixoanalitik seanslarda qarşılaşırıq: pasiyent lazımi faktı xatırlamaqdansa, həmin məqama uyğun "rol oynayır". Ancaq yəhudiləri Musanın yaratdığı oyanışı xatırlamağa yönəldən impulslara onlar xatirələrində böyük öndərlərinə sayğı bəsləməklə reaksiya verdilər və beləliklə də, Paveli keçmiş tarixin dayandığı yerdən öz işini davam etdirə biləcəyi yerə aparan yolu bağlamış oldular. Bu yolda ikinci bir böyük insanın amansızlıqla öldürülməsinin Pavelin yeni din yaradıcılığının çıxış nöqtəsinə çevrilməsini heç bir halda təsadüf və az əhəmiyyətli bir hadisə saymağa dəyməz. Yalnız İudeyadakı azsaylı ardıcılları tərəfindən tanınan, tanrı oğlu və messiya (xilaskar) səviyyəsinə yüksəldilən, sonradan Musanın uşaqlığına uyğun gələn bir uşaqlıq ömrü uydurulan yeni din yaradıcısı ilə bağlı biz Musa ilə bağlı bildiyimizdən bir az çox şey bilirik. Biz inamla deyə bilmirik: o, doğrudanmı, İncili yazanların dediyi kimi, böyük bir müəllim olmuşdu, yoxsa yalnız onun faciəli ölümü bu insanın belə bir səviyyəyə qaldırmışdı? Ən qəribəsi isə, apostol Pavel onunla heç vaxt görüşməmişdi və tanış da deyildi.

Zellinin qədim dövrün dini mətnlərini araşdırmaqla Musanı yəhudilərin öldürməsi faktının üzə çıxarması – çox qəribədir, bu hadisənin baş verdiyini Zellindən çox-çox əvvəl gənc Höte, heç bir sübut olmadan yazmışdı – bizim qurduğumuz mühakimələr sisteminin ayrılmaz bir hissəsinə çevrilir və təktanrılı dinin yeni formasının yaranmasında uzaq keçmişin unudulan hadisəsi ilə onun yenidən təkrarlanması arasında əlaqələndirici rolunu oynayır. Bu isə bizim öncədən baxdığımız, Musanın ölümündən yaranan peşmançılığın onun yenidən dirilib bir messiya (xilaskar) kimi dünyaya gələcəyi, öz xalqına azadlıq gətirəcəyi və bütün dünyaya hakimlik eləyəcəyi ilə bağlı fantaziyanın yaranması mülahizəsini doğruldur. Əgər Musa burada birinci messiya idisə, onda İsa Məsih onun varisi olmalı idi, belə olan halda isə Pavel bəlli tarixi gerçəkliyə arxalanaraq xalqa bu cür bir çağırış edə bilərdi: "Baxın, messiya, doğrudan da gəldi, bu nə vaxtsa sizin gözünüzün qabağında öldürülmüş həmən o messiya idi". Bu halda İsa Məsihin ölümündən sonra dirilməsi ilə bağlı danışılanlarda da tarixi həqiqətin zərrəsi vardır, o burada ilkin icmanın vaxtilə öldürülmüş atası kimi yenidən başçılığa qayıdır, ancaq onun obrazını canlandıran atanın yerini tutan oğuldur.

Alışdığı inadkarlıqla atasını öldürdüyünü inkar edən yazıq yəhudi xalqı sonradan bunun cəzasını çəkməli olmuşdu. Onu ara vermədən qınayaraq deyirdilər: "Siz bizim tanrımızı öldürmüsünüz". Bu qınaq özünün düzgün yozumunda doğru sayılmalıdır. Bu halda dini tarixə əsaslanaraq yuxarıdakı qınağı belə səsləndirmək olardı: "Siz öz tanrınızı öldürdüyünüzü boynunuza almırsınız" (burada, tanrı obrazının daşıyıcısı olan ulu atanı və onun sonrakı təcəssümünü öldürməkdən söz gedir.) Cavab isə belə ola bilərdi: "Doğrudur, biz bunu etmişik, ancaq bunu boynumuza da almışıq və lap çoxdan bu günahımızı peşmançılığımız və tövbələrimizlə yumuşuq". Antisemitizmin yəhudi xalqının törəmələrini sıxışdırıb izləmək üçün yararlandığı qınaqların heç də hamısı beləcə doğrulmur. Sözsüz, başqa xalqların yəhudilərə qarşı yönəlmiş güclü və

ardı-arası kəsilməyən nifrəti yalnız bir səbəb ilə əsaslandırıla bilməz. Burada səbəblərin uzun bir sırasını tapmaq olar: onlardan bir çoxu reallıqdan doğan səbəblərdir və heç bir izaha ehtiyacı da yoxdur, ancaq bunların içində bəlli olmayan qaynaqlardan törəyən, çox dərinlərdə gizlənən səbəblər də vardır və görünür, onların özünəməxsus motivləri də olmamış deyil. Ən birinci olaraq, yəhudiləri yaşadıqları yerlərdə gəlmə olmaları ilə qınayırlar, bu qınaq, əslində, tamamilə əsassızdır, antisemitizm daşıyıcıları olan xalqların tutduqları torpaqların tarixini öyrənsəniz, yəhudilərin bu yerlərdə ən qədim dövrlərdən bəri yaşadığını da öyrənəcəksiniz, hələ onların bu yerlərə yiyələnmiş xalqlardan çox-çox əvvəllər buralarda yaşamağa başladığı ilə bağlı faktlar da yetərincədir. Məsələn, Köln şəhərini götürək, yəhudilər buraya onu almanların ələ keçirməsindən çox-çox əvvəl romalılarla birgə gəlmişdilər. Yəhudilərə qarşı olan nifrətin bir səbəbi də onların çox vaxt başqa xalqların içində kiçik bir icma kimi yaşayaraq bu xalqla qaynayıb-qarışmamaqları ilə bağlıdır və bu nifrətin çox güclü olduğu da bəllidir. Bu hadisənin kökündə kütlənin onun kimi olmayan kənarda yaşayan azlıq formasında birliklərə nifrətlə yanaşması dayanır və özünə qarışmaq istəməyən belə azlığı kütlə hər vəchlə ya qovmağa, ya da əzməyə çalışır. Ancaq yəhudilərin daha iki bağışlanılmaz sayılan xüsusiyyəti də vardır. Bunlardan birincisi, bir çox məsələlərdə onlara ağalıq edən xalqlardan fərqlənməsidir. Bu fərq çox da prinsipial deyil, çünki yəhudiləri sevməyənlərin dediyi kimi, onlar heç də asiyalı deyillər, yəhudilər mənşəcə Aralıq dənizi sahillərində yaşamış xalqlara aiddir və Aralıq dənizi mədəniyyətinin varisləridirlər. Ancaq hər halda, onlar fərqlidirlər və onlarda nə isə, əsasən, şimalda yaşayan "nordik" adlanan xalqların anlaya bilmədiyi xüsusiyyətlər vardır və necə qəribə olsa da, kütlə bu cür daha kiçik fərqlərə bundan qat-qat böyük olan fərqlərdən daha dözümsüz yanaşır. Buradakı ikinci məqam antisemitizmə qapılanları daha bərk hiddətləndirir: bütün sıxışdırmalara, ən amansız təqiblərə baxmayaraq, yəhudi xalqının kökünü kəsmək mümkün olmamışdır, əksinə, yəhudilər özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı çox böyük bacarıqlarının olduğunu göstərir və onlara imkan verilən bütün yerlərdə, mədəniyyət sahəsində də, çox böyük və dəyərli işlər görə bilirlər.

Yəhudilərə qarşı uzaq keçmişə gedib çıxan kəskin nifrət xalqların qeyri-şüuri xüsusiyyətinə çevrilmişdir. Müşahidələrimə görə, yəhudilərə qarşı irəli sürülən bu ittihamlar ilk baxışda, həqiqətdən, çox uzaq görünür. Bununla bağlı risk edib belə bir mülahizə irəli sürmək istərdim: başqa xalqlar özünü ilk tanrı-atanın sevimli və seçilmiş xalqı kimi tanıdan və başqalarına nisbətən tanrı qarşısında dini üstünlüyü iddia edən yəhudilərə qarşı həsəd duyğusunu adlaya bilməmişlər. Daha sonra yəhudilərin özlərini başqa xalqlardan ayırmasına səbəb olan sünnət ayini xalqların çoxunda xoşagəlməz və tükürpərdici təsir yaradır, bunun səbəbi isə görünür, uzaq keçmişdəki axtalama cəzası ilə təhdid olunmaqdan yaranan qorxu ilə bağlıdır. Bu sıradan olan ən sonuncu motivi isə belə açıqlamaq olar: yəhudilərə qarşı kəskin nifrət duyğusu bəsləməkdə seçilən xalqların çoxu yalnız sonrakı tarixi proseslərin gedişində xristian olmuş və bu inanca çox vaxt amansız və qanlı zorakılığın gücünə bağlanmışlar. İstehza ilə yanaşıb onların "xaç suyuna" pis salındığını da demək olar və onların ilkin varlığı üzərinə çəkilmiş qalın xristian suvağının altında bu xalqlar yenə də özləri olaraq qalmışlar, yəni öz ulu babalarının tapındıqları barbar çoxallahlılıqdan ruhən ayrıla

bilməmişlər. Bu insanlar onlara güclə yeridilən yeni dinə qarşı olan nifrətlərini unuda bilməmişlər, ancaq bu nifrəti birbaşa dinin özünə qarşı deyil, onun qaynağına qarşı yönəltmişlər, xristian inancını isə, bəlli olduğu kimi, yəhudilər yaratmışlar. Belə bir yerdəyişmə aparmaq onlara yalnız yəhudilərin tarixindən və onların arasında baş verən hadisələrdən danışan İncilə dözümlə yanaşa bilmək duyğusunu aşılamışdır. Onların yəhudilərə qarşı olan nifrəti mahiyyətcə xristianlığa qarşı olan nifrətdir və bu baxımdan yanaşanda alman nasional-sosialistlərinin etdiyi inqilab da bizə təəccüblü görünmür, burada yəhudilərə qarşı yönələn kəskin nifrət özlüyündə elə bu adla hər iki təktanrılı dini birləşdirib onların ikisinə də qarşı savaş açmaq deməkdir.

E. Çətinliklər

Çox güman ki, bizim nevrotik proseslərlə dini hadisələr arasında apardığımız analogiyanı uğurla başa çatdırdıq və eyni zamanda dinin gözlənilməz bir mənşəyinin olduğunu da açıqladıq. Fərdi psixologiyadan kütləvi psixologiyaya belə bir keçid bir-birindən təbiətinə və dəyərinə görə fərqlənən iki çətinlik yaradır və biz indi onlara diqqət yetirəcəyik. Birinci çətinlik bundan ibarətdir: biz burada dini məzmunla bağlı olan yalnız bir fenomenə baxırıq, buradakı başqa fenomenləri işıqlandırmırıq. Müəllif böyük təəssüf hissi ilə boynuna alır: onun göstərdiyi bu bir nümunədən başqa hansısa variantlar göstərməyə gücü çatmır və onun öz peşəsi ilə bağlı bilikləri bu yöndəki araşdırmaları genişləndirmək üçün yetərli deyil. Bununla bağlı olan məhdud biliyinə arxalanıb deyilənlərə yalnız bir şeyi artıra bilər: onun düşüncəsinə görə, müsəlmançılıq dininin yaranması iudaizmin yenidən yığcam (qısaldılmış) formada ortaya çıxmasıdır və bu formasında o, iudaizmin yamsılanmasından başqa bir şey deyil. Bundan başqa da, görünür, əvvəlcə peyğəmbər öz xalqı ilə birlikdə iudaizmi bütövlükdə qəbul etmək istəmişdir. Özlərinin tək və ulu atalarına inam bəsləməyə qayıdış ərəblərdə çox böyük özünüdərketmə yüksəlişi yarada bilmişdir və bu da öz növbəsində onların dünyəvi işlərində böyük uğurlar qazanmasına yol açmışdır, lakin onlar dünyəviliyə ifrat meyillənməklə də özlərini tükətdilər. Allah seçdiyi sevimli xalqına qarşı vaxtilə tanrı Yahvenin öz sevimli və seçkin xalqı olan yəhudilər üçün etdiklərindən qat-qat artıq yaxşılıqlar etmişdi. Ancaq çox keçmədən dinin daxili inkişafında bir durğunluq yarandı, ola bilsin, yəhudilərin öz dini təlim müəllimlərini öldürməsindən yaranan kəskinliyin burada olmaması belə bir durğunluğa gətirib çıxarmışdı. Şərq dinlərinin rasional tərəfi onların ulu baba kultuna bağlanmaları ilə tamamlanır, daha doğrusu, keçmişin yenidən qurulmasının ilkin pilləsində ilişib qalır. İndiki primitiv xalqların dininin məzmunu yalnız onların yüksək (ali) varlığa inamı ilə bağlıdırsa, onda bu onlarda dini inkişafın dayanması deməkdir və belə bir fenomen buradakı fərdlərin hamılıqla keçmişdən qalma nevrozun qalıqlarına yoluxmaları ilə bağlıdır. Hər iki halda inkişafın nə üçün davam etməyib dayandığı bizim üçün anlaşılmazdır. Burada güman edə biləcəyimiz tək bir səbəb qalır: görünür, belə bir inkişaf xalqların bu yöndəki istedadları, onların fəaliyyətlərinin istiqaməti və bütövlükdə sosial vəziyyəti ilə bağlı ola bilər. Bunu da diqqətinizə çatdırmaq istəyirəm ki, məşğul olduğumuz psixoanalitik fəaliyyətin ən yaxşı cəhəti onun öz işində əlinin altında olanlarla kifayətlənməsi, araşdırılan mövzunu ona dəxli olmayan arqumentlərə əl atmaqla izah etməkdən qaçmasıdır.

Fərdi psixologiyadan kütləvi psixologiyaya keçiddə yaranan ikinci çətinlik qat-qat vacibdir və qarşımızda prinsipcə yeni olan bir problem qoyur. O belə bir sual yaradır: mövcud olan ənənələr xalqların həyatında hansı formada özünü göstərib? Burada fərddən söz getmir, çünki belə olsa idi, onda gərək ənənələr onların yaddaşında keçmişlə bağlı qeyri-şüuri qavranılan biliklər kimi yaşaya idi. Gəlin, göstərdiyimiz nümunənin üzərinə qayıdaq. Bizim düşüncəmizə görə, Kadeşdəki hadisələr baş verərkən buradakı Misirdən gəlmiş insanlar çox güclü ənənələrin daşıyıcıları idilər. Belə vəziyyətdə heç bir problem də yaranmır. Bizim mülahizəmizə görə, ənənələr bu insanlarda iki və ya üç nəsil bundan öncə yaşamış ata-babaları tərəfindən şifahi formada danışılan xatirələr əsasında formalaşırdı, bu ata-babalar isə danışdıqlarının ya iştirakçıları, ya da şahidləri olmuşdular. Ancaq sonrakı yüzilliklərdə də başlıca ənənələrin elə bu sayaq, babaların nəvələrə danışdığı biliklər kimi yaşadığını düşünmək nə dərəcədə doğru olardı? Axı bundan əvvəlki hadisələrdə göstərdiyimiz kimi, bu bilikləri qoruyan və yayan insanların necə adamlar olduğunu öyrənmək bu gün mümkün deyil. Zellinin fikrincə, Musanın öldürülməsi ilə bağlı ənənəvi məlumat kahinlərin çevrəsində həmişə bilinən bir fakt olmuşdur, sonradan isə bu faktı yazıya da almışlar və elə bu da Zellinə bu faktı üzə çıxarmaqda yardımçı olmuşdur. Ancaq görünür, bu məlumat dar bir çevrədə bəlli olmuşdur; xalq bununla bağlı heç nə bilməyib. Elə isə, bu məlumatın hadisələrin sonrakı gedişinə göstərdiyi təsirlərlə bağlı deyilənləri doğru hesab edə bilərəkmi? Belə bir dar çevrədə bəlli olan məlumat bu cür rezonans doğura bilərdimi? Belə bir biliyə yiyələnmiş azsaylı insanların uzun müddət ərzində kütləyə ağalıq edə bilməsi ağlabatandırmı? Bu işin gedişatı belə görünür: deyəsən, məlumatsız kütlənin duyma, intuisiya qabiliyyəti olmuşdur və bu qabiliyyətlə o özünə qohum olan tək-tək insanların və insanlar qrupunun bildiyi məlumatı sezə bilmişdir.

Biz çox qədim dövrlərə qayıdıb ibtidai icma zamanındakı analoji hadisəyə baxsaq, onda bu mühakimələrimiz daha da qəlizləşir. Müəyyən yüksək özəlliklər qazanmış və sonradan acı bir tale yaşamış ulu atanın başına gətirilənlər minilliklərin gedişatında tamamilə unudulmuşdu və burada, hətta Musa ilə bağlı hadisədəki kimi, baş verənlərin ağızdan-ağıza keçib yaddaşlarda qalacağına da bel bağlamaq olmaz. Beləliklə də, zəruri bir sual yaranır: ənənələrin ötürülməsini hansı mənada qəbul etmək lazımdır? Onlar hansı formada qorunub saxlanıla bilərdi?

Mürəkkəb psixoloji situasiyaların dərinliyinə varmaq istəməyən və ya buna hazır olmayan oxucuların vəziyyətini yüngülləşdirmək üçün bundan əvvəlki mühakimədən çıxan nəticəni aydınlaşdırmaq istəyirəm. Fərddən fərqli olaraq, kütlənin keçmişdən aldığı təəssüratların onun yaddaşında qeyri-şüuri bir formaya keçib gizlənməsinə baxmayaraq, mənim düşüncəmə görə, burada fərd ilə kütlənin psixologiyası bütünlüklə uzlaşır.

Mənə elə gəlir, fərdlərlə münasibətdə bizim üçün qaranlıq qalan heç nə yoxdur. Keçmişdə yaşadığı hadisələrlə bağlı xatirələrin izi onun xüsusi psixoloji durumuna uyğun bir formada qorunur. Bunu belə də demək olar: fərd bu məlumatları da, onların sıxışdırılması faktını da həmişə bilir. Biz artıq nə vaxtsa yaşanıb sonra unudulan təəssüratların bir müddət keçəndən sonra yenidən yaddaşda oyanmasının psixoanalizin köməyi ilə əsaslandırılmasını bilirik. Unudulan bilik yaddaşdan

silinməyib, o yalnız kənara sıxışdırılıb, onun izləri yaddaşda tam qorunur, ancaq bu bilik ona qarşı yönələn əks məqsədin gücü ilə “dustaq olunaraq gizlədilmiş” və onun azad şəkildə yaddaşa çıxması əngəllənmişdir. Belə biliklər baş verməkdə olan başqa intellektual proseslərlə əlaqəyə girə bilmirlər, çünki qeyri-şüuri formaya keçib şüur üçün əlçatmaz olmuşlar. Bu da ola bilər ki, sıxışdırılmış məlumatın müəyyən bir hissəsi hansısa yolla yaddaş üçün əlçatan olaraq qalsın və münasib vaxtda şüura da gəlib çata bilsin. Lakin bu vəziyyətində də o, yaddaşın bir küncündə təcrid olunaraq saxlanılır və bədənə batmış yad cisim sayağı, yaddaş üçün arzuolunmaz və yad bir məlumat xarakteri daşıyır. Bu mümkündür, ancaq həmişə belə olmur və sıxışdırılma məlumatın hamısına da aid ola bilər; belə bir variantın üzərində biz bir az sonra dayanacağıq.

Sıxışdırılmış məlumat öz impulslarından əl çəkmir, şüura qayıtmaq üçün cəhdlərini davam elətdirir. O, məqsədinə üç yolla çata bilir: 1) Onun şüura keçməsinin qarşısını alan maneə xəstəlik nəticəsində zəifləyəndə və bu vəziyyət məlumatı almaqdan qorunan “MƏN”-i müdafiəsiz qoyanda, yaxud da hansı səbəbdənsə bu “MƏN”-in enerjisinin paylanmasındakı tarazlıq pozulanda, bu isə, adətən, yuxuya gedəndə baş verə bilir. 2) Nə vaxtsa sıxışdırılmış məlumatla bağlı duyğular güclənirsə (bu ən çox uşaqlıqdan yetkinlik yaşına keçən dövrdə baş verir). 3) Nə vaxtsa alınan yeni bir təəssürat sıxışdırılmış təəssüratı oyandıracaq qədər ona oxşar olanda. Bu halda yeni təəssürat sıxışdırılmış təəssüratın gizli enerjisinin verdiyi təkanla güclənir və sıxışdırılmış təəssürat onun arxasında gizlənərək və onun köməyinə arxalanaraq irəliləyir. Bu üç halın heç birində sıxışdırılmış informasiya şüura asanlıqla və dəyişikliyə uğramadan daxil ola bilmir, o bütün bu halların hamısında güclü təhrifə məruz qalır və bu təhrif də prosesin əksinə yönəlmiş qüvvənin onun üzərində buraxdığı izlərə görə baş verir və ya baxdığımız üçüncü halda ona oxşar olan yeni informasiyanın bu informasiyanı redaktə etməsi dəyişikliyin yaranmasına səbəb olur.

Psixi prosesin şüuri, yoxsa qeyri-şüuri olması arasındakı fərq bizim üçün ayırdedici əlamət və ya hesablama nöqtəsi sayılır. Sıxışdırılmış informasiya qeyri-şüuridir. Dediklərimizi tərsinə yozmaq mümkün olsa idi, onda bütün bunları anlamaq da çox sadə və münasib olardı, yəni “şüuri” və “qeyri-şüuri” keyfiyyətləri biri-birindən ayırd edərkən gərək onlardan birincisi “MƏN”-ə, ikincisi isə sıxışdırılmış informasiyaya aid olsun. Bizim psixi həyatımızda şüurdan təcrid olunan və qeyri-şüuriliyə çevrilən hadisələrin olması faktı bizim üçün bir yenilikdir və yetərincə vacibdir. Əslində isə, burada işlər daha mürəkkəbdir. Sıxışdırılmış informasiyanın qeyri-şüuri olması doğrudur, ancaq “MƏN”-ə məxsus olanların hamısının şüuri olması doğru deyil. Biz şüurun psixi proseslərin gedişində üzə çıxan səbatsızlıq xüsusiyyətinin yalnız müvəqqəti xarakter daşıdığının fərqindəyik. Ona görə də öz məqsədimizə uyğunlaşdıra bilmək üçün gərək “şüurluluğu” “şüura yolu olan” kimi adlandıraq və onun bu xüsusiyyətini “şüuraltı” olaraq tanıyaq. Onda belə demək doğru olardı: mahiyyətcə, “MƏN” şüuraltını təmsil edir və şüuri olanları qəbul edir, ancaq “MƏN”-in başqa bir hissəsi qeyri-şüuri fəaliyyətlə məşğuldur.

Sonuncu təsbitlərimizin göstərdiyi kimi, bizim indiyədək əsaslandığımız keyfiyyətlər psixi həyatın qaranlıqlarında lazımi səmti tapa bilmək üçün yetərli deyil.

Biz indi başqa fərqlər tapmağa borcluyuq və onlar da gərək keyfiyyət fərqləri deyil, aktual fərqlər olsunlar, həm də onlara məxsusi dəyər qazandıran genetik mahiyyət daşısınlar. Bizim bir aparat kimi qəbul etdiyimiz psixikamız bir neçə ardıcıl instansiyalardan, sahələrdən və əyalətlərdən qurulmuşdur və biz bu sahələrdən birini "O" adlanan başqa bir sahədən ayırıb təcrid edir, habelə onu "MƏN" adlandırırıq. Buradakı "O" yaşca "MƏN"-dən böyükdür və "MƏN" xarici aləmin təsiri ilə ondan yaranıb bir qabıq qatı kimi formalaşmışdır. "O"-da bizim ilkin impulslarımız və ehtiraslarımız toplanmışdır, onda gedən bütün proseslər qeyri-şüuridir. Xatırladığımız kimi, "MƏN" şüuraltı adlanan sahə ilə örtülüb, bu sahə öz içində şüuraltılığa aid psixi proseslərin də bir hissəsini saxlayır. Qeyri-şüuri psixi proseslərin gedişi isə, "MƏN"-də ağalıq edən qanunlardan və qarşılıqlı təsirlərdən fərqli olan qanun və qarşılıqlı təsir mexanizmləri ilə baş verir. Bax elə bu fərqləri aydınlaşdıra bilmək bizim onu yeni tərzdə anlamağımıza və əsaslandırmağımıza gətirib çıxarır.

Sıxışdırılmış informasiyalar "O"-da yerləşir və onun işləmə mexanizminə tabe olur, onların fərqi isə yalnız mənşələri ilə bağlıdır. Bu ayrılma və fərqliliklər isə həyatın lap başlanğıcında "MƏN"-in "O"-dan formalaşdığı məqamda yaranır. Sonra "O"-da olanların bir hissəsini "MƏN" mənimsəməklə şüurönü deyilən səviyyəyə qalxır, qalan hissə isə "O"-da toxunulmaz olmaqla əsl şüuraltı kimi qalır. Ancaq "MƏN"-in sonrakı formalaşmasında onun müdafiəsini təşkil edən prosesin köməyi ilə burada özünə yer edə bilmiş bir sıra psixi təəssürat və proseslər çıxarılır; onlar özlərinin şüuraltı statuslarını itirib yenidən "O"-nun tərkib hissəsi olmaq səviyyəsinə enirlər. Beləliklə də, bu informasiyalar "O"-nun içində sıxışdırılmış şəkildə gizlənir. Bu iki əyalət arasında hərəkətlə bağlı bizim düşüncəmiz belədir: bir tərəfdən "O"-da olan qeyri-şüuri informasiyalar şüuraltı səviyyəsinə qalxıb "MƏN"-lə birləşir, digər tərəfdən, "MƏN"-dəki şüuraltı səviyyədə olan informasiya yenidən qeyri-şüuri səviyyəyə çevrilib "O"-ya qayıda və orada yerləşə bilir. Bundan başqa da, bizim öz maraqlarımıza uyğun olaraq, gələcəkdə "MƏN"-in əhatə etdiyi əyalətdə xüsusi bir "Üstün-MƏN" sferasını ayırd etməli olacağıq.

Bütün bunlar çox da sadə görünməsə də, psixi aparatın öyrəşmədiyimiz fəzasına alışanda bunların hamısını çox asanlıqla təsəvvür etmək mümkündür. Əlavə olaraq bunu da deyim, burada təsvir olunan psixi sahələrin beynin anatomiyası ilə heç bir əlaqəsi yoxdur, burada olsa-olsa, beynin ümumi psixi proseslərlə bağlılığının bu sahələrdə necə gerçəkləşdiyindən danışmağın yeri var. Bu təsəvvürlərin mənim bütün dəqiqliyi ilə gördüyüm dərəcədə qənaətbəxş olmamağı bizim psixi proseslərin təbiətindəki dinamizmlə bağlı heç nə bilmədiyimizdən doğur. Biz burada şüuraltı ilə bağlı təsəvvürlərimizin qeyri-şüurilik ilə bağlı təsəvvürlərimizdən fərqləndiyini deyirik və bunlar psixi elementin fərqli çeşidləri ola bilər, ancaq onların psixi enerjinin fərqli paylanmasının nəticəsi olduğunu da sanmaq olar. Biz burada nələrinsə təcrid və ya qatı şəkildə təcridindən danışırıq, ancaq bu fərziyyənin üzərində daha da dərindən işləyə bilmək üçün bunlarla bağlı biliklərimizin natamamlığı da göz önündədir. Şüur fenomeni ilə bağlı mühakimə yürüdərkən biz onun ilk olaraq duyğularımızla bağlı olduğunu deyə bilərik. Duyğularımızın yardımı ilə ağrı, toxunma, eşitmə və görmə zamanı duyduqlarımız bütünlüklə şüurlu qavrayışlarımız sayılmalıdır. Düşünmə prosesi və "O"-da onunla analoji olanlar öz-özlüyündə qeyri-şüuridir və bu

düşünülənlərin şüura çata bilməsi görmə və eşitmə duyğuları ilə bağlı xatirələrin nitq qabiliyyətindən yararlanması ilə baş tutur. Nitq qabiliyyəti olmayan heyvanlarda bu münasibətlər, görünür, daha sadə formada baş verir.

Bizim araşdırmaya əlavə etdiyimiz erkən travmalar ya şüuraltı informasiyaya çevrilmir, ya da əksinə, sıxışdırılma vasitəsi ilə "O" sahəsinə keçib orada yerləşir. Bu halda onunla bağlı xatirənin qalıqları qeyri-şüuri olur və "O" sahəsində fəaliyyət göstərir. Bizim düşüncəmizə görə, fərdin şəxsi təəssüratlarından söz gedərkən biz onların gələcək taleyini izləyə bilərik. Ancaq biz fərdin psixi vəziyyətinə yalnız onun şəxsi təəssüratlarının deyil, həm də onun anadangəlmə aldığı, irsi mənşəli arxaik mirasın daşıdığı məzmunun da təsir etdiyini mümkün saysaq, onda yeni mürəkkəbliklər ortaya çıxmış olur. Bu halda belə bir sual yaranır: dediyimiz bu arxaik miras necə olur, hansı məzmunu daşıyır və onun əlamətləri nədir?

Ən qısa və doğru cavab isə belə ola bilərdi: onun məzmununda bütün canlılara xas olan meyil və vərdişlər vardır. Daha doğrusu, onların məzmununda özünün gələcək inkişaf yönünü seçə bilmək üçün bacarıq və meyillər vardır, həmçinin bu bacarıq və meyillər bu fərdin üzləşdiyi qıcıqlara, təəssüratlara və duyğulara özünəməxsus bir şəkildə reaksiya verməsinə də birbaşa təsir göstərir. Təcrübələrin göstərdiyi kimi, insanların arasında hər bir fərdin bu reaksiyaları bir-birindən fərqlənir, elə bu arxaik miras da bu baxımdan fərqli nəticələr doğurur, ancaq bu fərqlilik hər bir fərdin varlığında müstəsna bir özünəməxsusluğun olması ilə, başqa sözlə desək, onun fiziki və psixoloji parametrlərinin yalnız onun özü üçün xarakterik olması ilə bağlıdır. Bütün insanların öz körpəlik çağlarında, demək olar, eyni duyğuları yaşadığını və onlara eyni cür reaksiyalar verdiyini xatırlasaq, onda belə bir şübhənin yaranması qaçılmazdır: bütün bu reaksiyaları onların fərdi fərqlilikləri ilə birgə arxaik mirasa aid etmək doğru olmazdımı? Ancaq bu şübhəni kənarlaşdırmaq lazımdır: göstərilən eyni cür reaksiyaları yaşamaq bizə arxaik mirasla bağlı heç bir bilik vermir.

Ancaq psixoanalitik araşdırmalarda gəldiyimiz bir sıra nəticələr bu mövzu üzərində düşünə bilmək üçün bizə zəmin yarada bilmişdir. Burada ən birinci yerdə bütün danışıq dillərinin eyni bir simvolikadan yararlanması dayanır. Bir əşyanın başqa birisi ilə, habelə hadisələrin bir-biri ilə simvollaşdırılması bizim körpələrimizə tanışdır və onlara bunu kimsə öyrətməmişdir. Onların bunu necə öyrəndiklərini izah edə bilmirik və əksər hallarda bunun kənardan öyrədilməsinin qeyri-mümkünlüyü da aydın olur. Buraya uşaqlıq çağının ilkin bilikləri də aiddir və bu biliklərin yaşa dolanda unudulduğu da bəllidir. Düzdür, adamlar öz yuxularında bu simvollardan yararlanmaqda davam edirlər, ancaq psixoanalitikin köməyi olmadan onların anlamını başa düşə bilmirlər, üstəlik, psixoanalitikin yozumu da çox vaxt onları razı salmır. Əgər kimsə dildə çox işlənən və birbaşa simvolikalarla bağlı olan hansısa sözdən yararlanmışsa, onda gərək onun gerçək mənasını anlaya bilmədiyini etiraf etsin. Simvolika dillər arasında fərq qoymur; bu istiqamətdə geniş araşdırmalar aparılsa idi, görünür, bu simvolikaların hər yerdə olduğu və bütün xalqlar üçün eyni bir anlam daşıdığını üzə çıxara bilərdi. Beləliklə də, burada birbaşa dillərin inkişafı dövrü ilə bağlı bizə gəlib çatan ən mötəbər arxaik mirasla üzləşirik, ancaq hər halda, bu məqamı başqa cür yozmağı da yoxlamaq olar: burada yaranmış təəssüratlarla onların dilin inkişafının gedişində çevrildiyi sözlər arasındakı məntiqi əlaqələr və bu

sözlərin yeni nəslə öyrədilməsi ilə bağlı məntiqi əlaqələrin üzə çıxmasından danışmaq olar. Bu mülahizəni qəbul etsək, onda biz, adətən, insanlar arasında qəbul olunmuş eyni motivlərə meyillənmənin irsi olduğu fikrindən daşınıb, onların məntiqi meyilliklərinin irsən keçdiyini qəbul etməliyik, bu isə bizim qoyduğumuz problemin həllinə yeni heç bir köməklik göstərə bilməz.

Ancaq psixoanalitik araşdırmalar başqa bir kəşf də edə bildi və onun dəyəri düşünüldüyündən daha geniş bir sahəni əhatə edir. Biz erkən travmalara olan reaksiyaları öyrənərkən əksər hallarda onların yaşanmış real sarsıntılarla ciddi şəkildə uzlaşmadığını görüb təəccüblənməli oluruq. Bu reaksiyalar uzlaşmalı olduğu sarsıntılardan bacardıqca uzaqlaşmağa çalışır və onların bunun üçün yararlandığı üsullar isə daha çox irisi qabiliyyətlərə uyğun gəlir və onların təsiri ilə yarandığı daha məntiqli görünür. Nevroz uşaqların öz valideynlərinə münasibəti Edip və axtalanma kompleksinə uyğun gəlir və bu çoxsaylı reaksiyalar anlaşılmaz görünür, ancaq bu reaksiyaları arxaik mirasla, çox-çox uzaq nəsillərdə olmuş belə hadisələrlə əlaqələndirərkən belə nevroz simptomları anlaşılan olur. Sözsüz, bu araşdırmalarımda mənim əsaslana biləcəyim materialları toplayıb onların əsasında nəticələr çıxarmağım daha doğru olardı. Nəticələrin doğruluğu mənə yetərli göründüyündən onlara arxalanıb ürəklənir və sonrakı addım olaraq demək istəyirəm: insanın aldığı arxaik miras təkcə onun meyilliklərini deyil, həm də məzmun daşıyan elementlər, daha doğrusu, keçmiş nəsillərin xatirələri ilə bağlı məlumatlara yiyələnməsini də şərtləndirir. Bununla da, arxaik mirasın həcmi və dəyəri həlledici şəkildə artmış olur.

Araşdırmalarımızın gedişinə dərindən və geniş yanaşsaq, onda gərək etiraf edək: biz çoxdandır, özümüzü elə aparırıq, sanki ulu babalarımızın qarşılaşdıqları hadisələrlə bağlı xatirələri bizə irsi olaraq ötürülmüşdür və bu hadisə, elə bil, başqalarının vasitəçiliyindən və onların nümunə kimi götürülüb bizim tərbiyəmizdə rol oynamasından asılı olmayaraq baş vermişdir. Biz xalqın köhnə ənənələri yaşatmasından, xalqın xarakterinin formalaşmasından danışanda məsələyə elə bu cür də yanaşırıq və ənənələrin şifahi yolla ötürülməsini gözardı edirik. Yaxud da ənənələrin ötürülməsinin bu iki forması arasında fərq qoymur və belə bir unutqanlığın necə riskli olduğunu lazımınca dərk etmirik. Bizim vəziyyətimizi mürəkkəbləşdirən amillərdən biri də müasir biologiya elminin canlıların qazandığı vərdişlərin irsi ötürülməsini qəbul etməməyidir. Ancaq biz çəkingənliklə olsa belə, bioloji inkişafın bu amil olmadan keçinə bilməyəcəyini də etiraf etməliyik. Düzdür, burada bəhs etdiyimiz və irsi keçdiyini düşündüyümüz şeylər fərqlidir, bunlardan birində canlıların yaşadıqları dövrdə qazandıqları və güclə sezilib qeydiyyata alına bilən vərdişlərindən söz açılır, ikinci halda isə xarici aləmlə bağlı şüurlu dərk olunmuş hadisələrlə bağlı xatirələrin izlərindən danışılır. Ancaq mahiyyət etibarilə, biz onları bir-birindən ayrılıqda təsəvvür edə də bilmərik. Belə xatirələrin izlərinin arxaik mirasda qorunub saxlanmasının mümkünlüyünü qəbul etməklə biz fərdi və kütləvi psixologiya arasındakı uçurum üzərindən körpü salmış olduq və xalqın psixologiyasını nevrotik xəstələrin psixologiyasını araşdırdığımız kimi təhlil etmək imkanı qazandıq. Bu gün arxaik mirasda keçmiş xatirələrin izinin olması ilə bağlı əlimizdə yalnız bir sübut vardır, bu da psixoanalitik araşdırmaların gedişində nevrotik xəstələrin

yaddaşındakı bir sıra məlumatların irsi təbiətli olması ilə bağlıdır və biz bu yeganə sübutu işlərimizi davam etdirmək üçün fərziyyə qurmağa yetərli sayırıq. Bunu qəbul etməsək onda biz psixoanaliz və kütləvi psixologiya ilə bağlı tutduğumuz yolda bir addım da olsa belə, irəliləyə bilmərik. İşimizin davamı üçün belə bir mülahizəyə üz tutmaq qaçılmazdır.

Burada daha bir yararlı iş görmüş oluruq. Biz insanın ilkin formalaşma dövründə onunla heyvanlar arasında yaranmış zahiri uçurumu azaldırıq. Əgər heyvanlarda özünü göstərən instinkt onların doğulmasından sonra düşdükləri yeni situasiyaya uyğunlaşmağa kömək edirsə, onlar burada özlərini yeni şəraiti çoxdan bilirmiş kimi aparırlarsa və onda burada yalnız bir izah ola bilər: onlar öz yeni mühitlərinə mənsub olduqları növün indiyədək qazandığı təcrübə ilə gəlir, daha doğrusu, əcdadlarının qazandığı təcrübəni yaddaşlarında anadangəlmə daşıyırlar. Mahiyyətcə, hələ vəhşilik çağını yaşayan insanda da, belə bir keyfiyyətin ola biləcəyi gözləniləndir. Vəhşi heyvanların instinktləri onların arxaik mirasları ilə uzlaşır, baxmayaraq ki, bu miras öz həcmi və məzmunu ilə ondan fərqlənir.

Bütün bu mülahizələrdən sonra mən tərəddüd etmədən bildirirəm: insanlar hansısa bir xüsusi qabiliyyətləri ilə nə vaxtsa öz ulu atalarını öldürüb yediklərini dərk etmişlər.

Burada sonrakı iki suala cavab verməli oluruq. Birincisi, belə xatirələr arxaik mirasa hansı şəraitdə daxil ola bilir; ikincisi, onlar hansı şəraitdə canlanır, daha doğrusu onlar hansı şəraitdə təhrif olunmuş və dəyişilmiş şəkildə olsa belə, şüuraltından şüura keçə bilir? Birinci suala çox asanlıqla cavab tapmaq olar: əgər hadisələr yetərincə nəzərəçarpacaq dərəcədə təkrarlanırsa, onda onlar arxaik mirasa keçib orada yerləşirlər. Atanın öldürülməsi ilə bağlı qeyd etdiyimiz tarixi hadisədə bu şərtlərin ikisi də icra olunur. İkinci sualla bağlı bunu demək olar: görünür, burada bizə bəlli olmayan bütün təsirlər nəzərə alınmalıdır, məsələn, bir sıra nevrozlarda baş verən proseslərdə hadisələrin kortəbii inkişaf etməsini göstərə bilərik. Ancaq sözsüz, burada baş verən hadisənin yenidən təkrarlanmasından doğan xatirələrin təzələnməsi həlledici rol oynayır. Bizim baxdığımız nümunədə bu, Musanın öldürülməsidir; sonradan İsa Məsihin iddia olunan ölümü də bu hadisənin xatirələri oyatmağa yönələn təkrarı kimi üzə çıxır və bu hadisənin törəmə səbəbini ön plana çəkir. İşlərin gedişinə baxanda adama elə gəlir, bu insidentlər olmadan təktanrılı din də yarana bilməzdi. Burada böyük şair Şillerin bir deyimini xatırlamaq yerinə düşür: “Mahnıda ölümsüzlük qazanan gərək həyatda hökmən ölsün”.

Sonda psixoloji arqument irəli sürən bir qeydə də baxaq. Ancaq canlı danışığa arxalanan ənənələr daimilik qazanmaq gücündə deyil və dini fenomen də bu qəbildəndir. Onun ehkamlarına qulaq asmış, müzakirə etmiş, bir sıra hallarda kənardan gələn istənilən məlumat kimi inkar da etmişlər, beləliklə də, dini ənənələr heç vaxt məntiqi düşüncədən azad olub özünəməxsus bir üstünlük qazana bilməmişdir. Çox güman ki, o əvvəlcə təzyiqə də məruz qalmış, şüuraltı səviyyəyə keçib orada özünün effektiv və güclü təsir buraxacaq qayıdışına hazırlaşmışdır və geri qayıdaraq kütləni öz tabeliyinə sala bilmişdir. Biz hər dəfə dini ənənələrin bu xüsusiyyətini təəccüb və anlaşılmazlıqla qarşılamışıq. Ona görə də indi irəli sürdüyümüz mülahizə yetərincə ciddi sayıla bilər və bizi baş verənlərin

düşündüyümüz kimi baş verməsinə inandırmaq gücündədir, elə biz də bu məqamı olduğu kimi və ya olduğuna çox yaxın şəkildə sizin üçün təsvir etməyə çalışdıq.

2 Mən yaşıdım olan Bernard Şounun "insan 300 il yaşasa idi, ola bilsin, hansısa həqiqətə çata bilərdi" düşüncəsini bölüşmürəm. İnsan ömrünün uzadılması burada heç nəyi dəyişə bilməzdi, həqiqətə çata bilmək üçün həyatın ən başlıca şərtlərindən bir çoxu dəyişməlidir.

# İKİNCİ BÖLMƏ

Nəticə və təkrarlar

Bu araşdırmanın ikinci bölməsini əvvəlcə geniş bir izahat vermədən və üzrxahlıq etmədən başlamaq istəmirəm. İş burasındadır ki, oxuyacağınız ikinci bölmə, demək olar ki, birinci bölmənin sözbəsöz və dəqiq təkrarıdır, burada bir sıra tənqidə dözümsüz yerlər çıxarılmaqla mətn qısaldılmışsa da, başqa yerlərdə o, yəhudi xalqının məxsusi xarakterinin formalaşması ilə bağlı problemin işıqlandırılması məqsədilə genişlənmişdir. Mən belə yazı tərzinin məqsədəuyğun olmadığını və bədiilikdən uzaq olduğunu bilirəm. Sözün düzü, elə mən özüm də bu tərzi bəyənmirəm.

Elə isə, mən nə üçün bu vəziyyətdən qaçmağa çalışmadım? Bu suala asanlıqla cavab verə bilsəm də, bu işdə öz günahımı boynuma almaq heç də asan deyil. Qısaca desəm, bu araşdırmanın yaranmasının qeyri-adi gedişatından yaranan kələ-kötürləri aradan qaldırmağa gücüm çatmadı.

Bu əsər, faktiki olaraq, iki dəfə yazılmışdır. Onun heç vaxt çap oluna bilməyəcəyini düşünsəm də, əsəri bir neçə il bundan əvvəl Vyanada yazmağa başlamışdım. Mən bu işi yarımçıq saxlamaq istəyirdim, ancaq o, məzarda özünə yer tapa bilməyən gəzərgi bir ruh kimi məni izləyir, əzab verirdi və mən burada belə bir çıxış yolu tapdım: bu əsərdən iki hissəni ayırıb psixoanalitik bilgilər yayan "Imago" dərgisində çap etdirdim, bunlar "Musa misirlidir" adlı hissədən və onun müddəaları üzərində qurulmuş "Musa misirli olmuşsa" adlı ikinci hissədən ibarət idi. Əsərin qalan hissəsi ittihamedici və qorxulu düşüncələrlə dolu idi, burada mənim yaratdığım psixoanalitik ideyanın təkallahlılığa və ümumiyyətlə, dinə tətbiq olunmasından doğan mülahizələr yer aldığı üçün mən bu hissələri həmişəlik olaraq gizlətməyi, açıb-ağartmamağı qət etdim. Psixoanalizin prinsiplərinə arxalanaraq, gəldiyim nəticələri üzə çıxararamsa, indiyədək bu təlimə dözümlü yanaşan Avstriya hakimiyyətinin psixoanalizlə bağlı çalışmaları qadağan edəcəyindən qorxmuş və bu addımı atmalı olmuşdum. Qəfildən 1938-ci ilin martında almanlar gözlənilmədən Avstriyanı işğal etdilər və mən öz ölkəmi tərk etməli oldum, bununla da psixoanalizin taleyi ilə bağlı qorxularımdan da qurtuldum. Avstriyadan İngiltərəyə köçdüm və buraya gəldiyim ilk günlərdən başlayaraq gizli saxladığım araşdırmalarımı çap edib yaymaqla bağlı

qarşısıalınmaz bir istək məni çulğaladı, beləliklə də, bu əsərin üçüncü hissəsinin üzərində yenidən işləməyə başladım və artıq çap olunmuş ilk iki hissəyə bir sıra əlavələr etdim. Sözsüz, bütün bunlar materialı yenidən formalaşdırmaqla bağlı idi. Ancaq bu dəfə materialın hamısını əvvəlki iki yazının içərisinə sığışdıra bilmədim; digər tərəfdən də, öncə yazdıqlarımın çoxundan əl çəkmək də istəmirdim, buna görə də, araşdırmamın birinci hissəsini dəyişmədən ikinci hissəylə birləşdirdim və elə buna görə də indi dediyim bu geniş təkrarçılıq yarandı.

Yaranmış belə bir vəziyyətə görə özümü bununla ovuduram: mənim müzakirə etdiyim məsələlər yetərincə yeni və əhəmiyyətli olduğundan, bunlarla bağlı sonuncu mülahizələrimin nə dərəcədə inandırıcı olub-olmamağından asılı olmayaraq, oxucunun bu araşdırmadakı eyni mülahizələri iki dəfə oxumasını yersiz saymaq olmaz. Elə şeylər var, onları bir dəfə demək kifayət etmir və bunlar yeni və çox az eşidilən sözlərdirsə, onda bu zərurət daha da güclü olur. Ona görə də, belə hallarda ən yaxşısı, oxucuya bu sözlər üzərində yetərincə çox düşünə bilmək və ya onlara bir də yenidən qayıda bilmək imkanının yaradılmasıdır. Ancaq oxucunun etibarından sui-istifadə edib onun üçün aydın olan şeyləri bir kitabda iki dəfə təkrarlamaq da yolverilməzdir. Bu artıq yazarın bacarıqsızlığından yaranan bir vəziyyətdir və bununla bağlı qınaqları da səmimi qəbul etmək lazımdır. Təəssüf ki, müəllifin yaradıcılıq enerjisi həmişə onun iradəsinə tabe olmur; əsər onun imkanları çərçivəsində alınır, lakin burada müəllifin ürəyincə olmayan, ona yad görünən yerlər də olur.

a) İsrail xalqı

Özümüzə hesabat verəsi olsaq, gördüyümüz işi belə bir bənzətmə ilə dəyərləndirə bilərik: əlimizdə olan materiallardan işimizə yarayanları götürür, işə yaramayanları isə ələyir, onun müvafiq hissələrini psixoloji baxımdan öz məqsədimizə uyğunlaşdırıb istifadə edirik; əgər bu cür görülən iş həqiqətin üzə çıxacağına qəti zəmanət vermirsə, onda belə bir məntiqli sual yaranır: biz nə üçün bu işi görməyə cəhd edirik? Cavab gördüyümüz işin nəticələrinə əsaslanır. Əgər tarixi-psixoloji araşdırmalara qarşı olan kəskin tələbləri yetərincə yumşaltsaq, onda həmişə diqqət mərkəzində olan və son hadisələrlə bağlı olaraq yenidən tarixçiləri çox maraqlandırmağa başlamış bir problemi həll edə bilmək imkanı yaranır. Bəlli olduğu kimi, Aralıq dənizi hövzəsində yaşayan qədim xalqlardan yalnız yəhudilər öz adlarını və demək olar, mahiyyətlərini bu günədək də qoruyub saxlaya bilmişlər. Bu xalq tarixdə bənzəri olmayan bir bacarıq və inadkarlıqla başına gələn faciələrin və qarşılaşdığı amansız davranışların önündə dayana bilmiş, özünün məxsusi xarakterik cəhətlərini inkişaf etdirib formalaşdırmış və bütün bunlarla yanaşı olaraq, bütün başqa xalqlarda özünə qarşı güclü bir nifrət də yaratmışdır. Yəhudilərə ölməzlik verən bu bacarığı onlar haradan götürürlər və onların xarakteri taleləri ilə necə bağlıdır? Bütün bunlar haqqında daha çox bilmək çox yaxşı olardı.

Burada yəhudi xalqının xarakterində onun başqa xalqlara münasibətini müəyyənləşdirən bir cəhətə əsaslanmaq doğru olardı. Yəhudilərin özləri haqda çox yüksək fikirdə olmalarına, özlərini çoxlu adətləri ilə fərqləndikləri başqa xalqlardan daha nəcib sayan, yüksəkdə dayanan, üstün saymalarına heç bir şübhə yoxdur. Onları yaşamağa ilhamlandıran xüsusi və çox güclü bir inam var, sanki onları nikbinliyin

sarsılmaz bir tərəfinə bağlayan hansısa gizli və dəyərli sərvətləri mövcuddur; inanclı şəxslər bunu tanrıya bəslənən ümidlə əlaqələndirilər.

Bu davranışın səbəbi bizə bəllidir və onların gizli sərvətlərinin nə olduğunu da bilirik. Onlar, doğrudan da özlərinin tanrının seçdiyi bir xalq olduğuna inanırlar, yəhudilərin düşüncəsinə görə, onlar tanrıya başqa xalqlardan daha çox yaxındırlar və bu inam onlarda məğrurluq və özünəinam yaradır. Etibarlı qaynaqların verdiyi məlumata görə, onlar hələ ellinizm dövründə də özlərini bu gün apardıqları kimi göstərmişlər, daha doğrusu, yəhudi elə o vaxtlarda da çox yüksək həyata uyğunlaşa bilmək bacarığı ilə seçilmişdir, habelə onlarla qonşuluqda və birgə yaşayan yunanlar bu yəhudi özünəməxsusluğuna bu gün yəhudilərin üzərində ağalıq edən xalqlar kimi yanaşmışlar. Belə demək olarsa, onlar yəhudilərə münasibətdə, sanki İzrael xalqının iddia etdiyi üstünlüklərin onlarda, doğrudan da olduğuna inanırmış kimi yanaşmışlar. Birdən kimsə əzazil atanın sevimli övladı olursa, qardaş-bacılarının ona qısqanclıqla yanaşmasına təəccüblənməyə dəyməz, belə bir qısqanclığın nəyə gətirib çıxardığı isə, Yusif və onun qardaşları ilə bağlı yəhudi əfsanəsində çox gözəl şəkildə açıqlanmışdır. Ümumdünya tarixinin sonrakı gedişatı da yəhudilərin özləri haqqında olan yüksək fikirlərini doğruldur, axı sonradan tanrıya messiya (xilaskar) və insanların günahlarını yuyacaq bir nəfər lazım olanda o, bu adamı da yəhudi xalqının içindən seçmişdi. Onda başqa xalqlar özlərinə belə bir sözü deməkdə haqlı olacaqdılar: onlar tanrının seçdiyi xalq olduqlarını düz deyirmiş. Ancaq hər şey gözlənildiyinin əksinə oldu, insanların günahlarını yumaq üçün qurban verilən İsa Məsihin gəlişindən sonra yəhudilərə qarşı olan nifrət daha da gücləndi və İsa Məsihi messiya kimi tanımayan yəhudilərin bu işdən heç bir qazancı olmasa da, başqa xalqların onlara münasibəti bir az da pisləşdi.

Bundan əvvəl irəli sürdüyümüz mülahizələrə əsaslanaraq, yəhudi xalqının gələcəyi üçün çox vacib olan bu xarakterik cəhəti məhz Musa deyilən adamın formalaşdırdığını söyləyə bilərik. O, yəhudiləri, onların tanrı tərəfindən seçilmiş xalq olduqlarına inandırmaqla onlarda şəxsi ləyaqət duyğusunu gücləndirə bilmişdi, yəhudiləri müqəddəsləşdirib onlara başqa xalqlardan ayrılmağı və onlara qarışmamağı aşılamağı bacarmışdı. Bu heç də başqa xalqlarda şəxsi ləyaqət duyğusunun olmamağı demək deyil. O vaxtlar da, indi olduğu kimi, hər bir millət özünün bütün başqa millətlərdən üstün olduğunu düşünürdü. Ancaq yəhudi xalqının şəxsi ləyaqət duyğusu Musanın köməyi ilə, daha doğrusu, onun təktanrılı dininin vasitəsilə daha da möhkəmləndirilmişdi və şəxsi ləyaqət duyğusu yəhudilərin dini inancının tərkib hissələrindən birinə çevrilmişdi. Tanrı ilə daha sıx bağlı olduqlarından onlar Tanrının böyüklüyündən pay almışdılar. Yəhudiləri seçmiş və onları Misir köləliyindən qurtarmış tanrının arxasında Musanın dayandığını bildiyimiz üçün (burada o, tanrının əmri ilə yəhudiləri Misir zülmündən qurtarır) belə deməyə qərar veririk: yəhudiləri Musa deyilən adam yaratmışdır. Bu xalq ölməzliyinə görə ona borcludur, ancaq indiyədək yəhudi xalqına qarşı olan və bu gün də davam edən başqa xalqların nifrətinə görə də Musa məsuliyyət daşıyır.

b) Böyük insan

Görəsən, tək insan belə bir müstəsna işi necə görə bilir: passiv fərdlərdən və onların çeşidli çoxluqlarından xalq formalaşdırır, onların dayanıqlı xarakterini yaradır və bu xalqın minilliklər boyunca davam edən taleyini müəyyən edir? Belə bir təkliflə

çıxış eləmək bizi yaradıcılar və qəhrəmanlar haqqında mifik düşüncə tərzinə qaytarmazmı? Biz bununla ötən çağlarda yalnız ayrı-ayrı şəxslərin, hakimlərin və işğalçı hökmdarların həyatı, fəaliyyəti və taleyindən ibarət olan tarixçiliyə dönmürükmü? Bəlli olduğu kimi, bizim yaşadığımız yeni dövrdə bəşəriyyətin tarixini gözlə görünməyən ümumi və fərdlərdən asılı olmayan faktorlarla bağlayaraq bu proseslərdə qarşısıalınmaz iqtisadi vəziyyətin, qidalanma üsulunda baş verən dəyişikliyin, xammal və əmək alətlərindən yararlanmaqla bağlı tərəqqinin, əhali artımı ilə bağlı yaranan köçlərin və iqlimin təsirinin həlledici rol oynadığını ön plana çəkirlər. Burada ayrıca götürülmüş tarixi şəxsiyyətin görməli olduğu iş yalnız kütləviləşən arzu və məqsədləri möhkəmləndirmək və təmsil etmək olur. Bu tarixi şəxsiyyətlərin ortaya çıxması zərurəti yaranır, eyni zamanda onların yaranması təsadüflərlə bağlı olur.

Tarixi hadisələrə belə bir baxış tamamilə doğrudur, ancaq belə bir yanaşma bizim düşüncəmizi doğuran orqanların işləmə mexanizmi ilə düşüncəmizlə qavramalı olduğumuz dünyanın quruluşu arasında mövcud olan çox mühüm bir ziddiyyəti də bizə xatırlatmış olur. Alışdığımız və yararlanmağa meyilli olduğumuz bütün hadisələrin səbəb-nəticə əlaqələri əsasında baş verməsi ilə bağlı daxili tələbatımızın ödənilməsi üçün istənilən prosesdə yalnız bir inandırıcı səbəbin tapılması yetərli olur. Ancaq xarici aləmdə işlər heç də bu cür deyil; əksinə, hər bir hadisə, görünür, çox mürəkkəb səbəb-nəticə əlaqələri ilə bağlı olur və onun baş verməsi bir neçə səbəbin bir nöqtədə qovuşması nəticəsində baş verir. Hadisələrin hədsiz genişliyindən qorxuya düşən araşdırmamız burada yalnız başqa qarşılıqlı əlaqələrdən yüksəkdə dayanan birini götürür, ziddiyyətlərin olduğundan danışır, halbuki belə bir ziddiyyət, əslində, yoxdur və onu yaradan da yalnız geniş qarşılıqlı əlaqələrdən ayrılmağa cəhd etməyimizdir. Beləliklə də, bəlli bir hadisə ilə bağlı apardığımız araşdırma burada ayrıca götürülmüş bir fərdin çox böyük təsirinin olduğunu təsdiq edirsə, bu bizi özümüzü qınamağa və bu mühakiməmizin ümumi və fərdlərdən asılı olmayan qanunauyğunluqlarla ziddiyyətə girdiyini düşünməyə sövq etməməlidir. Burada, prinsipcə, hər iki nöqteyi-nəzər yararlıdır və yerinə düşür. Əlbəttə, təktanrılılığın yaranmasından danışarkən biz yuxarıda xatırlatdığımızdan başqa heç bir xarici faktorun təsirini göstərə bilmirik: hadisələrin bu yöndə inkişaf eləməsinin səbəbi Misirin dünya dövlətinə çevrilməyə başlaması və müxtəlif millətlər arasında yaxın əlaqələr qurulması yolu ilə böyük bir imperiya yaratması olmuşdu.

Buna görə də biz hadisələr zəncirinin halqaları və ya səbəblər hörgüsünün arasında “böyük insan” üçün yer də saxlayırıq. Ancaq görünür, buradaca soruşmağın yeridir: biz bu hörmətli insanların adlarını hansı şəraitdə çəkməyə başlayırıq? Necə təəccüblü olsa da, bu suala cavab verməyin çox çətin olduğunu görürük. Belə bir formulun bütün vəziyyətlərdə uğursuz olacağı əvvəlcədən də bəllidir: “böyük insan” hansısa gözəçarpan yüksək keyfiyyətləri olduğu üçün bizim çox böyük hörmətimizi qazanmış bir şəxsiyyətdir; məsələn, xarici gözəllik, yaxud da fiziki baxımdan çox güclü olmaq necə həsəd doğurucu keyfiyyətlər olsa da, bu keyfiyyətlərə malik kimsə “böyük insan” adını daşımağa iddialı ola bilməz. Şübhəsiz, kiminsə “böyük insan “statusunu qazanması üçün onun çox yüksək mənəvi keyfiyyətləri, habelə psixi və intellektual üstünlükləri olmalıdır. Sonuncu dediyimizlə bağlı belə düşünə bilərik:

hansısa bəlli bir sahədə qeyri-adi istedadı olan şəxsi böyük insan adlandıra bilərik. Sözsüz, bu təyinat böyük şahmat ustasına, virtuoz bir musiqiçiyə, yaxud da çox gözəl rəssama və güclü araşdırma mütəxəssisinə aid deyil. Elə isə, biz belə deməkdə haqlı olacağıq: düzdür o, böyük şair, rəssam, riyaziyyatçı və ya fizikdir, çalışdığı sahədə çox böyük yeniliklər yaratmışdır, ancaq bütün bunlara görə ona böyük insan deyə bilmərik. Nə vaxtsa çəkinmədən Höteni, Leonardo da Vinçini, Bethoveni böyük insan adlandırırıqsa, görünür, bu sözü demək üçün onların çox böyük yaradıcılığına vurğunluğumuzdan başqa bir səbəb də olur. Belə nümunələr olmasa idi, onda biz "böyük insan" statusunu "böyük işlər" görən şəxslər, daha doğrusu, işğalçılar, sərkərdələr, hakimlər üçün qoruyub saxlayardıq və onların gördüyü "böyük işlər"in özlərinin böyüklüyündən qaynaqlandığını qəbul edərdik. Ancaq belə bir yanaşma da, bizim mülahizələrimizi doğrultmur, bunu səbəbi isə olduqca çoxlu ləyaqətsiz adamların öz çağdaşlarına və sonrakı nəsillərə güclü təsir buraxdığını bildiyimiz üçündür. Hətta uğur qazanmağı da böyüklüyün əlaməti saymaq doğru deyil, çünki əksər böyük insanların uğur qazanmaqdan çox, uğursuzluğa düşdüklərini xatırlamaq bunu sübut edir.

Beləliklə də, belə bir nəticəyə yönəlməyə çalışaq: "böyük insan" anlayışının birmənalı tərifini axtarmağın heç bir əsası yoxdur. İnsanın hansısa keyfiyyətinin qeyri-adi inkişaf etməsini yüngülbeyinliyə və özbaşınalığa qapılaraq hədsiz dəyərləndirmək "böyüklük" anlayışının mənasına kobud yanaşmaq deməkdir. Bunu da xatırlamağa dəyər ki, bizi böyük hesab edilən insanın mahiyyəti deyil, belə bir sual maraqlandırır: o öz ətrafındakılara nə ilə belə güclü təsir edə bilir? Ancaq belə bir araşdırmanı da biz gərək müəyyən hüdudları gözləməklə aparaq, yoxsa mövzunun genişliyi bizi seçdiyimiz məqsəddən çox uzaqlaşdıra bilər.

Beləliklə də, gəlin böyük insanın öz çağdaşlarına iki yolla təsir etdiyini etiraf edək: bunlar onun müstəsna şəxsiyyəti və doğrultmağa çalışdığı ideyalarıdır. Bu ideyalar kütlənin bağlı olduğu köhnə idealları möhkəmləndirməyə də qulluq edə və ya onlara bağlana biləcəkləri yeni məqsəd və arzuların ünvanını göstərə, ya da hansısa başqa bir üsulla kütlənin vurğunluğunu qazana bilər. Hərdən – bunu birinci təsadüf kimi qeyd etmək yerinə düşərdi – burada böyük insanın yalnız şəxsiyyəti təsiredici olur, onun ideyası çox əhəmiyyətsiz bir rol oynayır. "Böyük insan nə üçün hansısa vacib rol oynamalıdır" sualının cavabı da aydındır. Bildiyimiz kimi, kütlənin həmişə öz üzərində güclü təsiri olan hakimiyyətə tələbatı olur, kütlə – vurğunluqla bağlanacağı, sözsüz boyun əyəcəyi, ona hökm edəcək, yeri gələndə onunla amansız davranacaq bir hakimiyyət həsrətində olur. Fərdi psixologiyanı öyrənəndə kütlənin bu ehtiyacının necə yarandığını da anlamışdıq. Bu duyğu hər bir fərdin yaşa dolandan sonra uşaqlığının bağlı olduğu atasına bəslədiyi həsrətdən qaynaqlanır, bu həm də əfsanə qəhrəmanının üzərində çaldığı qələbə ilə adını ucaltdığı həmən atadır. Bu mülahizələrin köməyilə qarşımızda belə bir işıqlı düşüncəyə yol açılır: böyük insan adlandırdığımız fərdə qazandırdığımız bütün cəhətlər ataya xas olan cəhətlərdir və böyük insanın belə bir gərginliklə axtardığımız mahiyyəti də bu cür uzlaşmadadır. Böyük insanın ata obrazı ilə uzlaşan cəhətlərindən intellektin qətiyyəti, iradəlilik, görülən işlərin böyüklüyünü göstərmək olar, ancaq bunların hamısından daha çox, böyük insanın müstəqilliyi və azadlığı ata obrazı ilə uzlaşır, bu keyfiyyətlərin yaratdığı

soyuqqanlılığın isə amansızlıq səviyyəsinə çata biləcək bir inkişaf xüsusiyyəti var. Ataya vurğun olmalısan, ona inanmağa borclu, həm də ondan qorxmağa da məcbursan. Kütlə özünün, sözün birbaşa anlamında, atalığa əsaslanan bir hakimiyyətlə idarə olunmasını istəyir, axı uşaqlığımızda atamızdan başqa hansı "böyük insan" ola bilərdi?

Sözsüz, Musanın şəxsində məhz atanın çox böyük obrazı yoxsul yəhudi kənlilərinin yanına gəlib onları öz sevimli uşaqları olduğuna inandıra bilmişdi. Bundan da artıq sarsıdıcı təəssüratı onlar vahid, əbədi, yenilməz qüdrəti olan bir tanrının olmasından və ən başlıcası, belə bir tanrı üçün özlərinin bir heçlik olmayıb, onun sevimli və seçkin bəndələri olmalarından və bu tanrının onlarla ittifaq bağlayıb, hörmət edəcəkləri təqdirdə daima onlara qayğı göstərəcəyini vəd etməsindən keçirmişdilər. Çox güman, onlar üçün Musanın obrazını onun tanrısının obrazından ayırmaq asan deyildi, onların bunu çox doğru olaraq duyduqlarını da demək olar, çünki doğrudan da Musa öz tanrısından götürdüyü bir çox cəhətləri şəxsi keyfiyyətlərinə çevirmişdi, Musa ilə onun tanrısının bir-birinə oxşarlığı onun təbiətində özünü göstərən qəzəbli və rəhmsiz olmasında daha aydın görünür. Əgər yəhudilər sonradan Musanı öldürmüşdülərsə, bu da ibtidai çağlarda tanrı ilə eyniləşdirilən hökmdarın öldürülməsi demək idi və bunun da kökü daha qədim dövrlərə ulu atanın obrazına gedib çıxırdı.

Beləliklə də, bir tərəfdən böyük insanın obrazı ilahilik səviyyəsinə qədər yüksəlir, digər tərəfdən isə, elə atanın da nə vaxtsa uşaq olduğunu xatırlamağın vaxtı gəlib çatır. Bizim təqdim etdiyimiz variantda Musanın ortaya çıxardığı böyük dini ideya onun özünün şəxsi ideyası deyildi; o bu ideyanı özünün hakimi olmuş firon Ehnatondan götürmüşdü. Böyüklüyü və dini təlimçi olması faktlarla sübuta yetirilən Ehnaton isə, görünür, Yaxın və ya Uzaq Asiyadan, ola bilsin anasından, ola da bilsin başqa bir yolla aldığı impulsla gəlib bu ideyaya çıxa bilmişdi.

Bizim bu hadisələr zəncirinin bütün həlqələrini izləmək imkanımız olmasa da, əgər indicə dediyimiz fikirlərin doğruluğunu qəbul etsək, onda belə çıxır, təktanrılılıq ideyası bumeranqsayağı dolanaraq yenidən çıxdığı yerə qayıdıb gəlmişdir. Görünür, ayrı-ayrı şəxslərin bu yeni ideyanın inkişafındakı rolundan danışmağın da heç bir əhəmiyyəti yoxdur. Onun inkişafında çoxlu insanların iştirak etdiyi və bu ideyaya öz töhfələrini verdikləri aydındır. Ancaq bu hadisələr zəncirinin sonuncu həlqəsi olaraq Musanı götürmək və bundan sonra olanları gözdən qaçırmaq da doğru olmazdı, bu, Musadan sonra təktanrılı din ideyasını yaşatmış və inkişaf etdirmiş yəhudi peyğəmbərlərin əməyini yerə vurmaq demək olardı. Təktanrıçılıq toxumu Misirdə bitmədi. Bu, İzraeldə baş tutdu və xalq onun həyatını ağırlaşdıran həmin çox tələbkar dini onlara öyrətmiş adamı devirib öldürəndən sonra bu ideyanı qəbul etdi. Ancaq yəhudi xalqının arasından fasiləsiz olaraq yeni-yeni insanlar ortaya çıxdılar və hər dəfə də zəifləməkdə olan ənənələri canlandıra bildilər, dini ehkamları və Musanın tələblərini yenilədilər və itirilən keyfiyyətlərin hamısını bərpa edənədək dinclik tapmadılar. Ara vermədən yüz illər boyunca çəkilən əməyin nəticəsində və sonradan aparılan iki islahatın köməyilə Babil əsirliyindən qurtarandan sonra xalqın keçmiş tanrısı olan Yahve Musanın yəhudiləri inanmağa məcbur etdiyi tanrıya çevrilmiş oldu. Kütlənin spesifik psixi qabiliyyət göstərib yəhudi xalqına çevrildiyini göstərən bu

arqument sonradan bu xalqın musaçılıq dininin bütün ağırlığını çiyninə götürən çoxsaylı insanlar yetişdirə bilməsi ilə doğrulur və yəhudilər bütün bunları özlərini tanrının seçdiyi xalq sanaraq alacaqları mükafatlara şirnikərək etmişdilər.

c) Ruhani tərəqqi

Xalqa onun tanrı tərəfindən seçilmiş olduğunu demək ona dayanıqlı psixoloji təsir etmək üçün yetərli deyil. Xalqın belə bir dinə inanması və ondan özü üçün nəticələr çıxarması üçün gərək bu deyilənlər sübut olunsun. musaçılıq dinində belə sübut Misirdən çıxıb gedə bilmək idi; tanrı və ya onun adından danışan Musa yorulmadan tanrının yəhudilərə bu böyük mərhəmətini nümunə göstərirdi. Qədim dövrlərdə ortaya çıxmış Pasxa bayramı da bu hadisənin yaddaşlarda möhkəmlənməsi üçün yaradılmışdı, bir az da dəqiq desək, bununla bağlı olan yaddaşı daha da məzmunlu etmək üçün idi. Ancaq hər halda, bunlar yalnız dumanlı və uzaq keçmişlə bağlı xatirələrdən başqa bir şey deyil. İndiki zamanda tanrının mərhəmətini göstərən əlamətlər olduqca az idi, əksinə, xalqın acı taleyi daha çox onun rəhmsizliyindən soraq verirdi. Primitiv xalqların arasında belə bir adət olmuşdur: əgər onların tanrısı bu xalq üçün qələbəni, xoşbəxtliyi və yaxşı dolanışığı təmin etməzdisə, onlar bu tanrını qovar və hətta cəzalandırardılar. Bütün zamanlarda hökmdarlarla da elə bu tanrılarla olduğu kimi davranmışlar; belə məqamlarda onların eyniləşdirilməsi, daha doğrusu, eyni kökdən qaynaqlanması özünü göstərmişdir. Düzünə qalsa, indi çağdaş xalqlar da torpaqlarının itirilməsinə gətirib çıxaran məğlubiyyətlərə və xalqın dolanışığını dözülməz həddə çatdırdığına görə, öz təmtərağını itirmiş hakimiyyətlərin təmsilçilərini devirib ölkədən qovurlar. Elə isə, nə üçün tanrı onunla nə qədər çox pis davranırsa, İzrael xalqı ona bir o qədər çox itaət göstərir? – bu problemin həllini hələlik bir kənara qoymağa məcburuq.

Ancaq bu sual bizi belə bir araşdırma aparmağa yönəldir: Musanın dini xalqın tanrının seçilmiş xalqı olduğu duyğusundan yaranan şəxsi ləyaqət hissini artırmaqdan başqa, ona ayrı bir şey də verə bilmişdimi? Buradakı ən yaxın faktoru tapmaq çox asandır. Din yəhudilərə tanrı ilə bağlı daha böyük təsəvvürlər verə bilmişdi, qısa desək, onlar bu dinin köməyi ilə daha böyük tanrını tanıya bilmişdilər. Belə bir tanrıya tapınıb onun böyüklüyündən özünə də hansısa payın düşdüyünə inanan insan özünün yüksəldiyini düşünməkdə haqlı idi. Dinə inanmayanlar üçün bu mülahizə asan anlaşılan olmadığı üçün həyatdan nümunə gətirməklə onların işini yüngülləşdirmək olar: tutalım, İngiltərənin təbəəsi olan bir şəxs xalqın qiyam qaldırdığı və çox qorxulu bir vəziyyətin yarandığı hansısa kiçik ölkədədir. Ancaq bu İngiltərəli şəxs yaranmış qorxunc vəziyyətə baxmayaraq özünü çox soyuqqanlı aparır, başından bir tük əskik olarsa, öz ölkəsinin buraya hərbi gəmilərini göndərəcəyinə arxayındır, qiyam qaldırmış bu balaca ölkədə isə, bir dənə də olsun hərbi gəmi yoxdur. Britaniya imperiyasının böyüklüyündən duyulan qürur hər bir ingilisin şüurunda özünün istənilən situasiyada təhlükədən qorunduğu ilə bağlı bir inam yaratmışdır. Görünür, bu fakt tanrının böyüklüyü ilə bağlı analogiya kimi götürülə bilər, tanrının dünyanı idarə etməsində onunla birgə iştiraka iddia etmək ağlasığmaz olduğu üçün burada tanrının böyüklüyündən duyduğun qürur onun səni xalqını seçməsindən duyduğun hislərdən qaynaqlanır.

Musaçılıq dininin ehkamları arasında ona kimi əhəmiyyət verilməyən bir məsələ ilə bağlı çox ciddi bir əmr vardır. Bu əmrə görə, tanrının rəsmini çəkmək qadağan edilir, yəni görülməsi mümkün olmayan tanrıya itaət etmək tələb olunur. Bizim düşüncəmizə görə, Musa burada Aton dininin bəlli qadağalarından daha kəskin bir əmr vermişdir; ola bilər, o öz dini təliminin tələblərinin ardıcıllığını gözlədiyi üçün bu addımı atmışdır, axı onun tanrısının adı və müəyyən görkəmi yox idi, ola da bilər, bütün bunlar cadugərliyin və ovsunçuluğun bu dinə ayaq açmasının qarşısını almaq üçün düşünülmüşdü. Ancaq bu qadağa qəbul olunmuşdusa, onda o, insanların psixikasında çox dərin təsir buraxmalı idi. Axı bu qayda abstrakt təfəkkürü duyğu ilə qavramaqdan üstün tutmaq demək idi, mənəviyyatın hissiyyat üzərində təntənəsi idi, ciddi desək, bu, ehtirasdan onun doğura biləcəyi psixoloji nəticələrlə birlikdə imtina etmək idi.

İlk baxışdan qaranlıq qalan prosesi aydınlaşdırmaq üçün, ən yaxşısı, insan mədəniyyətinin inkişafı ilə bağlı olan buna oxşar başqa prosesləri xatırlamaqdır. Onlardan ən ilkini, ola bilsin ən mühümü, keçmişin qaranlıqlarının içində sönük bir parıltı kimi gözə dəyir. Onun təəccüblü nəticələri bizi, istər-istəməz, onun varlığını qəbul etməyə sürükləyir. Azyaşlı uşaqlarımızda və yaşlı nevrotik xəstələrimizdə, habelə primitiv xalqlara məxsus olan bir psixi fenomen var, bu fenomeni biz öz araşdırmalarımızda "düşüncənin qüdrətinə inanmaq" deyə ifadə etmişik. Fikrimizcə, burada bizim psixi, baxılan halda isə intellektual fəaliyyətimizin xarici aləmin dəyişdirilməsinə təsirinin şişirdilməsindən söz gedir. Bundan başqa, bizim psixoanalitik texnikamızın əcdadı olan istənilən ovsun bu mülahizəyə əsaslanır. İstənilən alqış və qarğışlar da buraya aiddir, bu zaman müəyyən biliklərə yiyələnməklə və ya müəyyən adları çəkməklə hadisələr üzərində hökmranlıq inamı yaranır. Bizim ehtimalımıza görə, "düşüncənin qüdrətinə inanmaq" insanın intellektual inkişafını olduqca irəli aparmağa gətirib çıxarmış dilin inkişafı ilə bağlı insanın qürurundan doğmuşdur. Bu yeni mənəvi imperiyanın yaranması demək idi və burada artıq təsəvvürlər, xatirələr və rəylər həlledici psixi fəaliyyət formalarına çevrilmiş, habelə bundan əvvəlki yalnız duyğu orqanları vasitəsi ilə qavramağa əsaslanan daha aşağı səviyyəli psixi fəaliyyətlərlə təzad yaratmağa başlamışdı. Sözsüz, bu hadisə insanın yaranmasında ən vacib mərhələlərdən biri olmuşdur.

Sonrakı dövrdə baş verən başqa bir hadisə bizim üçün daha əhəmiyyətli sayılmalıdır. Bizim açıqlamağa borclu olmadığımız və bir çoxu hələ indiyədək də qaranlıq qalan xarici faktorların təsirilə ictimai həyatda matriarxat sistemin dəyişilməsi hadisəsi baş verdi və bununla əlaqədar olaraq, indiyədək mövcud olan hüquqi münasibətlər sistemində də güclü bir çevriliş oldu. Düşünüldüyünə görə, bu inqilabın əks-sədası Esxilin "Oresteya" dramında da duyulur. Ancaq burada qeyd etmək yerinə düşərdi: ictimai münasibətlərdəki ağırlıq mərkəzinin anadan ataya keçməsi mənəviyyatın hissiyyat üzərində qələbəsi demək idi, başqa sözlə, bu bir mədəni tərəqqi hadisəsi idi, axı analıq duyğu orqanlarının şahidliyi ilə sübut olunurdu, atalıq isə rəylər və fərziyyələr üzrə qurulmuş mülahizələrə əsaslanır. Məntiqi prosesi duyğu ilə qavrama üzərində yüksəltməyə yönəldən bu meyil olduqca böyük nəticələrə gətirib çıxaran bir iş oldu.

Nə vaxtsa bir az öncə xatırlatdığımız iki hadisənin baş verdiyi tarixlərin arasında üçüncü bir hadisə də baş vermişdi, bu hadisə bizim öyrəndiyimiz dini tarixlə araşdırdığımız hadisələrin arasında daha sıx qohumluq əlaqələrini üzə çıxardı. Baş verən bu dəyişikliklərdən sonra insanda "ruhani" təsiri ümumilikdə dəyərləndirə bilmək ehtiyacı yarandı: daha doğrusu, duyğu orqanları ilə müəyyənləşməsi mümkün olmayan, hətta görmə duyğusunun da aşkara çıxara bilmədiyi varlığı şübhə doğurmayan bu keyfiyyətlər, üstəlik hədsiz təsir güclərinin olduğunu da göstərirdilər. Əgər biz dilin şahidliyinə inansaq, onda ruhaniliyin ilkin obrazının hərəkət edən hava olduğunu deyə bilərik, bəlli olduğu kimi, ruh termini öz adını əsən külək deyimindən almışdır (latınca "animus, spiritus", ivritcə "ruach" "yel" deməkdir). Beləliklə də, ruh ayrıca götürülmüş hər bir insanın ruhani prinsipi kimi anlaşılırdı. Öz növbəsində təcrübələr nəfəs alan insanın havanı hərəkətə gətirdiyini görür, öləndən sonra isə bu hərəkətin dayandığının şahidi olurdular; eləcə də, indiki təsəvvürlərə görə də, ölən adamın ruhu onun nəfəsi ilə uçub gedir. Ancaq dediyimiz dini inkişafın yaratdığı bu mərhələdə, insan üçün ruh imperiyası yaranmışdı; o artıq özü ruhun varlığını fərz edə bilirdi və bu ruhu özündə və təbiətin bütün başqa predmetlərində də aşkara çıxarırdı. Bütün dünya ruhla dolmuşdu və yalnız çox sonralar ortaya çıxmış elm təbiətdə və dünyada olan bir çox predmetlərin cansız-ruhsuz olduğunu göstərə bilmişdi, ancaq buna baxmayaraq, bu mühakimənin özü də indiyədək mübahisəli olaraq qalmaqdadır.

Musanın qoyduğu yasağın hesabına tanrı ruhaniliyin daha yüksək pilləsinə qaldırıldı və bununla da, bir az sonra danışacağımız kimi, tanrı haqqında təsəvvürlərin dəyişilməsi üçün yol açmış oldu. Ancaq bundan əvvəl başqa bir nəticəni gözdən keçirməyimiz gərəkdir. Ruhaniliyin belə bir irəliləyişi nəticəsində insanlarda şəxsi ləyaqət duyğusu gücləndi və onlar bununla qürrələnməyə başladılar, axı indi ancaq duyğu orqanlarının köməyi ilə yaşayan insanlardan üstün olduqlarını duymağa başlamışdılar. Bildiyimiz kimi, Musa yəhudilərə seçilmiş xalq olduqlarını aşılamaqla onlarda çox böyük ruh yüksəkliyi formalaşdırmış, bunun üçün o, tanrını qeyri-maddiləşdirməklə xalqın gizli sərvətinə çevrilən bir dəyər yaratmışdı. Beləliklə də, yəhudilər ruhani maraqlara olan meyillərini qoruyub saxladılar, millətin başına gələn bədbəxtçiliklər isə onlara əllərində qalmış yeganə mülkiyyəti – öz əlifbalarını dəyərləndirməyə alışdırdı. Bəlli olduğu kimi, Roma imperatoru Tit Yerusəlimdəki məbədi dağıdandan bir az sonra ravvin İohan ben Sakkay Yamni şəhərində Tövratı öyrədən ilk məktəbi açmaq üçün razılıq ala bilmişdi. Bu andan başlayaraq Tövrat müqəddəs kitaba çevrildi və səpələnmiş xalqı birləşdirmək işinə qulluq edən ruhani mərkəz rolunu oynamağa başladı.

Bu dediklərim hamıya bəllidir və hamılıqla qəbul olunur. Bütün bunlara yalnız bir şeyi əlavə etmək qalır: yəhudilərin mahiyyətini müəyyən edən tipik dəyişikliklər Musanın tanrıya onun görünən obrazı üzrə ibadəti qadağan etməsindən sonra baş verdi.

Sözsüz, yəhudi xalqının iki min ilə yaxın ruhani dəyərlərə əsaslanan inkişaf yolunu tutması onların üstünlüyü sayılmalıdır və bu üstünlük özünün təsirini göstərməyə bilməzdi; bu üstünlük onlara öz cahilliklərini və zorakılığa meyillərini məhdudlaşdırmaqda yardımçı oldu, məlum olduğu kimi, bundan sonra onlarda

formalaşan keyfiyyətlər ruhani dəyərlərdən uzaq düşən, fiziki gücə arxalanmağı özünün idealına çevirən xalqların arasında yüksək mövqe tutdu. Bununla da, yəhudilər qədim dövr yunan xalqının çata bildiyi ruhani və fiziki fəaliyyətin harmoniyasından məhrum oldular. Hər halda, onların yaşamında bunlardan hansını seçməklə bağlı fikir ayrılığı yaranan məqamlarda yəhudilər məsələni dəyər verdikləri ruhaniliyin xeyrinə həll etməyə üstünlük verməyə başladılar.

d) Ehtirasdan imtina

Ruhani tərəqqinin, daha doğrusu, idrakın duyğuların fövqünə qalxmasının istər fərdin, istərsə də xalqın özünüdərkini nə üçün gücləndirdiyi özü-özlüyündə aydın deyil və ilk baxışda anlaşılmaz görünür. Güman ki, burada insanın bağlı olduğu müəyyən dəyərlərin miqyasının və ya onun yararlandığı hansısa sahənin genişlənməsi nəzərdə tutulur. Gəlin fərdin psixologiyasında artıq bizim üçün aydın olan bir analogiyaya baxaq.

Əgər bir adamda “O” erotik və ya aqressiv təbiətli ehtiraslara olan tələbi gücləndirirsə, onda burada ən sadə və təbii çıxış yolu düşüncə və fiziki aparatı olan “MƏN”-in hərəkətə gəlib bu tələbi yerinə yetirməsi olardı. Ehtiras tələbinin bu sayaq yerinə yetirilməsini “MƏN” özü üçün həzz kimi qəbul edir və qəfildən bu tələbi yerinə yetirməzsə onda bu, “MƏN” üçün bir iztirab olacaqdır. Birdən elə hallar da ola bilər ki, “MƏN” xarici faktorları nəzərə alıb ehtirasın ödənilməsindən imtina da edə bilər, burada “MƏN” belə bir ehtirasın gerçəkləşməsinin özünə qarşı çox ciddi təhlükə yaradacağını bildiyi üçün belə davranır. Həzdən belə əl çəkmək, xarici faktorlara görə ehtiraslardan imtina eləmək – biz bunu gerçəkliyin prinsipial tələblərinə itaət etmək adlandırırıq – sözsüz, sevinc gətirən bir əməl sayılmır. Əgər enerjinin başqa işə yönəldilməsi yolu ilə ehtirasın gücünü azaltmaq mümkün olmursa, onda belə bir imtina uzun çəkən xoşagəlməz gərginlik yaradır. Lakin ehtirasdan imtinaya tamam başqa, necə deyərlər, xarici faktorlardan asılı olmayan daxili səbəblər də gətirib çıxara bilər. Fərdi inkişafın gedişatında xarici aləmin çəkindirici güclərinin bir hissəsi daxili aləmə nüfuz edir və “MƏN”-də bir şöbə (instansiya) yaradır, bu şöbə isə müşahidə, tənqid və qadağa yolu ilə “MƏN”-in yerdə qalan şöbələrini müəyyən şeylərdən çəkindirir. Biz bu yeni şöbəni “Üst MƏN” adlandırırıq. Bundan sonra “MƏN” “O”-nun ehtirasların gerçəkləşdirilməsi ilə balı tələblərini yerinə yetirməzdən əvvəl xarici aləmin təhdidlərini nəzərə almaqdan başqa da, “Üst MƏN”-nin etirazları ilə də hesablaşmalı olacaq və beləliklə də, ehtirasların gerçəkləşdirilməməsi üçün bəhanəsi yaranacaq. Ancaq onda ehtiraslardan imtinanın xarakteri də dəyişəcək, indiyədək xarici aləmin təhdidlərinə görə onlardan imtina iztirab doğururdusa, indi “Üst MƏN”-in tələblərinin qarşılığında ehtiraslardan imtina psixi təəssüratda tamam başqa bir anlam daşıyacaqdır. “Üst MƏN” burada ehtiraslardan çəkindirdiyi üçün “MƏN”-ə xoşagəlməz duyğular yaşatmaqla yanaşı, ona bunun qarşılığında hansısa, kiçicik də olsa, həzz payı verəcəkdir. Bununla da “MƏN” ehtirasdan imtinaya görə özünü ucalmış sayacaq, bunu dəyərli bir uğur sayaraq bundan qürrələnəcəkdir. Düşünürəm ki, həzzalmanın bu mexanizmini anlaya bilirik. “Üst MƏN” – fərdin ömrünün ilk dövrlərində onun davranışlarına nəzarət etmiş valideynlərin (tərbiyəçilərin) varisidir; o özünə qədər olmuş bu kəslərin fəaliyyətini, demək olar, dəyişilmədən, olduğu kimi davam etdirir. “Üst MƏN” daimi olaraq “MƏN”-i özündən asılı halda saxlayır və ona

dayanmadan təzyiq göstərir. Uşaqlıqda olduğu kimi, "MƏN" özünün hakimi saydığı varlığın sevgisini itirməkdən qorxur və onun göstərişlərini özünün azadlığı və xoşbəxtliyi kimi qəbul edir, qınaqlarını isə vicdanın tənbehi kimi anlayır. Əgər "MƏN" "Üst MƏN"-ə nəyisə qurban vermişsə, bunun əvəzində ondan özünə qarşı çox böyük sevgi gözləyir. Bu sevgiyə haqqı çatdığını anlaması isə onu qürurlandırır. Hələ "Üst MƏN"-nin bir nüfuz yiyəsi kimi tanınmadığı dövrlərdə, ehtiraslara qapılmaqla sevginin itirilə bilməsi qorxusu olmuşdur. Onda ehtiraslardan imtinanı valideynlərin sevgisini qazanmaq üçün etmişlər, bu isə özünəinam və özündənrazılıq duyğusu yaratmışdır. Narsisizm duyğusundan qürrələnmək də, bu yaxşı sayıla biləcək duyğu da, elə yalnız "MƏN"-in bir hissəsi özü üzərində yüksəlib nüfuz yiyəsinə çevriləndən sonra baş verir.

Görəsən, ehtirasdan imtinanın məmnunluq yaratmaqla izah olunması öyrənmək istədiyimiz problemi anlamağa kömək edirmi, yəni doğrudanmı, özünüdərkin güclənməsi ruhani uğurlardan doğur? Deyəsən, bir o qədər də yox. Vəziyyət bir qədər başqa cürdür. Burada ehtirasdan imtina olunmasından heç bir söz açılmır və sevgisi naminə fədakarlıq edilən ikinci şəxsdən və ya instansiyadan da danışılmır. Buradakı ikinci mühakimənin şübhə doğurduğunu biz tezliklə görəcəyik. Bu məqamda belə demək yerinə düşərdi: məhz böyük insan böyük nüfuz sahibi olduğu üçün bu mərtəbəyə qalxmışdır və ona olan sevgi onun vurğunlarına uğur gətirir, habelə böyük insan ataya bənzədiyinə görə bu cür güclü təsir göstərə bildiyindən kütləvi psixologiyada onun payına "Üst MƏN" rolunu oynamaq düşür. Bu dediklərimiz Musa ilə yəhudi xalqı arasındakı münasibətlərə uyğun gəlir və buradakı prosesin də buna oxşar olduğunu düşünmək olar. Ancaq başqa məqamlarda belə bir analogiya özünü doğrultmur. Ruhani tərəqqinin mahiyyəti birbaşa təsirinə uğradığımız duyğu ilə bağlı olan qavramaya qarşı yüksək intellektual prosesləri qoymaq və üstünlüyü ona verməkdir, daha doğrusu, xatirə, mühakimə və rəylərlə bağlı olan qavramanı daha vacib saymaqdır. Məsələn, analıq birbaşa duyğu orqanlarının vasitəsi ilə yaranır, atalıqda isə belə birbaşa duyğularla bağlı asılılıq yoxdur, ancaq buna baxmayaraq, atalıq bir dəyər kimi analıqdan üstün sayılır. Ona görə də uşağın atasının adı ilə tanınması və onun varisi olması doğru hesab olunur. Yaxud tanrı yel kimi və ya ruh kimi gözəgörünməz olsa da, onun ən böyük və ən qüdrətli olduğuna inanırlar. Göründüyü kimi, seksual və ya aqressiv ehtirasların cazibəsindən yayınmaq dediyimiz proseslərdən tamamilə fərqlənir. Həm də ruhanilik istiqamətində müəyyən uğurlar qazanılması, məsələn, atalıq hüququnun üstünlüyünün tanınması burada öz nüfuzunun miqyasına görə daha vacib olan başqa bir nüfuz sahibini aşkara çıxarmır. Bu hadisədə vacib nüfuz sahibinin yerini ata tuta bilməz, axı prosesi yönəltmir, onun özünü də yalnız ruhani tərəqqi nüfuz sahibinə çevirir. Nəticədə, belə bir fenomenlə qarşılaşırıq: bəşəriyyətin inkişafında ruhanilik tədricən hissiyyatlılığa qalib gəlir və insanlar hər belə bir uğura görə qürrələnir və yüksəldiklərini sanırlar. Ancaq bütün baş verənlərin nə üçün məhz belə olduğunu demək olmur. Daha sonra isə belə bir hadisə də baş verir: ruhaniliyin özü inancın tamamən anlaşılmaz bir fenomeninə çevrilir. Burada bəlli: "credo quia absurdum(absurd olduğu üçün də inanıram)" ehkamından söz gedir, bununla belə, bu sözü deməyə gəlib çıxmış hər bir kəs ruhani baxımdan yüksəlişə çatdığını sanır. Ola bilsin, bütün bu psixoloji proseslər üçün

ümumi olan başqa bir şey vardır. Bizim ehtimalımıza görə, insan, sadəcə, ən vacib olanı ən ağır olan kimi elan edir və onun qüruru da elə şüurun bu ağırlığı üstələməsindən yaranan narsisizmdən başqa bir şey deyil.

Sözsüz, bu yozum araşdırdığımız problemə çox səthi yanaşır və belə bir yozumun, ümumiyyətlə, yəhudi xalqının xarakterini aydınlaşdırmaq problemi ilə əlaqəsi olmadığını da düşünmək olardı. Belə bir bu yozum, sadəcə, bu məqamda bizim üçün münasib göründüyündən biz də ondan yararlandıq, ancaq sonradan qarşılaşacağımız bir fakt bu yozumun da bizim problemlə az-çox bağlılığının olduğunu göstərəcək. Tanrının təsvir olunmasını qadağan edən din yüzilliklər boyu getdikcə daha çox ehtiraslardan imtina dininə çevrilir. Bu din seksdən çəkindirici tələblər qoymur, yalnız seksual azadlıqları məhdudlaşdırmaqla kifayətlənir. Ancaq tanrı seksuallıqdan bütünlüklə arınır və bitkin bir etik ideal səviyyəsinə qaldırılır. Etika da elə ehtirasların məhdudlaşdırılması deməkdir. Peyğəmbərlər, gecə-gündüz yorulmadan xalqı tanrının dediyi yolu tutmağa çağırırdılar, onların sözlərinə görə, tanrı onlardan doğrucul və xeyirxah bir ömür sürməkdən başqa heç nə tələb etmir, daha doğrusu, onlardan elə çağdaş etikanın da qınadığı, yaramazlıq saydığı ehtiraslara qapılıb alçalmamağı tələb edir. Dərindən baxanda bu dində qoyulan tələblərin yerinə yetirilməsinə tanrıya inanmağın özündən daha ciddi yanaşılır. Beləliklə də, ehtiraslardan imtina dinin özü ilə bərabər yaranmasa da, onun inkişafında çox mühüm bir rol oynayır.

Ancaq elə buradaca yaranmış anlaşılmazlıqları aradan qaldırmaq üçün etirazlar üzə çıxır. Qəfildən ehtiraslardan imtina və ona əsaslanan etikanın mahiyyətcə dinlə bağlı olduğu düşünülsə belə, onlar genetik (mənşə) baxımdan bir-biri ilə çox sıx bağlıdırlar. Dinin bizə bəlli olan ilk forması totemizm də yaranışından başlayaraq özü ilə bir sıra dəyişilməz əmr və qadağalar gətirir, bunlar isə ehtiraslardan imtina olunmasından başqa bir şey deyil, misal olaraq, totemə böyük hörmətlə yanaşmağı, ona ziyan vurmamaq və öldürməmək kimi qadağaları göstərmək olar; habelə ekzoqamiyanın təsbit olunması, adamlara öz ana və bacıları ilə seksual əlaqələrə girməyin qadağan olunması da bu sıradandır; eləcə də, qardaşlıq ittifaqına daxil olanların hamısına eyni hüquqların tanınması, daha doğrusu, onlar arasında amansız çəkişmələrin məhdudlaşdırılması da bu sıradandır. Bu qaydalarda biz ilkin mənəvi və ictimai nizamın yaradılmasını görürük. Burada iki motivin təsir göstərdiyini də nəzərə almalıyıq. İlkin iki qadağa öldürülmüş atanın ruhuna uyğundur, onun iradəsinin davamı kimi görünür; üçüncü qadağa – atanın iradəsinə boyun əyməkdən imtina etmiş qardaşlara eyni hüquqların verilməsi – atanın aradan götürülməsindən sonra yeni yaranmış nizamın uzun müddət saxlanmasına əsaslanır. Əks halda yenidən köhnə nizama qayıtmaq qaçılmaz olardı. Baxdığımız bu situasiyada ictimai qadağalar birbaşa dini münasibətlərdən asılı olmayan başqa tələblərdən yaranmış olur.

Ayrıca götürülmüş bir insanın inkişafında baxdığımız bu yolun bütün mərhələləri qısa şəkildə təkrar olunur. Burada məhz valideynlərin nüfuzu, mahiyyətcə – atanın məhdudiyyət tanımayan və əlində cəza sistemi olan hakimiyyəti uşağı ehtiraslardan imtinaya yönəldir və atasının əmrlərinə uyğun olaraq onun üçün nəyi etmək, nəyi etməmək müəyyən olunur. Onun ailədən bütünlüklə asılı olduğu uşaq yaşlarında "tərbiyəlilik" və "yaramazlıq" kimi dəyərləndirilən keyfiyyətlər sonradan valideynlərin

yerini cəmiyyət və “Üst MƏN” tutanda “yaxşılıq” və “yamanlıq”, ya da “xeyirxahlıq” və “bədniyyətlilik” kimi dəyərləndirilir və elə bu da atanın yerini tutan başqa bir nüfuz sahibinin təzyiqi ilə ehtiraslardan imtina deməkdir.

Biz indi diqqətəlayiq olan “müqəddəslik” anlayışını araşdırmağa başlasaq, onda bu ideyalar bir az da dərinləşəcəkdir. “Müqəddəslik” deyilən anlayışın bizim başqa yüksək dəyərləndirdiyimiz, çox qiymətli və vacib saydığımız şeylərdən fərqi nədir? Bir tərəfdən müqəddəsliyin dinlə bağlı olduğu şübhəsizdir, din israrla ondan danışmaqdan yorulmur; dini olan nə varsa, hamısı müqəddəs sayılır və müqəddəsliyin nüvəsində din dayanır. Ancaq başqa bir tərəfdən də, bizim bu rəyimizə mane olan mühakimələr də var və onlar dinlə bağlılığı olmayan, ya da çox zəif bağlanan müxtəlif predmet, şəxs, ictimai quruluş və peşələrdə də bu keyfiyyətin olduğunu deməklə çaşqınlıq yaradırlar. Bu çalışmalar bəlli təmayüllərə xidmət edir. Belə ziddiyyətləri aradan qaldırmaq üçün biz burada müqəddəsliklə çox sıx bağlılığı olan qadağaların xüsusiyyətindən yararlanmağa çalışacağıq. Bəlli olduğu kimi, müqəddəs toxunulması qadağan olan bir məfhumdur. Həm də bu qadağanın rasional baxımdan heç bir əsası yoxdur, o yalnız duyğuların coşdurulması yolu ilə gücləndirilmişdir. Misal üçün, nəyə görə qızı və ya bacısı ilə cinsi əlaqədə olmaq ən ağır cinayət və iyrənclik sayılır, ancaq yad birisi ilə cinsi əlaqəyə təbii yanaşılır? Bu suala əsaslandırılmış cavab belə səslənir: bizim duyğularımız bacı və qızlarımızla belə əlaqələrin olmasına qarşıdır. Ancaq burada qadağanın özü-özlüyündə ağlabatan olduğu deyilir və belə çıxır, onu əsaslandırmağa gərək yoxdur. Belə bir izahın yararsızlığını aydınlaşdırmaq çox asandır. Bizim ən müqəddəs duyğularımızı təhqir etdiyini dediyimiz bu insest hadisəsi (ana, qız və ya bacı ilə cinsi əlaqədə olmaq) – Qədim Misirdə və başqa qədim xalqlarında yüksək təbəqədən olan ailələr üçün hamılıqla qəbul olunmuş bir adət, belə demək olarsa, müqəddəs bir vərdiş idi. Bəlli olduğu kimi, öz bacısına evlənən firon onu ən birinci və ən üstün arvadı sayırdı, hətta Misirin yunan köklü sonuncu Ptolemeylər sülaləsinin fironları da bu adəti davam etdirmişdilər. Göründüyü kimi, buradakı düşüncələrə görə, insest – baxdığımız halda qardaşla bacı arasında – sadə insanlara nəsib olmayan, ancaq yüksək təbəqəyə aid bir üstünlük sayılırdı, elə qədim yunan və german əfsanələrində də tanrıların və onların yerdəki əvəzediciləri kimi tanıdılan hökmdarların insestə uymaları ilə bağlı hadisələrin izləri bütün aydınlığı ilə görünməkdədir. Çox böyük ehtimalla, özlərinin uzaq keçmişindən bu günə gəlib çatan və adlı-sanlı köklərini itirməkdən qorxan bugünkü aristokratiya da insestlə bağlı əlaqələrdən törəmişdir. Əksər Avropa ölkələrində özlərinin aristokrat soyunu qoruyub saxlaya bilmək üçün yalnız ən yaxın qohumlarla evlənməyə üstünlük verilməsi bu gün belə ölkələrin bir və ya iki ailə tərəfindən idarə olunmasına gətirib çıxarmışdır.

Tanrı, hökmdar, qəhrəmanların insestə yol vermələri ilə bağlı biliklər bu hadisənin bioloji baxımdan qorxunc olduğu və yaxın qan qohumluğunun doğulan uşaqlar üçün ziyanlı nəticələr verəcəyi ilə bağlı dumanlı baxışları aradan qaldırmağa kömək edə bilər. Müasir dövrdə yaxın qohumların evliliyindən şikəst uşaqların doğulması yetərincə sübut olunmamış şübhəli bir arqumentdir, ancaq bundan da şübhəlisi guya ibtidai insanların bunu bildikləri üçün yaxın qohumlarla evlənməmələrini düşünməkdir. Burada müəyyən qohumluq dərəcələrinə görə

evliliyə yol verilməməsi də insestə qarşı belə bir “təbii duyğunun” olması ilə bağlı deyilənləri doğrultmur və insestə belə bir qorxu ilə yanaşmanı izah edə bilmir.

Bizim irəli sürdüyümüz, insanların tarixdən öncəki həyatı ilə bağlı sxem isə bütün bunlara başqa bir izah verir. Öz qohumları ilə nikaha qoyulan qadağa –ekzoqamiya tarixdən öncəki dövrdə oymaqdakı bütün qadınların sahibi olan atanın hökmü ilə baş verirdi və elə bu da insestlə bağlı qorxu duyğusunu formalaşdırmışdır və atanın aradan götürülməsindən sonra da davam edib sonrakı dövrlərə ötürülmüşdür. Onun emosional gücünü yaradan bu qüvvə olmuşdur və heç bir rasional izahla bu hadisəyə müqəddəslik qazandırmaq mümkün deyil. Bizim möhkəm inamımıza görə, müqəddəsliklə bağlı olan nə varsa, hamısının araşdırılması insestlə bağlı araşdırmamızın nəticəsinə gətirib çıxaracaqdır və bu nəticə belədir: ilkin müqəddəslik – ulu atanın iradəsinin yerinə yetirilməsinin davamından başqa bir şey deyil. Bununla da müqəddəslik anlayışının iki anlamlı bir söz olması bəlli olur. Bu isə bir az əvvəl dediyimiz, ataya bəslənən münasibətlərin ikimənalılığından doğmuşdur. “Müqəddəslik” anlamında işlənən “sacer” sözü təkcə “müqəddəs” və “müqəddəsləşmiş” anlamlarını vermir, yeri gələndə, bu sözdən “lənət”, “qarğış” və “iyrənc” kimi anlamlar da doğula bilər (misal üçün, latıncada: “qızıla olan lənətə gəlmiş acgözlük” belə deyilir: “auiri sacra fames”). Atanın iradəsi ancaq nəyəsə toxunmağın yolverilməzliyi və başqa bir məfhuma böyük hörmət bəsləməyi hökm etməklə qurtarmırdı, o həm də ehtiraslardan imtina etməməklə bağlı qorxunc cəzalar verəcəyi ilə təhdid edirdi. Bu düşüncələrə əsaslananda Musanın öz xalqını “müqəddəsləşdirmək” üçün onları sünnət olunmağa məcbur etməsinin anlamı indi bizə bütün aydınlığı ilə bəlli olur. Sünnət olunmaq – axtalanmağın simvoludur, nə vaxtsa ulu ata özünün qüdrətindən yararlanıb öz oğullarını belə bir üsulla cəzalandırırdı, bu simvolun qəbul olunması isə, ata necə ağır işgəncələr verərsə belə, oğulların onun iradəsinə tabe olacağını nümayiş etdirir.

Yenidən etika mövzusuna qayıtmaq üçün biz son nəticədə onun bir çox qaydalarının rasional düşüncə ilə doğrulduğunu deyə bilərik: icmanın hüquqlarının fərdlərin xeyrinə məhdudlaşdırılması, fərdin hüququnun icmanın xeyrinə olaraq məhdudlaşdırılması, fərdlərin hüquqlarının bir-birinin xeyrinə məhdudlaşdırılması zərurəti bütünlüklə ağlabatan və rasional düşüncəyə uyğundur. Ancaq etikada qarşılaşdığımız qorxunc qadağalar və mistik baxımdan doğruluğu “şübhə yaratmayan” nə varsa, etika bunların hamısı üçün atanın iradəsindən qaynaqlanan dinə borcludur.

e) Dinin gerçək məzmunu

Dünyada Yüksək Varlığın olduğuna inanan tarixçilər bizim tək inancdan məhrum olan insanlarda özlərinə qarşı necə də böyük bir həsəd oyadırlar! Bu Böyük Ruh üçün dünyada cavabı bəlli olmayan heç bir sual yoxdur, axı buradakı bütün formaları o yaratmışdır. İnanclıların geniş, tükənməz və sonu bəlli təlimləri ilə müqayisə edərkən bizim öz araşdırmalarımızda güclə gəlib çata bildiyimiz nəticələr necə də əziyyətli, yoxsul və qırıntılardan ibarət görünür! Etik idealın özü olan İlahi Ruh ona inanan insanlara bu idealla bağlı bilgilər öyrətməklə yanaşı, ona oxşamaq üçün alovlu bir istək də vermişdir. Onlar nəyin ucalıq və xeyirxahlıq, nəyin alçaqlıq və yamanlıq olduğunu birbaşa duya bilirlər. Onların duyğuları özlərinin idealdan olan məsafələrini

öyrənməyə yönəlmişdir. Onlar Günəşin başına fırlanan Yerin öz orbiti ilə ona yaxınlaşıb sonra uzaqlaşmağına oxşar olaraq, gah ideala ən yaxın olur, bununla çox böyük həzlər yaşayır, gah da idealdan uzaqlaşdıqlarını duyub özlərini çox böyük kəskinliklə qınayırlar. Bütün bunlar olduqca sadə və sarsılmaz bir şəkildə qurulmuşdur. Bəlli həyat təcrübəsinin və təbiət üzərində aparılan müşahidələr bizi belə bir yüksək varlığın mövcudluğuna inanmağa qoymursa, bizə buna görə, sadəcə, dərin təəssüf hissi keçirmək qalır. Əgər dünya saysız müəmmalarla dolu olmasa idi, onda qarşımızda yeni bir məsələ dayanardı, bu halda biz gərək başqa adamların ilahi varlığa necə inana bildiklərini və belə bir inancın "ağıl və elmi" üstələyən qeyri-adi hakimiyyətini haradan əldə etdiyini anlamağa çalışa idik.

Gəlin bizi indiyədək düşündürən daha sadə problemlə məşğul olaq. Biz yəhudi xalqının bu günədək yaşamağa və özünün varlığını qorumağa kömək edən özünəməxsus xarakterinin haradan qaynaqlandığını anlamağı qarşımıza məqsəd olaraq qoymuşduq. Daha sonra öz araşdırmalarımızla bu xarakteri Musa deyilən adamın möhkəmləndirdiyini aydınlaşdırdıq, onun yəhudilərə bağışladığı yeni din bu xalqın şəxsi ləyaqət hissini olduqca yüksəldə bildi və onlar özlərinin bütün başqa xalqlardan üstün olduqlarına inandılar. Bununla da, onlar başqa xalqlardan kənar durmağa çalışaraq, öz varlıqlarını qoruya bildilər. Onları hamılıqla yiyələndikləri intellektual və emosional bir irs birləşdirdiyindən yəhudilər başqa xalqlarla evlənərək yaranan qan qarışıqlığından da qorxmurdular. Musanın dini aşağıdakı üç səbəbdən bu xalqa belə bir təsir göstərə bilmişdi: 1) xalqa yeni tanıdığı dinin tanrısının böyüklüyündən pay ala bilmək imkanı yaradırdı; 2) bu xalqın böyük tanrı tərəfindən seçilmiş xalq olması və tanrının xoşməramlı olduğunu sübut edəcəyi təsdiq olunurdu; 3) xalqı ruhani tərəqqi yoluna yönəldirdi və öz-özlüyündə vacib olan bu hadisə ilə xalqın intellektual fəaliyyəti daha yüksək dəyərləndirməsi xüsusiyyəti yaranır, bu isə onun ehtiraslardan imtina etməsinə gətirib çıxarırdı.

Bunlar bizim gəldiyimiz nəticələrdir və bunun əksinə deyilən bütün haqlı iradları dinləməyə hazırıq, habelə dediklərimizin bir sıra hallarda özünü doğrultmadığını da etiraf edirik. Buradakı səbəblərin toplusu, belə demək olarsa, nəticənin üstünü bütünlüklə örtə bilmir: bizim aydınlaşdırmağa çalışdığımız fakt onu izah etdiyimiz faktorlardan müqayisə olunmaz dərəcədə böyükdür. Burada belə bir təbii sual yaranır: ola bilərmi, bizim indiyədək apardığımız araşdırmalar buradakı bütün ola biləcək motivləri üzə çıxara bilməsin, daha dərində olan başqa faktorlara nüfuz etmədən yalnız üzdə olanlarla kifayətlənsin? Həyatda və tarixdə səbəb-nəticə bağlarını müəyyən etməyin fövqəladə çətinliyi bizi, heç olmasa, az-çox uyğun gələn faktorlardan yararlanmağa məcbur edir.

Görünür, daha dərin motivlərə yanaşa bilməyin yolu bizim əvvəlcədən yararlandığımız bir mühakimənin bəlli bir məqamı ilə bağlıdır. Musanın dini öz təsirini birbaşa yox, dolayı olaraq göstərmişdi. Bunun necə baş verdiyini nümayiş etdirmək mümkün deyil, o, bir dəfəyə təsir etmirdi, özünün təsirini bütünlüklə göstərə bilmək üçün ona yüz illərin keçməsi gərək idi və xalqın xarakterinin formalaşdırılması və möhkəmləndirilməsindən söz gedəndə bunun elə belə də olacağı gözlənilən idi. Üzərində dayanmaq istədiyimiz faktı biz yəhudi xalqının din tarixindən götürmüşük, istəsəniz, bu faktın yəhudilərin dini inancına kənardan gətirildiyini də düşünə

bilərsiniz. Biz artıq yəhudi xalqının bir müddət sonra Musanın dinindən imtina etdiyini demişik; onların bu dinin bütün ehkamlarından üz döndərdiklərini, yoxsa onların bir hissəsini saxlayıb qalanlarından imtina etdiklərini indi öyrənmək mümkün deyil. Burada mülahizələrimizə arxalanaraq yəhudi xalqının Kənaan torpaqlarını tutduğu və oradakı xalqlara savaş açdığı, çox uzun müddətdə onun itaət etdiyi tanrı Yahvenin qonşu xalqların tanrılarından çox da fərqlənmədiyi də aydındır və sonradan bu tarixi gerçəkliyi saxtalaşdırmaq yolu ilə Yahvenin xəcalət doğuran obrazını maskalamağa çalışan adamların yazdıqları da bizi çaşdırmamalıdır. Ancaq musaçılıq dini izsiz-soraqsız yoxa çıxmamışdı, ondan bir sıra dumanlı, təhrif olunmuş və görünür, kahinlər kastasından olan bir təbəqənin bildiklərinə əsaslanan xatirələr qalmışdı, habelə dini ehkamların yazıya alındığı bir sıra köhnədən qalma əlyazmalar da vardı. Bax elə böyük bir keçmişdən qalma bu ənənələr də, səhnə arxasından baş verirmiş kimi, bir təsir göstərməyə başlayıb tədricən insan ruhları üzərində çox böyük bir hakimiyyətə yiyələndi, bu, işin sonunda isə tanrı Yahvenin bütünlüklə Musanın tanrısına çevrilməsinə gətirib çıxardı, bununla da, Musanın yüz illər bundan əvvəl başlayıb özündən sonra yarımçıq qalan işləri yenidən canlanaraq daha böyük vüsət almağa başladı.

Əsərimizin bundan əvvəlki bölməsində bununla bağlı yazmışdıq və keçmiş ənənələrin təsirini aydınlaşdırmaq üçün hansı mübahisəsiz fərziyyədən yararlanmalı olduğumuzu da müəyyənləşdirmişdik.

f) Sıxışdırılıb aradan çıxarılanların
qayıdışı

Psixoanalitika psixika üzərində apardığı araşdırmalarda bizi bir sıra uzlaşan proseslərlə tanış edə bilmişdir. Onlardan bəzilərini patoloji hadisələr, bir başqalarını isə normanın çoxçeşidliliyi adlandırırlar. Ancaq onların necə adlanması vacib deyil, çünki onlar arasında kəskin bir sərhəd yoxdur, işləmə mexanizmləri də çox az fərqlənir və demək olar, bir-birinin eynidir, habelə burada ən başlıcası onların ortaya çıxması ilə "MƏN"-də dəyişikliyin baş verib-verməməyi və ya onların "MƏN"-lə qarşıdurmaya gedərək onunla ziddiyyət yaratmasıdır, sonuncu halda bu hadisələrə simptomlar deyilir. Bununla bağlı əlimizdə bol material olsa da, mən onlardan xarakterin dəyişilməsi ilə bağlı hadisələri nümunə göstərmək istəyirəm. Anası ilə konfliktə girən çox gənc yaşlarında bir qız anasında olmayan bütün xüsusiyyətlərə yiyələnməyə çalışır və onu xatırladan nə varsa, hamısından qaçır. Qeyd edim ki, o da bütün qızlar kimi, uşaqlıq çağında özünü anası ilə eyniləşdirməyə, bütün xüsusiyyətləri ilə ona oxşamağa çalışmışdı, indi isə var gücü ilə onun əksinə getməyə başlamışdır. Ancaq bu qız ailə qurub kiminsə arvadı və ana olandan sonra biz çox böyük təəccüblə onun artıq çoxdan sevmədiyi anasına oxşamağa başladığını görürük və onda başlayan bu proses anası ilə ziddiyyət təşkil edən bütün xasiyyətlərindən daşınmasına və onunla maksimal eyniləşməyə qədər davam edir. Belə bir hal yeniyetmə oğlanlarla da baş verir, hətta dühasının çiçəklənməyə başladığı çağlardan özünün hədsiz ciddiliyi və xırdaçılığı ilə onu bezdirən atasından üz döndərmiş böyük Höte də yaşlı vaxtlarında atasının xarakterində olan çoxlu cəhətlərin özündə olduğunu aşkarlaya bilmişdi. Ancaq görünür, iki şəxs arasındakı ziddiyyət çox kəskin olanda daha da sarsıdıcı nəticə alına bilər. Məsələn, ləyaqətsiz ömür sürən atası ilə

birgə yaşayan gənc onun əksinə davranmağa çalışır, çox yaxşı, etibarlı və vicdanlı bir adama çevrilir. Ancaq gözlənilmədən enerjisinin qaynayıb-daşdığı çağlarda onun xarakterində kəskin bir dönüş baş verir və o özünü atasından nümunə götürürmüş kimi aparmağa başlayır. Araşdırdığımız mövzu ilə əlaqəmizi itirmədən buradaca bütün bu nəticələrin uşaqların körpə yaşlarında özlərini atalarına oxşatmaq istədiklərindən qaynaqlandığını görürük. Sonra bu duyğunu ataya qarşı olan etiraz duyğusu sıxışdırıb çıxarır və artıqlaması ilə onun yerini tutur, bütün bunların sonunda isə yenidən körpəliklə bağlı duyğular geriyə dönüb onu sıxışdıran duyğuları üstələməyə başlayır.

Çoxdan bəlli olduğu kimi, insanın öz ömrünün ilk beş ilində yaşadığı hislər onun həyatında həlledici rol oynayır və sonrakı illərdə onun iradəsi bu yaşlarında qazanmış olduğu xüsusiyyətlərə qarşı heç cür duruş gətirə bilmir. Bu ilkin təəssüratların yaşlı çağında insan iradəsinə üstün gəlib üzə çıxmasının qarşısıalınmazlığı və onun özünü gerçəkləşdirməsinin hansı üsullarla baş verdiyi ilə bağlı çoxlu maraqlı sözlər danışmaq olar, ancaq onların çoxu bizim mövzumuza aid deyil. Çoxları bunu bilmir: insan öz ömründə ən güclü və unudulmayan təəssüratlarını hələ ən kiçik yaşlarında, bizim onun psixi aparatının yarımçıq işlədiyini düşündüyümüz çağında qazanır. Bu faktın doğruluğuna şübhə yoxdur, o özünün ortaya qoyduğu məqamlarla çox sarsıdıcı təsirlər buraxır və bu faktın daha asan anlaşılması üçün biz onu çəkilmiş fotonun çox gecikdirilmiş aşkarlanması ilə tutuşdura bilərik. İstəyirəm, bu məqamda hamının razılaşa biləcəyi bir söz də deyim, çox canlı təəssürat sahibi olan yazıçılar bizim bu çətin həzm olunan kəşfimizdən əvvəl də, özlərində cürət tapıb bu fakta toxuna bilmişlər. E.T.A.Hoffmann özünün poetik əsərlərinin qəhrəmanlarının obrazlarından ibarət bir imperiya yaratmışdı və burada o hələ südəmər körpə olarkən anasının qucağında bir həftə ərzində karet ilə keçdiyi yoldakı mənzərələri də təsvir etməyə çalışmışdı. Uşaqlar iki yaşına qədər yaşadıqları təəssüratları sonradan heç vaxt xatırlamırlar, bunu yalnız bir halda, yuxuda xatırlayanlar ola bilir. Psixoanalitik müalicə zamanı bu unudulmuş xatirələrini yenidən onların yadına salmaq mümkündür, ancaq nə vaxtsa, çox-çox sonralar yaşanmış bu təəssüratlar aşılayıcı impulslar şəklində üzə çıxaraq onlarda müxtəlif predmetlərə qarşı bəyənmək və ya bəyənməzlik duyğuları yarada bilir, çox hallarda onların sevgi obyektlərini seçməkdə yönəldici təsir göstərir və bu zaman onlara rasional düşüncəyə əsaslanan seçim etmək imkanı vermir. Bu faktların bizim araşdırdığımız problemə iki yerdə toxunduğunu görməmək mümkün deyil. Bunlardan birincisi, özünü həlledici faktor kimi göstərən zamanın uzaqlığı məsələsidir, buna misal olaraq, yaddaşın xüsusi bir səviyyəsinin uşaqlıq təəssüratları kimi təsnifləşdirilib "qeyri-şüuriliyə" aid edilməsini göstərmək olar. Burada biz həmçinin xalqın psixi həyatında ənənələrin adına yazdığımız məqamlarla bağlı analogiyalar tapmağa da ümid edirik. Ancaq onu da qeyd edim ki, "qeyri-şüuriliklə" bağlı təsəvvürləri kütlə psixologiyasına bağlamağın özü də çox çətindir.

Belə hadisələri öyrənməkdə nevrozun yaranmasına aparıb çıxaran mexanizmlər çox aydın bir şəkildə kömək edir. Bu halda da həlledici hadisələr uşaqlığın ilk illərində baş verir, ancaq biz burada vurğunu zamanın deyil, prosesin üzərinə salırıq, bu proses isə özlüyündə baş verən hadisəyə qarşı dirəniş göstərir və bundan yaranan reaksiyanı

üzə çıxarır. Bunu daha sadə dillə belə demək olar: yaşantılardan alınan təəssürat ehtirasa qapılmanı gücləndirir və onun ödənilməsi tələbatını da şiddətləndirir. Bu vaxt "MƏN" ya ehtirasa qapılmanın miqyasından sarsıldığına, ya da onun ödənilməsinin qorxulu olduğuna görə ehtirasın təmin olunmasından imtina edir. Bu səbəblərdən birincisi daha əsaslı görünür və onlar ikisi də təhlükəli vəziyyət yarandığına görə ehtirasın ödənilməsindən yayınmağa gətirib çıxarır. "MƏN" yaranmış təhlükədən sıxışdırma prosesinin köməyi ilə qorunur, bununla da ehtirasın göstərdiyi təsir azalır, onu doğuran qavramlar və təəssüratlar da unudulur. Ancaq bununla proses başa çatmır, ehtiras ya öz gücünü bütünlüklə saxlayır, ya da gücünü yenidən toplamağa başlayır, yaxud da yeni bir bəhanə ilə güclənməyə başlayır. Bu halda o özünün cazibə qüvvəsini də yeniləyir; belə bir situasiyada onun normal şəraitdə qayıdışı mümkün olmur, bunun səbəbi isə sıxışdırmanın yaddaşda hələ də yeri qalan çapığının yaratdığı emosional vəziyyətdir, müdafiənin zəif olduğu digər bir yerdə "MƏN"-in razılığı və xəbəri olmadan ehtiras özünə başqa yol açır və tələbatın ödənilməsinin müəyyən əvəzedicisini yaratmağa, bu isə öz növbəsində nevroz simptomları olaraq aşkarlanmağa başlayır. Simptomların yaranmasının bütün fenomenlərini çəkinmədən "sıxışdırılanların qayıtmasının" adına yazmaq olar. Ancaq onların fərqləndirici xüsusiyyətləri çox dərindən korlanmış şəkildə üzə çıxmaları olur, beləliklə də, sıxışdırılanlar qayıdanda özlərini ilkin formalarına nisbətən çox dəyişirlər. Sonda nəzərdən keçirdiyimiz faktlarla bağlı bizim araşdırdığımız ənənə problemindən çox uzaqlaşdığımızı düşünə bilərsiniz. Ancaq buna görə təəssüflənməyə dəyməz, biz bu faktları araşdırmaqla ehtiraslardan imtina probleminə xeyli yaxınlaşa bildik.

g) Tarixi gerçəklik

Mənim apardığım bütün bu tarixi ekskursiyaların məqsədi musaçılıq dininin yalnız sıxışdırılmış ənənənin qayıdışı kimi (fərdlər üçün sıxışdırılmış uşaqlıq təəssüratlarına uyğun olan) yəhudi xalqına təsir etdiyi ilə bağlı irəli sürdüyüm tezisin daha çox inandırıcı olduğunu göstərmək üçündür. Ancaq indiyədək biz bu tezisi az, ya çox dərəcədə ehtimal olunan bir səviyyədə təsdiq edə bilmişik. Hətta mən bu tezisi isbat edə bilsəm də, yenə də məsələni yalnız keyfiyyət baxımından həll edə bildiyimiz təəssüratı yaranır. Dinin yaranıb ortaya çıxması ilə bağlı bütün suallarda – o sıradan yəhudi dininin də – bizim mühakimələrimizdən kənarda qalan nə isə böyük bir məqamın olduğu da duyulmaqdadır. Görünür, bu prosesdə hansısa uyğun analogiyalar göstərilməsi çox çətin, ya da heç mümkün olmayan hansısa faktorlar da iştirak etməlidir, həmçinin bu faktorlar onlardan yaranan dini inancların özü qədər unikal və güclü olmalıdır.

Baxaq görək, bu faktorlara əks tərəfdən yanaşmaq mümkündürmü? İbtidai insanın dünyanı yaradan, onun icmasına böyüklük edən və onu himayəsinə götürən tanrıya ehtiyacı olduğu bizim üçün anlaşılandır. Belə bir tanrıya olunan səcdə hələ də ənənələrin xatırlatmaqda olduğu ölmüş ulu babalara olan səcdəni tədricən kölgədə qoymağa başlayır. İnsan uşaqlıq çağından çox sonralar yaşlı vaxtlarında da öz mahiyyətində körpəliyini saxlamaqda davam edir və bütünlüklə yetkinlik yaşına çatanda belə, kiminsə himayəsinə ehtiyac duyur; bu vəziyyətində o, tanrının himayəsinə sığınır. Bütün bunlar şübhə doğurmur, ancaq bununla yanaşı olaraq bu tanrının nə üçün tək olmalı olduğu və nə üçün çoxallahlılıqdan təkallahlılığa keçidin

bunu qəbul edən insanlar üçün belə böyük əhəmiyyət daşıdığını anlamaq çətindir. Doğrudur, bizim yuxarıda qeyd etdiyimiz kimi, inanclı insan tanrısının böyüklüyündən özünə pay düşdüyünü düşünür və bu tanrı nə qədər qüdrətlidirsə, özünün də daha güclü himayə olunduğuna inanır. Ancaq tanrı tək olmadan da çox qüdrətli ola bilər: keçmişdə çoxtanrılı dinlərə ibadət edən əksər xalqlar bu çoxsaylı tanrıların birinə, tanrıların hamısına başçılıq edən tək bir tanrıya çox böyük ehtiramla yanaşmış və ondan başqa da tanrıların olması onların gözündə bu tanrının böyüklüyünə xələl gətirməmişdir. Bundan başqa da, əgər tanrı təkdirsə, yəni o bütün ölkələri və onların xalqlarını himayə və idarə edirsə, onda ayrıca götürülmüş bir insan və ya xalq qaçılmaz olaraq tanrı ilə özü arasında olan məhrəmlik duyğusunu itirir, axı bu halda o özünü himayə edən tanrının qüdrətini başqaları ilə, özü də yadellilərlə bölüşməli olur.(Ancaq burada da belə bir çıxış yolu var: ayrıca götürülmüş insan və ya xalq tanrının bütün başqalarından ona daha çox qayğı göstərdiyinə özünü inandıra bilər.) Tək tanrı konsepsiyasının qəbul edilməsinin ruhani tərəqqi yolunda irəliyə doğru çox böyük bir addım olduğu da danılmazdır; ancaq bu konsepsiyanın işə düşdüyü ilkin dövrdə insanların ağlını hansı üsulla özünə itaət etməyə inandırmasının səbəbi yenə də bizim üçün qaranlıq qalır.

Tanrıya həqiqətən inanan insan bu sualın cavabını bilir. Belə bir insan bu suala cavabında, şübhəsiz, bunları deyəcəkdir: “Tanrının tək olması insanlar arasında bu qədər misilsiz bir təəssürat yaradırsa, deməli bu ideyada “Əbədi Həqiqətin” toxumu vardır və elə buna görə də ona inanmamaq mümkün deyil; bir zamanlar gizlin qalan bu Həqiqət sonunda insanları öz işığına qərq etdi və onun parlaq işığında insanların ağlına indiyədək hakimlik edən nə vardısa, hamısı öz əhəmiyyətini itirib sönükləşdi”. Burada, doğrudan da öz böyüklüyü və nəticələri ilə ölçüyəgəlməz bir səbəbin olduğu ilə razılaşmamaq olmur.

Mən böyük bir sevinclə içində bu izahı qəbul etmək istərdim. Ancaq bir səbəb məni bundan çəkindirir. Burada intellekt üçün Həqiqətin qarşısıalınmaz bir cazibə yaratdığı ilə bağlı deyilənlər optimist və idealist mülahizələrə əsaslanır. Özlüyündə isə insan intellekti heç də Həqiqəti duymaq qabiliyyəti ilə seçilmir və ona böyük coşqunluqla can atmır. Əksinə, bizim indiyədək olan bütün təcrübələrimizin göstərdiyi kimi, intellekt çox asanlıqla və şübhələnmədən həqiqətə aparan yoldan çıxa bilir və onun üçün arzuları ilə illüziyalarına xoş gələn (“həqiqi” olub-olmamağından asılı olmayaraq) nə varsa, onlar intellekt üçün daha çox cazibəlidir. Bax elə buna görə də, burada deyilən sözün necəsə başqa cür ifadə olunmasına gərək duyulur. Mən inanclı insanın təkallahlılığın cazibəsi barədə dedikləri ilə razılaşa bilərəm, ancaq buradaca aşağıdakı düzəlişi diqqətə çatdırmalıyam: qədim dövr yəhudi xalqını təktanrılı dində olan hansısa metafizik “Əbədi” olanlar özünə cəlb etməmişdi. Həqiqət öz ölçüsündə olanda tarixi həqiqət olur. Başqa sözlə desəm, mən təktanrılı dinin ehkamlarına inanmıram, daha doğrusu, tək və yenilməz qüdrəti olan tanrının varlığına inanmıram, ancaq burada tarixi keçmişlə bağlı olan həqiqətin mövcudluğu faktına, yəhudilər təktanrılı dinlə görüşəndə onların xatırladığı faktın varlığına inanıram, bu fakta görə, ibtidai icma quruluşunun hökm sürdüyü vaxtlarda, doğrudan da, icmaya başçılıq edən tək bir Ata vardı, o, Başçı, Hakim sayılırdı və ilahilik səviyyəsinə qaldırılmışdı. Ona görə də, bu tarixi gerçəkliyin insanların kollektiv

yaddaşına qayıtması üçün gərək bu tarixi gerçəklik lap maskalanmış görkəmdə olsa belə, yenidən üzə çıxa idi və özünün ilkin formasını yenidən xatırlada bilmək gücündə ola idi, daha doğrusu, onun Musanın “dini həqiqəti” görkəmində ortaya çıxması yetərli idi.

Biz artıq Musanın dininin inkarından və bir hissəsinin unudulduğundan, sonradan isə xalqın şüuruna ənənələr şəklində yenidən qayıtdığından danışmışdıq. İndi isə Misirdən çıxan zaman yəhudilərin Musanın dinini qəbul etmələrini danışdığımız hadisələr zəncirinə bağlaya bilərik. Musa yəhudilərə tək tanrı konsepsiyasını təklif edəndə bu, onlar üçün mütləq yeni bir ideya olmadı, onların yaddaşında ibtidai insanların icma dövründə yaşanan xatirələr oyandığından ideya onlara doğma görünmüşdü. İnsanlığın tarix öncəsi keçmişində qalmış bu təcrübəsi ilə bağlı xatirələri onun şüurundan çoxdan silinsə də, bu hadisə özlüyündə çox vacib olduğundan, ibtidai icma quruluşunda çox böyük bir çevriliş yarada bildiyindən o, insan ruhunda əbədi bir iz buraxmadan keçib gedə bilməzdi və insanlığın bu “kollektiv uşaqlıq dövrünün xatirələri” şifahi danışıq və ənənələrdə də öz təsirini az-çox saxlaya bilmişdi.

Yuxarıda qeyd etdiyim kimi, ömrünün ilkin çağlarında yaşadığı təəssüratlar sonradan insanlarda davamlı vərdişlər şəklində yenidən üzə çıxmağa başlayır, bu təəssüratlar artıq şüurlu şəkildə xatırlanmır. İnsanlığın öz yaranışının ilkin çağlarında qazandığı belə təəssüratların da bütünlüklə bu şəkildə qalıb sonradan özünü büruzə verməsi düşüncəsi də bu baxımdan mənə inandırıcı görünür. Elə dediyimiz bu ilkin təəssüratlardan birinin özünü büruzə verməsi də yəhudiləri tək tanrı ideyasını qəbul etməyə yönəldə bilmişdi. Sözsüz, bu konsepsiyanı bir xatırlatma hesab etmək olardı, ancaq burada xeyli təhrif olunmuş şəkildə ortaya çıxan ilkin təəssüratdan söz gedir, buna baxmayaraq, nə olursa olsun, bu yenə də bir xatırlatmadır. İstənilən “sıxışdırılmış təəssüratın qayıtması” kimi, o da güclü aşılayıcı təsirlə şüura müdaxilə edir və onun təsirindən qaçmaq mümkün olmur. Bu xatırlatmada yer alan tarixi həqiqət burada qeyri-şüuri səviyyəyə çatanadək korlandığından, şəklini dəyişdiyindən və maskalandığından onu illüziya da adlandırmaq olar; ancaq bu xatırlatmanın təsirindən yaranan konsepsiya uzaq keçmişin gerçəklərini özündə əks etdirdiyindən onu həqiqət adlandırmaq olar. Axı fərdi psixikada yaranan illüziyada da həqiqət toxumları olur: nevroz adamlar da elə qapıldıqları illüziyadakı bu həqiqət işartılarına aldanıb illüziyaya tənqidi yanaşa bilmək qabiliyyətlərini itirir və onun özünü də bütünlüklə həqiqət kimi qəbul etməyə başlayırlar.

Üstündən min illər keçəndən sonra Musanın öz dinini elan etməsinə, bunun üstündən yüzilliklər keçəndən sonra isə yəhudilərin bu konsepsiyanı qəbul etməsinə səbəb olan həmən o ilkin çıxış nöqtəsindəki situasiyanı mən 1912-ci ildə yazdığım “Totem və tabu” kitabında yenidən qurmağa çalışmışam. Mən orada Darvin, Atkinson və xüsusi ilə də Robertson Smitin mühakimələrindən yararlanmışam, bunun üçün onların kəşflərini psixoanalizin fərziyyələri ilə birləşdirmişəm. Darvindən onun aşağıdakı mülahizəsini götürmüşəm: ibtidai insanlar əvvəlcə kiçik icmalar şəklində yaşamışlar, hər bir belə icma böyük erkəyin başçılığı ilə idarə olunmuş və bu erkək də başçılıq etdiyi icmanı kobud və amansız gücə arxalanaraq idarə etmişdir, icma başçısı buradakı bütün dişiləri özünə götürmüş, başqalarının onlarla cinsi əlaqəyə girməsinə

yol verməmiş, uşaqları da daxil olmaqla bütün erkəkləri özünə tabe etmiş, itaət eləməyənləri isə öldürmüşdür. Atkinson mənə aşağıdakı mülahizəsi ilə kömək etdi: atanın başçı olduğu ibtidai icma quruluşundakı bu patriarxal sistem oğulların birləşərək ataya qarşı qiyam etmələri ilə dağılmışdı, oğullar atalarını devirərək öldürmüş, sonra qələbə şərəfinə düzəltdikləri bayram qonaqlığında onun ətini yemişdilər. Sonda isə, Robertson Smitin totemizmlə bağlı nəzəriyyəsinə əsaslanaraq, mən Atanın devrilməsindən sonra ibtidai icmanın hansı quruluş formasına keçməsi ilə bağlı mülahizələrimi irəli sürüb burada totemə itaət edən qardaşların birliyinin icmaya başçılıq etdiyini demişdim. Sülh içində yaşaya bilmələri üçün qardaşlar ələ keçən və atalarını elə onlara görə öldürdükləri qadınlardan imtina etməli idilər, yoxsa onlar arasında güclü bir didişmə qızışa bilərdi, buna görə də onlar “kənardan evlənməyə” əsaslanan ekzoqamiya qaydasını qoydular. Atanın hakimiyyəti devriləndən sonra ailələri qadınlar idarə etməyə başladı və matriarxat sistemi yarandı. Ancaq Ata və onun ilahi iradəsi bütünlüklə itib getmədi: Atanı hansısa bir canlı ilə əvəz etdilər və bu totem-himayəçini icmanın başçısı saymağa başladılar. Bu heyvan onlar üçün Atanı və ya ümumiyyətlə, Ulu Babanı simvollaşdırırdı, icmanın qoruyucu ruhu sayılırdı və ona toxunmaq və öldürmək qadağan idi. Ancaq ildə bir dəfə qardaşların icmanı idarə edən birliyi toplaşır, birgə bayram süfrəsi açır və bu zaman “müqəddəs” totemi təmsil edən heyvanı öldürür, ətini parçalayıb birlikdə yeyirdilər. Belə bir bayram qonaqlığından heç kim imtina edə bilməzdi, çünki o məhz keçmişdə baş vermiş atanı öldürməyin simvolik təkrarı idi və yeni ictimai qanunların, əxlaqi qaydaların və totemizmin qaynağı da bu hadisə ilə bağlı idi.

h) Tarixi inkişaf

Mənim burada “Totem və tabu” əsərinin bütün məzmununu təkrar etməyə imkanım yoxdur, ancaq bizdən çox uzaq olan o dövrdə baş verdiyinə inandığım və sonradan bəlli tarixi mərhələdə təkallahlılığın təntənəsinə gətirib çıxarmış hadisənin üzərində bir az da artıq dayanmağı zəruri sayıram. Qardaşların birliyi icmanın təkbaşına ağası olan Atanın üzərində qələbə çaldıqdan sonra ibtidai cəmiyyətdə matriarxat, ekzoqamiya, habelə totemizm oturuşdu və bu hadisələrin toplusunu “sıxışdırılmış materialın qayıdışı”, özü də kollektiv yaddaşa qayıdışı kimi dəyərləndirmək olar. Buradakı “sıxışdırılmış” sözünü mən onun ciddi texniki anlamında işlətmirəm. Mən bu deyimlə insanlığın həyatında keçmişdə baş vermiş və sonradan yaddaşlardan silinmiş, habelə sonrakı nəsillərin unutduğu bir hadisəni anıram və elə fərdlərin psixoloji həyatındakı “sıxışdırılmış material” da çox vaxt bu şəkildə olur. Biz bu keçmişin onu yaddaşsızlıq qaranlığının ört-basdır edənədək kollektiv yaddaşda necə qorunub saxlandığını bilmirik. Fərdi psixologiyaya aid olan anlayışları kütləvi psixologiyaya tətbiq etmək çox da asan başa gələn bir iş deyil və mənə elə gəlir, biz burada “kollektiv qeyri-şüurilik” konsepsiyasını qəbul etsək, bu tətbiq asanlaşa bilər, doğrudan da qeyri-şüuri dediyimiz materialın məzmunu bu və ya başqa şəkildə kollektivə məxsus olur, daha doğrusu, bütün insanlığın mülkiyyətinə çevrilir. Ona görə də bizim burada analogiyanın köməyindən yararlanmağımız yerinə düşərdi. Burada araşdırdığımız, xalqların həyatında baş verən psixoloji proseslər, doğrudan da, fərdi psixologiyadan bizə bəlli olan patoloji hallarla, sonadək olmasa da, çox uzlaşır. Ona görə də belə bir düşüncənin doğruluğuna inanmaq mümkündür:

danışdığımız həmin çox qədim dövrün intellektual materiallarının qalıqları müəyyən bir kollektiv psixi mirasa çevrilmişdir və bu miras ona bənzər hadisələrin yenidən təkrarlanması zamanı birbaşa xatırlatma təsiri olmadan belə, istənilən sonrakı nəsillərin yaddaşında oyana bilər. Belə intellektual qalıq hər bir uşaqda anadangəlmə olan və xüsusi səy göstərmədən özünü büruzə verən danışıq qabiliyyəti ilə uzlaşır, bu qabiliyyət anadangəlmə olduğu kimi, dillərin fərqli olmasına baxmayaraq, bütün xalqlarda eynidir. Sıxışdırılmış materialın şüura qayıdışı tədricən baş verir və çox böyük ehtimalla, özbaşına baş vermir, bunun üçün müəyyən stimulların olması mütləqdir. Bizim baxdığımız ibtidai icmada da zaman keçdikcə patriarxat sistem bərpa olunmağa başlayır: ata yenidən nəslin başçısına çevrilir, ancaq o indi ilkin çağlarda icmaya böyüklük edən ata qədər qüdrətli deyil. Eləcə də müəyyən ardıcıl və arasıkəsilməz inkişaf yolu keçdikdən sonra totemin də həqiqi sayılan başqa tanrı vasitəsi ilə tədrici sıxışdırılması başlanır. Artıq insan görkəmi ilə üzə çıxan bu yeni tanrı ilk çağlarda hələ insan bədənli, heyvan başlı olur; sonradan isə bütünlüklə insan görkəmi alır, ancaq zaman-zaman cildini dəyişib totemə də çevrilə bilir (buna misal olaraq, Zevsin zaman-zaman öküzə çevrilməsini göstərmək olar). Daha sonralar isə totemləşmiş heyvan, sadəcə, daima yeni tanrının yanında olan bir heyvan olaraq tanıdılır və buna görə də, “müqəddəs” elan olunur; başqa hallarda isə tanrının totem sayılan heyvanla savaşıb onun üzərində qələbə çalması ilə bağlı miflərlə də rastlaşırıq və miflərin yaranmasının bu ilkin dövründə qəhrəmanların ilahiləşdirilməsinə başlanır. Görünür, ən Yüksək Varlıq sayılan ilahilik ideyası çox erkən yaranır, ancaq bu dövrdə o hələ çox dumanlı və bəşəriyyətin tələbatları ilə uzlaşmayan bir şəkildə olur. Oymaqlar və xalqlar birləşib daha böyük birliklər yaratdıqca onların tanrıları da bu yeni tanrılar ailəsinə daxil olub özünə uyğun gələn mərtəbədə dayanır. Adətən, bu tanrılardan birini başqa tanrıların hamısından qüdrətli və onlara hökm edən bir vəziyyətdə göstərirlər. Təbii olaraq, bunun ardınca atılan addım tək bir tanrıya itaət etmək olur, bu, əvvəlcə qətiyyətsizliklə, sınayıb yoxlamaqla baş versə də, sonradan insanlarda başqa tanrılara aid olan bütün səlahiyyətləri yalnız bir tanrıya verib qalan tanrılardan üz çevirmək qətiyyəti yaranır. Ancaq məsələnin belə həlli tək tanrının obrazında ilkin icmaya ağalıq etmiş Atanın böyüklüyünü bərpa edir; ona görə də insanlar bu tanrıya münasibətdə ilkin icmanın ağası olmuş Ataya bəslədikləri duyğularla yanaşırlar, onun qarşısında qorxu və həyəcanla dayanırlar. Bu səbəbdən də adamlar çoxdan itirdikləri və uzun müddət axtardıqları birisi ilə görüşərkən sarsıdıcı bir çaşqınlığa düşürlər, bu vəziyyət Sinay dağında Musaya tanrı Qanunlarının verildiyi ilə bağlı Bibliya mətnlərindən də aydın duyulmaqdadır. Həyəcan dolu vurğunluq, dua oxumaqla yalvarış və yenidən vəd olunan himayədarlığa görə coşqun təşəkkür – Musanın dini əvvəlcə yalnız bunları bilir və bu məlumatların köməyinə arxalanaraq ilahi Ata ilə pozitiv münasibətlər yaratmağa can atır. Yəhudilərin onlara tanıdılan bu tanrının yenilməz gücünə olan inamı, onun iradəsinə itaəti ilk çağlarda mütləq səviyyədə idi, həm də bu köməksiz və əzilən oğulun ilkin ibtidai icmadakı başçı-Ataya olan münasibətinə çox uyğun idi; xalqın yenidən infantil (körpəlik) səviyyəli icmaya çevrildiyini təsəvvür etsək, onda bu emosiyaların necə yarandığını da anlamaq mümkündür. İnfantil duyğular (körpəlikdə duyulanlar) yaşlı insanların duyğularından qat-qat güclü olur və əlçatmaz dərinliklərdə gizlənirlər; yalnız dini

ehtizaz buna oxşar intensivlikdə olan duyğular törədə bilər. Buna görə də tək tanrıya yönələn yalvarış dolu dualar, sadəcə, uzaq keçmişdəki Böyük Ata obrazının canlanmasına olan təbii reaksiya idi.

Bu məqamdan başlayaraq bu ata kultu ilə bağlı olan dinin istiqaməti həmişəlik müəyyən olunur, lakin onun inkişafı da artıq burada sona çatmış olur. Axı ata ilə oğlu arasındakı münasibətlər ikili mahiyyətlidir; ona görə də zaman keçdikcə uzaq ibtidai icma quruluşunda oğulların birləşib atalarını öldürdüklərinə oxşar olaraq yəhudilərdə də, öz tanrılarına qarşı düşmənçilik yaranmalı idi. Musanın dinində atanı öldürmək həddinə çata biləcək belə bir nifrətə bəhanə yaradacaq birbaşa motivlər yoxdur. Burada dərinliklərdə gizlənmiş nifrətin üzdə olan əlaməti kimi, günahkarlıq duyğusunu göstərə bilərik, bu duyğuda tanrıya olan gizlin nifrət üzə çıxır, ancaq bu "vicdan əzabı" deyilən bir forma alır və bunun da səbəbi kimi, guya tanrının qanunlarına qarşı arasıkəsilməz günah işlətməkdən qaça bilməmək göstərilir. Peyğəmbərlər fürsəti qaçırmadan bu duyğudan yapışdılar, ondan yararlanaraq ara vermədən yəhudilərə onların "günahkar" olduqlarını aşılamağa başladılar və tədricən özünü daima günahkar saymaq duyğusundan "ilkin doğulan günah" ehkamı yaranıb dini sistemin tərkib hissəsinə çevrildi. Bundan başqa da, yəhudilərin "günahkarlıq" duyğusunu gücləndirən xarici faktorun olduğunu da qeyd etmək lazımdır və bu faktor öz mənşəyini gizli saxlayaraq maskalanmış şəkildə təsirini yayırdı. Xalq çox ağır bir dövrdə yaşayırdı; Musanın onlara tanıtdığı qüdrətli və böyük tanrı onları himayə etməyə və onlara mərhəmət göstərməyə tələsmirdi; belə bir vəziyyətdə yəhudilərin dini inancının onlara aşıladığı ən dəyərli illüziyaya – yəhudilərin tanrının seçdiyi xalq olması üstünlüyünə inanmaq getdikcə daha da çətinləşirdi. Bu inamı saxlaya bilmək üçün yəhudi tanrının bu amansızlığını özü üçün aydınlaşdıra bilməli idi; burada ən yaxşı izah məhz elə "şəxsi günah" və ardıcıl olaraq "günaha batmaq" ola bilərdi: beləliklə də, onlar tanrının qanunlarına əməl etmədikləri üçün bu fəlakətləri özləri-özlərinin başına gətirmiş olurdular. Özünü bu günah duyğusunun köməyi ilə ovutmağa olan ehtiyac – bu ehtiyac daxildən gəldiyi üçün doyumsuz idi – getdikcə yəhudiləri daha çox və amansız bir tələbkarlıq yaradan, habelə, xırda təfərrüatlarla dolu günahları ilə bağlı yeni dini təfsilatlar yaratmağa təhrik edirdi. Bu qayda ilə onlar sezilmədən əxlaqi asketizmə keçdilər və bununla da özlərini daima artan sıxışdırılmış instinktlərlə məhdudlaşdırdılar. Bütün bu prosesin nəticəsi olaraq, yəhudilər antik xalqların heç birinin ucala bilmədiyi əxlaqi yüksəkliyə ucala bildilər (hər halda burada dini ehkamların tələbləri üzrə olan əxlaqi ucalıqdan söz gedir). Yəhudilərin çoxu elə bu gün də bu etik dəyərlərə çatmaq üçün yorulmaq bilmədən çalışmağı özlərinin mənsub olduqları dinin təkallahlılıqdan sonra ikinci başlıca xüsusiyyəti olduğunu düşünürlər. Bizim təhlilimiz bu xüsusiyyətin birinci ilə, yəni tək bir tanrı konsepsiyası ilə necə bağlı olduğunu göstərə bilmək məqsədi güdürdü. Yəhudi xalqının milli xarakterinə öz möhürünü vurmuş bütün bu yəhudi etikası ibtidai icma dövründəki Atanın təmsilçisi olan tək tanrıya qarşı yaranmış düşmənçiliyi boğmaqdan törəyən günahkarlıq duyğusundan əmələ gəlmişdir.

Təktanrılı dinin sonrakı inkişafı artıq yəhudi xalqının tarixi çərçivəsindən kənara çıxır. Çox uzaq keçmişdə ibtidai icmanın başçısı olmuş Atanın başına gəlmiş möhtəşəm dramın tək tanrı obrazına qarışıb kollektiv yaddaşa qayıdan başqa

elementləri də vardı. Bu elementlər musaçılıq dininə qarışa bilməzdi, ancaq onlar şüura daxil ola bildilər və bunun nəticəsində, o dövrlərdə Aralıq dənizi hövzəsində yaşayan və öldürülmüş "Atanın qayıdışına" şahid olan bütün xalqların şüurunda hansısa günahla bağlı həyəcanlı və əzablı duyğular yaratmağa başladılar, bu isə yaxınlaşmaqda olan müəyyən fəlakətin hiss olunmasına bənzəyirdi və belə bir əzabverici duyğuların yaranmasının gerçək səbəbini onlardan heç biri anlaya bilmirdi. Çağdaş tarix elmində antik mədəniyyətin sonradan "qocalmasından" danışılır. Mən də bununla razılaşmağa hazıram, həm də bu qocalmanın da müəyyən ümidsizlik və ondan yaxa qurtarmaqla bağlı duyğular yaratdığına səbəb olduğunu da demək olar. Bu qurtuluş yolunu isə yenə də yəhudilər tapdılar. Qurtuluş ideyası üçün işlənən xammalın müxtəlif (o cümlədən yunan) qaynaqlarından götürüldüyünü də ehtimal etmək mümkündür, ancaq bütün bunlara baxmayaraq, burada da son sözü sırf yəhudi ağlı demişdi – bu, Tarsisli Saul adında Roma vətəndaşı olan və dini ədəbiyyatda Pavel adı ilə tanınan bir yəhudi olmuşdu – və hadisələrin mahiyyətini belə anlatmışdı: "Biz nə vaxtsa Atanı (yəni tanrını) öldürdüyümüz üçün bədbəxt olmuşuq". İndi qurtuluş yolunun nə üçün Pavelə illüziya formasında gəlib çatdığı da bəlli olur və deyilənə görə, ona belə bir vəhy göndərilmişdi: "Biz üzərimizdə olan bütün günahları təmizləyə bilərik, lakin bunun üçün gərək bizlərdən biri bu günahlardan təmizlənə bilməyimiz üçün özünü qurban versin". Bu deyilişdə günahın mənşəyinin Atanın öldürülməsi ilə bağlı olduğu xatırlanmır (bunun yerinə hansısa dumanlı və anlaşılmaz "ilkin doğulan günahdan" söz açılır), ancaq məlum olduğu kimi, öz həyatını qurban verməklə bağışlana bilən günah yalnız insanı öldürməklə bağlı ola bilər. Dini illüziya ilə (ilkin günahın bağışladılması) tarixi gerçəklik arasındakı (Atanı öldürməyə görə olan günahın bağışladılması) əlaqə Pavelə özünün ikinci tezisini qurmaqda kömək etdi və onun sözlərinə görə: "günahların bağışlanması mərasimində verilən qurban "tanrı oğlu" oldu". Kollektiv yaddaşa qayıtmış ibtidai icma quruluşu dövrünün keçmişi ilə bağlı olan tarixi gerçəklik yeni dinə qeyri-adi psixoloji inam yaratdı, daha doğrusu, burada artıq "Həqiqətin" özü vardı; bu isə yeni dinə qarşısındakı bütün maneələri dəf etməkdə kömək etdi; yəhudilərin qürrələndikləri: tanrının seçdiyi xalq olmaları ilə bağlı duyğunun əvəzində isə, bu din insanlara ataya bəslənən ikili münasibətin inancın köməyilə aradan qaldırılmasını bağışladı və Atanın qarşısında olan günahlar Oğulun qurban verilməsi ilə yuyulmuş oldu.

"İlk doğulan günah" və onun insanın qurban verilməsi ilə yuyulması Pavelin yaratdığı yeni dini sistemin əsasını təşkil etdi. İbtidai icma quruluşundakı Atanın öldürülməsi üçün ona qarşı çıxmış və qardaşlarının üsyanına başçılıq etmiş real təşəbbüskarın gerçək olduğu, yoxsa onu sonradan qədim nağılçılardan birinin özünü bu qəhrəmanla eyniləşdirərək uydurduğu sualını, görünür, biz burada cavabsız qoymalı olacağıq. Xristian doktrinası iudaizmin sərhədlərindən qırağa çıxandan sonra özünə çoxlu başqa qaynaqlardan bir sıra elementlər də götürməyə başladı, Aralıq dənizi hövzəsində yaşayan xalqların arasında geniş yayılmış bir sıra ayinlərin detallarını özünə daxil edərək sırf təktanrılı dinin bir sıra cəhətlərindən imtina elədi. Elə bil, Qədim Misir torpağın altından qalxıb Ehnatonun varisindən öz qisasını almış oldu. Burada diqqətəlayiq bir cəhət də yeni dinin ata-oğul münasibətlərindəki ən

qədim dövrlərdən özünü göstərən ikiliyi yenidən formalaşdırması oldu. Belə görünür, onun başlıca ideyası oğulun atasına qarşı törətdiyi cinayətlə əlaqədar günahını yumaq üçün özünü qurban verməsi və tanrı-Ata ilə barışmasıdır; ancaq bu münasibətlərin astar üzü, daha doğrusu, ata ilə rəqabətin qarşısıalınmaz aspekti də günah yükünü çiyninə götürüb özünü qurban verən Oğulun obrazında öz əksini tapır. Nəticədə, Oğul da, Atanın yanında dayanan tanrıya çevrilir, bu isə mahiyyətcə elə Oğulun Atasının yerini tutması deməkdir. Beləliklə də, Atanın dini kimi ortaya çıxan xristianlıq tədricən Oğulun dininə çevrilmişdir. Qaynaqlandığı hadisə ilə bağlılığı onu nəticədə, zəruri olaraq, Atanı devirib yerinə Oğlun keçməsinə gətirib çıxarmışdır.

Yəhudi xalqının yalnız bir hissəsi yeni dini və onun irəli sürdüyü yeni doktrinanı qəbul etdi. Onu inkar edənlər isə indiyədək də yəhudi adlanırlar. Belə bir qərar qəbul etməklə onlar özlərini bütün başqa dünyadan əvvəlcə olduğundan bir az da artıq ayırmış oldular. Onlar bu yeni dini birlikdən(buraya yəhudilərdən başqa misirli, yunan, suriyalı, romalı və daha sonralar tevtonlar daxil idi) ittihamlar eşitməyə başladılar, bu ittihamçılar yəhudiləri yeni yaranan dinin tanrısını öldürməkdə təqsirləndirirdilər. Bu ittihamı öz əslinə qaytarıb onu qeyri-şüurilikdən şüura keçərkən uğradığı təhriflərdən təmizləsək, belə səslənərdi: “Onlar (yəhudilər) nə vaxtsa Atanın öldürülməsində iştirak etdiklərini etiraf etmək istəmirlər, biz isə Atanı öldürdüyümüzü və buna görə günahkar olduğumuzu etiraf etmişik və Oğulu qurban verməklə bu günahdan təmizlənmişik”. Belə nöqteyi-nəzərdən baxanda bu ittihamın arxasında hansı həqiqətin dayandığını daha asanlıqla görmək olur. Deformasiya olunmuş, maskalanmış şəkildə olsa da, Atanın öldürülməsinin etiraf olunması ilə başlayan bu tərəqqidə yəhudilər nə üçün iştirak etmək istəmədilər və kənara çəkildilər? – bu sualın cavabı xüsusi bir araşdırmaya layiqdir. Ancaq bunu etmədikləri üçün onlar bütün bəşəriyyət tarixinin başlanğıcında törətdiyi cinayətə görə yaranan günahı “öz üzərinə” götürməli və bunun əvəzini çox baha ödəməli oldular.

Ümid edirəm, bizim apardığımız təhlil yəhudi xalqının onu başqa xalqlardan fərqləndirən xüsusiyyətlərini necə qazanmasına müəyyən qədər aydınlıq gətirə bildi. Bu xalqın uzaq keçmişdən başlayaraq bu günə kimi necə vahid bir xalq olaraq qala bilməsi sualı isə daha çətin həll olunası bir problemdir. Ancaq buna bənzər bütün tarixi müəmmalara aydınlıq gətiriləcəyini gözləmək və ya tələb etmək də ədalətsizlik olardı. Beləliklə də, mənim qaldırdığım problemlərlə bağlı deyə biləcəklərim bu azacıq və məhdud məlumatlardır və onları dəyərləndirərkən bu əsərin girişində xatırlanan ciddi məhdudiyyətlər də hökmən nəzərə alınmalıdır.